İqbal Ağa-zadə

AZƏRBAYCAN FOLKLORU VƏ MİLLİ MENTALİTET

II cild

Bakı 2018

Hər bir insanın psixologiyasında mövcud olan mentalitet həm onun özünə, həm də onun mənsub olduğu etnosun milli düşüncə sisteminə aiddir...

Redaktorlar:

Tamilla Famil qızı Qulami

İlahə Artur qızı Sadıqova

İqbal Fehruz oğlu Ağazadə. Mənim sözüm... II cild: Azərbaycan folkloru və milli mentalitet. Bakı, "NBS Printing Company" MMC, 2018, 192 s

İqbal Ağazadənin elmi, siyasi və ictimai fəaliyyətindən bəhs olunan silsilə nəşrlərin II cildində müəllifin elmi fəaliyyətini əks etdirən, 10.01.09 – Folklorşünaslıq ixtisasında filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya və elmi məqalələr öz əksini tapıb. Dissertasiyanın elmi rəhbəri filologiya üzrə elmlər doktoru, professor Hüseyn İsmayılov olub. Dissertasiya 2011-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda yerinə yetirilib.

Kitab folklorşünaslıq, ədəbiyyatşünaslıq, mədəniyyətşünaslıq, sənətşünaslıq və digər ixtisaslar üzrə təhsil alan tələbələr, doktorant və gənc tədqiqatçıların, eləcə də dərs vəsaiti kimi istifadə olunması üçün nəzərdə tutulub.

İ 51000000618 (269)

127 – 2018

© İqbal Ağa-zadə

MÜNDƏRİCAT

Dissertasiya.....

Dissertasiyanın girişi.....

I FƏSİL MİLLİ MENTALİTET VƏ MİFOLOJİ – ARXAİK DÜŞÜNCƏ

1.1. Milli mentalitet və folklor münasibətlərinin nəzəri əsasları

1.2. Azərbaycan milli mentalitetinin mifoloji-epik qaynaqları

II FƏSİL MİLLİ MENTALİTET DƏYƏRLƏRİ VƏ FOLKLOR

2.1. Folklorda vətən, yurd sevgisi ilə bağlı mentalitet dəyərləri

2.2. Folklorda mənəvi-əxlaqi mentalitet dəyərləri

2.3. Folklorda sosial, siyasi, iqtisadi mentalitet dəyərləri

Nəticə.....

İstifadə edilmiş ədəbiyyat.....

Milli mentalitet və folklor münasibətlərinin nəzəri məsələləri.....

Azərbaycan milli mentalitet sistemi və arxaik-mifoloji düşüncə.....

Azərbaycan milli mentalitetinin epik-mifoloji qaynaqları.....

Milli mentalitet dəyərləri və folklor.....

Azərbaycan folklorunda vətən, yurd sevgisi ilə bağlı mentalitet dəyərləri.....

Azərbaycan folklorunda mənəvi-əxlaqi mentalitet dəyərləri……...

Azərbaycan folklorunda sosial, siyasi, iqtisadi mentalitet dəyərləri….

Milli mentalitet və folklor……

GİRİŞ

Mövzunun aktuallığı: Azərbaycan folkorunun milli mentalitet dəyərləri baxımınndan tədqiqi çox böyük aktuallığa malik olan elmi problemdir. Problemin araşdırılma zərurəti, əsasən, iki amillə müəyyənləşir:

Birincisi, Azərbaycan folklorşünaslıq elminin səviyyəsinin durmadan artması şəraitində daha dərin nəzəri məsələlərin öyrənilmə aktuallığının yaranması;

İkicisi, humanitar elmlər sahəsində, o cümlədən folklorşünaslıqda milli-mənəvi dəyərlərin tədqiqinin zəruri aktuallıq kəsb etməsi.

Yeni əsrin gəlişi Azərbaycanın həyatında təkcə zaman dəyişməsi yox, epoxal inkişafla əlamətdar oldu. Azərbaycan XX əsrin sonunda müstəqillik əldə etdi və XXI əsrin əvvəli xalqımızın həyatında bütün sahələrdə yeni dövrün başlanğıcı oldu. Ölkəmizin suverenliyi milli-ictimai şüur formalarının müstəqilliyini şərtləndirdiyi kimi, milli elm sahələrinin də sərbəst inkişafı üçün hərtərəfli şərait yaratdı. Xüsusilə humanitar elm sahələri sovet-sosialist keçmişinin ideoloji buxov və çərçivələrindən azad oldu.

Müstəqilliyimizin əldə edilməsi Azərbaycan milli-ictimai düşüncəsində folkloru və onu öyrənən folklorşünaslıq elmini aktuallaşdırdı. Azərbaycan folklorşünaslığı çox sürətlə inkişaf edib, folklorun nəzəri və praktiki sahələrində böyük uğurlar əldə etdi. Folklorşünaslıq elmində sovet dönəmində yasaq olunmuş bir çox mövzular - folklorun sakral-dini dəyərlərlə əlaqəsi, milli-etnik yaddaş funksiyası, milli-mənəvi dəyərlərin folklorda inikiası, milli düşüncə və folklor və s. kimi məsələlər aktuallıq kəsb etdi. Bu mövzuların araşdırılma zərurəti bir tərəfdən folklorşünaslıq elminin inkişafı ilə müəyyənləşirsə, digər tərəfdən milli-mənəvi dirçəliş baxımından aktuallıq kəsb edir. Azərbaycan folklorunda milli mentalitet dəyərlərinin öyrənilməsi də belə zərurət və aktualllıq kəsb edən mövzular sırasına daxildir.

Azərbaycan folklorunda milli mentalitet dəyərlərinin tədqiqinin elmi olduğu qədər milli-mənəvi zərurəti də vardır. Ölkəmizdə çox sürətlə gedən

dövlət quruculuğu prosesləri dövlətçiliyin milli-mənəvi əsaslarının hazırlanmasını tələb edir. Bu da milli dünyagörüşün tarixi formalarından olan folklorun öyrənilməsini aktuallaşdırır. Folklor milli-mənəvi dəyərlərin qorunduğu yaddaşdır. Hər bir xalqın minillər, yüzillər ərzində əldə etdiyi siyasi, ictimai, iqtisadi, mədəni, mənəvi-əxlaqi təcrübəsi folklorda bədii süjet və obrazlara çevrilərək qorunur. Bu da folkloru zamanın sınağından çıxmış yaddaş xəzinəsinə çevirir. Bu cəhətdən Azərbaycan milli mentalitet dəyərlərinin öyrənilməsindən ötrü folklor əvəzolunmaz qaynaqdır.

Milli mentalitetimizin tədqiqi sürətlə qloballaşan dünyamızda, xüsusilə şərq xalqlarının tarixi və mədəniyyətini öyrənmək üçün aktual məsələyə çevrilmişdir. Qloballaşmanın iqtisadi yükünün, əsasən qərb dövlətlərinin əlində olması bu prosesin mənəvi-əxlaqi əsaslarının da yabançı dəyərlər əsasında qurulmasını təmin etməyə münbit şərait yaradır. Qloballaşma iqtsadi və siyasi baxımdan qaçılmaz zərurət olsa da, xüsusilə şərq mədəniyyətinə, o cümlədən də Azərbaycan mədəniyyətinə öz mənfi təsirlərini göstərə bilər. Bu şəraitdə yeganə çıxış yolu milli-ictimai şüuru möhkəmləndirmək, milli-mənəvi dəyərlərin çağdaş həyatımızdakı yeri və rolunu gücləndirməkdir. Yalnız bu halda Azərbaycan müasir dünyaya milli-mənəvi baxımdan heç bir itkiyə yol vermədən qoşula və özünün dünyadakı yerini möhkəmlədə bilər. Bu isə Azərbaycanın folklorunda milli mentalitetin öyrənilməsini aktuallığla çevirir. Çünki mentalitet dəyərlərinin öz ilkin saflığında qorunub qaldığı əsas mənbə folklordur.

Dissertasiyanın obyekti və predmeti. Tədqiqatın obyektini xalqımızın son dərəcə zəngin folklor dünyası təşkil edir. Azərbaycan folkloru XIX əsrin sonlarından etibarən milli ziyalılar tərəfindən toplanıb çap olunmağa başlamış, XX əsrdə bu sahədə böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra AMEA Folklor İnstitutu yaradılmış və onun yaranması ilə qısa bir müddət ərzində folklorumuzun bütün növ və janrları ilə bağlı

fundamental nəşrlər həyata keçirilmişdir. Bu foklor örnəkləri milli mentalitet dəyərlərini bütün məzmun və forma zənginliyi ilə özündə əks etdirir.

Araşdırmanın predmetini Azərbaycan folkloru əsasında milli mentalitet dəyərlərinin tədqiqi təşkil edir. Bu mövzu çox böyük və əhatəli olduğu üçün dissertasiyada ilk növbədə problemin tədqiqinin ilkin nəzəri əsasları yaradılmış, ən əsas və ümumi istiqamətlər tədqiq edilmişdir.

Tədqiqatın məqsəd və vəzifələri: Dissertasiyanın qarşısında duran başlıca məqsəd Azərbaycan folkloru əsasında milli mentalitet dəyərlərinin öyrənilməsidir. Bu məqsəd aşağıdakı vəzifələrin yerinə yetirilməsi ilə bağlıdır;

- Milli mentalitet və folklor münasibətlərinin nəzəri-metodoloji təcrübəsinin öyrənilməsi və Azərbaycan folkloruna tədqiqi imkanlarının araşdırılması;
- Azərbaycan milli mentalitetinin arxetipik dəyərlərinin tip və formalarının mifoloji-epik qaynaqlar əsasında tədqiqi;
- Milli folklorumuzda vətən, yurd sevgisi ilə bağlı mentalitet dəyərlərinin öyrənilməsi;
- Milli folklorumuzda mənəvi-əxlaqi mentalitet dəyərlərinin bərpası və onların bədii-poetik xüsusiyyətlərinin araşdırılması;
- Milli folklorumuzda sosial, siyasi, iqtisadi mentalitet dəyərlərini özündə əks etdirən bədii obraz və süjetlərin tədqiqi.

Problemin tədqiqi tarixi: Azərbaycan folklorunda milli mentalitet dəyərlərinin tədqiqi heç bir zaman monoqrafik tədqiqatın predmetini təşkil etməmişdir. Bu cəhətdən mövcud dissertasiya problemin həllinə həsr olunmuş ilk sistemli monoqrafik işdir. Ancaq bununla bərabər, dissertasiyanın predmetini təşkil edən məsələlərin müxtəlif tərəflərinə zaman-zaman ayrı-ayrı tədqiqatçıların araşdırmalarında toxunulmuşdur. Belə ki, N.Cəfərov (52), H.İsmayılov (966), M.Cəfərli (50), A.Şükürov (77), O.Əfəndiyev (55), A.Hacılı (60), A.Xəlil (63), C.Bəydili (46; 47) kimi tədqiqatçıların folklorşünaslığın bu

və ya digər məsələlərinə həsr olunan araşdırmalarında Azərbaycan folklorunun milli mentalitetlə bağlılığı məsələləri haqqında az ya çox dərəcədə bəhs edilmişdir. Bu tədqiqatların nəticələrindən problemin monoqrafik həlli zamanı yetərincə istifadə edilmişdir.

Tədqiqatın elmi yenilikləri. Tədqiqatda əldə olunmuş yeniliklər ilk növbədə mövzunun monoqrafik həlli ilə bağlıdır. Azərbaycan folklorunda milli mentalitet problemi ilk dəfə olaraq monoqrafik planda tədqiq edilmiş və ciddi elmi nəticələr əldə edilmişdir. Dissertasiyanın elmi yenilikləri aşağıdakı nəticələri əhatə edir:

- Dissertasiyada "Azərbaycan folkloru və milli mentalitet" problemi tədqiq edilərək onun nəzəri əsasları hazırlanmışdır;

- Tədqiqatda ilk dəfə olaraq milli mentalitet sistemi və folklorun münasibətləri məzmunla formanın, yaxud düşüncə modeli ilə həmin modelin ənənəvi sənət və yaradıcılıqda bədii təzahür tipinin münasibətləri kimi xarakterizə olunaraq, milli mentalitetin Azərbaycan mədəniyyətindəki yeri və rolu səciyyələndirilmişdir;

- Araşdırma nəticəsində Azərbaycan milli düşüncəsinin sistem xarakteri, milli mentalitetin bu sistemdəki yeri, milli düşüncənin əsası kimi öz varlıq enerjisini etnoslararası münasibətlərdən alması, milli ruh anlayışı ilə sıx bağlılığı, millətin şüurunda əbədi olaraq daşınması, ənənə vasitəsi ilə reallaşması, millət anlayışı ilə əlaqələri, daxil olduğu iri sistemin (meqasistemin) içərisində milli mədəniyyət ünsürü ilə sıx bağlılığı, daha geniş kontekstdə tarixi kateqoriya olub, milli ideologiya ünsürü ilə qırılmaz ilişgiləri üzə çıxarılmışdır;

- Dissertasiyada milli menatlitet sisteminin folklor əsasında öyrənilməsi nəticəsində qədim türk mentalitetinə məxsus arxetip vahidləri üzə çıxarılaraq tədqiq edilmişdir;

- Tədqiqatda aşkar edilmişdir ki, Azərbaycan milli mentalitetinin və folklorunun ana qaynağı mifologiyadır. Milli mentalitetin mifologiyadan

qaynaqlanan başlanğıcını öyrənmədən, mentalitet və folklor münasibətlərini obyektiv və düzgün şəkildə araşdırmaq mümkün deyildir. Mifologiya milli mentalitet və milli folklor vahidlərinin ortaqlaşdığı sahə olmaqdan daha çox, vahid sinkretik (qovuşuq) başlanğıcdır;

- Aydınlaşdırılmışdır ki, folklordakı müstəqillik onda mifologiya ilə müəyyənləşən mentalitet dəyərlərinin sakrallığı ilə bağlıdır. İlkin oğuz türklərinin mentaliteti onların mifoloji dünyagörüşünün əsasını təşkil etmişdir. Mifoloji şüurda hər bir şeyin maddi, görünən obrazı olduğu kimi, mentalitet üçün xarakterik olan dəyərlər də obrazlaşaraq miflərin məzmununa daxil olmuşdur. Miflərin uyğun tarixi şəraitdə folklora transformasiyası ilə mentalitet dəyərlərimiz folklor dünyasına daxil olmuş, etnosun inkişafı ilə məzmun baxımından zənginləşməkdə davam etmişdir;

- Tədqiqatda əldə olunmuş əsas qənaətə görə, Azərbaycan milli mentaliteti bir sistem olaraq, əsasən, xalqımızın epos düşüncəsində qorunub qalmışdır. Mentalitet mifoloji düşüncə çağında mifologiya ilə qaynaqlaşdığı kimi, folklorda da, əsasən, eposla qaynaqlaşır (qovuşur). Bu, epos anlayışının özünəməxsus xüsusiyyətləri ilə bağlıdır;

- Araşdırmada qədim türklərin etnik-mental dəyərlərinin "ərdəm", "törə" "uluğluğ" (böyüklük), "ezgülük" (yaxşılıq), "səxavət", "qonaqpərvərlik", "abır-həya", "mərdlik", "borc", "zirəklik", "güc" kimi müsbət mentalitet dəyərləri ilə yanaşı, "al" (hiylə), "ərməgü" (tənbəllik), "buşmasar" (kallıq), "öqünqüçi" (lovğalıq), "evek" (tələsgənlik), "isizlik" (pislik) və s. kimi neqativ keyfiyyətlər də folklor kontekstində nəzərdən keçirilmişdir. Aydınlaşdırılmışdır ki, göstərilən mənfi əxlaqi kateqoriyalar da türk mentalitet sisteminə daxildir. Belə ki, mentalitet dəyərləri bir sistem olaraq təkcə bəyənilən etnik-mental xüsusiyyətlərin yox, eyni zamanda bəyənilməyən, ictimai-etik davranış tipi, forması və keyfiyyəti kimi qəbul olunmayan kateqoriyaları da əhatə edir;

- Araşdırmanın nəticələrinə görə, Azərbaycan folklorunda vətən, el-oba, dövlət, dövlətçiliklə bağlı milli mentalitet dəyərələri rəngarəng bədii obrazlar

vasitəsi ilə ifadə olunmuşdur. Azərbaycan xalqının yurda məhəbbəti sakral xarakter daşıyır, hər bir vətən oğlu öz yurdunu ona babalardan miras qalmış müqəddəs məkan sayır və göz bəbəyi kimi qoruyur;

- Dissetasiyada aydınlaşdırılmışdır ki, xalqımızın bütün tarixi boyunca qazandığı müsbət mənəvi-əxlaqi keyfiyyətlər folklorda bədiiləşmişdir. Folklorumuzda bu cəhətdən milli mentalitetimiz üçün xarakterik olan, bizi bir türk-müsəlman xalqı kimi digər etnoslardan xüsusi şəkildə fərqləndirən ar, namus, ismət, iffət, abır, həya, mərdlik, comərdlik, səxavət, adillik, səbrlilik, böyük-kiçiyə, ata-anaya hörmət, ailə qeyrəti və s. kimi dəyərlər tərənnüm olunmuş, bunun əksi olan keyfiyyətlər pislənmiş və antiəxlaqi davranışlar kimi rədd edilmişdir. Azərbaycan cəmiyyətində mənəvi-əxlaqi münasibətlər ideal-antiideal modeli əsasında qurulmuşdur. Cəmiyyətimiz bütün tarix boyunca mənəvi münasibətləri ideal səviyyəsində qəbul etmiş, antiideal olanı birmənalı şəkildə rədd etmişdir. Bu, folklorda öz ifadəsini tapmışdır;

- Araşdırmada ustadnamələrin təhlili nəticəsində milli mentalitet sisteminin pozitiv və neqativ xarakterli - "vəfa", "igidlik", "insanlıq", "səxavət", "bivəfalıq", "hərcayılıq" və s. kimi - sifətlərinin xarakterik xüsusiyyətləri müəyyənləşdirilmişdir;

- Tədqiqat nəticəsində aydınlaşdırılmışdır ki, istər Azərbaycan folkloru, istərsə də Azərbaycan milli mentalitetinin dəyərlər sistemi tarixi kateqoriyalardır. Azərbaycan folklorunda siyasi, sosial, iqtisadi mentalitet dəyərləri də bədiiləşərək obraz və süjetlərin məzmununu təşkil etmişdir. Azərbaycan milli mentalitet sistemində sosial, siyasi, iqtisadi və s. dəyərlər də bir-biri ilə sıx şəkildə bağlıdır və bu dəyərlər sisteminin iki əsas xassəsi – milli mentalitet dəyərlərinin sakrallığı və humanist-antropoloji xarakteri onun ayrılmaz atributlarını təşkil edir.

Dissertasiyanın nəzəri-metodoloji əsasları. Tədqiqat tarixi-müqayisəli metod əsasında yazılmışdır. Belə ki, istər folklor, istərsə də milli mentalitet

tarixi-mədəni kateqoriyalardır və onların qarşılıqlı münasibətlərinin öyrənilməsi problemi bir tərəfdən tarixi kontekstdə, digər tərəfdən müqayisəli şəkildə öyrənməyi tələb etmişdir.

Dissertasiyada folklorun milli mentalitetlə əlaqəsinin araşdırılmasında həm Azərbaycan, həm də dünya elmi təcrübəsindən istifadə edilmişdir. Belə ki, Azərbaycan foolklorşünaslığında N. Cəfərov (51; 52), (61), H.İsmayılov (66), A.Hacılı (60), M.Cəfərli (48; 49; 50), C.Bəydili (46; 47), o cümlədən, dünya elmində Ə.İnan (82; 83), J.P.Ru (85; 860, V.M.Jirmunski (100), V.N.Basilov (91), E.Kassier (101), L.Levi-Brül (106), L.Levi-Stross (107; 108), Y.M.Meletinski (111), S.A.Tokarev (120), R.Q.Şaripov (126) və s. kimi alimlərin tədqiqatlarında folklorun milli mentalitetlə əlaqəsi barəsində nəzəri qənaətlər dissertasiyanın nəzəri-metodoloji bünövrəsini təşkil etmişdir.

İşin nəzəri və praktik əhəmiyyəti. Dissertasiya işi nəzəri və praktiki əhəmiyyətə malikdir. Azərbaycan folklorunda milli mentalitet dəyərlərinin öyrənilməsi ilə bağlı əldə olunmuş qənaətlərdən mövzunun perspektiv inkişafı ilə bağlı araşdırmalarda, o cümlədən, milli-mənəvi quruculuq proseslərində nəzəri təcrübə kimi istifadə etmək mümkündür.

Dissertasiyanın praktik əhəmiyyəti ondan ali məktəblərin humanitar fakültələrində təşkil olunmuş xüsusi kurslarda praktiki dərs vəsaiti kimi istifadə imkanları ilə ölçülür.

Dissertasiyanın aprobaasiyası. İş Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda hazırlanmışdır. Araşdırmanın əsas məzmunu və yenilikləri müəllifin çap etdirdiyi məqalələrdə öz əksini tapmışdır.

Dissertasiyanın quruluşu: Tədqiqat “Giriş”, iki fəsil, “Nəticə” və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

I FƏSİL

MİLLİ MENTALİTET VƏ MİFOLOJİ-ARXAİK DÜŞÜNCƏ

Milli mentalitet etnosun milli düşüncəsinin özünəməxsusuluğunu müəyyənləşdirən amil kimi mədəniyyətin müxtəlif tip və formalarında, o cümlədən, folklor yaradıcılığında geniş şəkildə təzahür edir. Xalqın ənənəvi mədəniyyətinin istənilən növünü əsas götürməklə milli mentalitet sistemini araşdırmaq mümkündür. Azərbaycan xalqının milli mentalitetinin bir sistem kimi öyrənilə biləcəyi ən köklü və etibarlı qaynaqlardan birini folklor təşkil edir. Folklor xalqın milli kimliyinin bütün təzahür formalarını özündə inikas edən düşüncə və mətn sistemi kimi milli mentalitet sisteminin bərpasından ötrü zəngin və əvəzolunmaz material verir.

Azərbaycan xalqı zəngin bədii təfəkkür tarixinə malikdir. Ədəbiyyat tariximizin bəşər mədəniyyətindəki möhtəşəm yerini ilk növbədə folklorumuzun zənginliyi və möhtəşəmliyi şərtləndirir. Folklorumuz milli tariximizə yoldaşlıq etmiş, Azərbaycan xalqının tarixində baş verən bütün mühüm hadisələr folklorda bədiiləşdiyi kimi, bizim milli kimliyimizin özünəməxsus cəhətləri də folklorumuzda əlvan bədii forma və şəkillərdə inikas olunmuşdur.

1.1. Milli mentalitet və folklor münasibətlərinin nəzəri əsasları

Azərbaycan folklorunda milli mentalitet xüsusiyyətlərinin bir sistem kimi tədqiqi ilk növbədə “mentalitet” anlayışının nəzəri cəhətlərinə, o cümlədən, “mentalitet və folklor” münasibətlərinin poetik əsaslarına diqqət verməyi tələb edir.

Dünya elmi-nəzəri fikrində mentalitet, onun nəzəri-kateqorial mahiyyəti, məzmun və formaları, milli düşüncə sistemindəki yeri, təzahürünün tip və şəkilləri və s. barəsində saysız-hesabsız tədqiqatlar aparılmış və onların nəticələri, ilk növbədə, mötəbər ensiklopediyalarda ümumiləşmiş tezislər kimi öz əksini tapmışdır. Ümumiyyətlə, “mantalitet” anlayışı bir söz kimi “mentallıq” anlayışı ilə bağlıdır. Latın dilinə məxsus söz olub, insana, yaxud hər

hansı qrup və cəmiyyətə məxsus olan düşüncələrin obrazını, əqli vərdiş və mənəvi davranış modellərini nəzərdə tutur.

Tədqiqatçı E.Əliyev müasir dövrümüzdə Azərbaycan mentalitetinin inkişafına təhsilin, maarifin təsirini araşdıran məqaləsində mentalitet anlayışının ensiklopedik izahlarını ümumiləşdirərək yazır: "Mentalitet – konkret mədəniyyət və psixologiyaya malik olan bir xalqın inteqral xarakteristikası olub, özündə bu kateqoriyaları saxlayır; fərdi, kütləvi, ictimai şüur, özünüdərketmə və düşünmə, dünyagörüşü, milli ənənələr, mədəniyyətdə universallıq,ictimai rəy, ümumi intellekt, təfəkkür dominantlığı, siyasi şüur, siyasi mədəniyyət, kütləvi əhval-ruhiyyə və s.". (56)

Göründüyü kimi, Azərbaycan folklorunda milli mentalitet məsələsinin araşdırılması milli mədəniyyət və psixologiyamızın ümumi xarakterə inteqrasiya olunmuş cəhətlər sisteminin tədqiqi deməkdir. Bunun üçün folklorda milli şüurun fərdi, kütləvi, ictimai səviyyələrinin təzahürünün poetikası öyrənilməli, folklor obrazlarının milli mentallıqla bağlı cəhətləri sistemləşdirilməlidir.

Fəlsəfə elmləri doktoru Q.Əliyev mentaliteti təfəkkürün özünəməxsus tipi hesab edərək yazır: "Mentalitet fərdi və kollektiv şüurun spesifik səviyyələrini xarakterizə edir. Bu mənada o, spesifik təfəkkür tipidir. Lakin insanın sosial davranışı heç də aramsız fəaliyyətdən ibarət deyildir. Bu və ya digər hadisəni qiymətləndirməyə cəhd göstərən fərdə onun əvvəlki sosial təcrübəsi, sağlam düşüncə, maraqlar, emosional xüsusiyyətləri təsir edir. Dünyanın qavranılması şüuraltı dərinliklərdə baş verir, formalaşır. Deməli, mentalitet təbii əlamətlərdən və sosial şərtlənmiş komponentlərdən yaranır və insanın həyat hadisələri haqqında təsəvvürlərini ehtiva edir. Ətraf aləmin dərk olunması vərdişləri, düşüncə sxemləri, obrazlar, komplekslər mentalitetdə özünün mədəni təcəssümünü tapır". (57)

Mentalitet anlayışının yuxarıda verilmiş səciyyəsi onun folklorla münasibətlərinin özünəməxsus tərəflərini görməyə imkan verir. Folklor ənənəvi xarakterli ictimai şüurun formalarından biridir. Xalqın tarixi-mədəni təcrübəsi

folklorda yaddaşlaşır. Bu halda filosof Q.Əliyevin mentaliteti gerçəkliyin qavranılmasının "vərdişləri, düşüncə sxemləri, obrazları, kompleksləri" kimi səciyyələndirməsi onun folklor dünyagörüşü və obrazlar aləmi ilə qırılmaz bağlılığının üzərinə, daha dəqiq desək, qovuşan (ortaqlaşan, kəsişən, sintezləşən) məqamlarına işıq salır.

Milli mentalitet sistemi və folklorun münasibətləri məzmunla formanın, yaxud düşüncə modeli ilə həmin modelin ənənəvi sənət və yaradıcılıqda bədii təzahür tipinin münasibətləri kimi də təzahür oluna bilər. Milli mentalitet və folklor münasibətlərinin poetik özünəməxsusluğu onların etnik-mədəni sistemin tarixi kateqoriyaları olmasında da ifadə olunur. Q.Əliyev yazır: "Dünya xalqlarının, o cümlədən, Azərbaycan xalqının mifologiyası və folkloru, dastanları və rəvayətlərinin mətn təhlili sayəsində əldə olunmuş ümumiləşdirmələr bunu deməyə əsas verir ki, mentalitet bir fenomen olaraq uzun sürən təkamül prosesinin məhsuludur, hər bir ənənəvi milli düşüncənin sabiq ədəbi, mənəvi-mədəni, siyasi-əxlaqi vərdişlərinin yığcam təzahürüdür". (57)

Tədqiqatçı H.Quliyev azərbaycanlı mentalitetinin arxetiplərindən danışan kitabında mentalitet anlayışının kifayət qədər mürəkkəb və mübahisəli olduğunu, o qədər də asan başa düşülmədiyini göstərərək yazır: "Mentalitet mədəniyyətin milli özünəməxsusluğunu (ona xas olan şüur tipini, həyat tərzini, ənənələri və s.) göstərən ümumişlək elmi kateqoriyadır. Mentalitet obyektiv hadisədir, lakin öz təbiətinin spesifikliyindən irəli gəlməklə çox sirli və mübahisəlidir. Bu isə onun mahiyyətinin özünə uyğun şəkildə başa düşülməsini əhəmiyyətli dərəcədə çətinləşdirir. Mentalitet bizim hamımız üçün yaxın zamanlara qədər əsrarəngiz fenomen olaraq qalırdı. Ancaq axırıncı illərdə dövlət müstəqilliyinin əldə edilməsi kontekstində o, diqqət obyektinə çevrildi. Cəmiyyətdə həyat tərzi və şüurda köklü dəyişikliklərlə müşayiət olunan yeni sahmanın mürəkkəb formalaşma prosesi başladı. Baş verən yeniliklər

məcrasında “yoxluqdan” baş qaldırdı və ani olaraq xüsusi aktuallıq kəsb etdi...”. (104, 5)

Bu fikirlər, əslində, mentalitet anlayışının Azərbaycan mədəniyyətindəki yerini düzgün səciyyələndirir. Doğrudan da, mentalitet anlayışı fəal hadisə olaraq həyatımıza son onilliklərdə daxil oldu və Azərbaycan mədəniyyəti içərisində özünə möhkəm yer tutdu. Bu anlayışın Azərbaycan ictimai şüurunun arxetipik qaynaqları, ənənəvi mədəniyyət tip və formaları ilə bağlılığı onun daha dərindən dərk olunması üçün bizim nəzər-diqqətimizi istər-istəməz folklorun üzərinə yönəldir.

Mentalitet anlayışı tarixi kateqoriyadır: elmin inkişafı zəminində zənginləşmiş, semantik tutumu genişlənmişdir. Daha çox sosial-fəlsəfi kateqoriya olan mentalitet sisteminin müxtəlif tərəfləri dünyanın görkəmli alimlərinin diqqətini cəlb etmiş və onunla bağlı sanballı araşdırmalar aparılmışdır. Həmin fikirlərin nəzərdən keçirilməsi mentalitet anlayışının ictimai şüurun əsasında duran milli düşüncə modeli kimi dərki ilə yanaşı, onun folklorda təzahürünün nəzəri əsaslarını da görməyə imkan verir.

Mentalitet, onun ənənəvi mədəniyyətlə bağlılığı haqqında qərb dünyasının görkəmli alimləri L.Levi-Brülün (106), K.Levi-Strosun (107; 108), E.Kassirerin (101) və çox sayda digərlərinin əsərlərində dəyərli araşdırmalar aparılmış, çox qiymətli fikirlər deyilmişdir.

P.Qureviç və O.Şulman “mentallıq, mentalitet” anlayışları ilə bağlı qərb elmi nəzəri fikir tarixindəki əsərləri tarixi kontekstdə ümumiləşdirərək göstərirlər ki, “mentalitet”termininə Amerika filosofu R.Emersonda (1856) rast gəlinir...

Anlayış yeni kantçılar, fenomenoloqlar, psixoanalitiklər tərəfindən işlədilir. Lakin bu anlayış son dərəcə məhsuldar şəkildə XX əsr fransız humanitar elmi tərəfindən işlənərək hazırlanmışdır. Marsel Prust bu neoligizmə rast gələrək onu şüurlu şəkildə özünün yeni lüğətinə daxil edir. (99, 26)

Etnologiyada evolyusyonizm və animist məktəb, daha sonra Emil Drükheymin sosial rasionalizmi primitiv mentallığın ünsürlərini fərqləndirir və cəmiyyətin arxaik dövrünə aid edir. “Primitiv mentallığın” dəqiq təyinatını verə bilməyən bu ilkin tədqiqatlar kontekstində primitiv (ictimai iqtisadi formasiyalar düzümünün ən aşağı pilləsində duran – İ.A.) xalqların açıq və ya gizli şəkildə inkişaf etmiş xalqlara qarşı qoyulması görünür. (99, 26)

P.Qureviç və O.Şulman göstərirlər ki, Birinci Dünya müharibəsindən dərhal sonra Moss sosiologiyanın sahələri haqqındakı oçerkində qeyd etmişdir ki, “mentallığın” öyrənilməsi dəb halını alır. “Primitiv mentalitet” anlayışının hazırlanmasında həlledici töhfəni L.Levi-Brül verdi. O, antropoloji və etnoloji tədqiqatların istiqamətlərinə böyük təsir göstərərək, yazısız xalqların kollektiv həyatının dərki zamanı müasir anlayışların əsas götürülməsi cəhdinin təhlükə yaratdığını xüsusi vurğuladı. O, primitiv və sivilizasiyalı mentalitetlər arasında əhəmiyyətli fərq olduğunu qeyd etməklə yanaşı,onlar arasında keçidlər olduğunu da istisna etməmişdir. (99, 26)

Qeyd edək ki, mentalitetin ilkin və çağdaş tipləri arasındakı fərqlərin və keçid məqamlarının olması haqqında L.Levi-Brülün yanaşması “milli mentalitet və folklor” münasibətlərinin araşdırılması zamanı da xüsusi aktuallıq kəsb edən məsələdir. Belə ki, folklor dinamik sənət və yaradıcılıq hadisəsidir. Onun dinamizmi diaxron və sinxron reallaşmaları bütövlükdə çevrələyir. Folklorun diaxron dinamikası onun tarixi inkişafını nəzərdə tutur. Milli mentalitetin öz təcəssümünü tapdığı əsas düşüncə və mətn formalarından birinin folklor olduğu nəzərə alındıqda milli mentalitetin və folklorun tarixi inkişafının qarşılıqlı proses olduğu da göz önünə gəlir. Milli mentalitet xalqın milli düşüncə və davranışının qəlibləri kimi folklorda yaşayır və mentalitetdə baş verən dəyişikliklər onun ifadə vasitələrindən biri olan folklorda da öz əksini tapır. Bu halda folklor milli mentalitetin ilkin və çağdaş tiplərini bu və ya digər şəkildə öz yaddaşı daxilinə alaraq qoruyub saxlayır. Lakin burada məsələnin mahiyyətinin dərki sadə olmayıb, qarışıq və mürəkkəb münasibətlər kompleksini əhatə edir.

Milli mentalitet və folklorun tarixi inkişafı yekcins hadisə deyildir. Milli mentalitet milli ictimai şüurun qəliblər toplusudur. Folklor da milli şüurla bağlıdır. Lakin o, milli şüuru özündə əks etdirən sənət və yaradıcılıq hadisəsidir. Bu amil nəzərə alındıqda görürük ki, milli mentalitet sistemində baş verən struktur dəyişmələrinin dinamikası ilə folklorda, onun reallaşma sisteminə görə çox mürəkkəb olan növ və janrlarında baş verən dəyişikliklərin intensivliyi eyni deyildir. Məs., folklor poeziyası öz forma xüsusiyyətlərinə görə sadədən mürəkkəbə doğru zənginləşmə keçmişdir. Əvvəlcə alliterasiyalara söykənən poetik qəliblər (deyimlər - paremiyalar) yaranmış, daha sonra qafiyələnmə sisteminin ikilik, dördlükləri meydana gəlmiş, sonrakı inkişafda isə bəndlər və misraların kombinasiyasından çoxlu formalar hasil olmuşdur. Folklorun forma strukturunda baş verən və müəyyən epoxalarla şərtlənən (müəyyənləşən) bu dəyişmələrin inkişaf ritmi milli mentalitet qəliblərinin dəyişməsi ilə bağlı olmamışdır. Məs., mifoloji mentalitet qəlibi olan «yaxşı-pis» qarşılıq qoşasının orta əsrlər şərq mentalitet qəlibi olan «xeyir-şər» qarşılıq qoşasına keçidi folklor poeziyasının forma strukturuna hiss olunacaq təsir göstərməmişdir. Lakin bu dəyişiklik folklorun məzmun qatında daha tez və daha güclü dəyişikliklər yaratmışdır. Mifoloji epoxada qəhrəman və onun antipodu obrazlarında gerçəkləşən «yaxşı-pis» qoşası orta əsrlər Azərbaycan folklorunda uyğun olaraq «mərd-namərd» qoşasına transformasiya olunmuşdur. Bu halda L.Levi-Brülün çağdaş və primitiv mentalitetlər arasında çox böyük fərq olması və ilkin mentalitetlərin dərkində müasir mentalitet üçün xarakterik olanların tətbiqinin yanlış nəticələr törətməsinin təhlükə yaratması haqqındakı xəbərdarlığı milli mentalitetin folklor əsasında öyrənilməsi üçün də aktual olduğu təsdiq olunur.

Görkəmli qərb alimi E.Kassirerin fikrinə görə, primitiv mentallıq bizimkindən xüsusi məntiqlə seçilmir. Öz təbiət qavrayışına görə nə nəzəri, nə praqmatik, nə də simpatik olaraq fərqlənir. Primitiv insan əşyalar arasında empirik fərqləndirmə aparmağa qadir deyildir. Lakin onda özünü ayıra bilmədiyi təbiətlə vəhdət duyğusu daha güclüdür. (99, 20)

Milli mentalitet sisteminin folklorla münasibətləri hər ikisinin milli varlığı onun ibtidai çağından tutmuş müasir mərhələsinədək əhatə etmək imkanlarında da ifadə olunur. Bu "mentallığın işarəvi (semiotik) struktur səciyyəsindən də aydın görünməkdədir: "Mentallıq bir anlayış kimi analitik təfəkkürü, şüurun inkişaf formasını yarımşüuri mədəni şifrələrlə birləşdirməyə imkan verir. Bu mənada mentallığın daxilində təbii və mədəni, hissi və idraki, irrasional və rasional, fərdi və ictimai kimi müxtəlif qarşıdurma qoşaları özünü göstərir".(99, 25)

Maraqlıdır ki, mentalitetin mifologiya ilə sıx şəkildə bağlılığı, ilkin mental formaların mifoloji düşüncənin aktiv struktur elementləri kimi işlənməsi folklorla mentalitetin münasibətlərinin araşdırıla biləcəyi ən səciyyəvi məqamdır. Tədqiqatçılar yazırlar ki, "mentallıq anlayışı mifoloji şüurun arxaik strukturunun təhlili zamanı xüsusi məhsuldarlıqla istifadə olunur". (99, 26)

Hər bir xalqın milli mentaliteti onun milli düşüncəsinin əsasında duran etnik-psixoloji sistemdir. Bu cəhətinə görə mentalitet anlayışı milli düşüncə anlayışı ilə qırılmaz şəkildə bağlıdır. Milli varlığın ən iri struktur vahidi olan etnos, onun strukturuna daxil olan cəmiyyət, insan ünsürləri, fərd-cəmiyyət münasibətləri, "mentalitet", "milli düşüncə" anlayışları biri-biri ilə qarşılıqlı şəkildə əlaqəli olub, vahid sistemin struktur səviyyələrini, o cümlədən həmin səviyyələrin elementlərini təşkil edir. Hər bir insanın psixologiyasında mövcud olan mentalitet eyni zamanda həm onun özünə, həm də onun mənsub olduğu etnosun milli düşüncə sisteminə aiddir. K.Q.Yunq yazır: "Bizim təhtəlşüurumuz bizim bədənimiz kimi keçmişin izlərini özündə əks etdirir. Biz yalnız bioloji varis olaraq deyil, psixoloji varis kimi də doğuluruq. Bu və ya digər mərhələdə görüş və təcrübə ayrılır. İnsan bədəni özünü bütün orqanların muzeyi olaraq göstərdiyi kimi, psixologiya da nəslin tarixi təcrübəsini əks etdirir". (119, 134)

K.Q.Yunqun göstərdiyi «insan psixologiyasında inikas olunan nəslin tarixi təcrübəsi»nə milli düşüncə sistemi və onun ən mühüm ünsürü olan mentalitet vacib şəkildə daxildir. Bu halda görkəmli etnos nəzəriyyəçisi L.N.Qumulyovun:

“Etnik diaqnostikanın əsasında hissiyyat dayanır. İnsan öz etnosuna uşaqlıqdan mənsub olur” (96, 49), - fikri də fərdə məxsus mentalitetin cəmiyyətə məxsus mentalitet olaraq milli düşüncə sisteminin daxilində olmasını bir daha təsbit edir.

Milli düşüncə bir sistemdir. Həmin sistemin əsasında duran milli mentalitet özü də strukturu etibarilə daha bir sistemi təşkil edir. Sistem anlayışının “öz aralarında müəyyən münasibətdə və əlaqədə olan müəyyən bütövlük, vəhdət əmələ gətirən ünsürlərin məcmusu” olması haqqında ensiklopedik tərifi (58, 374) mentalitet sistemi anlayışına münasibətdə özünü tam təsdiq etməklə mentalitetin özünün müxtəlif ünsürlərlə həm sistemdaxili, həm də sistemxarici səviyyədə əlaqədə olduğunu göstərir.

Mentalitet milli düşüncənin əsası kimi öz varlıq enerjisini həm də etnoslararası münasibətlərdən alır. B.F.Parsinev bu xüsusda göstərir ki, “məhz başqaları ilə qarşılıqlı ziddiyyət zəminində daxili etnik ümumilik möhkəmlənir, etnik fərqlər meydana çıxır”. (112, 95) Bu cəhətdən etnoslararası münasibətlər milli mentalitet sistemini də inkişaf etdirir.

Milli mentalitet milli ruh anlayışı ilə sıx bağlıdır. Milli ruh milli düşüncə sisteminin etnik-psixoloji təzahür səviyyəsi olub, son dərəcə geniş məfhumdur. Tədqiqatçıların yazdığı kimi daha çox mənəvi ünsürləri əhatə edir: «İnsanların etnik təşkil sistemi kimi milləti insan ekzistensiyasının yalnız obyektiv forması yox, daha çox subyektiv, ideal komponentlər xarakterizə edir. Milliliyin müəyyənlik prinsipi, onun dominant xassəsi daha çox mənəvi olaraq özünü göstərir. Millətin ruhu mənəvi aləmin mürəkkəb anlayışıdır”. (94, 79)

Milli mentalitet millətin şüurunda əbədi olaraq daşınır. Onun daşınma vasitəsi ənənədir. Ənənə fərdi və ictimai olsa da, onların hər ikisi milli ənənə anlayışında birləşir. Q.Əliyev yazır: “Milli ənənə xalqın məişət, əxlaqi, mənəvi dəyərlərinin təmərküzləşmiş təcrübəsi və onun davranışında, hərəkətində, həyat tərzində, məişətində ifadəsini tapmış müdrikliyidir. Bütün xalqlarda olduğu kimi

azərbaycanlıların da milli adət-ənənələri əsrlər boyu yaranmış və təşəkkül tapmış, zamanın sərt və amansız sınaqlarından çıxmışdır". (57)

Mentalitet anlayışı milli düşüncə sisteminə daxil olduğu kimi, daha böyük anlayış olan millət anlayışı ilə də sıx bağlıdır. Ümumiyyətlə, "Millət - insanın tarixən əmələ gəlmiş sabit birliyidir ki, bu da dil, ərazi, iqtisadi həyat birliyi, mədəniyyət ümumiliyində təzahür edən mənəviyyat birliyi zəminində meydana çıxmışdır". (78, 425)

Başqa sözlə, millət, milli düşüncə və mentalitet mürəkkəb sistemi təşkil edir və buraya milli xarakter, milli mədəniyyət (mədəniyyətin ən sürəkli və dayanıqlı tiplərindən olan folklor), bütövlükdə milli təfəkkür tipi və s. daxildir: "Milli mədəniyyət, mill təfəkkür və milli mövcudluq - bunların dialektik münasibəti milli xarakteri verir;

Milli mövcudluq milli xarakterin maddi əsasıdır - bu anlayışda xalqın tarix səhnəsinə gəlişi, coğrafi lokallaşması, yerdəyişmələri, məskunlaşmaları... ifadə olunur:

Milli təfəkkür milli xarakterin potensiyasıdır - bu anlayışda xalqın yaradıcılıq imkanı ifadə olunur;

Milli mədəniyyət isə milli xarakterin bilavasitə göstəricisidir - bu anlayışda xalqın bütün tarixi boyu yaratdığı nə varsa, hamısı ifadə olunur". (52, 16)

Mentalitet daxil olduğu iri sistemin (meqasistemin) içərisində milli mədəniyyət ünsürü ilə sıx bağlıdır. Onun folklorla münasibətləri "mentalitet mədəniyyət" kontekstinin ümumi qanunauyğunluqlarına söykənir.

D. Yıldırımın mədəniyyət və onun milli mahiyyəti haqqında yazdıqlarından göründüyü kimi: "Dünya millətlərinin, yaxud da insan qruplarının bir-birindən fərqli təzahür etməsini şərtləndirən mədəniyyət sonadək dərk edilməyən bir məfhumdur. Mədəniyyətin sonadək dərk edilməməsi onun mahiyyətindən irəli gəlir. O, təmsil etdiyi cəmiyyətin yaşadığı təbii şəraitin, onun dünyagörüşünün, tarixinin və dəyərlər sisteminin xarakterindən asılı olaraq müxtəlif səciyyələrdə

təzahür edir. Bir mədəniyyət üçün son dərəcə əhəmiyyətli bir anlayış başqa bir mədəniyyət üçün heç bir dəyər daşımaya bilər. Beləliklə, aydın olur ki, dünyada mədəniyyətlərin sayı dünyadakı insan toplularının sayı qədərdir. Problemə bu bucaqdan yanaşdıqda, belə bir qənaətə gəlmək olar ki, mədəniyyət kimliyini təmsil etdiyi cəmiyyətin yaşam tərzi ilə şərtlənir. Dünyanın mozaik millətlər mənzərəsi də bu mədəniyyət müxtəlifliyində özünü göstərir. Millətləri biri-birindən ayıran və biri-biri ilə əlaqələrini nizamlayan mədəniyyət başlıca olaraq millilik xarakteri kəsb edir". (88, 37)

Bir qədər geniş kontekstə çıxardıqda görürük ki, mentalitet tarixi kateqoriya olub, milli ideologiya ünsürü ilə də qırılmaz bağlılıq təşkil edir. Hər bir etnosun davranışını milli ideologiya idarə edir. Milli ideologiya millətin taleyi üçün bütün tarixi dövrlərdə böyük əhəmiyyət daşımışdır. Prof. A. Şükürovun yazdığı "milli ideologiyanın əsas məqsədi kütlələri səfərbərliyə almaqdır. Milli ideologiyanın tələbləri sırasında: dövlətçiliyin, milli mənafeyin müdaifə edilməsi, milliyətindən asılı olmayaraq hər bir vətəndaşın haqlarının ümumbəşəri tələblər səviyyəsində qorunması, bərabər seçki hüququnun tətbiqi, milli azlıqların və etnik qurumların dilinin, mədəniyyətinin, adət-ənənələrinin inkişafına şərait yaradılması, dövlət idarəedici orqanlarında onların düzgün təmsil olunması və s. amillər mühüm yer tutmalıdır". (79, 82)

Bu halda mentalitet milli ideologiyanın bütün təzahür tip və formalarında bu və ya digər dərəcədə iştirak edir. Millətin mentaliteti onun dövlətə, cəmiyyətə, insana, dünyaya və s. baxışlarında özünəməxsusluğu şərtləndirir. Prof. S.Xəlilovun milli ideologiya ilə bağlı fərqləndirdiyi səviyyələrə də diqqət verdikdə fikrimiz təsdiq olunur: "Birincisi, "milli ideologiya müəyyən bir millətin, xalqın, unitar dövlətin ideologiyası, rəhbər tutduğu, həyata keçirdiyi ideya-siyasi xətdir; Millətlə bağlılıq, sözün müstəqim mənasında millilik bu ideologiyanın strukturunda özünəməxsus yer tutsa da, onun elementlərindən yalnız biri kimi çıxış edir. İkincisi, "milli ideologiya", əslində, "milli ideya" anlayışı əvəzinə işlənir. "ideologiya" və "ideya" anlayışlarının qarışıq salınması

xüsusən müasir Azərbaycan publisistikasında (bu sahədə elmi-fəlsəfi fikir hələ formalaşmadığına görə) geniş yayılmışdır". (64, 93)

"Milli mentalitet və Azərbaycan folkloru" problemini "azərbaycanlı mentaliteti" anlayışının etnik əsaslarına enmədən geniş əsaslarla araşdırmaq mümkün deyildir. Azərbaycan xalqı ümumtürk etnosunun oğuz qolu əsasında formalaşmış bir türk xalqıdır. Bu cəhətdən onun mentalitetinin tarixlə müəyyənləşən bazisini türk mentaliteti təşkil edir. Milli mentalitetimizin bütün özünəməxsusluğu türk etnik başlanğıcına dayandığı kimi, folklorumuzun da bütün özünəməxsusluğu eyni mədəni-etnik qaynaqdan qidalanmışdır.

Türk etnosu sivilizasiyalı bəşəriyyətin ən əsas ünsürlərindən biri olub, dünyanın etnik, mədəni, siyasi, ictimai tarixinin inkişafında çox böyük rol oynamışdır. Özünün hərbi-siyasi gücü, intellektual-mədəni hünərləri ilə dünyanı daim heyrətdə qoyub, tarixi biri-birindən əzəmətli çoxsaylı imperiyalarla zənginləşdirən, Asiyanın, Avropanın, Afrikanın, Şimali Amerikanın tarixində silinməz izlər qoyan türklərin mentaliteti, onların bir etnos kimi mental keyfiyyətləri dünya alimlərinin diqqətini daim cəlb etmişdir. Bu barədə V.V.Bartold, V.İ.Radlov, S.E.Malov, N.Y.Biçurin, L.N.Qumilev, J.P.Ru, Z.V.Toğan, A.İnan, V.M.Jirmunski, O.Süleymanov, S.A.Tokarev, S.Q.Klyaştorni, İ.V.Stebleva, A.S.Amonjolov, V.N.Basilov, D.J.Valeev, N.M.Kulşaripova, A.X.Xaliqov, N. V.Bikbulatov, R.Q.Şaripov (90; 115; 109; 110; 93: 97; 98; 85; 86; 87; 82; 83; 100; 118: 120; 102; 117; 89; 91; 95; 105; 124; 92; 125, 126) və başqa Avropa, rus, turk alimləri dəyərli tədqiqatlar aparmışlar. Bu müəlliflərin əsərləri tarixi, filoloji, ədəbiyyatşünaslıq, fəlsəfi əsərlər olub, qədim türklərin mentalitetinin ən müxtəlif vacib məsələlərini də əhatə edir.

Başqırd alimi R.Q.Şaripov özünün qədim türklərin mentalitetinin fəlsəfi dünyagörüşü kontekstində təhlilinə həsr olunan namizədlik dissertasiyasında yuxarıdakı alimlərin tədqiqatlarının nəticələrinə, o cümlədən tədqiqatçı S.M.Pozdyayevin mentalitet haqqında "insan varlığına öz davranışını sonsuza

qədər dəyişməyə imkan verməklə bərabər, yenə də dəyişməz qalan stasionar karkası olması haqqında fikrinə (114, 116) söykənərək yazır ki, qədim türklərin mentaliteti "beləliklə, qədim türk sivilizasiyasının bütün struktur qatlarında əmələ gəldi və "kollektiv qeyri-şüuridə" sintezləşərək qədim türk dövlət və xalqlarının, onların yaradıcılarının tarixi talelərini müəyyənləşdirdi, etnogenez proseslərinə müəyyən ritm verdi, qədim türk sivilizasiyasına onu başqa antik və orta əsrlər sivilizasiyalarından kəskin şəkildə seçdirən təkrarolunmaz aura bəxş etdi. (126, 122)

Tədqiqatçı qədim türklərin mentalitetinin təşəkkülünün əsas mərhələlərini aşağıdakı kimi müəyyənləşdirmişdir:

1. Qədim türk mentalitetinin türk etnomədəni ümumiliyinin formalaşması ilə paralel baş verən təşəkkülü prosesi rəsmi türkologiyada qəbul olunduğuna nisbətən, heç olmazsa, iki-üç min il əvvəl başlanmışdır. Onun başlanğıc mərhələlərini, təqribən, tunc və erkən daş dövrünə aid etmək lazımdır. Məhz bu dövrdə Avrasiyanın çöllərində köçəbə həyat tərzinin gur təşəkkülü baş vermişdir...

… Qədim türk mentalitetinin təşəkkülünün ana bazasını tanrıçılıq dini-fəlsəfi doktrinası təşkil etmişdir... Tanrıçılıq əsasında, heç olmazsa, min il ərzində türk köçərilərinin sonrakı epoxalarda psixi simasını müəyyənləşdirən norma, adət və ənənələrin təşəkkülünün fəal prosesi getmişdir. (126, 124-125)

2. Qədim türklərin mentalitetinin formalaşmasında ən əhəmiyyətli mərhələ bizim eranın V-VI əsrlərindəki kaqanat dövrü olmuşdur. Bu dövrdə qədim türk etnomədəni birliyi özünün ən yüksək zirvəsinə çataraq dünya səviyyəsinə qalxdı. Bu çağda türklər Avrasiyanın siyasi durumunu fəal şəkildə müəyyənləşdirir, onların təsirini Çin (Tan sülaləsi epoxası), Orta Asiya dövlətləri, Şərqi və Mərkəzi Avropa, Yaxın Şərq öz üzərində hiss edir. (126, 125)

Bu "qızıl" dövrdə türk mentalitetinin sonrakı inkişafına böyük təsir etmiş türk üstünlüyü, "Əbədi el" və "köçəbə militarizmi" doktrinası qanuniləşir.

Xaqanlıq dövründə hər bir "əsl" türkün əməl etməli olduğu davranış stereotipi, "cəngavər kodeksi" yaranır. Ənənə və vərdişlərin davranış-situativ modellərdən tutmuş paltar xırdalıqlarına və at yəhər-yüyəninə qədər geniş dairəsini əhatə edən müəyyən "imperiya" stili müəyyənləşir... Türk stili «dəbinə uyğunlaşma qədim türk oykumenindən çox qıraqlara yayılır. Çinlilər yurtaya (türk alaçığına - İ.A.) şövqlü odalar həsr edir, əyanlar türk paltarı geyməyə çalışırdılar. Bu, Çində Qərbin "məhvedici təsirinə qarşı mübarizə aparan "humanistlər" arasında müəyyən mənfi reaksiyaya səbəb olurdu (Axı Çöl Çin üçün, doğrudan da, Qərb idi). Türk stili Qərbi Avropaya da nüfuz edir. Bunun üçün Böyük Karl dövrü frank əsgərlərinin, hətta məktəb dərsliklərinə yerləşdirilmiş rəsmlərinə baxmaq kifayətdir: onlar geniş şalvarlar geyinmiş, uzun sallaq bığları var, saçları isə hörüklüdür. (126, 127)

3. Türk mentalitetinin inkişafının üçüncü dövrünü VIII-XI əsrlər kimi müəyyənləşdirmək olar. Bu dövrdə türk dünyasına təsir edən ümumi böhranla bağlı olaraq sivilizasiya yönləri əhəmiyyətli dərəcədə dəyişir. O, əlverişsiz iqlim dəyişmələri ilə daha da dərinləşir: Mərkəzi və Orta Asiyanın çölləri sərt quraqlığa məruz qalır. Bu, bir çox hallarda "klassik" dövrün əzəmətli imperiyalarının çökməsini müəyyənləşdirir... Tanrıçılıq keçmişdə qaldı. Uyğur xaqanlığı xanın hakimiyyətini nominal olduğu, manixey icması tərəfindən idarə olunan teokratik ölkəyə çevrildi. Xəzərlər əvvəlcə iudaizmi, sonra islamı qəbul etdi. Oğuzlar, yağmalar, çigillər və başqa tayfalar da islamı qəbul etdi. Müsəlman dininin forpostu bütpərəst Rusiyaya və pravoslav Bizansa qarşı olaraq Volqa Bulqariyası oldu. Qədim türk düyasının qürubu epoxası bütün bunlarla yanaşı, incəsənət və mədəniyyət şedevrlərinin doğuldugu dövr oldu. (126, 127-128)

R.Q.Şaripov qədim türklərin mentalitetinin fəlsəfi dünyagörüşü kontekstində tədqiqinə həsr olunmuş əsərinin yekununda yazır ki, "qədim türk ümumiliyinin tamamilə dağıldığı XI əsrdən sonra qədim türklərin mentaliteti haqqında etnomədəni ümumilik kimi danışılmasının mənası yoxdur. Bu andan

etibarən keyfiyyətcə (bizim müasir dünyamızda gördüyümüz) yeni etnosların nüvəsinin formalaşması başlanır. Lakin ümumi dövlətçilik və dini-fəlsəfi ənənənin qırılmasına, ümumi yazı sistemi və məişət tərzinin itirilməsinə baxmayaraq, bu xalqları böyük inam hissi ilə qədim türk sivilizasiyasının varisləri saymaq olar. Və şübhəsiz ki, onların əcdadlarından aldığı əsas "miras" maddi mədəniyyətlərinə nisbətən daha dayanıqlı olan mentalitet strukturudur". (126, 129-130)

Alimin fikri Azərbaycan türk mentaliteti üçün də eyni dərəcədə xarakterikdir. Milli mədəniyyətimiz bütövlükdə qədim türk sivilizasiyası əsasında formalaşmışdır və Azərbaycan xalqı öz tarixi inkişafında heç bir halda öz türk mentalitetindən qırağa düşməmiş, bu gün də milli mentalitetini qoruyub saxlamaqdadır. Bu cəhətdən milli mentalitet sisteminin folklor əsasında öyrənilməsi qədim türk mentalitetinə məxsus arxetip vahidlərinin tədqiq edilərək üzə çıxarılması deməkdir. .

Milli mentalitet və folklorun münasibətləri həm də onların biri-birinə qarşılıqlı təsir imkanları ilə şərtlənir. F.e.d. M.Cəfərli yazır ki, "bəşəriyyət yaranandan bəri insanların həyatı və dünyanı dərk etmək arzuları müxtəlif mərhələlərdən keçərək hər mərhələdə bir cür reallaşmışdır. Eyni zamanda bu reallıqlar içərisində milli müəyyənlik faktoru bu və ya digər dərəcədə öndə olmuşdur. Hansı xalq öz milli kimliyini hansı dövrdə daha yaxşı dərk edibsə, o, daha böyük müvəffəqiyyətlərə nail olub. Bu mənada Azərbaycan folklor nümunələri milli şüurun formalaşması prosesinə kifayət qədər təsir edəcək imkanlara malikdir". (50, 264)

M.Cəfərli folklorun milli düşüncənin inkişafına təsirini onun yaddaş funksiyasını yerinə yetirməsi ilə əlaqələndirmişdir: "Milli təfəkkürün formalaşması son dərəcə mürəkkəb prosesdir. Əslində, bu yol millətin yetkinləşməsi, qeyri millətlərdən özünü seçməsi, gələcəyə açıq və ayıq gözlə baxması deməkdir. Lakin bu da bir həqiqətdir ki, hər bir xalq həmin prosesi tarixi çətinlikləri dəf edə-edə, öz real təcrübəsində sınaqdan keçirə-keçirə

yaşayır. Bütün bu proseslər bu və ya digər dərəcədə onun maddi və mənəvi yaddaş abidələrində (həmin abidələrin əsas qismini təşkil edən folklorda - İ.A.) öz əksini tapır". (50, 264)

Etnik-milli şüurun formalaşmasına həmin şüurun məhsulu olan maddi və mənəvi mədəniyyət abidələrinin, o cümlədən folklorun təsirinin milli təfəkkürün, etnik özünüdərkin fasiləsiz təkamül dinamikası ilə bağlı olması qənaətinə gələn alim yazır: "Belə bir sadə həqiqət məlumdur ki, milli şüurun formalaşması sistemli və ardıcıl təfəkkürün bərqərar olmasından, bu təfəkkürün həyat və dünya hadisələrində nizam, qayda və qanun axtarışından keçib gedir. İlk baxışda belə düşünmək olar ki, bəşər mədəniyyətinin inkişafı sadədən mürəkkəbə doğru hərəkət etdiyinə görə sistemli və ardıcıl təfəkkürdə öz-özünə hasil olur. Lakin belə düşünənlər yanılırlar. Əslinə qalsa, milli şüurun formalaşmasına ciddi təkan verən sistemli və ardıcıl təfəkkür tərzi bəşər tarixində xüsusi bir yol keçmişdir. Sözün, hərfin, yazının, nitqin əmələ gəlməsi və inkişaf edərək cilalanması bu yolun keçid pillələrini aydın və səlis göstərir. Biz buraya müxtəlif memarlıq abidələrini, müxtəlif üslubda yaradılmış tikililəri, musiqi və rəssamlıq əsərlərini və digər faktları da əlavə edə bilərik. Ancaq bütün bunlardan öncə insanın yaşadığı zamanı sistemli, nizamlı görmək istəyi gəlir. Çünki insan zamandan və yaşadığı mühitdən kənarda mövcud deyil. Buna görə də qədim insanlar ayları və illəri öz təfəkkürünə sığışdırıb, onları təbii ahənginə görə qavramağa daha çox meyl göstərmişlər. Bu mənada, (məsələn - İ.A.) illərin siçan, öküz, pələng, dovşan, balıq, ilan, at, qoyun, meymun, xoruz, it, donuz kimi adlandırılmasından bəhs edən "İl adları" adlı folklor nümunəsində bunun parlaq əksini görmək olar". (50.264)

Milli mentalitet və folklor biri-biri ilə qırılmaz şəkildə bağlıdır. Xalqın mentaliteti onun folklorunda təkcə ifadə olunmur: folklorun milli struktur əsaslarında durmaqla, onun forma və məzmununun milliliyini də müəyyənləşdirir. Mentalitet bundan başqa, folklorun dili ilə qırılmaz şəkildə bağlı olur. Etnik mentalitet və folklor dili problemini araşdırmış tədqiqatçı

O.A.Petrenko göstərir ki, dil və mentalitet planı dil və mədəniyyət planı ilə birgə "dil və etnos" probleminin tərkibinə daxildir. (113,5)

O.A.Petrenko problemi hind-Avropa xalqlarının (rus və ingilis) tarixi mədəni təcrübəsində tədqiq edib, nəticələri ümumiləşdirərək yazır: "Rus və ingilis etnoslarının xalq mahnı ənənəsində təqdim olunan folklor dünya mənzərəsinin üç fraqmentinin (rəng kontinumu, quşlar dünyası və insanın zahiri görkəminin) tutuşdurulması və əldə olunan nəticələrin sonrakı təhlili belə mülahizə yürütməyə əsas verir ki, təkcə özünəməxsus milli konseptləri işarə edən ayrı-ayrı sözlər və bir sıra qeyri-spesifik leksemlərin konnotasiyası yox, dilin bütöv leksik sisteminin (indiki halda folklor dilinin) etnik baxımdan işarələnməsi haqqında olan fikrimiz böyük faktiki material əsasında təsdiq olunur…". (113, 99) Başqa sözlə, tədqiqatçıya görə, "xalq mahnı mətnlərində hər bir sözdə etnikliyin bütün əlamətləri aşkarlanmasa da, bir qayda olaraq, heç olmasa, bir əlamət olur" (113, 101)

Göründüyü kimi, milli mentalitet folklor adlanan möhtəşəm, tükənməz hadisənin bütün struktur qatları, o cümlədən dilinin strukturu ilə bağlıdır. Doğrudan da, Azərbaycan folklorunun dilində onun milli ruhu, milli özünəməxsusluğu yaşayır. Hər bir milli dünyagörüşü, milli mədəniyyətlə bağlı söz abidəsidir. Dildə elə sözlər var ki, birbaşa milli varlığımızın, etnik ruhumuzun ifadəsinə xidmət edir. Bəzən dildə yaşayan təkcə bir söz milli tariximizin açılmaz sirlərinin qapısını açır, milli düşüncəmizin tarixin dərinliklərində gözdən itmiş özünəməxsusluqlarından soraq verir.

Ümumiyyətlə, azərbaycanlı mentalitetində sözə münasibətdə həssaslıq var. Bu, təsadüfi olmayıb, milli şüurumuzun mifoloji-kosmoqonik çağları ilə bağlıdır. Azərbaycan xalqı üçün tarixi dəyəri olan söz müqəddəs dəyər kəsb edir. Məsələn, ulularımızın, böyüklərimizin sözü olan atalar sözləri xalqımız tərəfindən müqəddəs hikmətlər məqamındadır. Atalar sözlərindən ibarət "Oğuznamə"də deyilir: "Atalarun sözi Qurana girməz, amma Quran yanınca yalın-yalın yalışur". (73, 18)

Göründüyü kimi, atalar sözü azərbaycanlı mental düşüncəsində adi söz olmayıb, milli düşüncəmizin son 1400 illik tarixinin sakral ucalığına - müqəddəs "Qurani-Kərim"ə istinad edilərək dəyərləndirilir. Atalar sözləri Azərbaycan xalqının mənəvi-fiziki təcrübəsinin deyimlərdə qəlibləşmiş formullarıdır. Onların ulularamız tərəfindən dəyər baxımından müqəddəs "Quran" ayələrinə bənzədilməsi də təsadüfi olmayıb, eləcə də azərbaycanlı mentalitetinin - milli düşüncə sisteminin sakral məqamları ilə bağlıdır.

Görkəmli Azərbaycan alimi H.İsmayılov özünün aşıq sənətinin mənşəyinə həsr olunmuş konsepsiyasında təkcə bir sözün – "ata" sözünün hikmətinə, daşıdığı milli-mənəvi yükə istinad edərək etnik-mədəni tariximizin çox böyük bir mərhələsinin üzərindən sirr pərdəsini götürmüşdür. O, sübut etmişdir ki, folklorumuzun ən geniş yayılmış janrı olan atalar sözlərindəki "ata" kəlməsi, sadəcə olaraq, ulularımızı, böyüklərimizi işarələndirmir. Bu söz milli-mənəvi düşüncə tariximizin ilkin dövrləri ilə bağlıdır və milli mentalitetimizdə böyüklərə, ulular a sayğının əsas yer tutması "ata" və "atalar sözləri" vahidlərinin arxaik hikmətindən qaynaqlanır.

F.e.d. H.İsmayılov göstərmişdir ki, atalar sözləri, sadəcə, xalqın təcrübəsini əks etdirən deyimlər yox, türk Tanrıçı peyğəmbəri Atanın müqəddəs kəlamlarıdır. Alim yazır: "Öncə bu ad əcdad kultunun işarəsidir. İcma başçısıdır. Sonra şaman-kahindir. Daha sonra əski türk monoteist dini olan Tanrıçılığın peyğəmbəridir". (66, 16)

Beləliklə, məlum olur ki, Ata arxaik oğuz cəmiyyətində icmanın başçısıdır. Bu halda o, siyasi və sakral güclərin təmərküzləşdiyi mərkəzi işarələndirir. Sakral aləmlə bağlılığına görə əcdad kultunun daşıyıcısıdır. Eyni zamanda şaman-kahin kimi insanlarla əcdad ruhlar arasında vasitəçilik (mediatorluq) edir. Bu, onun öz simasında adi və müqəddəs olanları, profanlığı və sakrallığı, kosmosu və xaosu eyni zamanda birləşdirə bilən müqəddəs varlıq olmasından irəli gəlir. N.N.Kradinin oğuzların babaları hunlara aid tədqiqatında yazdığı kimi, "müqəddəs çar tanrılarla tənbələr arasında "əlaqələndirici" idi: öz

sakral qabiliyyətlərinin vasitəsi ilə cəmiyyət üçün sabitliyi və çiçəklənməni təmin edirdi". (103, 328)

Bu fikir oğuz cəmiyyəti üçün xarakterikdir. "Kitabi-Dədə Qorqud"da Bayındır xanın "qamğan" titulu vardır. Bu söz iki hissədən ibarətdir: "qam"- "ğan". "Qam" - şaman demək olub, Bayındır xanın sakral-mistik hakimiyyətini, "ğan" – "xan" titulu olub, onun dünyəvi (siyasi-inzibati) hakimiyyətini ifadə edir. Arxaik oğuz cəmiyyətində - qəbilə icmasında sakral və mistik hakimiyyət Atanın simasında mərkəzləşmişdi. O, oğuz cəmiyyətinin mənəvi düşüncəsində mühüm yer tuturdu. Ata arxaik oğuz mentalitetində sakral dəyərlərin təmərküzləşdiyi müqəddəs varlıq idi və bu mentalitetin müqəddəs dəyərlərinin əsas hissəsi "Ata" ilə müəyyənləşirdi.

H.İsmayılov "ata" sözünün etnik-mədəni sirlərini aşkarlamaqla, əslində, milli mentalitetimizdə böyüklərə, ululara olan hörmətin, onların müqəddəslər məqamında tutulmasının səbəblərinə aydınlıq gətirmişdir. Alimin araşdırmaları milli mentalitetimizin "Ata" arxetipinin günümüzədək davam edən sakrallığının "Baba" və "Dədə" mərhələlərindən keçdiyini də aşkarlamışdır. O yazır:

"1. Atanın ədəbiyyatımıza saxladığı ədəbi irs ata sözləridir. Ata Tanrı savçısıdır (peyğəmbəridir - İ.A.). Nəzərdən qaçırmayaq ki, ata sözü, əski türkcədə məsəl və bu janra daxil olan bir sıra xalq deyimlərinin ümumi adı savdır. H.Zeynallı bu termini "söz-sov" deyimindən çıxış edərək onun "söz"dən törəndiyini ehtimal etmişdir. Bizə görə, söz – "sovmaq, sovuşdurmaq" sözünə daha çox uyğundur. DOK-də ("Dədə Qorqud kitabı"nda - İ.A.) "Azıb gələn qəzayı Tənqri sovsun" alqışında da müşahidə olunur. Bu da atanın qoruyuculuq funksiyasına uyğundur.

2. Babanın ədəbi irsi isə sufi dərvişlərinin yaradıcılıq nümunələridir. Bizə görə, klassik məhəbbət dastanlarının da yaradıcısı onlardır. Bütün dərvişlər baba deyildir. Baba yalnız şeyxlər, pirlər, mürşidlər, övliyalardır.

3. Dədənin ədəbi irsinə Dədə Qorquddan Dədə Ələsgərə qədər bütün dədə sənətkarların yaradıcı örnəkləri daxildir.

Ata sənət sistemindən üstün mövqedə dayanır və bir qədər ondan kənarda təsəvvür olunur. Amma onun söz ehtiyatı bütün hallarda və zamanlarda aparıcı mövqedə istifadə olunur. Ata sözləri, ozan və aşiq sənətlərinin estetik-ürfani əsasını təşkil edir. İnam kimi da türk sufi dünyagörüşünün mənşəyi ona bağlanır". (66, 22-23)

H.İsmayılovun bu aşkarlamalarının mənası oğuzların öz atalar sözlərinə "baxışlarında" daha geniş şəkildə mənalanır. S.Əlizadənin çap etdirdiyi oğuz atalar sözlərindən ibarət "Oğuznamə"də deyilir: "Atalar sözin dutmıyan yabana atılur". (73, 18) Tərtibçi S.Əlizadə kitabın "Qeydlər və şərhlər hissəsində belə yazmışdır: "Bu atalar sözünün OŞ-da ("OŞ" - Orxan Saiq: məşhur türk qorqudşünası Orxan Şaiq Gökyayın 1973-cü ildə çap etdirdiyi «Dedem Korkudun kitabı» adlı əsəri nəzərdə tutulur - İ.A.) ardı (ikinci misrası) da var: "Axirətdə tamu əhlinə qatılur". (73, 206)

Bu atalar sözünün məzmunundan aydın olur ki, ataların sözünə əməl etməyənlər çölə atılır və öldükdən sonra cəhənnəmə gedirlər. Burada "atalar sözü" ifadəsi iki mənanı ifadə edir:

1. Ümumiyyətlə, "böyüklərin, valideynlərin sözü" mənasında:

Bu halda atalar dedikdə, valideynlər (ata-ana, baba-nənə) nəzərdə tutulur. Müasir dilimizdəki qarşılığı: "Böyüklərin sözünə baxmayanlar böyürə-böyürə qalarlar" (Yaxud: "Ulu sözünə baxmayan ulaya-ulaya qalar").

2. Deyim, paremioloji vahid, atalar sözü janrı mənasında:

Yəni atalar sözünün hikmətinə etina etməyənlər həm bu dünyada, həm də o biri dünyada cəzalanır. Burada "yabana atılmaq" – "çölə atılmaq, yəni cəmiyyətdən dışlanmaq, cəmiyyətdaxili münasibətlər sferasından kənarlaşdırılmaq deməkdir. Bu da öz növbəsində atalar sözlərinin sosial statusunu bildirməklə ata kultu ilə müəyyənləşən sakral sözün Azərbaycan-oğuz mentalitetində nə qədər böyük rola malik olduğunu göstərir.

Ümumiyyətlə, hər bir xalqın mentalitet xüsusiyyətləri folklor deyimlərində bariz şəkildə ifadə olunur. Bu, Azərbaycan folkloruna da eyni

dərəcədə aiddir. Azərbaycan xalqının adət-ənənələrində, xasiyyət və vərdişlərində ifadə olunan bütün milli özünəməxsusluğu - etnik mentaliteti deyim folklorunda sözlü təsvir vahidlərinə çevrilmişdir.

Bildiyimiz kimi, folklorun deyim janrları kəmiyyətcə zəngindir. F.e.n. A.Xəlil xalq deyimlərini belə çeşidləmişdir: "Deyimlərə, əsasən, aşağıdakılar aid edilir: atalar sözləri, zərb məsəllər, məsəllər, tapmacalar, alqışlar, qarğışlar, təmsilciklər, nəsihətlər, tövsiyələr, məsləhətlər, şüarlar, mühakimələr, müşahidələr, əlamətlər, sınaqlar, yozumlar, ovsunlar, cadular, hökmlər, təkliflər, xahişlər, icazələr, qadağalar, xeyir-dualar, ürək-dirəklər, arzular, and-amanlar, and içmələr, and vermələr, sağlıqlar, təriflər, söyüşlər, hərbə-zorbalar, salamlar və cavablar, məzhəkələr, lağlağalar, başsağlığılar, sözkəsmələr, kəlamlar, atmacalar, didişmələr, bədyələr, yamsılamalar, şux eşqnamələr, toy söyləmələri, beşikbaşılar, əzizləmələr, səciyyələndirmələr, müqayisələr, bənzətmələr, ayamalar, nüktələr, sözgəlişilər, təqlidlər, təriflər, sayıncaqlar, yanıltmaclar, zıqqımalar, alver deyimləri". (62, 78)

Deyimlərin bu siyahısı milli mentalitetin folklorla nə qədər bağlı olduğunu əyani şəkildə göstərir. Doğrudan da, hər bir xalqın söyüş folkloru, alqış və qarğışları, andları və s. yalnız onun özünün milli-mənəvi düşüncə dünyası ilə bağlı olub, məhz həmin xalqa məxsus mentalitet keyfiyyətlərini özündə ehtiva edir.

Hər bir milli mentalitet və folklorun əlaqələri onu daşıyan xalqla bağlı olur. Milli mentalitet və folklor ilk növbədə ənənəyə söykənir. Ənənəni isə qərb alimi A.Dandis xalq anlayışının əsas ünsürlərindən biri hesab edir: "Xalq termini ortaq bir faktoru paylaşan hər hansı bir insan qurumunu ifadə edir. Bu qurumu bir-birinə bağlayan faktorun ortaq bir əqidə, dil və ya din olması önəmli deyil. Daha önəmli olan hansısa bir amilə bağlı olaraq formalaşmış qrupun özünə aid hesab etdiyi ənənələrə sahib olmasıdır". (81, 10)

Xalqın folkloru öz strukturunun bütün qatları ilə onu yaradan və yaşadan xalqın milli mentalitetinə bağlı olur. Qərb alimi D.B.Amos folklorun

strukturunda üç əsas səviyyəni müəyyənləşdirmişdir: "...folklor bir bilik məcmusudur; folklor bir düşüncə tərzidir; folklor bir sənət növüdür. Bu kateqoriyalar bir-birindən tam ayrı deyildir. Bir-biri ilə qarşılıqlı əlaqədədir". (80, 35)

Bu səviyyələri nəzərə aldığımızda görürük ki, folklor istər xalq biliklərinin məcmusu, istər milli düşüncənin tərzi, istərsə də sənət və yaradıcılıq kimi bütün hallarda milli mentaliletlə - onu yaradan xalqın milli siması ilə bağlıdır. Azərbaycanlı mentaliteti də Azərbaycan-türk xalqının milli obrazını səciyyələndirən keyfiyyətlərin məcmusu kimi folklorda həm "bilik" (mənəvi-fiziki təcrübə - İ.A.), həm milli "düşüncə tərzi", həm də folklor "sənətinin növü" kimi bədiiləşmişdir. Bu da öz növbəsində milli mentalitetin folklor əsasında öyrənilməsi probleminin zərurətini reallığa çevirən başlıca nəzəri-metodoloji amil rolunu oynayır.

1.2. Azərbaycan milli mentalitetinin mifoloji-epik qaynaqları

Azərbaycan milli mentalitet sistemini onun mifoloji-epik qaynaqlarına enmədən, milli mentalitetin mifoloji arxetiplərini öyrənmədən dolğun tədqiq etmək mümkün deyildir. Bu, ilk növbədə onunla bağlıdır ki, milli mentalitet dəyərləri etnik-mədəni ənənə sisteminə daxildir. Mifologiya isə etnik-mədəni ənənə sisteminin birbaşa əsasını təşkil edir. Mifoloq C.Bəydili yazır: "Öz adət-ənənələri, inam və etiqadları ilə ayrılıqda hər bir etnos bəlli üsluba və yalnız bu etnosda rast gəlinə bilən əlamətlərə görə seçilir ki, bunlar da həmin etnosun mədəni ənənəsinin - etnik-mədəni sistemin əsasında dayanır...". (47, 12)

Müəllif daha sonra türk mifoloji düşüncə sisteminin öyrənilmə təcrübəsini nəzərdə tutaraq göstərir ki, "mifoloji düşüncə etnik-mədəni həyatın bütün qatlarına təsir göstərir. Etnoqrafik gerçəkliklərin, dini-mənəvi dəyərlərin həqiqi elmi yozumu mifologiyadan qıraqda mümkün deyil. Etnik-mədəni ənənə isə onun folklor kimi arxaik mərhələdə ictimai və dini qurumlarla, inanışlar və mərasimlərlə sıx bağlılığı olan sinkretik təbiətli hər bir hadisənin kompleks şəklində araşdırılmasını tələb edir. Bununla yanaşı, dünya və yaradılış haqqında əski türk düşüncə sistemi də tam bərpa olunmadan ənənəvi türk mədəniyyətinin ayrılıqda götürülmüş hər hansı faktının simvolikasını açmaq mümkün deyildir. Bu baxımdan, mifologiyanın müstəsna yeri var. Mifoloji sistem özlüyündə etnik-mədəni ənənənin özülünü, onun tarixi inkişafının başlıca meylini təşkil edir. (47, 19-20)

Alim milli mentalitet və mifologiyanın qarşılıqlı münasibətlər sistemində mifologiyanı əsas hərəkətverici ünsür hesab edərək yazır: "Milli mentalitetin mahiyyətini ifadə etməklə qalmayıb, həmçinin onu formalaşdıran da məhz milli mifologiya və əsasında dayanan dünya modelidir. Bu üzdən də hər hansı dünya modeli hər yerdə hər zaman milliliyi ilə səciyyələnir. Kənar təsirlərə reaksiyası da, yabançı amillərin ona əsaslı təsir göstərə bilməməsi də büsbütün milliliyindən gəlir. Təsadüfi deyildir ki, dil və ənənəvi mədəniyyət hər zaman qarşılıqlı münasibətdədir. Ənənəvi mədəniyyətin öyrənilməsinin bir başlıca

qaynağı bu mənada, şübhəsiz, dildir. O, mifoloji dünya modelinin milliliyini səciyyələndirən ən ilkin amildir. Milli duyğu və din düşüncəsi də enerji yüklü dil arasındakı bağlılığın qüvvətlilik dərəcəsini də bu amil müəyyənləşdirir". (47, 20-21)

C.Bəydili milli xarakterin formalaşmasında mentalitetin rolu haqqında sabit fikrin olmamasına baxmayaraq, mifologiya amilinin etnik-mədəni ənənədəki qüvvətli rolunu nəzərə almaqla mentalitetin milli xarakter üçün müəyyənləşdirici xarakter daşıması və onun da öz növbəsində mifologiya ilə müəyyənləşməsi fikrini irəli sürür: "Milli mentalitetin formalaşdırdığı milli xarakterin təşəkkülü problemi ilə bağlı nə Qərb, nə də rus elmində sabit bir fikir yoxdur. Bəziləri milli xarakterin elitanın xarakteri ilə müəyyən olunduğu konsepsiyasını irəli sürür, digərləri isə "milli xarakter anlayışını ümumiyyətlə qeyri-elmi və əsası olmayan bir hipoteza sayırlar. Əlbəttə, hər hansı milli xarakter anlayışının özündə də ziddiyyətlər ola bilməsi mümkün haldır. Lakin gerçəklik budur ki, hər xalqın yalnız onun özünəməxsus milli obrazları var və həmin obrazların davranış stereotiplərini də milli mentalitet müəyyən edir. Xalqın ruhu deyilən milli mentalitet isə məhz bu xalqın bütün üzvləri üçün eyni inam və etiqadlar toplusu ilə, mifologiya və onda ifadəsini tapan dünya modeli ilə müəyyən olunur". (47, 21)

Ümumiyyətlə, hər bir xalqın milli ictimai şüur formaları qədimlərə doğru getdikcə vahid başlanğıcda birləşir. Başqa sözlə, hər bir etnosun ilkin dünyagörüşü sonradan inkişaf edərək müxtəlif qollara - ictimai şüur formalarına parçalanmazdan əvvəl vahid (qovuşuq) olur. Buna elmdə sinkretizm deyilir. İbtidai düşüncə sinkretik xarakterli olur. Hər bir xalq arxaik düşüncəsini mifologiya təşkil edir. Mifoloji şüurun bizə məxsus olan tarixi şüurdan əsas fərqi ondadır ki, bizim ictimai şüurumuz üçün xarakterik olan elm, din, fəlsəfə, incəsənət və s. formalar mifoloji şüurda sinkretik vəziyyətdə, yeni dini, fəlsəfi, elmi başlanğıcların rüşeym formalarının qovuşması durumunda olur. Prof. A.Şükürovun yazdığı kimi: "Miflər bəşəriyyətin mənəvi mədəniyyətinin ən

qədim forması olub, özündə ilk bilik ünsürlərini, dini etiqadları, siyasi baxışlar, incəsənətin müxtəlif növlərini və fəlsəfəni birləşdirir. Yalnız sonralar bu ünsürlər müstəqil inkişaf edib, həyata vəsiqə almışlar. Deməli, mif şüurun vahid, bölünməz (sinkretik) universal formasıdır. O, yarandığı dövrün nəyi varsa, hamısını özündə əks etdirmişdir. Mifoloji şüurda müxtəlif xalqların poetika zənginliyi və müdrikliyi öz əksini tapmışdır". (78, 34)

Folklor və milli mentalitet də mifoloji dünyagörüşündə olduğu kimi biri-birindən ayrılmazdır. Folklor mifologiyadan sonrakı hadisədir. Folklor üçün xarakterik olan fantastik süjet və obrazlar mifologiyada qədim insanlar tərəfindən həqiqət şəklində qəbul olunan dünyagörüşüdür. Milli mentalitetin də, folklorun da ana qaynağı mifologiyadır. Mifologiya hər bir etnosun milli düşüncəsinin rüşeymi - başlanğıcıdır. Xalqların sonrakı dövrlərdə inkişaf etmiş milli mentalitet sistemləri öz başlanğıcını mifologiyadan götürür. Milli mentalitetin mifologiyadan qaynaqlanan başlanğıcını öyrənmədən mentalitet və folklor münasibətlərini obyektiv və düzgün şəkildə araşdırmaq mümkün deyildir. Çünki hər bir xalqın milli mentaliteti üçün xarakterik olan xüsusiyyətlərin başlandığı qaynaq birmənalı şəkildə mifologiyadır.

Azərbaycan folklorunda yaşayan milli mentalitet də öz spesifikası etibarilə Azərbaycan-türk mifologiyası ilə müəyyənləşmişdir. Milli mentalitet üçün xarakterik olmaqla yanaşı, həm də folklorda bədiiləşən və onun vasitəsi ilə də nəsillərdən-nəsillərə ötürülən kateqoriyalar mifologiyada ortaq bir nöqtədə birləşir. Bu cəhətdən, mifologiya milli mentalitet və milli folklor vahidlərinin ortaqlaşdığı sahə olmaqdan daha çox, vahid, sinkretik başlanğıcdır.

Mifoloji dünya modelinə məxsus olan sinkretizm mifoloji düşüncənin xarakteri ilə bağlıdır. Görkəmli mifoloq alim Y.M. Meletinski özünün məşhur "Mifin poetikası" kitabının "Mifoloji təfəkkürün ümumi xassələri" hissəsində göstərir ki, «mifoloji təfəkkürün bir sıra xüsusiyyətləri ondan irəli gəlirdi ki, "ibtidai insan özünü onu əhatə edən təbiət dünyasından aydın şəkildə ayrı bilmir, özünə məxsus olan xüsusiyyətləri təbiət obyektlərinə köçürür, həyat,

insan ehtirasları, şüurlu, məqsədyönlü təsərrüfat fəaliyyəti, insanaoxşar fiziki görkəmdə çıxış etmək, sosial təşkilata malik olmaq və s. kimi xüsusiyyətləri təbiət obyektlərinə aid edirdi".(111, 164-165)

Y.M.Meletinski göstərir ki, "ibtidai» insan şüurunun bu keyfiyyəti onun düşüncəsində "diffuziyalılıq" adlanan xassənin yaranmasına səbəb olmuşdur: "İbtidai təfəkkürün diffuziyalılığı (qovuşuqluğu - İ.A.) subyekt və obyektin, maddi və idealın (başqa sözlə, predmetin və işarənin, əşyanın və sözün, varlıq və onun adının), şeylər və onların atributlarının, təkin və cəmin, statik və dinamikin, məkan və zaman münasibətlərinin dəqiq şəkildə fərqləndirilməməsində ifadə olunur". (111, 165)

Mifoloji şüurun özünəməxsusluğu onu bizim malik olduğumuz tarixi şüurdan fərqləndirir. Heç təsadüfi deyildir ki, məşhur fransız alimi L.Levi-Brül buna əsaslanıb, mifoloji təfəkkürün məntiqini "məntiqəqədərki" (yəni tarixi şüur məntiqindən əvvəl olan - İ.A.) adlandırmışdır. (106, 491)

Mifoloji şüurda dünya və insan eyniləşdirilmişdir: onlar hər ikisi canlı və eyni xüsusiyyətlərə malik varlıqlar kimi təsəvvür edilmişdir. V.N.Toporov göstərir ki, mifopoetik dünyagörüşü makrokosm (dünya) və mikrokosmun (insanın) eyniyyətinə söykənir. Bu prinsip təkcə bütövlükdə kosmik məkanı və torpağı deyil, başqa səviyyələrin də (yaşayış yerləri, avadanlıqlar, paltarlar) modelləşdirilməsinin çoxlu nümunələrini müəyyənləşdirir. (121, 114; 122, 12)

Prof. A.Şükürov yazır ki, mifdə forma məzmunla eynidir və ona görə də onun modelleşdirdiyi simvolik obraz da həmin prinsipə uyğun gəlir... Mifoloji təfəkkür subyekt va obyekt, predmet və işarə, şey və söz, mahiyyət və onun adı, şeylər və onların atributları, təkcə və çoxluq, məkan və zaman münasibətləri, başlanğıc və prinsip, daha doğrusu, mənşə və mahiyyət və s. aydın olmayan ayrılmasında (fərqləndirilməsində) ifadə olunur. (76, 74)

Beləliklə, mifoloji şüur bizə məxsus olan tarixi şüur tipindən bir sıra əsas keyfiyyətlərinə görə fərqlənir. Bunlardan əsas olanı bu şüur tipinə xas diffuziyalılıqdır. Mifologiyada mentalitet və folklorun sinkretik olaraq

birləşməsi də mifoloji şüurun diffuziyalılığı ilə bağlıdır. Çünki mifoloji dəyərlərlə müəyyənləşdirilən mentaliet xüsusiyyətləri və onun bədii söz vasitəsi ilə ifadəsini təşkil edən əsatirlər (miflər - mifoloji hekayələr) biri-birindən ayrılmazdır.

Mifoloji şüurda maddi ilə idealın, əşya ilə onun adının sinkretik bağlılığı folklorda qorunub qalmış mentalitet dəyərlərinin nəyə görə sakral (qutsal – müqəddəs) xarakter daşımasının üzərinə işıq salır. Mifoloji düşüncədə etnos üçün müqəddəs olan dəyərlər həm də mifoloji fantaziyanın məhsulu olan miflərin sakral obrazlarını təşkil edirdi. Məsələn, bu gün atalar sözlərinə hamının sayğı ilə yanaşması, onlardakı həqiqətlərə güvənilməsi mifoloji düşüncə ilə yaşamış oğuz-türk babalarımızın dünyagörüşündəki "ata" inancı ilə bağlı idi. Oğuz mifolojisində "Ata" qəbilə icmasının başçısı olmaqla yanaşı, ruhlar aləmi ilə əlaqə saxlayan şaman-kahin, əcdad ruhunun daşayıcısı idi. O, özü müqəddəs olduğu üçün sözü də müqəddəs tutulmuşdur. Yaxud Oğuz mifoloji-epik düşüncəsinin məhsulu olan oğuznamələr, həmçinin "Kitabi-Dədə Qorqud" oğuznamələri oğuz babalarımız üçün yalnız əylənmək, estetik zövq almaq naminə ozan dilində dinlədikləri dastanlar deyildi. Oğuzlar oğuznamələrə - oğuz folklorunun bu ilk dastanlarına, onların ulu əcdadı Oğuz kağandan bəhs edən müqəddəs mətnlər kimi baxırdılar.

Beləliklə, folklorun müqəddəsliyi onda mifologiya ilə müəyyənləşən mentalitet dəyərlərinin sakrallığı ilə bağlıdır. İlkin oğuz türklərinin mentaliteti onların mifoloji dünyagörüşünün əsasını təşkil etmişdir. Mifoloji şüurda hər bir şeyin maddi, görünən obrazı olduğu kimi, mentalitet üçün xarakterik olan dəyərlər də obrazlaşaraq, miflərin məzmununa daxil olmuşdur. Miflərin folklora keçməsi ilə mentalitet dəyərlərimiz folklor dünyasına daxil olmuş və etnosun inkişafı ilə məzmun baxımından zənginləşməkdə davam etmişdir.

Azərbaycan milli mentalitetinin folklorda qorunub qalmış obrazlarının hamısı öz başlanğıcını qədim türk (oğuz) mifologiyasından götürür. Məsələn, bizim folklorumuzda, xüsusilə nağıl və dastanlarımızda müdrik qoca obrazı

vardır. Bu obrazlar Azərbaycan epik folklorunda müqəddəs biliklərin qoruyucusu, qəhrəmana öz məsləhəti (sehrli biliyi) ilə düşdüyü ağır vəziyyətdən çıxmaqda kömək edən xilaskarlardır. Onlar folklorumuzda müqəddəs dəyərlərin daşıyıcısı olan surətlərdir. Azərbaycan məhəbbət dastanlarında haqq aşiqləri belə müqəddəs qocaların sayəsində ölümdən qurtulub ilahi məhəbbətlərinə qovuşa bilirlər.

Milli mentalitetimizdə böyüklərə hörmətin, ağsaqqallara sayğının folklordakı obrazları olan bu qocalar öz mənşəyi etibari ilə qədim türk mifologiyasına gedib çıxırlar. Bu obrazların strukturunda əcdad kultu dayanır, Prof. A.Şükürovun qeyd etdiyi kimi: "Qədim türklərin mühüm inanc sistemi atalar - əcdadlar kultu olmuşdur. Türklər atalarına dərin hörmət bəsləyir, onlar üçün böyük məzarlar yapar, heykəllər düzəldər, yazılı daşlar ucaldardılar". (77, 43)

Milli mentalitetimizlə bağlı ağsaqqal, əcdad obrazı "Kitabi-Dədə Qorqud" oğuznamlərində özünə əsas yer tutmuşdur. Burada Dədə Qorqudun simasında qocaların müqəddəs hesab edilməsinin şahidi oluruq. Dədə Qorud obrazının bir ağsaqqal kimi, eləcə də qadınların bir ana kimi müqəddəs sayılmalarının oğuz milli mentaliteti ilə bağlılığına toxunan Q.Əliyev göstərir ki, "Dədə Qorqud", eləcə də orta əsrlərin digər dastanları ağsaqqallara dərin ehtiram, onların kəlamlarına yüksək ibrətamiz nümunə kimi yanaşmağı uca tutur. "Dədə Qorqud"un müdrik dünyasına nüfuz etmək qədim oğuz türklərinin mentalitetində anaya müqəddəs varlıq, ümumiyyətlə, qadına hədsiz hörmətlə yanaşmağın, qadınlarda bakirəlik, ismət, namus kimi, yüksək əxlaqi normaların ülvi keyfiyyətlər kimi tərənnümünün şahidi oluruq. Eposda ana müqəddəsliyini uca tutan Qazan xanın oğlu Uruz atasının qeyrət yolunu seçir: o, anası Burla xatunun namusunun tapdalanmaması üçün canından keçməyə hazır oldugunu göstərir". (57)

Valideynlərin məqamının uca tutulması, ata-anaya, qocalara dərin hörmət və sevginin bəslənilməsi azərbaycanlı mentalitetinin əsas keyfiyyətidir.

Dinimiz olan islamda da ata-anaya olan hörmətsizlik bağışlanılmaz günah hesab edilir. Ululara, atalara və analara hörmətin kökləri bizim mifoloji düşüncə ilə müəyyənləşən arxaik-əsatiri mentalitetimizə gedib çıxır. Məsələn, oğuz babalarımızda "Ana haqqı - Tanrı haqqı" hesab edilmişdir.

Ana obrazı milli mentalitetimizin əsas müqəddəs dəyərlərindən hesab edilir. Qədim oğuzlarda ananın haqqının Tanrının haqqına bərabər tutulması oğuz türk babalarımızın islamdan əvvəlki tanrıçılıq dini ilə bağlıdır. Tanrıçılıq dinində əsas varlıq uca Tanrıdır. Prof. A.Şükürov yazır ki, "qədim türk mifologiyasının allahlar pantenonunda birinci mərkəzi yeri Tenqri - Tanrı tutur. Tenqri, yaxud çox vaxt deyildiyi kimi, göy tanrı qədim türklərin "əsl dini gerçək inam bəslədikləri"dir. Bu, bütün qədim türklərin ana kultu idi. Qədim türklər üçün Günəş, Ay və Ulduzlar Tanrı deyil, sadəcə, çox əziz varlıqlar idilər. Tanrı isə kainata hakim olan bütün göy üzü idi". (77, 24)

Mifoloji düşüncə məntiqindən çıxış etsək, oğuz inanclarında ana haqqının Tanrı haqqına bərabər tutulması, əslində, elə ananın Tanrıya bərabər tutulması deməkdir. Bu da, bir növ, ananın tanrı statusunda qəbul olunmasıdır. Türk mifologiyasının arxaik qatlarının öyrənilməsi göstərir ki, ana, doğrudan da, ilkin mifolooji qüvvə, yaradıcıcı başlanğıc, bir növ, tanrı statasunda qəbul edilmişdir. Mifoloq alim C.Bəydilinin (Məmmədovun) araşdırmaları göstərir ki, ana kultunun yaşı tanrıçılıq dinindən əvvələ gedib çıxır. Arxaik türk mifoloji düşüncəsində müqəddəs Yer Ana obrazı vardır. Alim yazır ki, Yer Ana türk mifoloji dünya modelində yeri yaradıcı, həyatverici və qurucu başlanğıc kimi funksiyalarla səciyyələnən, bəzən isə Ulu Ana, İlahi Ana, Qarı Nənə kimi deyimlərdə şəxsləndirilən və bolluq-bərəkət hamisi, torpaq yiyəsi olub, təbiət başlanğıcının özünü təmsil edən mifoloji kompleksdir. Alim daha sonra göstərir ki, bir neçə aspekti olan bu kompleks, adından da göründüyü kimi, əsasən, yerlə, torpaqla identifikasiya olunur (eyniləşir - İ.A.). Onun yaradıcı, qurucu funksiyası isə ondan irəli gəlir ki, yerə, torpağa əskilərdən bitib-tükənməz həyat qüvvəsi, ölümsüzlüyün ən ali ifadəsi gözüylə baxılmışdır. Qadın-ana başlanğıcı

yerlə eyniləşdirilirdi. C.Bəydili əlavə edərək yazır ki, Yer Ana kultu özünün bütün variasiyalarında qadın-ana başlanğıcını, həyatverici güc-qüdrət rəmzini qoruyub saxlayır. (46, 396-397)

Ümumiyyətlə, mifoloji düşüncə ilə yaşayan cəmiyyətlərdə mentalitetin əsasında duran müqəddəs dəyərlər kult səviyyəsində olur. Qədim türk mifologiyasında müxtəlif kultlar olmuşdur: əcdad, dağ, ağac, su və s. kultlar. Məsələn, su azərbaycanlıların çağdaş mentalitetində müqəddəs hesab olunur. Azərbaycanlı heç vaxt suyu murdarlamır və bunu günah sayır. Folklor yaddaşımızda suyun müqəddəsliyi ilə bağlı çoxlu atalar sözləri vardır. Bu mətnlərdə su paklığın, təmizliyin, mənəvi ucalığın rəmzi sayılır. Milli mentalitetimizin bu xüsusiyyətinin arxaik-mifoloji əsasları vardır. Mifologiyada su həyatın əsası hesab olunur. Buna görə də yaradıcı stixiya sayılır. Folklorda, xüsusən nağıllarda su həyatverci qüvvə, "dirilk suyu" sayılır.

Azərbaycan mifoloji mətnlərindən birində deyilir ki, Allah insanları yaradandan sonra peyğəmbərin biri gedir, dirilik suyunu doldurur bardağa ki, gətirsin insanlara. Qayıdanbaş yolda yatır ki, dincini alsın, bardaq aşıb tökülür. İki qarğa bardağın suyundan içir. Ona görə də qarğalar 300 il yaşayırlar. (39, 48)

Göründüyü kimi, bu mif mətnində suyun uzunömürlülük keyfiyyəti vardır. Lakin o, insanlara yox, qarğaya qismət olmuşdur. İlk baxışdan insana bədii uydurma təsiri bağışlayan bu mətndə qədim insanların həyati müşahidələri öz əksini tapmışdır. Qarğa uzunömürlü quş hesab olunur. Mifə görə, bunun səbəbi qarğanın təsadüfən dirilik suyundan içməsidir. Mif əski insanların inamlar sistemidir. Suyun müqəddəs olması haqqında mifoloji inanc onun milli mentalitetimizdə paklığın, saflığın mənəvi və fiziki ölçüsü hesab oluması ilə nəticələnmişdir.

Azərbaycanlı mentalitetinin mifologiya ilə müəyyənləşən əsas dəyərlərindən biri də torpağın müqəddəs hesab olunmasıdır. Azərbaycanlılar torpağa sayğı ilə yanaşır: onu ruzi-bərəkət mənbəyi hesab etməklə bir ana kimi sevirlər. Torpaq milli mentalitetimizdə su kimi mənəvi münasibətlərin sakrallıq

(müqəddəslik) ölçüsü hesab olunur. Bizə belə gəlir ki, Azərbaycan folklorunda torpaqla bağlı çoxsaylı inanc nümunələri, o cümlədən digər folklor mətnləri içərisində ən diqqətəlayiqi "ana torpaq" ifadəsidir.

"Ana torpaq" ifadəsi el-obaya, doğma yurda, vətənə, ölkəyə, dövlətə bağlılığın müqqəddəslik məqamıdır. Ananın müqəddəs varlıq hesab olunduğu Azərbaycan mentalitetində torpağın ana hesab edilməsi milli mentalitet sistemimizdə təbiət obrazlarının necə bir ülvi məna daşıdığının da bariz nümunəsidir.

Torpağın "ana" epiteti ilə təyinləndirilməsi öz mifoloji əsaslarına malikdir. Yuxarıda qeyd olundu ki, mifologiyamızda torpaq Yer Ana kompleksi ilə əlaqədar olaraq ilkin inamlar sırasındadır. (bax: 46, 397) Torpaq mifoloji düşüncədə, doğrudan-doğruya, ana hesab edilmişdir. Bu barədə arxaik türk inancları sonradan islami mahiyyət kəsb etsə də, ilkin mifoloji məlumat öz mənasını folklor mətnlərimizdə qoruya bilmişdir.

Azərbaycan mifoloji mətnlərindən birində göstərilir ki, lap qabaqlar Allahdan başqa heç kim yox imiş. Yer üzü də başdan-ayağa su imiş. Allah bu suyu lil eləyir. Sonra bu lili qurudub torpaq eləyir. Sonra torpaqdan bitkiləri cücərdir. Ondan sonra da torpaqdan palçıq qayırıb insanlar yaradır, onlara ruh verir. (39, 35)

Bu mif mətninin məzmununa fikir versək, burada yaranışla bağlı ilahi ünsürlərin su və torpaq olduğunu görərik. Əvvəlcə su olur, sonra Allah sudan torpaq, torpaqdan da insan yaradır. Demək, su və torpaq insanın əvvəlki halı, insan olmazdan qabaqkı vəziyyətidir. Yaranışla bağlılıq suyu və torpağı müqəddəsləşdirmişdir. Yer və su əski türk mifolojisində birgə varlıq kimi düşünülmüşdür. Türk alimi A.İnan yazır ki, Yer-su kultu, Göytürk kitabələrindən anlaşıldığına görə, VIII əsrdə Türk imperatorluğunda dövlətin rəsmi kultlarından biri olmuşdur. Bu kitabələrdə yer-su eynilə bugünkü samanlarda olduğu kimi, yan-yana qeyd edilmişdir. (84, 491)

Prof. M.Seyidov Yer-Su (b) obrazına həsr olunmuş məqaləsində bu obrazın türk mioloji düşüncəsi üçün müqəddəs varlıq olduğunu göstərmişdir: "Gültəkinə, Mogilyana, Tonyukuka və başqalarına qoyulmuş abidələr belə bir ehtimal etməyə əsas verir ki, "yer sub" qədim türk xalqlarında müqəddəs sayılmışdır". (116, 63)

Maraqlıdır ki, M.Seyidovun bu tədqiqat və onun gəldiyi nəticələr Yer-Sub obrazının milli mentalitetimizin mifoloji qaynaqlarının üzərinə də işıq saçır: "Türk xalqlarında su və yer hələ qədimlərdən ilahiləşdirilmişdir. Bu ilahilərə "vətən" anlayışının meydana çıxdığı dövrdə pərəstiş edilmişdir. Türkdilli xalqlar bu ilahilərin birləşmiş obrazının (Yer və Su obrazlarının - İ.A.) simasında özlərinin əsas hamisini və qoruyucusunu görmüşlər. Biz belə hesab edirik ki, yer sub – həm vətən-torpaq, həm də onun mifoloji təcəssümüdür". (116, 69)

Göründüyü kimi. Yer-Su mifoloji obrazı türk mifologiyasında təkcə yer və su kosmoqonik başlanğıclarının mifolojiləşdirilmiş obrazı olaraq qalmamış, etnik-mifoloji özünüdərkin inkişafı ilə mentalitet dəyərlərinin sırasına daxil olmuşdur. F.e.d. M.Cəfərli yazır ki, dövlətçilik və dövlətdə ədalət anlayışları ilə bağlı folklor nümunələrindəki faktlar birbaşa milli şüurun formalaşmasına xidmət edir. Bu, dünən də belə olmuş, bu gün də belədir və gələcəkdə də belə olacaqdır. Araşdırmalar göstərir ki, folklor nümunələrində inikas olunan milli şüur problemi xalq düşüncəsinin ən ümdə problemlərindən biridir. Xalq uzun əsrlər boyu yaratdığı hər hansı bir folklor mətnində öz kimliyini ifadə etmək arzusunda olmuş və bu arzunu reallaşdıra bilmişdir". (50, 269) Bu fikrin məntiqindən çıxış edildiyində görürük ki, Yer-Su obrazının vətən, yer-yurd ilə bağlı olması əski türk insanının öz etnik kimliyini yurduna olan məhəbbətinin, bağlılığının nümunəsində inikas etmək istəyi ilə də əlaqədar olmuşdur.

Ümumiyyətlə, ilkin milli mentalitetin əsaslarını etnosun müqəddəs dəyərləri təşkil edir. Yaradılışla bağlı olan hər bir ünsür milli mentalitetdə müqəddəs dəyərlər sisteminə daxil olur. Milli mentalitetin mifologiya ilə müəyyənləşən dəyərləri mifoloji düşüncə epoxası başa çatandan sonra folklora

daxil olur. İnsan şüurunun ümumi inkişaf tarixindən məlumdur ki, ibtidai insanların dünyagörüşünü təşkil edən mifologiya sonrakı dövrlərdə dinə, fəlsəfəyə, elmə, incəsənətə və s. parçalandı. Mifoloji fantaziyanın məhsulu olan əsatirlər folklor əfsanə və rəvayətlərinin, ilkin eposların məzmununu təşkil etdi. Milli mentalitetin mifologiya ilə müəyyənləşən müqəddəs dəyərləri, beləliklə, folklora daxil olub, onda yaşamağa başladı.

Hər bir xalqın milli mentalitet dəyərləri tarixi kateqoriya olub, tarixi inkişaf nəticəsində məzmun baxımından zənginləşmişdir. Azərbaycan folkloru növ, janr, məzmun və forma baxımından inkişaf etdikcə milli mentalitetin mifoloji arxetipləri yeni məzmun və forma kəsb etməyə başlamışdır. Lakin mentalitet dəyərlərinin miflə bağlılığı genetik əsas kimi özünü qorumaqda davam etmişdir. Mifologiya xalqımızın milli düşüncəsinin genetik əsasıdır. Etnos bir orqanizmə bənzəyir. Öz gen sistemindən məhrum olan orqanizm yaşaya bilmədiyi kimi, xalq da mifoloji genetikasız mövcud ola bilməz. Bizim öz mifoloji dəyərlərimizi nə dərəcədə anlayıb-anlamamağımızdan asılı olmayaraq, milli şüurumuzun alt qatında - bünövrəsində mifoloji genetika durur.

Azərbaycan milli mentaliteti bir sistem olaraq xalqımızın epos düşüncəsində qorunub qalmışdır. Mentalitet mifoloji düşüncə çağında mifologiya ilə qaynaqlaşdığı kimi, folklorda da, əsasən, eposla qaynaqlaşır (qovuşur). Bu, epos anlayışının özünəməxsus xüsusiyyətləri ilə bağlıdır.

Epos milli düşüncənin epik sistemidir. Prof. N. Cəfərov eposu "müxtəlif süjetlər, motivlər verən, mənsub olduğu xalqın ictimai-estetik təfəkkürünü bütövlükdə ifadə edən möhtəşəm dastan potensiyası" kimi səciyyələndirmişdir. (51, 12) Elmdə "epos" termini çox vaxt dastan sözü ilə eyniləşdirilir. Halbuki bu söz təkcə dastanları yox, eləcə də epik janra daxil olan bütün mətnləri öz içərisinə alan epik düşüncə sistemi mənasındadır.

Görkəmli folklorşünas H.İsmayılov epos-dastan münasibətləri haqqında yazır: "Dastanın eposla identik (eyni - İ.A.) vahid olmadığı aydındır. Eyni zamanda dastan epik sistemdə avtonom hüquqlara malikdir. Əslində, dastanın

mətn avtonomiyası vardır. Xalq yaradıcılığı örnəklərinin digər elementləri onun strukturunda yalnız kanonik qəliblərə dola və ya hansısa vahidi əvəzləyə bilir. Amma dastanın strukturu dəyişmir, çünki o, sabit informasiya daşıyıcısı kimi bir işarə bütövüdür və mətn strukturunun sabitliyi həm də bununla bağlıdır". (65, 9)

Milli mentalitetin xalqın epos düşüncəsində yaşayan kateqoriyaları eposun ən böyük janrı olan dastanlarda qorunub qalır. Bu dastanın epik düşüncə ilə özünəməxsus bağlılığından, epos düşüncəsini əks etdirmək baxımından ən iri imkanlara malik olmasından irəli gəlmişdir. H.İsmayılov dastan janrı haqqında yazır: "Dastan" adı altında dayanan ədəbi hadisə faktı əski epik ənənənin etnik işarəvi və modelləşdirici sistemini saxlamaqla bu terminlə anlaşılan ədəbi forma və məzmuna - diferensial mətn tipinə transformasiya olunmuşdur". (65, 3)

H.İsmayılovun dastana verdiyi bu tərif kifayət qədər mürəkkəb məzmuna malik olmaqla, bir tərəfdən dastan-epos münasibətlərinin spesifikasını aydınlaşdırır, digər tərəfdən isə milli mentalitet elementlərinin dastan mətnlərində niyə sistem halında qorunub qalmasını da aydınlaşdırır.

Alimin "dastan" janrana verdiyi tərif tədqiqatçıların diqqətini cəlb etmiş və ona izahlar verilmişdir. S.Rzasoy H.İsmayılovun tərifini semantik məna hissələrinə ayıraraq belə təhlil etmişdir: "Struktur yanaşmanın tipik nümunəsi olan bu tərifdə dastan termini daşıdığı anlamın informativ strukturunun sistemi səviyyəsində təsvir-izah olunmuşdur. Tərifin buradakı təhlili onun semantik qatlarını ortaya qoymaqla dastana H.İsmayılov yanaşmasının keyfiyyətini aşkarlamış olar. Tərifdən bəlli olur ki:

a) Dastan ilk növbədə ədəbi hadisə faktıdır (estetik kontekst);

b) Epik ənənənin faktıdır (düşüncənin epos konteksti);

c) Arxaik epik ənənənin aktual (semantik) üzvlənmiş faktıdır (epik informasiyanın funksionllaşma - fasiləsizlik konteksti);

ç) Etnosun epik özünüifadə faktıdır (etnopsixoloji kontekst);

d) Etnik düşüncənin total strukturunun işarəvi və modelləşdirici xassələrini epik kodla proyeksiyalandırma faktıdır (semiotik kontekst);

e) Total türk eposunun differensial transformasiya faktıdır (aktual üzvlənmənin janr konteksti). (75, 110-111)

"Dastan" haqqında H.İsmayılovun verdiyi tərifin təhlilindən aydın olur ki, dastan özündə milli epik düşüncənin müxtəlif kontekstlərini – "düşüncənin epos kontekstini", "epik informasiyanın funksionallaşma - fasiləsizlik kontekstini", "etnopsixoloji konteksti", "semiotik konteksti", "aktual üzvlənmənin janr kontekstini" sintezləşdirir. Bu kontekstlərin hamısı milli mentalitetlə bu və digər şəkildə bağlıdır. Belə ki, etnik-milli mentalitet "düşüncənin epos kontekstində" bir sistem halında mövcud olur. Arxaik çağda milli mentalitetin əsasında duran dəyərlər mifologiya ilə müəyyənləşdiyi kimi, milli mentalitet epos düşüncəsi çağında bir sistem olaraq epikləşir: epik növün janrlarının əxlaqi-mənəvi dəyərlərinin əsasını təşkil edir. Dastanın "epik informasiyanın funksionallaşma - fasiləsizlik kontekstini" təşkil etməsi etnik-milli mentalitet dəyərlərinin hər cür inkişafı, təkamülü və transormativ çevrilmələrini nəzərdə tutur. "Etnopsixoloji kontekst" milli mentalitet dəyərlərinin etnik psixologiyanın əsas vahidləri kimi dastan düşüncəsinin də əsasında durduğunu göstərir. Dastanın "semiotik konteksti" mentalitet dəyərlərinin folklor düşüncəsinin poetikasına uyğun olaraq işarəvi mahiyyət kəsb etdiyini göstərir. O cümlədən dastanın, "aktual üzvlənmənin janr konteksti" milli mentalitet dəyərlərinin bu janrda daha dolğun, geniş şəkildə ifadə olunduğunu vurğulayır.

Beləliklə, dastan epik informasiyadır və mifologiyadan eposa transformasiya olunan milli mentalitet dəyərləri eposun bu qlobal janrının məzmun elementlərini və epik-əxlaqi (mənəvi) dəyərlər sistemini təşkil edir. Bundan irəli gəlməklə qədim dövr epos mədəniyyətimizi tədqiq etməklə milli mentalitetimizin ilkin dəyərlər sistemi haqqında zəngin məlumatlar əldə etmək mümkündür.

Azərbaycan milli mentalitetinin mifoloji-epik qaynaqları içərisində ən mühüm yeri qədim dövr və orta əsrlər qəhrəmanlıq dastanlarımız tutur. Bunlar

ilk növbədə azərbaycanlıların ulu babaları olan oğuz türklərinin əfsanəvi ulu əcdadı Oğuz Kağan haqqında olan "Oğuznamə"lər, daha sonra "Kitabi-Dədə Qorqud" oğuznamələri, o cümlədən "Koroğlu" eposudur. Milli mentalitetimizin yurd, dövlət, torpaq, xalq, ulus, namus, qeyrət, mərdlik, qəhrəmanlıq və s. ilə bağlı bütün dəyərləri bu eposlarda özünün parlaq ifadəsini tapmışdır.

Mentalitet dəyərlərimizin arxaik epos olan oğuznamə janrında öz mifoloji-epik anlamlarını qoruyaraq qalması, bu janrın milli düşüncə sistemi ilə qüvvətli şəkildə bağlı olması ilə əlaqədardır. "Oğuznamə" sözü hərfi mənada "Oğuzun kitabı" deməkdir. Burada "Oğuz" adı həm xalqın, həm də onun ulu, əfsanəvi əcdadının – "Oğuz Kağan"ın adını bildirir.

Tədqiqatçıların oğuznamə janrı ilə bağlı yazdıqlarından aydın olur ki, bu janrda Azərbaycan-oğuz milli mentalitetinin ən səciyyəvi xüsusiyyətlərinin əks olunması, oğuznamənin Azərbaycan-oğuz etnosunun ən uca, ülvi kitabı, oğuzlara aid "ensiklopedik biliklər məcmuəsi" olması ilə əlaqədardır. Məsələn, prof. K.V.Nərimanoğlu və tədqiqatçı F.Uğurlu "Oğuznamə" haqqında yazırlar:

"Oğuznamə - türk xalqının həyatını, mübarizəsini, mənəviyyatını əks etdirən ədəbi-tarixi qaynaqdır.

Oğuznamə - oğuz eposudur.

Oğuznamə - oğuz tarixidir.

Oğuznamə - oğuz mədəniyyətinin nəsildən-nəslə keçə-keçə yaşayan həyat kitabıdır". (74, 3)

Bu halda "Oğuznamə" istər "ədəbi-tarixi qaynaq", istər "epos" (müəlliflər "epos" dedikdə dastanı nəzərdə tuturlar - İ.A.), istər "tarix", istərsə də oğuzların "həyat kitabı" kimi bütün hallarda Azərbaycan-oğuz xalqının etnik mentalitet dəyərlərinin qorunduğu xəzinədir.

"Oğuznamə" janrı birbaşa mifoloji-epik qaynaqlarla bağlıdır. F.e.n. A.Xəlilin tədqiqatlarına görə, "Oğuznamə" dastan ənənəsi kimi öz başlanğıcını tanrıçılıq mifoloji-dini ənənəsini əks etdirən "Bitik" abidəsindən götürmüş, daha sonra isə "namə" və "kitab" janrlarına transformasiya olumuşdur:

“1. Bitik. Türk Tanrıçılığı dövrünə aid qədim türk kitabı. M.F.Köprülü mənbələrə istinad edərək “Ulu xan Ata Bitikçi”dən bəhs etmişdir... Birincisi, ehtimal etmək olar ki, “bitik” Tanrıçılığın müqəddəs kitabı idi. Ulu xan, yaxud Qorqud həmin dinin peyğəmbəri idi. İkincisi, “bitik” Şaman magik mətnlərindən ibarət idi. “İrk bitik” elə bu profilə uyğundur. Üçüncüsü, “bitik” folklor mətnlərindən, ilk növbədə, atalar sözü, məsəl, pişrov, kəlam, alqış, qarğış, and və başqa paremioloji vahidlərdən təşkil olunmuşdu. Oğuz “bitiy”i bizə gəlib çatmamışdır. Ancaq buna baxmayaraq onun haqqında səhih məlumat vardır.

2. Namə. Orta əsrlər türk kitabı. Oğuz variantı - Oğuznamədir. Bizə Rəşidəddindən (“Cəmi ət-təvarix”) tutmuş Əbülqazi xan Xivəliyə (“Şəcəreyitərakimə” və “Şəcəreyi-türk”) qədər çoxsaylı “oğuznamə”lər məlumdur. Bu kitablarda oğuz eposunun tərkib hissələri, müxtəlif janrları qorunur.

3. Kitab. İslam epoxasının türk kitabı. Ərəb-İslam mənşəlidir”. (123, 228)

“Oğuznamə” elə bir tarixi-mədəni xəzinədir ki, oğuz-türk etnosunun bütün fiziki və mənəvi təcrübəsi, o cümlədən onun əxlaqi-mənəvi simasını müəyyənləşdirən etnik mentalitet sistemi onda öz əksini tapmışdır. F.e.d. F.Bayat yazır: “Oğuzların ictimai-siyasi, tarixi-mifoloji, dini-fəlsəfi görüşlərini, epik-bədii təfəkkürünü əks etdirən nümunələrə elmi ədəbiyyatda “Oğuznamə” deyilir. Oğuznamə geniş anlayış olub, özündə oğuzların kosmoetnoqonik və təqvim miflərini, dastanlarını, rəvayətlərini, atalar sözlərini, şəcərə dəbini, məsəllərini, şeir parçalarını birləşdirir. Bir sözlə, oğuzlar haqqında hər hansı bədii, tarixi, təsviri məlumat oğuznamə adlanır. Oğuznamələr həm köçəri, həm də yarimoturaq əhali arasında passionar ruhu qaldırmaqda böyük rol oynayıb. Kökü mifik oğuz şəcərəsi ilə bağlı olan nümunələr ilk vaxtlarda babalarımızın yazılmamış qanunları olubdur. Bunu tarixi-xronoloji oğuznamə yazanlar da (Rəşidəddin, Əbül Qazi və b.) dönə-dönə qeyd ediblər. Bu mənada, oğuznamələr uzun müddət xalqın qəhrəmanlıq tarixi kimi canlı şəkildə yaşayıb,

oğuz birliyinin dağılması, köçəriliyin oturaqlıqla əvəzlənməsi ilə unudulmuşdur»”.(45, 255)

Göründüyü kimi, oğuzların milli mentalitet dəyərləri “Oğuznamə”də özünün bədii inikasını tapır ki, bu da həmin janrın simasında folklor milli mentalitet münasibətlərinin nə qədər aktual bir problem olduğunu göstərir.

Mifoloq C.Bəydili yazır ki, Oğuz xan türk etnik-mədəni ənənəsində ilkin əcdad, mədəni qəhrəman cizgiləri aydın seçilən mifoloji varlıqdır. Mədəni ənənə onu dövlətin, hərbi quruluşun yaradıcısı kimi təqdim edir. (46, 285)

Beləliklə, azərbaycanlı mentalitetinin əsas tarixi qaynağını təşkil edən oğuz etnik mentalitet sistemində bütün dəyərlər əfsanəvi Oğuz Kağana istinad olunur. Milli mentalitet sistemi milli düşüncənin ilkin, saf, ülvi dəyərlər sistemini əhatə edir. Azərbaycan-oğuz xalqının bu ilkin dəyərlər sistemi Oğuz Kağanla bağlıdır. O, birinci növbədə ilk insandır. “Oğuznamə”nin uyğur versiyasında deyilir:

... Günlərdə bir gün Ay kağanın gözü parladı,
Erkək oğul doğdu. Uşağın üzü göy idi,
Ağzı alqırmızı, gözləri al, saçları,
Qaşları qara idi... .(74, 10)

Oğuz ilk insan olduğu üçün müqəddəsdir və onun ilk insan olaraq etdiyi bütün əməllər də müqəddəsdir və bu mənada oğuz xalqının mentaliteti üçün əsasdır. Oğuzun mentalitet dəyərlərinin əsasında durması onun ilk insan olmaqla bərabər, həm də ilk əcdad olması ilə bağlıdır. Bütün oğuzlar onun göy və yer qızlarından olan altı oğlundan törəmişdir:

Oğuz Kağan bir yerdə Tanrıya tapınırdı.
Qaranlıq çökdü. Göydən bir işıqlı şüa düşdü.
Günəşdən işıqlı, Aydan parlaq idi.
Oğuz Kağan (ona sarı) getdi, gördü ki,
Bu şüanın içində bir qız var.
Yalqız oturmuşdu. Gözəl bir qız idi,

Onun alnında atəşli, parlaq xal vardı.
Dan ulduzuna bənzəyirdi.
Qız o qədər gözəl idi ki,
Gülsə, Göy Tanrı gülürdü,
Ağlasa, Göy Tanrı ağlayırdı.
Oğuz kağan onu gördükdə özündən getdi,
Sevdi, aldı, onunla yatdı, həzz aldı.
Qız (hamilə) oldu. Günlərdən sonra, gecələrdən sonra
Yükünü yerə qoydu, üç erkək oğul doğdu.
Birincisinə Gün adı qoydular,
İkincisinə Ay adı qoydular,
Üçüncüsünə Ulduz adı qoydular. (74, 13-14)

Oğuz Kağan bir gün yenə ova gedir. Bir gölün ortasında bir ağac görür. Ağacın koğuşunda çox gözəl bir qız var idi. Oğuz onunla evlənir:

Oğuz Kağan onu gördükdə özündən getdi,
Ürəyinə atəş düşdü, onu sevdi.
Onunla yatdı, həzz aldı. Qız hamilə oldu.
Günlərdən sonra, gecələrdən sonra
Yükünü yerə qoydu, üç erkək oğul doğdu.
Birincisinə Göy adı qoydular,
İkincisinə Dağ adı qoydular,
Üçüncüsünə Dəniz adı qoydular (74, 15).

Burada oğuz etnik mentalitet dəyərləri ilə bağlı ciddi məqamlar vardır. Azərbaycanlı mentalitetində ailə müqəddəs sayılır. Bu, tarixən həmişə belə olmuşdur, bu gün də belədir. “Oğuznamə” dastanında biz ilk insan olan Oğuzun evlənməsi və altı oğlunun olmasının simasında, əslində, müqəddəs ailənin yaranmasının şahidi oluruq. Oğuz ilk insan, ilk əcdaddır. Onun yaratdığı ailə də oğuzların ilk ailəsi olaraq müqəddəsdir. Demək, Azərbaycan-oğuz xalqında

ailənin müqəddəsliyi mifoloji-epik dəyərlərlə müəyyənləşmişdir. Lakin burada oğuzların təkcə ailə ilə bağlı mentalitet dəyərlərinin yox, digər mentalitet dəyər və xüsusiyyətlərinin də formalaşmasının şahidi oluruq.

Diqqət etdiyimizdə görürük ki, Oğuzun evləndiyi qadınlardan biri (göydən işıq şüası ilə enən qız) göyü, ikincisi (gölün ortasındakı ağacın koğuşunda oturmuş qız) yeri təmsil edir. Bu halda birinci qız epik-mifoloji obraz kimi göy aləmini, Günəşi təmsil edir. İkinci qız isə gölün simasında su stixiyasını, koğuşunda oturduğu ağacın simasında bitki (ağac - dünya ağacı) kosmoqonik ünsürünü təmsil edir. Bütün bunlar Oğuzun ailəsində bir araya gəlməklə vahid sistem yaradır. Mifologiyada kosmoqonik ünsürlərin birləşməsi, sintezi evlənmə (kosmoqonik izdivac) şəklində baş verirdi. Oğuzun bu qadınlarla evlənməsi ilə təbiət ünsürlərinin bir araya gəlməsi oğuz mentalitetində təbiətə - dünyaya sakral (müqəddəs) münasibət bəslənməsinin təzahürüdür. Milli mentalitetimizdə su, ağac, dağ və s. bu gün də müəyyən hallarda sakral inanc yerləri, ocaqlar, ziyarətgahlar, tapınaq obyektləridir. Bunun mifoloji kökləri var. Qədim oğuz insanı təbiət ünsürlərini ulu əcdadı Oğuzun ailəsinə daxil etməklə, o cümlədən Gün, Ay, Ulduz, Göy, Dağ, Dənizi onun oğlanlarına çevirməklə eyni zamanda bu təbiət ünsürlərini öz etnik mentalitetinin müqəddəs dəyərləri sırasına daxil etmişdir. Başqa sözlə, oğuz babalarımız təbiətə canlı bir ailə kimi baxmış və ailənin müqəddəsliyini bütövlükdə təbiətə və ayrı-ayrılıqda onun müxtəlif ünsürlərinə aid etmişlər.

Milli mentalitetimizdə adın çox böyük dəyəri vardır. “İgid ölər, adı qalar”, “İgidin adı çıxınca, canı çıxsa yaxşıdır” kimi atalar sözələrinin məna yükü adın ənənəvi Azərbaycan cəmiyyətində necə böyük rola malik olduğunun göstəricisidir.

Belə ki, ad birbaşa mənəvi-əxlaqi dəyərlərlə bağlı olmuş, insanın adı onun cəmiyyətdəki rolu və nüfuzunu ifadə etmişdir.

Azərbaycanlı mentalitetində adın sakral dəyərə malik olması da arxaik mifoloji düşüncə ilə müəyyənləşir. Mifoloq C.Bəydili yazır ki, “mifoloji

görüşlərə əsasən, bir kimsənin və ya nəsnənin adının olması onun mövcudluğunun başlıca nişanıydı. Adı əşya və şəxs ilə eyniyyətdə götürən mifoloji düşüncədən ötrü adın məhv edilməsi ad daşıyıcısının özünün də məhvinə gətirirdi. Qədim inanclara görə, bir nəsnənin var ola bilməsi, yaranması üçün ona ad vermək gərəkdi". (46, 13)

Göründüyü kimi, mifoloji şüur çağında ad insan varlığının mahiyyətini təşkil edir. Bu baxımdan, onun etnik-mental dəyərlər sisteminə birbaşa dəxli vardır. Çünki hər bir mental dəyərin adı vardır. Adı olmayan, yəni özünü varlıq olaraq təsdiq etməyən mentalitet sisteminə daxil ola bilməzdi. Bu cəhətdən adlandırma mentalitet sisteminin formalaşma, mövcudluq vasitəsidir. Etnik mentalitet adlar vasitəsi ilə formalaşır, sistemə çevrilir və bir sistem olaraq özünü təsdiq edirdi.

Əlamətdardır ki, ulu babalarımız olan oğuzların mifologiya ilə müəyyənləşən mentalitet dəyərləri əfsanəvi Oğuz Kağanla bağlı olduğu kimi, ad-advermə də birbaşa Oğuz Kağanın funksiyasıdır. Başqa sözlə, mənəvi və fiziki oğuz dünyasının qurucusu Oğuz kağan olduğu kimi, mənəvi sistem olan mentalitet dəyərlərinin də adlar vasitəsi ilə yaradılması və təsbiti də Oğuz kağanın funksiyasına daxildir.

Məsələn, Əbülqazi Bahadır xanın "Şəcəreyi-tərakimə" əsərində deyilir ki, Oğuz xan dünyanı fəth edib yurduna qayıdır və "ulu toy" mərasimi düzənləyir:

"[Oğuz xan]: "Mən öz uşaqlarım və xalqımla sağ-salamat [öz yurduma] gəldim", - dedi və böyük toy üçün lazımi hazırlıq görməsini buyurdu, bir də bütün ağac hissələri qızılla örtülmüş və yaqut, ləl, zümrüd, firuzə və mirvari ilə bəzədilmiş böyük alaçıq (x a r g a h) qurulmasını əmr etdi. Həmin alaçığın (öy) tərifi üçün bu şeir qoşulmuşdu:

Bir ev tikdi qızıldan o hökmdar

Ki, o ev göy qübbəsinin qabağını kəsdi.

[Oğuz xan] on min qoyun və doqquz yüz at kəsilməsini tapşırdı. Yıftdan doxsan doqquz hovuz düzəldilməsini əmr etdi, tapşırdı ki, onlardan doqquzunu araka ilə, doxsanını qımızla doldursunlar.

Bütün nökərlərini çağırdı. Özünün altı oğlanlarına çoxlu xeyirli məsləhətlər verdi, bəylərə isə nəsihət verib, ölkələr (yurt), şəhərlər, həm də hədiyyələr bağışladı...

... Sonra o, döyüşlərdə, yürüşlərdə və işlərdəki xidmətlərinə görə bütün nökərlərinə şəhərlər, sərhədlər, kəndlər və hədiyyələr verdi. Öz oğlanlarına isə dedi: "Siz üç böyüklər qızıl yayı tapıb gətirdiniz və sındıraraq öz aranızda payladınız, Buzuk adlanacaqsınız. Sizdən olacaq törəmələr də qoy qiyamətə qədər buzuk adlansınlar. Üç oxu gətirən üç kiçik oğlanlar və onlardan törəyənlər bu gündən dünyanın sonuna qədər qoy Uçuk adlansınlar. Sizin tapıb gətirdiyiniz yay və oxlar insanlardan deyil, Tanrıdan idilər. Bizdən öncə yaşayan adamlar yayı - hökmdar, oxları isə - elçi sandılar. Ona görə ki, yay oxu hara tuşlasa, ox ora uçar.

İndi mən öləndən sonra qoy mənim taxt-tacımda Gün xan otursun. Ondan sonra xalq qoy buzukların törəmələrindən ən çox qabiliyyəti olan hökmdar etsin; qoy dünyanın sonuna qədər buzuklardan ən yaxşıları hökmdar olsunlar. Onlardan başqaları qoy sağda otursunlar, uçuklar isə-solda. Qoy onlar evin sol tərəfinə otursunlar və qoy dünyanın sonuna qədər nökər vəziyyətləri ilə kifayətlənsinlər.

[Oğuz xan] yüz on altı il padşahlıq etdi və [sonra] Tanrı dərgahına getdi. (54, 64-65)

Bu parçanın təhlili zamanı görürük ki, ulu babalarımız oğuzları milli mentalitetində mifoloji Oğuz Kağan obrazının müstəsna yeri vardır. O, oğuz dünyasının qurucusudur. Oğuzlar üçün sakral olan dövlətçilik strukturunu da Oğuz Kağan müəyyənləşdirmişdir. 24 oğuz tayfasını 12-12 olmaqla iki yerə ayırmış və bunlardan birini Boz oq, o birini Uc oq adlandırmışdır. Bozoq-Ucoq birliyində siyasi sabitlik Oğuz Kağanın müəyyənləşdirdiyi idarəetmə modeli ilə

təmin olunur. O, bozoqları yaya bənzədib onlara siyasi üstünlük verir. Ucoqlar isə oxlar yaydan asılı olduğu kimi, bozoqlara siyasi baxımdan tabe olurlar. Beləliklə, Oğuz Kağan oğuz milli mentalitetinin siyasi-inzibati dəyərlərini adlandırma ilə vasitəsi ilə müəyyənləşdirmişdir.

"Kitabi-Dədə Qorqud"da Oğuz Kağanın bu sakral funksiyasını Dədə Qorqud obrazında görürük. Oğuz Kağan ilkin əcdad, ata, kosmoqonik başlanğıc kimi oğuz mentalitet düşüncəsi üçün müqqəddəs simadır. Onun müqəddəsliyi milli mentalitetin ilkin mifoloji dəyərlərinin müqəddəs tutulmasını müəyyənləşdirir. Çünki oğuzlarda bütün ilkin dəyərlər müqəddəs Oğuz Kağan tərəfindən yaradılmışdır.

Dədə Qorqud da Oğuz kimi müqəddəsdir: "Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyından Qorqut ata diyərlər bir ər qopdı. Oğuzın ol kişi tamam bilicisiydi, - nə diyərsə, olurdu. Ğaibdən dürlü xəbər söylərdi. Həqq təala onun könlünə ilham edərdi. (69, 31)

Bizim fikrimizcə, Azərbaycanlı mentalitetinin bütün semantik nüvəsi, o cümlədən ulu babalarımız oğuzların etnik-mental düşüncə sistemlərinin bütün strukturu abidədən nümunə verilmiş bu cümlədə rəmzləşmişdir. Dədə Qorqud obrazı, onun tarixi, əfsanəvi, bədii-poetik, mifoloji-dini və s. cizgiləri haqqında çox yazılmışdır. Qənaətimizcə, Dədə Qorqud həm də Azərbaycan-oğuz mentalitet dəyərlərinin simvoludur. Bu obrazda Oğuz etnosunun milli xarakteri öz əksini tapmışdır. Onu obrazlı şəkildə oğuz mentalitetinin əbədi heykəli adlandırmaq olar.

Abidə Dədə Qorqud obrazı haqqında yuxarıdakı cümlə ilə başlayır. Həmin cümlənin təhlili xalqımızın mentalitetinin mifoloji-epik xüsusiyyətlərinin üzərinə işıq saçır. Belə ki, təhlildən aşağıdakılar məlum olur:

1. Dədə Qorqud Məhəmməd peyğəmbərin (s.) zamanına yaxın anadan olmuşdur. Bu, o deməkdir ki, oğuzlar üçün müqəddəs sima olan Dədə Qorqud onlar islamı qəbul etdikdən sonra da müqəddəs sayılmışdır. Oğuzlar onu sonuncu peyğəmbər (s.) qədər əziz tutmuşlar. Oğuzların bütün müqəddəs

dəyərlərinin, o cümlədən etnik-mental dəyərlərinin Dədə Qorqudla bağlı olduğunu nəzərə alsaq, onun müqəddəsliyinin islam peyğəmbəri (s.) ilə əlaqələndirilməsi oğuzların öz etnik-mental dəyərlərinə islamı qəbul etdikdən sonra da sadiq qalmalarının ifadəsidir.

2. Dədə Qorqudun oğuzun bilicisi sayılması onun birbaşa oğuz etnik-mental dəyərlər ststeminin qoruyucusu, yaşadıcısı və ötürücüsü olması deməkdir. Demək, oğuz cəmiyyətində etnik-mədəni sistemi şərtləndirən bütün müqəddəs bilgilər Dədə Qorqudla bağlıdır. Bu halda o, həmin biliklərin daşıyıcısı kimi, oğuz etnik-mental dəyərlər sisteminin simvollaşmış obrazı kimi də çıxış edir.

3. Uca Allahın Dədə Qorqudun könlünə ilham verməsi, onun qeybdən, yəni ilahi aləmdən müxtəlif xəbərlər söyləməsi göstərir ki, o, etnik-mental dəyərlər sisteminin, sadəcə olaraq, qoruyucusu, yaşadıcısı və ötürücüsü yox, həm də sahibidir. Bu dəyərləri o, Tanrıdan informasiyalar şəklində alır və oğuzlara çatdırır. Demək, oğuzların ictimai davranışları üçün əsas olan mentalitet dəyərlərini Dədə Qorqud müəyyənləşdirir. Onun Tanrı ilə əlaqəsi var. O, Tanrının iradəsi ilə mentalitet dəyərlərinə müdaxilə edib, onları zamana uyğun dəyişdirə də bilər.

Qeyd edək ki, abidənin müqəddiməsində Dədə Qorquda aid edilən ata sözləri verilmişdir. Bunlar, bizim fikrimizcə, oğuz etnik-mədəni sisteminin qanunlarının, ictimai, fərdi, dini, mənəvi davranışlarının əsasında duran etnik-mental dəyərlər - oğuz mentaliteti üçün əsas olan davranışlar qəlibidir.

Azərbaycanlı mentalitetinin mifoloji-epik qaynaqları türkologiyanın banisi Mahmud Kaşqarlının “Kitabi-divani-lüğət-it-tür” abidəsində də özünün parlaq təcəssümünü tapmışdır. Abidənin paremioloji sistemini - deyim vahidlərini tədqiq etmiş f.e.n. A.Xəlil oğuz mentaliteti üçün xarakterik olan kateqoriyaları tədqiq edərək sistemləşdirmişdir.

A.Xəlil qədim türk mentalitet dəyərlərinin abidədəki deyim vahidlərində necə əks olunması haqqında yazır: “Paremiyalarda əski türklərin yaşam

normaları, əxlaq və davranış kriteriyaları mükəmməl şəkildə əks olunur. Əski epoxanın ictimai münasibətlərində güc, ağıl, mərhəmət, səxavət və s. kimi keyfiyyətlər aparıcı mövqedədir". (63, 121)

Qədim türklərin etnik-mental dəyərlərinin Kaşqarlı "Divan"ında qorunub qalmış əsas dəyərlərindən biri "ərdəm" kateqoriyasıdır: "Türk cəmiyyətinin əsas intellekt vahidi kimi "ərdəm" semantemi xüsusilə seçilir. Bu semantem özündə ədəb-ərkan, əxlaq, bilik, mənəvi gözəllik, fəzilət, şərəf və ləyaqət kimi kateqoriyaları ehtiva edir. M.Kaşqarlı bu sözün (...) fəzilət, ədəb, tərbiyə hünər mənalarını ifadə etdiyini bildirir... Ərdəm əski türk cəmiyyətində etik minimumu ifadə edir. "Kitabi Dədə Qorqud»da Oğuz igidlərinə ad verilməsi zamanı iki əsas zəruri qabiliyyətdən (ərdəm və hünər) birinin ərdəm olduğu aydın şəkildə görünür. Ritualın icraçısı Dədə Qorqud Oğuz igidinin mənəvi və fiziki yetkinliyini təsdiq edəndən sonra boy başçısı Dirsə xan ona bəylik, başqa sözlə, sosial status verir, toplumda yerini müəyyənləşdirir. Beləliklə, ərdəmin bütövlükdə türk mədəni fenomenini ifadə etdiyi aydınlaşır". (63, 121-122)

Bildiyimiz kimi, əski türk cəmiyyətinin qayda-qanunları "törə" adlanmışdır. Bu baxımdan, "törə"ni həm də oğuz etnik-mental dəyərlər sisteminin adı kimi də qəbul etmək olar. "Törə" Kaşqarlı "Divan"ında da əsas yer tutur: "M. Kaşqarlı bu sözün (...) düzən, nizam, adət, yaradılmaq mənalarının olduğunu izah etmişdir… Törü islam öncəsi türk alplıq dönəminin həyat və yaşayış normalarını tənzimləyən etik yaşayış qaydalarını nəzərdə tutur. İslam çevrəsinə girdikdən sonra isə törü ilə şəriətin qoşalaşması baş verir. Törü prinsipləri daşlaşmış davranış qaydaları kimi etnik əxlaqı islam əxlaqına transformasiya edir. Bundan sonra törü türk üçün haqq-ədalət, insaf-mürvət kateqoriyalarına üzvlənmiş olur. Törü prinsipi ilə yaşayış islam mühitində də davam edir. Etnopsixoloji davranış forması kimi törü aydın şəkildə əski savlarda (atalar sözləri, məsəllər, andlar, alqışlar və s. - İ.A.) əks olunur. Bu mənada törü təkcə bu terminin işləndiyini deyimlərlə məhdudlanmır. Əslində, savlar törünün mühafizəsini təmin edən əsas müddəalar, hökmlərdir". (63, 122)

Göründüyü kimi, “törü”, yaxud “törə türklərin mənəvi-əxlaqi dəyərlərinin, milli düşüncə və davranışların əsasında duran etnik-mental sistemin ümumi adıdır. Bu sistemə “uluğluğ” (ululuq - böyüklük) da daxildir.

M.Kaşqarlı “Divan”ındakı “paremiyalardan görünən etik-əxlaqi institutlardan biri də “uluğluğ”dur (böyüklük). Bu institut özündə böyüklərə hörmətin bir davranış norması olduğunu nəzərdə tutur. (63, 123)

«Divan»da türk mentalitetinin əsas dəyərlərindən biri olan “yaxşılıq” “ezgülük” adı altında keçir: “Türk etnik mentalını, etik-mənəvi keyfiyyətlərini seciyyələndirən xarakterik əlamətlərdən biri də yaxşılıqdır. Bu keyfiyyət özündə xeyir əməlləri birləşdirir”... Bu və başqa misallardan göründüyü kimi, türk xalq deyimləri türk üçün yaxşılığı bir etik norma kimi təqdim edir”. (63, 123-124)

M.Kaşqarlı «Divan»ında türk etnik-mental sistemi üçün xarakterik olan “səxavət”, “qonaqpərvərlik”, “abır-həya”, “mərdlik”, “borc”, “zirəklik”, “güc” kateqoriyalar da vardır. A.Xəlilin tədqiqatından aydın olur ki, “açığlıq” (səxavət) bir çox hallarda semantik baxımdan sintetik xarakterli olduğundan eyni zamanda özündə bir neçə keyfiyyəti işarələyə bilir... Bu mənəvi keyfiyyat türk xarakterində mühüm yer tutur. Çünki mala-mülkə bağlı olmağın neqativ cəhətlərini göstərən başqa əməklər də bunu təsdiqləyir. (63. 124)

“Əski türk xalq deyimlərində qonaq müqəddəslik səviyyəsində olan dəyərlərlə bir sferaya daxil edilir. Qonaq əski türk üçün ən mühüm uğur elementi olan “qut”un daşıyıcısı kimi təqdim olunur. (63. 124)

Kaşqarlı “Divan”ında “uvut” – “abır-həya” kimi əski əxlaqi keyfiyyəti əks etdirən paremiyalar da işlənmişdir. (63. 124)

“Ataç (mərd). Paremiyalarda mərdlik, insan ləyaqəti və onu şərtləndirən bir sıra etik-mənəvi keyfiyyətlər müxtəlif formalarda əks olunmuşdur. DLT-də (“Divanü-lüğət-it-Türkdə” - İ.A) kişi və qadın mərdliyi, ləyaqəti ayrı-ayrı vahidlərlə işarələnir. Ləyaqətli kişini ataç, bəy, alp ər, açıqlıq ər, ezgü ər, qadını isə anaç, qatun kimi söz və ifadələr işarələyir”. (63.124-125)

Alım (borc). Türk üçün haqq-hesabın dəqiqliyi, hər bir işin vaxtında görülməsi kimi xarakterik xüsusiyyətlərin paremiyalarda əks olunması bu keyfiyyəti də əxlaqi-mənəvi sferaya daxil edir. (63. 125) "Divan"da, o cümlədən "ərik" – "zirəklik tənbəlliklə binar oppozisiyada verilir və birincinin pozitivliyi bildirilir". (63,125)

Bundan başqa, Divan"da əski mental kateqoriya kimi təqdim olunmuş "güc (güclülük) "əski cəmiyyətin, xüsusilə də alplıq epoxasının çox mühüm bir hadisəsidir. Amma paremiyalarda güc həm də mənəvi bir hadisə kimi görünür". (63, 125)

A.Xəlilin tədqiqatına görə "Divan"dakı "savların içərisində "al" (hiylə), "ərməgü" (tənbəllik), "buşmasar" (kallıq), "öqünqüçi" (lovğalıq), "evek" (tələsgənlik), "isizlik" (pislik) və s. keyfiyyətlər isə neqativ anlamda işlənir. Bu da öz növbəsində türk əxlaqi-mənəvi kriteriyaları haqqında geniş təsəvvür yaradır. (63, 125)

Qeyd olunan mənfi əxlaqi kateqoriyalar da türk mentalitet sisteminə daxildir. Çünki mentalitet dəyərləri bir sistem olaraq təkcə bəyənilən etnik-mental xüsusiyyətlərin yox, eyni zamanda bəyənilməyən, ictimai-etnik davranış tipi, forması və keyfiyyəti kimi qəbul olunmayan kateqoriyaları da əhatə edir.

Mifologiyamızla qaynaqlaşan etnik-mental dəyərlər sitemimiz daha sonra zaman ardıcıllığı ilə arxaik-mifoloji eposlarda, klassik qəhrəmanlıq dastanlarında və orta əsrlər qəhrəmanlıq eposumuzda yaşamaqda davam etmiş və günümüzədək gəlib çıxmışdır. Oğuz babalarımızın etnik-mental dəyərlər sistemi əvvəlcə miflərdə yaşamış, sonra Oğuz Kağanla bağlı oğuznamələrə keçmiş, daha sonra "Kitabi-Dədə Qorqud" oğuznamələrinin mənəvi-əxlaqi əsaslarını təşkil etmişdir. Bu silsilədə "Koroğlu" eposunun xüsusi yeri vardır.

"Koroğlu" eposunda ifadə olunmuş milli mentalitet dəyərləri bizə zaman baxımından daha yaxındır. "Kitab-Dədə Qorqud" oğuznamələrində ifadə olunmuş mentalitet xüsusiyyətləri daha çox arxaik-mifoloji dəyərlər sistemini əks etdirir. "Koroğlu" eposu isə oğuz epik ənənəsinin orta əsrlərdə ifadəsi

olmaqla mifoloji olmaqdan üstün hadisədir. Belə ki, “Kitabi-Dədə Qorqud”un milli düşüncə sisteminin əsasında tayfaçılıq dövrünün (ulu babalarımız olan oğuz tayfalarının) dünyagörüşü dururs, “Koroğlu” orta əsrlər hadisəsi kimi Azərbaycan xalqının ümumoğuz kütləsindən üzvlənərək ayrıca Azərbaycan-türk xalqına çevrildiyi dövrün milli düşüncəsini ifadə edir. Bu cəhətdən “Koroğlu” eposunun etnik-mental dəyərlər sistemi bizim üçün, bir növ, müasirdir.

Dastanda mentalitetimiz üçün əsas olan qəhrəmanlıq ruhu ifadə olunmuşdur. Qəhrəmanlıq ruhu xalqımızı formalaşdıran, ayaq üstə saxlayan, bir xalq kimi təsdiq edən, mübarizələrə qaldıran əsas mentalitet dəyəridir. Həmin ruh “mərd(lik)-namərd(lik)” əxlaqi-mənəvi davranış modeli kimi dastan qəhrəmanlarının bütün epik hərəkətlərinin əsasında durur. Koroğluşünas alim Y.İsmayılova yazır: “Bildiyimiz kimi, dastanda qarşı duran tərəfləri təşkil edən obrazlar sabit süjet hərəkətlərinə malik olduqları kimi, sabit epik xarakterə də malikdir. Daha aydın desək, dastanda, yaxud hər hansı digər epik mətndə qəhrəman Mərdliyi, antiqəhrəman isə Namərdliyi təmsil edir. Eləcə də bunu Adillər-Zalımlar və s. kimi də təsnif etmək mümkündür. Bu baxımdan, dastandakı obrazları biz “Mərdlər və Namərdlər” kimi də təsnif edə bilərik. Əgər nəzərə alsaq ki, “Koroğlu” dastanında sosial semantika epik konfliktin əsasını təşkil edir, onda qarşı duran qütbləri biz sosial-etik baxımdan müxtəlif səviyyəli terminlərlə işarələyə bilərik:

Mərdlər – Namərdlər

Haqlılar – Haqsızlar

Adillər – Zalımlar

Dostlar – Düşmənlər

Yaxşılar – Pislər

Kasıblar – Varlılar və s.”. (68, 89)

Qeyd etmək istəyirik ki, tədqiqatçının dual prinsiplə düzdüyü obrazlar sistemi əslində, orta əsrlər Azərbaycan etnik-mental dəyərlər sisteminin dastandakı obrazlaşmasıdır. Başqa sözlə, etnik-mental sistemin dəyərləri

dastanda obrazlara çevrilmişdir. Bu baxımdan, Y.İsmayılovanın verdiyi sistemi asanlıqla eposda öz əksini tapmış mentalitet dəyərlərinin sisteminə çevirmək mümkündür.

mərdlik – namərdlik

haqlılıq – haqsızlıq

adillik – zalımlıq

dostluq – düşmənçilik

yaxşılıq – pislik

Dastandan aydın olur ki, xalqımızın mentalitet düşüncəsində "mərdlik – namərdlik" qəlibi əsas yer tutmuşdur. Dastanda qarşı duran qüvvələrin əsaslandıqları başlıca mənəvi-əxlaqi prinsip budur. Mərdlik bir yaşam formulu kimi dastanın bütün qollarında öz ifadəsini tapmışdır. Məsələn, bu əsas mentalitet xüsusiyyəti "Koroğlunun Qars səfəri" qolunda bir epizodda parlaq şəkildə ifadə olunmuşdur:

"Eyvaz xəncəri çəkdi, dayadı Ərəb Reyhanın boğazına. Ondan döndü Koroğluya tərəf ki, görsün, onun fikri nədi?

Koroğlu dedi:

- Eyvaz, mən bir dəfə onu mərdliklə basıb, mərdliklə də buraxmışdım. Amma o, bunun əvəzində mənə namərdlik elədi. Namərd də gərək dünyada yaşamasın". (70.283)

Tədqiqatçı Y.İsmayılova bu epizoda münasibət bildirərək yazır: "Koroğlunun dili ilə verilmiş bu epik fəlsəfəyə görə, yəni dastanın daşıdığı, təqdim etdiyi epik əxlaq ideallarına görə, namərd bu dünyada yaşamamalıdır. Dünya mərdlərin dünyasıdır. Mərdlər daim namərdlərin kökünü kəsməlidir. Koroğlu bu prinsiplə yaşayır". (68, 153)

Beləliklə, "Namərdlərin bu dünyada yaşamaq haqqının olmaması Azərbaycan mentalitetinin orta əsrlərdən üzü bəri əsas münasibət formullarından birini təşkil edir. Xalqımız heç vaxt namərdliyi qəbul etməmiş, mərdliyi

alqışlamışdır. “Koroğlu” dastanı orta əsrlər azərbaycanlı düşüncəsində olan mərd-namərd qəlibini bədiiləşdirərək bizə yuxarıdakı formada təqdim etmişdir.

Azərbaycanlı mentalitetinin ən qədim dəyərlərindən biri igidlikdir. İgidlik “Koroğlu” dastanı qəhrəmanlarının əsas poetik cizgisini təşkil edir. Dastanda igidlik yüksək mənəvi-əxlaqi keyfiyyət, Azərbaycan-türk ərdəmliyinin əsas sifəti kimi tərənnüm olunur və qorxaqlığa qarşı qoyulur. “Həmzənin Qıratı qaçırması qolunda Hasan Paşa ilə Koroğlunun arasındakı dialoqda və Koroğlunun söylədiyi qoşmada “igidliyin” (“qoç igidin”) struktur keyfiyyətləri ifadə olunmuşdur.

Keçəl Həmzə namərdlik edib Koroğlunun atını qaçırır, Hasan paşaya verir. Koroğlu Qıratın ardınca gəlir və aşıq libasında saraya daxil olur. Paşanın məclisində onların arasında belə bir dialoq olur.

“Hasan paşa dedi:

- Aşıq, dediyin haman o Qırat bu saat mənim tövləmdədi. İndi de görüm, mən ki, onu Koroğlunun əlindən çıxartmışam, mən igidəm, Koroğlu?

Koroğlu dedi:

- Paşa, əgər doğrudan da belədirsə, onda sən igid adamsan. Ancaq paşam, igidlik ondu. Sən onun birini eləmisən. Qulaq as o birilərini də sənə deyim:

Sənə deyim qoç igidin nişanın,
Aça yağılarla meydan gərəkdi.
Nərə çəkib atılanda ortaya
Qaça qabağından düşman gərəkdi.

Təslim deyib qəniminə etməyə,
Əcəl çağı yoldaşından dönməyə,
Düşman qabağında heç vaxt sinməyə.
Meydanlarda qızmış aslan gərəkdi.

Qoç Koroğlu meydan açıb öyünü,

Namərd sinəsinə çəkər düyünü,

Ac qurdlardan saldırmağa qoyunu

Qurd ağızlı qoçaq oğlan gərəkdi". (70.283)

Beləliklə, "Koroğlu" dastanına əsasən görürük ki, orta əsrlər azərbaycanlı mentalitetində "igidlik" ən əsas cizgi ilə ifadə olunur. Başqa sözlə, orta əsr igidi üçün on mental xüsusiyyət lazımdır. Onlar Koroğlunun dilindən söylənmiş qoşmada sadalanmışdır. Şeiri təhlil etmiş koroğluşünas Y.İsmayılova yazır: "Bu şeirdə igidliyin on şərti ifadə olunub. O şərtlər ki, Koroğlu bir igid olaraq həmin şərtlər - igidlik nişanələri ilə yaşayır. Fikrimizcə, bu, orta əsr Azərbaycan epos qəhrəmanının igidlik kodeksidir. Qoç igidliyin şərtlərinə görə:

1) Qoç igid yağılara meydan açmalıdır:

2) Qoç igid düşmən üstünə gedəndə dəli nərə çəkməlidir;

3) Qoç igid düşməni qabağına qatıb qovmalıdır;

4) Qoç igid heç vaxt düşmənə təslim olmamalıdır;

5) Qoç igid ölüm təhlükəsi olsa belə, yoldaşını atmamalıdır;

6) Qoç igid düşmən qabağında heç vaxt əyilməməlidir;

7) Qoç igid meydanlarda qızmış aslan kimi döyüşməlidir.

Koroğlu igidliyin qalan üç şərtini şeirin sonuncu bəndində bilavasitə özü ilə əlaqələndirir. Yəni qoç igid:

8) Koroğlu tək özünü düşmən qabağında öyməlidir;

9) Koroğlu tək namərd sinəsinə düyün (dağ) çəkməlidir;

10) Koroğlu tək qurd ağızlı qoçaq oğlan olmalıdır". (68, 110-111)

Beləliklə, birinci fəsildə aparılmış araşdırma göstərdi ki, Azərbaycan milli düşüncə sisteminin əsasını təşkil edən mentalitet dəyərləri öz başlanğıcı etibarilə mifoloji-arxaik qaynaqlara gedib çıxır. Hər bir xalqın mentalitet dəyərləri onun milli simasını müəyyənləşdirir. Milli sima, milli ruh, milli xarakter mifologiya ilə sıx bağlıdır. Çünki mifologiya hər bir xalqın düşüncəsinin əsasını təşkil edir. Milli mentalitet dəyərlərinin müqəddəsliyi

onların mifoloji-arxaik ilkinliyi və saflığı ilə müəyyənləşir. Mifologiya ilə müəyyənləşən mentalitet dəyərləri folklora keçərkən daha da inkişaf edib yeni məzmun və forma kəsb edir.

II FƏSİL

MİLLİ MENTALİTET DƏYƏRLƏRİ VƏ FOLKLOR

Azərbaycan fokloru özünün rəngarəng növ və janrlar stistemi ilə bu gün dünyanın ən zəngin folklor ehtiyatlarını təşkil edir. Sözə qarşı həssas olan xalqımız özünün bütün mənəvi, əxlaqi, siyasi, ictimai, iqtisadi, mədəni təcrübəsini folklorunda yaşatmışdır. Bu cəhətdən milli mentalitet dəyərlərimiz

böyük bir mənəviyyat xəzinəsi olan aşıq şeirimizdə (bax: 2; 3 və s.), möhtəşəm dastan dünyamızda (bax: 4; 5; 6; 7; 8; 9; 10; 11; 12; 13; 36; 37; 38 və s.), dünya nağılçılıq fondunun ən zəngin səhifəsi olan nağıllarımızda (bax: 30; 31; 32; 33; 34: 35; 40; 41, 42, 43, 44 və s.), o cümlədən folklorumuzun məzmun və forma baxımından əsrarəngiz bədii söz gülşəni olan digər janrlarında (bax: 14; 15; 16; 17; 18; 19; 20: 21; 22: 23; 24; 25; 26; 27; 28: 29 və s.) özünün tarixi koloritini və bütün milli təravətini (özünüməxsusluğunu) qoruyaraq yaşamaqdadır.

Milli mentalitet dəyərləri çox geniş anlayış olub, böyük bir sistemi təşkil edir. Buraya xalqımızın tarixi-mədəni həyatının istisnasız olaraq bütün sahələri aiddir. Bu cəhətdən milli mentalitet dəyərlərini bir tədqiqat həcmində bütün incəliklərinə qədər əhatə etmək mümkünsüzdür. Bu da öz növbəsində bizim qarşımıza əsas istiqamətləri əhatə etmək vəzifəsini qoyur. Belə hesab edirik ki, ilk olaraq aşağıdakı istiqamətləri əhatə etmək məqsədəuyğundur:

1. Etnik-siyasi həyatla bağlı milli mentalitet dəyərlərinin folklorumuzdakı inikası. Buraya ilk növbədə vətən, el-oba, yurd, dövlət, dövlətçilik və s. ilə bağlı milli mentalitet dəyərləri aiddir.

2. Mənəvi-əxlaqi münasibətlərlə bağlı milli mentalitet dəyərlərinin folklorumuzdakı inikası. Buraya insanlararası mənəvi münasibətlər, ailə münasibətləri, etik-estetik münasibətlər, ar, namus, qeyrət, abır, həya, böyük-kiçik və s. ilə bağlı milli mentalitet dəyərləri aiddir.

3. Sosial-iqtisadi münasibətlərlə bağlı mentalitet dəyərlərinin folklorumuzdakı inikası. Buraya mal-əmtəə münasibətləri, xalq hüququ, alış-veriş və s. ilə bağlı milli mentalitet dəyərləri aiddir.

2.1. Folklorda vətən, yurd sevgisi ilə bağlı mentalitet dəyərləri

Azərbaycan folklorunda vətən, el-oba, dövlət, dövlətçiliklə bağlı milli mentalitet dəyərləri rəngarəng bədii obrazlar vasitəsi ilə ifadə olumuşdur. Foklorumuzu nəzərdən keçirdikcə xalqımızın öz vətəninə, dövlətinə necə

müqəddəs münasibət bəsləməsinin, yurd uğrunda öz şirin canlarından asanlıqla keçmələrinin şahidi oluruq.

Folklorumuzda vətən sevgisi müxtəlif bədii obrazların dili ilə ifadə olunmuşdur. Məsələn, aşağıdakı atalar sözlərində insanın vətən sevgisi ilə bülbülün vətən sevgisi qarşılaşdırılmışdır:

Bülbülü qızıl qəfəsə salmışlar, "Vay vətən!" demiş. Bülbül gülü sevər, insan vətəni. (1, 158)

Azərbaycan və ümumiyyətlə, Şərq ədəbi düşüncəsində bülbül sevginin, həsrətin, vurğunluğun rəmzi sayılır. Bülbülün qəfəs içində azadlıq həsrəti ilə qəmli nəğmələr oxuması təbii-bioloji hadisədir. Xalqımız bu hadisəni bədilləşdirmiş və eyni zamanda Azərbaycan insanının mentalitetindəki yurda, el obaya, vətənə olan qırılmaz və sarsılmaz bağlılıq dəyərləri də poetik şəkildə obrazlaşmışdır.

Xalqımızın milli mentalitet dəyərlərinə görə, vətən ilk növbədə insanın dünyaya göz açdığı məkandır. Bu halda həmin məkanın necə bir yer olmasının yəni təbii gözəlliklərinin olub-olmamasının azərbaycanlı üçün elə bir əhəmiyyəti yoxdur. Bu faktor onun vətən anlayışına heç bir təsir edə bilməz. Azərbaycanlı üçün vətən onun dünyaya gəldiyi yerdir. O yer ki, insan dünyanı ilk dəfə burada görür və gördüyü andan qəlbinə, ruhuna vətən məhəbbəti hopur. Anadan olduğu məkan azərbaycanlının ömrünün sonuna qədər əbədi sevgisi olaraq qalır. Çünki Azərbaycan milli mentalitetinə görə, insanın harada anadan olması onun taleyinə Allah tərəfindən yazılır, bu onun qismətidir. Xalqımız belə hesab edir ki, "Qismətdən qaçmaq olmaz". Bütün bunlar folklorda maraqlı bədii obrazlar vasitəsi ilə təcəssüm olunmuşdur.

Əbülqasim Hüseynzadənin topladığı bir atalar sözündə deyilir:

"Qartala dedilər:

- Harda anadan olmusan?

Dedi: - Uca dağlarda.

Dedilər: - Haraya uçursan?

Dedi: - Uca dağlara”. (1, 168)

Bu atalara sözündə Azərbaycan mentaliteti üçün xarakterik olan fəlsəfi hikmət ifadə olunmuşdur. İlk baxışdan sadə görünən bu mətndə mif çağının dünyagörüşü alt qatı təşkil edir. Xalqımızın milli təfəkkürü inkişaf etdikcə mifik görüş daha da zənginləşmişdir. Bu cəhətdən üç əsas transformativ qatı bərpa etmək mümkündür:

1. Mifoloji informasiya qatı
2. Tanrıçılıq dünyagörüşü qatı
3. İslami dünyagörüşü qatı

Məlumdur ki, mifoloji dünyagörüşündə zaman və məkan qapalı quruluşa malikdir. Hərəkət hansı nöqtədən başlanırsa, yenə də həmin nöqtəyə qayıdaraq tamamlanır. Mifdə məkan və zamanın hərəkəti qapalı olmaqla, təkrarlanan struktura malikdir. Bu cəhətdən uca dağlarda anadan olmuş qartalın yenə də uca dağlara üz tutması onun varlığında təcəssüm olunan hərəkət qəlibinin qapalı quruluşa malik olduğunu göstərir.

Türk tanrıçılıq dini mifoloji görüşlər əsasında formalaşmış monoteist (təktanrılı) dindir. O, özünün məzmun və forma qəliblərini türk mifologiyasından götürdüyü üçün həmin atalar sözündəki xronotop qəlibi (məkan-zaman sistemi) dəyişməz qalmışdır.

Mifin atalara sözündə ifadə olunmuş struktur formulu islam dinində daha da inkişaf etdirilmişdir. İslam dinində hər bir şey Allahdan başlanıb, Ona doğru qayıdır. Müqəddəs Qurani-Kərimin təlqin etdiyi fəlsəfəyə görə yaradılış aləmindəki hər bir ünsür öz ilkin şəklinə qayıdır. İslam fəlsəfəsi insanın həyatını Allahdan başlanıb, yenə də Onda tamamlanan qapalı dövrə kimi təqdim edir. Bu cəhətdən, uca dağlarda anadan olmuş qartalın bütün ömrü boyu həmin uca dağlara doğru uçmasında mifin, tanrıçılığın və islamın həyat fəlsəfələri bir-birinə transformasiya olunmuşdur. Burada bir cəhət göz önünə gətirilməlidir ki, azərbaycanlılar üçün islami dəyərlər müqəddəsdir. Onların dünyagörüşündə islam dini tərəfindən qəbul olunmayan, islam fəlsəfəsi ilə təsdiq olunmayan

görüşə yer ola bilməz. Digər atalar sözlərini nəzərdən keçirdikcə milli mentalitetimizdə çox mühüm yer tutan vətən, yurd dəyərlərinin islam dəyərləri vasitəsi ilə müqəddəsləşdirildiyinin şahidi oluruq:

Vətən viranə də olsa, cənnətdir.

Vətənə gəldim, imana gəldim.

Vətənə məhəbbət iman əsəridir. (1.167-168)

Göründüyü kimi, birinci atalar sözündə vətən cənnətə bərabər tutulmuşdur. Cənnət islam dinində mömin müsəlmanların öləndən sonra sakin olacaqları əbədi məkandır. Azərbaycanlı milli mentalitetində "vətən" anlayışının "cənnət" anlayışı əsasında dəyərləndirilməsi iki cəhəti üzə çıxarır:

1. Azərbaycan xalqının milli şüurunda islam dini əsas dünyagörüşüdür. Bu səbəbdən vətən ən uca islami dəyər olan cənnətlə müqayisə olunur.

2. Azərbaycan xalqı vətəni ona görə cənnətlə müqayisə edir ki, o, vətəni müqəddəs sayır. Vətən abad, yaxud xaraba olub-olmamasından asılı olmayaraq, azərbaycanlı üçün müqəddəs və sevgili məkan hesab olunur.

Azərbaycan xalqının milli mentalitet düşüncəsində vətən, el-oba, yurd adi cansız məkan, torpaqdan ibarət deyildir. Azərbaycan insanı öz doğmalarını necə görürsə, yurdunu da elə görür: ona insani obraz verir. Prof. A.Hacılının yazdığı kimi, insan, əslində, ətrafı öz içində, vətəndaş vətəni öz daxilində, yurddaş yurdu öz qəlbində görür. Azərbaycan türkü beləcə öz daxili aləmini ətrafa, təbiətə mühitə keçirir, yurd canlanır, mənəviləşir, insan obraz kimi qavranılır. Cografi mənzərə ilə insan arasında eyniyyət, psixoloji paralelizm yaranır və bu vəhdət adi bədii metafora deyil, magik şüurla bağlı sintetik anlam, sakral simvoldur. Azərbaycanlı Azərbaycanı adi bir məkan kimi qavramır, qarşısında məsuliyyət duyduğu, sevdiyi, süslədiyi, qınadığı, acıladığı, fərəhləndiyi, halına yandığı ümumiləşmiş bir şəxs, ali bir müsahib, canlı surət kimi duyur. Yurddaşımız vətən torpağı ilə daim belə daxili təmasda olduğundan dağların nifrinindən, çayların coşmasından, torpağın küsməsindən, göylərin

qəzəbindən çəkinir, əksinə, təbiətin bir insan kimi səxavətindən qürrələnir. (60, 53)

Azərbaycan xalqının vətənə, yurda, el-obaya bağlılığı folklorda qəriblik – qürbət motivi və qərib obrazında özünün parlaq təcəssümünü tapmışdır. Bu barədə çoxlu atalar sözləri vardır:

Vətən yadına düşən qərib ağlamasın, neyləsin?

Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır. (1,168)

Qürbət - adı bəd.

Qürbət yerdən vətən olmaz.

Qürbət görməyən adam vətən qədri bilməz.

Qürbətdə keçən ömür, nə dəmirdir, nə kömür.

Qürbətdə ölənin papağı nişanə gedər.

Qürbətdə öyünmək, hamamda oxumağa bənzər. (1, 230)

Azərbaycan folklorunda qürbət, qəriblik "Aşıq Qərib" dastanının qəhrəmanı Qəribin adında çox geniş təsəvvüfi-islami mənalar kəsb etmiş və bu obraz xalq tərəfindən sevilmişdir. F.e.d. H.İsmayılov bu dastanın geniş yayılmasının səbəbləri üzərində düşünərək yazır: "Qəribə belə məhəbbət hardandır? Bu işarə altında hansı informasiya gizlənir? Bizə görə, Qəribin belə nüfuz qazanmasına səbəb birbaşa "qəriblik" hissinə bağlıdır. Azərbaycan dilində "qərib" çox emosional səslənir və çox semantik çalarları vardır. Bu semantemlərdən biri də tənhalıq hissidir (hicran). Azərbayan xalq poeziyasında (həmçinin yazılı ədəbiyyatda) «qəriblilik» nəsə ilahi məziyyət daşıyır: göyün doqquzuncu təbəqəsindəki vahid Allahdan başqa yer üzündə heç kimi olmayan Tənha insan. Yalnız O, (Uca Allah - İ.A.) insanı bu vəziyyətdən qurtara bilər. "Qərib" sözü türk mənşəli olmasa da, leksik statusda qətiyyən fərqlənmir və Azərbayan şeir sisteminin poetik elementidir. Məsələn, Aşıq Qərib uzun ayrılıqdan sonra ana və bacısı ilə görüşərkən oxuduğu gəraylı belədir:

Uzaq yollardan gəlmişəm,

Ana, mən Qəribəm, Qərib.

Qəriblikdən xəbər verim,

Bacı, mən Qəribəm, Qərib”. (67, 152)

H.İsmayılovun şərhindən göründüyü kimi, məhəbbət dastanlarında qəriblik ilahi hissdir. İnsanın yad bir məkana düşməsi onun ilahi qismətindən iraq düşməsi anlamına gəlir. Demək, azərbaycanlının vətənə bağlılığı ilahi hadisədir. Onun vətəni təsadüfən anadan olduğu bir yer yox, İlahinin qismətidir. Ona görə də xalqımız vətəni dini-imanı qədər əziz tutub, müqəddəs sayır.

Vətəndən ayrılıq azərbaycanlı üçün çox çətin hadisədir. Məhəbbət dastanlarında buta almış qəhrəman həmişə qürbətə yola düşməli olur. Ata və anası, doğmaları onu buraxmaq istəmir. Çoxlu göz yaşları töksələr də, yalnız ilahi qismət qarışısında güzəştə gedirlər. Məsələn, “Əsli və Kərəm” dastanında Kərəm Əslini götürüb qaçmış Qara Keşişin ardı ilə getmək istəyir. Atası və anası bu işə razı olmurlar:

“Söz tamam oldu. Kərəm dedi:

- Ata, mənim dərdim Keşiş qızı Əsli xanın dərdidi.

Ziyad xan dedi:

- Oğul, sən gəl o qızın eşqini ürəyindən sil! Mən burada könlün istədiyi bir qızı sənə alaram.

Kərəm dedi:

- Ata, mənə Əslidən qeyr-əz-gözəl lazım deyil. Mən gərək onu axtaram, tapam.

Ziyad xan dedi:

- Oğul, gəl sən bir keşişin qızından ötrü diyar-qürbətə düşmə!

Kərəm dedi:

- Ata, izn ver, mən gedim. Qürbət mənə xoşdu. Bəlkə, qismət ola, yarıma yetişəm.

Ziyad xan dedi:

- Oğul, sən ki bu sevdadan əl çəkmirsən, get. Allah sənə yar olsun”. (5,24)

Göründüyü kimi, Ziyad xan oğlunun qürbətə getməsini- vətəndən uzaq düşməsini heç bir vəchlə qəbul etmək istəmir. Lakin bu ayrılığın İlahi qisməti olduğunu biləndən sonra razılaşır, oğluna "get, Allah sənə yar olsun" deyir. Bu, o deməkdir ki, azərbaycanlılar öz vətənlərindən ancaq İlahi naminə - Allah bəyəndiyi əməllər naminə uzaq düşməyə razı olurlar. Bu cəhətdən vətən və qəriblik anlayışlarının milli mentalitetimizdə kəsb etdiyi yüksək ilahi mənalar, təsəvvüfi-irfani anlamlar Kərəmin anası ilə dialoqu zamanı söylədiyi şeirdə bütün poetizmi ilə öz əksini tapmışdır.

Kərəm atasının əlindən öpdü. Sofi ilə birlikdə anasının yanına getdi. Anası bunu belə görəndə xəbər aldı:

- Oğlum, belə gəlməyinin əsli nədi?

Kərəm dedi:

-Ana can, izn ver saznan deyim.

Aldı Kərəm, görək anasına nə dedi:

Qəm, qəzavət bu gün başa verildi.
Ağla, ana, aynlığın günüdü!
Bizə qismət qərib ellər yazıldı,
Ağla, ana, ayrılığın günüdü!

Məni xar elədi elin dilləri,
Mən gedirəm, gözləməyin yolları;
Varıban gəzərəm qürbət elləri,
Ağla, ana, ayrılığın günüdü!

Fələk bizi daşa çalar nə üzlər,
Ana, intizarda qalmasın gözlər;
Kərəm deyər: Əslim yolumu gözlər,
Ağla, ana, ayrılığın günüdü". (5.24-25)

Göründüyü kimi, burada qəriblik ilahi qismətdir. Vətəndən çıxmaq ayrılıq günü sayılır. Ona görə ki, azərbaycanlılar harada olurlarsa-olsunlar vətəndən kənarda özlərini heç vaxt xoşbəxt hiss etmirlər. Onlar öz vətənlərində keçirdikləri kasıb həyatı qürbətdə keçirdikləri varlı həyatdan üstün tuturlar. Bu, "Uzaq yerin halvasın hoza ilə döyərlər" atalar sözündə daha aydın mənalandırılmışdır. Başqa sözlə, insana öz vətənində çox asan başa gələn iş qürbətdə həddindən artıq çətin başa gəlir.

Öz vətənindən uzaq düşmüş azərbaycanlı daim yurdun intizarında olur: yurddan ayrı düşəndə gözü yaşlı, ürəyi qəmli, qulağı səsdə olur:

Əzizim çeşmə, haray,
Gözümnən getmə, haray.
Əldən çıxıb bulaxlar,
Gəzirəm çeşmə, haray. (26, 376)

Öz vətənindən uzaq düşən azərbaycanlı üçün ən böyük dərd qürbətdə ölməkdir. Ömrünü qürbətdə keçirməyə məcbur olduqda onun bircə müqəddəs arzusu olur: öləndə vətəndə ölmək:

Dağlarda lalə yalqız,
Gül qoşa, lalə yalqız
Qorxuram qərib öləm,
Qəbrim də qala yalqız. (26, 376)

Qürbət azərbaycanlı üçün bütün gözəlliyi ilə bərabər dərd, ağrı, acıdır. Çünki o, öz vətənində deyildir. Bütün varlığı ilə vətəninə, yurduna bağlı olan azərbaycanlının qəlbi qürbətdə həssaslaşır: qəribliyin kiçik bir zərbəsi də onun üçün böyük bir əzaba, ağrıya dönür:

Eləmi bu dar məni,
Həm sixar bu dar məni.
Qürbətdə qalan canım
Hər yetən budar məni. (19, 324)

Maraqlıdır ki, elat həyatı yaşayan azərbaycanlı hətta müvəqqəti olaraq dağlardan ayrı düşəndə də qəriblik hissi keçirir. Bildiyimiz kimi, elat insanları yayı yaylaqda (dağlarda), qışı aranda keçirirlər. Xalqımız bu ayrılığa da dözməyib öz qəriblik hisslərini bayatıya çevirmişdir:

Əzizim bizim dağlar,
Dibi buz-bulax dağlar.
Dağda yaylax eliyən,
Aranda qalıf ağlar. (26, 376)

Ümumiyyətlə, bayatılar folklorumuzun poetik möcüzəisdir. Prof. A.Hacılının yazdığı kimi: "Hər bir bayatı yalnız ümumiləşmiş insan obrazının və ya müəyyən tipik situasiyanın bədii inikası deyil, həm də poetik dünya modeli, həyat haqqında ənənəvi bədii-estetik təsəvvürlər məcmusudur. Bədii modelləşdiricilik bir sıra vasitələrlə, o cümlədən mətndə təbii, ictimai və sakral mühitlərin paralelliyi ilə yaradılır. Bundan əlavə bədii simvolika, alleqoriya, ritoriklik və şərtilikdən istifadə modelləşdiriciliyə xidmət edir. Təsvir olunan mənzərə real və simvolik, təbii və sakral məkanların ehtizası təmasından yaranır. Ümumi cizgiləri türk dünya modelinə uyğun gələn bu bədii mənzərə əsərin məna dərinliyi və fəlsəfiliyini əsaslandırır". (59.91)

Bayatılar xalq ruhunun emosional zənginliyini ifadə etmək baxımından ən geniş yayılmış janrdır. Müasir dövrdə xalqımızın taleyinə erməni vəhşiləri tərəfindən yazılan qaçqınçılıq dərdi də ilk növbədə bayatılarımızda öz əksini tapmışdır:

Aşığam qarğa verər,
Qarıldar qarğa verər.
Qaşqınnıxda ölənin,
Xəbərin qarğa verər. (19, 398)

Yurda bağlılıq xalqımızın canında, qanındadır. Vətən məhəbbəti azərbaycanlı üçün elə bir hissdir ki, dünya durduqca onu tərk etməyəcək. Biz Qarabağla bağlı bayatıları nəzərdən keçirdikdə görürük ki, xalqımızın vətənin

birliyi və bütövlüyü haqqındakı hissləri sarsılmaz və əbədidir. Heç bir düşmən, onun məkri və hiyləsi, gücü və qüdrəti Azərbaycan xalqını vətəninə bəslədiyi məhəbbətdən, o cümlədən vətənimizin ayrılmaz parçası olan Qarabağdan döndərə bilməz. Məsələn, aşağıdakı bayatıda xalqımızın Qarabağa bəslədiyi məhəbbət Kərəmin Əsliyə bəslədiyi məhəbbətlə müqayisə olunmaqla bu sevginin ilahi eşq, ilahi qismət olduğuna işarə edilmişdir. Qarabağ bir vətən olaraq Azərbaycan xalqının İlahidən gələn payıdır və xalqımız heç vaxt öz qismətindən üz döndərməyəcəkdir:

Qarabağ balasıyam,
Qarabağ salasıyam.
Ay yurdumun Kərəmi,
Mən Əsli olasıyam. (19, 329)

Azərbaycan xalqı Qarabağdan müvəqqəti ayrı düşsə də, butün varlığı ilə yenə də Qarabağdadır: cismani ayrılıq mənəvi bütövlüyə xələl gətirə bilməmişdir. Aşağıdakı bayatıda Qarabağ arzusu, Qarabağda yaşanmış ömrün xatirələri bir tərəfdən azərbaycanlı ömrünün həyat enerjisi, digər tərəfdən, azərbaycanlını yaşadan, onu ölməyə qoymayan dirilik qaynağıdır:

Mən aşıq, qışında mən,
Dağında, daşında mən.
Gəzəydim Qarabağı,
Qalaydım başında mən (19, 332)

Azərbaycan xalqının milli mentalitet sistemi elə qurulmuşdur ki, vətən - yurd, onun mədəniyyətinin hər bir nişanəsi, o cümlədən Qarabağın atributu olan muğamlar azərbaycanlı mənəviyyatını bütövləşdirən, onda mənəvi yarımçıqlıq yaranmağa qoymayan dəyərlərdir:

Bağların al püstəsi,
Oldum yarın xəstəsi.
Dərdimin dərmanıdı,
Qarabağ şikəstəsi (19, 333)

Əslində, Qarabağla bağlı bayatılarda çağdaş azərbaycanlı mentalitetinə məxsus vətənsevərlik dəyərləri öz ifadəsini tapmışdır. Aşağıdakı bayatıda Qarabağın hər bir azərbaycanlı üçün nə qədər üstün dəyər olduğu ifadə olunmuşdur. Başqa sözlə, Azərbaycanın harasında anadan olmasından asılı olmayaraq, vətən oğlu üçün Qarabağ artıq bütöv vətənin simvoluna çevrilmişdir:

Qəribəm o vətəndə,

Gözüm yoldan ötəndə.

Dizin-dizin sürünnəm

Qarabağdan ötəndə. (19, 333)

Qarabağ eyni zamanda azərbaycanlı yaddaşından asılmış ağır yükdür: ona əzab verən, min bir əzabla qazandığı halal çörəyini rahatlıqla yeməyə qoymayan, yadına düşdükcə vicdanını ağrıdan milli dərddir. Bu dərd qaldıqca ona rahatlıq yoxdur. Onu Qarabağdan ayıran fiziki və zaman hüdudları artdıqca Qarabağ həsrəti, Qarabağ sevgisi daha da artır və bu dərd onu Qarabağa daha artıq bağlayır:

Əzizinəm, bu dərdi,

Dərya dərdi, su dərdi.

Qarabağdan gen düşdüm,

Çəkəmmədim bu dərdi. (19, 333)

Qarabağ eyni zamanda hər bir azərbaycanlının sözün təkcə hərfi mənasında yox, həm də siyasi mənasında milli dərdidir. Çünki Qarabağ həqiqəti Azərbaycanın dünyaya "sübut edə bilmədiyi", əslində isə dünyanın siyasi cığallığa salaraq qəbul etmədiyi milli həqiqətidir. Bu həqiqət onun üçün olum-ölüm həqiqətidir. Qarabağdan keçmək azərbaycanlı üçün milli varlığından keçmək deməkdir. Lakin o, bu dərdə yanmağı, onun əzabını çəkməyi Qarabağ adlanan millilik simvolundan keçməkdən üstün sayır:

Mən aşıq əldə fanar,

Tutmuşam əldə fanar.

Qarabağın dərdinə,

Ah çəksəm, ürək yanar. (19, 333)

Aşağıdakı bayatıda “Qarabağ” sözündən omonimik fiqur (cinas vahidi) kimi istifadə olunmaqla Qarabağ həqiqətinin bədii obrazı yaradılmışdır:

Aşıq qarabağlıdı,
Belim haqdan bağlıdı.
Yolçu, qayıt qonaq ol,
Bu el qara bağlıdı. (19, 333)

Digər bir bayatıda Qarabağın gözəlliyi müqəddəs dəyərlər kontekstində mənalandırılmışdır. Lirik qəhrəmanın Qarabağın gözəlliyində gözü qalır: o, bu gözəllikdən doymur. Eyni zamanda vətəndə qərib olur. Lakin bu qəriblik ilahi hadisədir. Çünki Qarabağ öz yaddaşında azərbaycanlının ilahi qisməti kimi məhz Azərbaycan ruhunu daşıyır. “Qarabağdan qərib düşənin onda izlərinin qalması azərbaycanlının Qarabağa dönüşünün ilahi tale olduğunun bəyanıdır:

Bu dağda gözüm qaldı,
Söhbətim, sözüm qaldı.
Qarabağda qəribəm,
Gedirəm, izim qaldı. (19, 333)

Azərbaycan poeziyasında bülbül sevən aşiqlərin, sevgi yolunda özünü oda atanların rəmzidir. Muğam sənətimizin ocaqlarından sayılan Qarabağda bülbül eyni zamanda həm muğam sənətinin, həm də bülbül cəh-cəhi kimi zəngulə vuran xanəndələrin rəmzi sayılmışdır:

Bülbül Qarabağdadı,
Oxur, Qarabağdadı,
“Öldü” deyə bilmərəm,
Odu, Qarabağdadı.(19, 334)

Bu bayatıda hər bir misranın dərin mənası olub, eyni zamanda milli mentalitet düşüncəmizin özünəməxsusluğunu da nümayiş etdirir. Bayatını misra-misra təhlil etdikdə bu mənalar özünü büruzə verir.

“Bülbül Qarabağdadı” misrası ümumi planda Qarabağın sənət və mədəniyyət mərkəzlərindən olmasına, xüsusi planda isə muğam sənətinin bu bölgədə klassik səviyyəyə çatmasına işarədir. Misradakı poetik fikir hökm şəklində ifadə olunmuşdur. Bu, heç bir halda poetik patetika, pafos olmayıb. Qarabağın Azərbaycanın muğam mədəniyyətinin paytaxtı olmasının poeziyadakı ifadəsidir.

“Oxur, Qarabağdadı” misrası birinci misranın mənasını konkretləşdirməklə ondakı milli-mənəvi həqiqəti təsdiqləyir. Çünki bülbül Azərbaycan klassik poeziyasında sevən aşiqlərin rəmzidir. Bu baxımdan, ikinci misra bülbül obrazının bu bayatıda məhz Qarabağ muğamının rəmzi olduğunun təsbitinə xidmət edir.

“Öldü” deyə bilmərəm” üçüncü misrasının həqiqəti çox böyük olub, Azərbaycan xalqının öz yurdunun, vətəninin bütövlüyünə olan sarsılmaz inamını ifadə edir. Qarabağın düşmən işğalına məruz qalması onun itirilməsi demək deyildir. Nə qədər ki, Azərbaycan muğamları yaşayır, nə qədər ki, “Qarabağ şikəstəsi”nin avazı azərbaycanlı qəlbində səslənir, demək vətənimiz sarsılmsaz və bütövdür. Bu, mənada, bayatının “Odu, Qarabağdadı” dördüncü misrası bütün dünyanı bu həqiqəti görüb anlamağa çağırır. Dünya bilməlidir ki, azərbaycanlı heç vaxt öz yurdundan üz döndərməz. Onu müvəqqəti olaraq əzmək, ötəri məğlubiyyətlərə uğratmaq olar, lakin o, bütün məhrumiyyətlərə sinə gərərək xalqımızın uca və müqəddəs dəyərlərinə tapınıb vətənini azad edəcəkdir.

Növbəti bayatıda Qarabağ obrazı ulu milli həqiqətlər kontekstində mənalandırılmışdır:

Bu dərədən çay gəldi,
Bahar getdi, yay gəldi.
Sınıq könlüm gülməmiş,
Qarabağdan hay gəldi. (19, 334)

Bayatının ilk iki misrasında dünyanın əzəli-əbədi məkan-zaman qanunauyğunluqları poetikləşmişdir. Çayın dərə ilə axması məkan qanunauyğunluğu, baharın ardınca yayın gəlməsi zaman qanunauyğunluğudur. Bu halda gecənin ardınca gündüzün gəlməsi labüd olduğu kimi, azərbaycanlı üçün də qəmin ardınca sevinc gəlməlidir. Çünki dünyanın qanunauyğunluğu belədir. Lakin azərbaycanlının sınıq könlü gülməmiş dərdinin üstündə daha bir dərd - Qarabağ dərdi gəlir. Bu, dünyanın nizamının pozulmasıdır. Əslində isə dünyanın ilahi strukturunun pozulmazdır: Çünki "Dərd gələndə batmanla gəlir". Pozulan insanların həyat nizamıdır və insanlar onu süni şəkildə pozurlar. Dünya Qarabağ həqiqətinə göz yummaqla özünə qlobal fəlakət hazırlayır. Azərbaycan milli düşüncəsinin həqiqətlərinə görə, dünyanın Azərbaycan üçün hazırladığı tələyə özü düşəcəkdir. Çünki "Özgəsinə quyu qazan özü düşər".

Qarabağla bağlı təhlil etdiyimizdə Azərbaycan xalqının Qarabağın simasında vətənə verdiyi aşağıdakı dəyərləri müşahidə edirik:

1. Qarabağ azərbaycanlı üçün qarşısında diz çökdüyü, bütün varlığını qurban etməyə hazır olduğu müqəddəs və ulu məkandır.

2. Qarabağ vətəninin ayrılmaz bir parçası kimi hər bir azərbaycanlının qəlbində köz bağlamış yaradır.

3. Qarabağ Azərbaycan xalqı üçün dünyaya sübut edə bilmədiyi, ancaq heç vaxt üz döndərmədiyi vətəndaşlıq haqqıdır.

4. Qarabağ müqəddəs yurd kimi azərbaycanlıların uğrunda son damla qanlarına qədər mübarizə aparacaqları haqq işidir.

5. Qarabağ bu gün azərbaycanlı düşüncəsində öz vətənində qəribliyin simvoludur.

6. Qarabağ xalqımız üçün olum-ölüm həqiqətidir.

7. Qarabağ azərbaycanlının düşüncəsində sızlayan yurd yeri, insanları ayaqda saxlayan milli qeyrət qalasıdır.

Vətən sevgisi, yurda bağlılıq "Koroğlu" dastanında da əsas motivlərdən birini təşkil edir. Məsələn, "Koroğlu ilə Bolu bəy" qolunda göstərilir ki, Bolu

bəy namərdlik edib, sözünə xilaf çıxır və Koroğlunu əsir aparır. Uzun mübarizədən sonra Koroğlu düşmənlərinin üzərində həmişə olduğu kimi qələbə çalıb geri qayıdır:

"Qərəz, Koroğlu, İsabalı, Dünya xanım, qarabaş Mehtər Murtuzu da qabaqlarna qatıb Çənlibelə tərəf yola düşdülər. O qədər at sürdülər ki, gəlib çatdılar Çənlibelin dağlarına. Dağları görcək Koroğlunun ürəyi oynadı, gözləri doldu. Koroğlu çox qürbətlərdə olmuşdu. Amma heç belə qəribsəməmişdi. Bu dəfəki, qürbət ona çox təsir eləmişdi. Üzünü dağlara tutub dedi:

Bir zamanlar səfa sürüb gəzərdim,
Onda səndin mənim qardaşım, dağlar!
Nə zaman ki yağı düşmən gələndə
Səndə çox olurdu savaşım, dağlar!

Taladım şahları, hələ az dedim,
Türfə gözəllərə işvə, naz dedim,
Neçə tacir-tüccar səndə gizlədim,
Açmadım sirrimi sirdaşa dağlar!

Koroğluyam, gəzdiyimi tapardım,
Qayalar başında qala yapardım,
Ağ sürüdən əmlik quzu qapardım,
Yeyib qurtlarınla ulaşım, dağlar! (7, 307-308)

Qeyd edək ki, Koroğlunun yurd həsrətinin dağ obrazı ilə ifadə olunması təkcə Çənlibelin dağlarda yerləşməsi ilə bağlı deyildir. Bunun arxaik-mifoloji düşüncəyə gedib çıxan digər səbəbləri də vardır. Prof. A.Hacılı yazır ki, "Azərbaycan türklərinin etnik-coğrafi təsəvvürlərinin tədqiqinin müəyyən özünəməxsusluqları var. Belə ki, yurdumuzun ərazisi bir çox digər tarixi-etnik məkanlardan fərqli olaraq, daxilən olduqca rəngarəngdir: dağlar, düzənlər, meşələr, qumluqlar, dənizlər, çaylar zəngin bir mənzərə yaradır. Məhz buna

görə azərbaycanlıların mentalitetində köçəri, oturaq, dağlı, dənizçi həyatı keçirən xalqlara xas özəlliklər qovuşur. Və milli mədəniyyətimiz yurdun coğrafi əlvanlağından gələn, şüurumuzun kökündə, substrat mahiyyətində izlənən polietnoqrafiklik (etnoqrafik coxçalarlılıq - İ.A.) qazanır". (60, 51)

Demək, Koroğlunun dağları görəndə ruhunun yerindən oynaması, vətən duyğularının cuşa gəlməsi onun qanında yaşayan dağ yaddaşı ilə bağlıdır. Dağa bağlılıq, onu sakral məkan - Uca Tanrının simvolu kimi qəbul etmək Azərbaycan türkünə mifoloji çağdan xas olan etnopsixoloji mentalitet cizgisidir. Koroğlu da xalqımızın müsbət milli mentalitet cizgilərinin ümumiləşmiş obrazıdır. Bu cəhətdən onun vətən sevgisində dağların xüsusi simvolik mənası vardır.

Folklorumuzda vətənlə bağlı mentalitet dəyərləri xüsusən nağıl və dastanlarda vətənin hüdudlarının aydın şəkildə obrazlaşmasında da ifadə olunmuşdur. Məsələn, "Əsli və Kərəm" dastanında sevgi motivi həm də aydın şəkildə işarələnmiş məkan obrazları ilə müşayiət olunmuşdur: "Bir müddət gedib, günlərin birində Gürcüstan sərhəddinə çatdılar. Baxdılar ki, burada böyük bir oba var. Obanın ahıl-cahılı qabağa çıxdı, salam-kalamdan sonra kim olduqlarını, haradan gəlib, hara getdiklərini soruşdular". (5, 32)

Eyni cəhəti nağıllarımızda da müşahdə edirik. "Hatəmin nağılı"nda deyilir: "İbrahim salamat gəlib çıxmasına görə, bir kağız da o biri devə verib, geri qaytardı. O, qardaşıynan atasının vilayətinə tərəf yola düşdü. Altı aylıq yolu on gündə gəlib çıxdılar böyük qardaşın məkanına". (5, 50)

Ümumiyyətlə, nağıllarda məkanın işarələnməsinin maraqlı təfərrüatları ilə üzləşirik: "O gecəni yol gedib, sabaha yaxın bir quyu qazıb içində gizləndi. Axşama qədər gözləyib, əl-ayaq yığılandan sonra düşdü yola. O, gecəni də yol gedib sübh açılanda yenə də quyu qazıb gizləndi. Belə-belə gecə yol gedib, gündüz quyu qazıb gizlənirdi, ta ki, otuz doqquz gün ötdü, qırxıncı gün səhər açılana yaxın, axırıncı quyunu Mələkəxatının lap qapısının ağzında qazıb gizləndi". (5, 41)

Yaxud digər nümunə: “Ondan sonra bütün əhvalatı və kağız məsələsini nağıl elədi. O da şad olub, on gün orda qalandan sonra ortancıl qardaş İbrahimi də götürüb, öpüşüb, görüşüb böyük qardaşdan ayrıldılar. Altı aylıq yolu on gündə gəlib çatdılar ortancıl qardaşın məkanına”. (5, 51)

Nağıllarda məkan həm də mifoloji struktura malikdir: “Devlər gedəndən sonra bir qədər özünü toxdadıb, Allah, səndən mədəd deyib, quyudan çıxdı bayıra. Birinci lovu oxudu, qapılar taybatay açıldı. İbrahim girdi bağa. Ondan sonra ikinci lovu da oxudu, qapılar yenə də öz qaydasıynan bağlandı”. (5, 41)

Nağıllarda real məkanla (vətənlə) mifoloji məkan arasında dəqiq hüdudlar vardır: “Bir kağız da İbrahimin dostu devə yazdı ki, mənim torpağımda qorxusuz gəzə bilərsiniz, İbrahimi aparıb verərsən atasına, sonra da hamınız bir yerdə qayıdarsınız Gülüstani - İrəmə, burda rahatlığnan yaşayarsınız”. (5, 50)

Əlbəttə, bu nümunələrin sayını artırmaq olar. Lakin bu və digər nümunələrin hamısı ənənəvi milli şüurda məkan duyğusunun son dərəcə qüvvətli olmasını ortaya qoyacaqdır.

Qeyd olunmalıdır ki, folklorda vətən obrazı çox geniş məna tutumuna malik olsa da, dastan və nağıllarda onun həm də sərhəd-hüdud obrazında ifadə olunması təsadüfi olmayıb, ilkin epos düşüncəsi ilə bağlıdır.

Hər bir xalqın eposu onun məkan-zaman haqqında təsəvvürlər sistemini özündə əks etdirir. Mifoloji eposda vətən-yurd kosmos-xaos qarşılıq qoşasının birinci tərəfini təşkil edir. İnsanın yaşadığı yurdun qurtardığı yerdən xaos dünyası - hər cür şər qüvvələrin məkanı başlanır. Ona görə də ibtidai insanda, o cümlədən əski azərbaycanlıda öz evi (yurdu) saydığı dünyaya qarşı bir təbii-bioloji sevgi də olmuşdur. Bu halda yurd onun doğmalarının, özününkü olanların yaşadığı dünyadır. Yurd-vətən anlayışının bu mifoloji semantikası özünü nağıllarda (sehrli nağıllarda), xüsusilə, aydın şəkildə qorumuşdur.

Azərbaycan nağıllarında dünya işıqlı və qaranlıq dünyaya bölünür. İşıqlı dünya insanların yaşadığı dünya olub, şər qüvvələrin yaşadığı qaranlıq dünyaya qarşı durur. Qaranlıq dünyaya düşmüş qəhrəman işıqlı dünyaya qayıtmaqdan

ötrü min bir çətinliklərə sinə gərməli olur. O, qaranlıq dünyada qala bilməz. Çünki onun yeri işıqlı dünyadadır.

Ümumiyyətlə, nağıllardakı məkan hissini təhlil etdikdə Azərbaycan insanının vətənə bağlılığının onun şüurunun çox dərin qatlarına gedib çıxdığını görürük. Vətənə, yurda bağlılığın kökləri Azərbaycan insanının mifoloji düşüncə yaşadığı çağlarla bağlıdır. Bu baxımdan, həmin sevgi, əslində, stixial sevgi, başqa sözlə, ilkin kosmoqonik-mifoloji dəyərlərlə müəyyənləşən doğmalıq hissidir.

Beləliklə, xalqımızın vətən, yurd, el-oba ilə sevgisi ilə bağlı mentalitet dəyərlərinin folklorda təcəssümünün araşdırılması göstərdi ki, azərbaycanlı mentalitetində bu kimi dəyərlər özünə əsaslı yer tutduğu kimi, bu, uyğun olaraq folklorda öz inikasını tapmışdır. Tədqiqat göstərdi ki, Azərbaycan xalqının yurda məhəbbəti sakral xarakter daşıyır: hər bir vətən oğlu öz yurdunu ona babalardan miras qalmış müqəddəs məkan sayır və göz bəbəyi kimi qoruyur. Bu müqəddəs məhəbbət folklorda da özünün parlaq təcəssümünü tapmış, çox maraqlı süjet və
obrazlara çevrilmişdir.

2.2. Folklorda mənəvi-əxlaqi mentalitet dəyərləri

Ümumiyyətlə, Azərbaycan folkloru milli mənəviyyatımızın güzgüsüdür. Xalqımızın bütün tarixi boyunca qazandığı bütün müsbət mənəvi-əxlaqi keyfiyyətlər folklorda bədiiləşmişdir. Folklorumuzda bu cəhətdən milli mentalitetimiz üçün xarakterik olan, bizi bir türk-müsəlman xalqı kimi digər etnoslardan xüsusi şəkildə fərqləndirən ar, namus, ismət, iffət, abır, həya, mərdlik, comərdlik, səxavət, adillik, səbirlilik, böyük-kiçiyə hörmət, ata-anaya hörmət, ailə qeyrəti və s. kimi dəyərlər tərənnüm olunmuş, bunun əksi olan keyfiyyətlər pislənmiş və antiəxlaqi davranışlar kimi rədd edilmişdir.

Azərbaycan bədii düşüncə tarixini bir güzgü kimi əks etdirən folklorumuzu nəzərdən keçirdikdə görürük ki, yuxarıda sadalanan mənəvi-

əxlaqi keyfiyyətlər milli mentalitet sistemimiz üçün həmişə xarakterik olmuşdur. Bunun bariz örnəyini ilk növbədə oğuz babalarımızın qəhrəmanlıq və mənəviyyat tarixindən bəhs edən "Kitabi-Dədə Qorqud" dastanı qoruyaraq bizlərə çatdırmışdır. Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının ilk növbədə milli mənəviyyat abidəsi, milli mentalitet dəyərlərimizin bədii söz vasitəsi ilə "yonulmuş" heykəlidir.

Abidənin "Salur Qazanın evinin yağmalanması» boyunda kafirlər Qazan xanın ovda olmasından istifadə edib namərdcəsinə evini talayır, qızını-gəlinini, o cümlədən oğlu Uruzu əsir götürürlər, Kafirlərin başçısı Qazandan "heyif almaq üçün" onun namusuna sataşmaq qərarına gəlir:

"Bu yana, Şökli Məlik kafirlərlə şən-şadman yeyib-içib otururdu. Aydır: Bəglər, bilürmisiz, Qazana necə heyf eyləmək gərək? Boyi uzun Burla xatunını gətürib sağraq sürdürmək gərək, - dedi". (69.46)

Bu xəbər Qazanın arvadı Burla xatun tərəfindən həyəcanla qarşılanır. Düşmən əsirliyində olan qadın heç də öz şirin canı, sağ qalmaq barəsində yox, əri Salur Qazanın namusunu qorumaq haqqında düşünür. Çünki onun əri xanlar xanı Bayındır xanın kürəkəni, bəylər bəyi, Oğuz elinin sərkərdəsi idi. Burla xatun başa düşürdü ki, Salur Qazanın namusunun tapdalanması bütöv Oğuz elinin təhqir olunması deməkdir. Bunu bütün məsuliyyəti ilə dərk edən Burla xatun ərinin namusunu qorumaq haqqında yollar fikirləşir:

"Boyı uzun Burla bunı eşitdi, yürəgilə canına odlar düşdi. Qırq incə bellü qızun içinə girdi, ögüt verdi. Aydır: "Qanğınuza yapışurlarsa Qazan bəgün xatunı qanğınızdır" deyü, qırq yerdən avaz verəsiz", - dedi.

Şökli Məlikdən adam gəldi: "Qazan bəgün xatunı qanğınuzdır?" - dedi. Qırq yerdən avaz gəldi. Qanqısıdır, bilmədilər. Kafirə xəbər verdilər. "Birinə yapışdıq, qırq yerdən avaz gəldi. Bilmədik, qanğısıdır", - dedilər. (69, 46)

Bu epizodda kafirlər Qazanın namusuna sataşa bilmirlər. Oğuz qadınları təkcə namuslu yox, həm də ağıllı və müdrik insanlar idi. Onlar öz ağıllarının sayəsində xilas olurlar.

Dastanın növbəti epizodunda oğuz mentalitetinin iki sakral dəyəri - namus və övlad məhəbbəti qarşılaşdırılır. Kafirlər belə qərara gəlirlər ki, Qazanın oğlu Uruzun ətindən kabab çəkib qırx bəy qızına versinlər və bu yolla Burla xatunun kimliyini müəyyənləşdirsinlər.

Qeyd etmək istərdik ki, bu dastanın psixoloji baxımdan çox təsirli səhnələrindəndir. Bu səhnədə oğuz dastançılığının iki yüksək keyfiyyəti təzahür etmişdir:

1. Bir tərəfdən ana ilə balanın simasında həyat və ölüm dilemması yaradılmış və bu, bədii cəhətdən son dərəcə yüksək psixoloji lövhələr vasitəsi ilə təcəssüm etdirilmişdir. Bu, oğuz bədii düşüncəsinin sənətkarlıq göstəricisi kimi diqqəti cəlb edir.

2. Bu, son dərəcə həyəcanlı psixoloji lövhələrdə oğuz milli mentaliteti üçün xarakterik olan ali və ideal dəyərlər tərənnüm olunmuşdur. Oğuz milli ruhunun bu səciyyəvi keyfiyyətləri bədii-tarixi sınağa məruz qalmış və bədii həqiqətin qələbəsinin simasında oğuz milli dəyərlərinin əbədiliyi və həmişəyaşarlılığı təsdiq olunmuşdur. Epizoda diqqət edək:

“Kafir aydır: “Mərə, varın Qazanın oğlı Uruzı tartun çəngələ asun. Qıyma-qıyma ağ ətindən çəkün. Qara qaurma bişürüb qırq bəg qızına ilətün. Hər kim yedi, ol degil, hər kim yemədi, oldur. Alun gəlün, sağraq sürsün!” – dedi”. (69, 46)

Dastanın gözəlliyi ondadır ki, burada epik obrazların tipikləşdirmə səviyyəsi çox yüksəkdir. Belə ki, Burla xatun surətində ana obrazı üçün xarakterik olan bütün cizgiləri tapmaq mümkündür. Burla xatun kafirin bu tədbiri haqqında eşidəndə canına od düşür. Namusunu hər şeydən uca tutan qadının düşüncəsində övlad məhəbbəti tərəddüdlər yaradır. Ana seçim edə bilmir: namusundan da, övladından da keçə bilmir. Hər iki dəyər onun üçün əzizdir. Birini o birinə qurban verə bilmir. Seçimi oğlunun öhdəsinə buraxır:

“Boyi uzun Burla xatun oğlunun yamacına gəldi. Çağırıb oğlına soylar, görəlim, xanım, nə soylar. Aydır:

- Oğul, oğul, ay oğul!
Bilürmisin nələr oldı?
Söyləşdilər fısıl-fısıl,
Kafirin feilin tuydım.
Dünlügi altun ban evimin qəbzəsi oğul!
Qaza bənzər qızımın-gəlinimün çiçəgi oğul!
Oğul, oğul, ay oğul!
Toquz ay tar qarnımda götürdigim oğul.
On ay deyəndə dünyaya gətürdügim oğul!
Tolması beşikdə belədügim oğul.

Kafərlər tərs tanışmışlar: "Qazan oğlı Uruzı həbsdən çıqarun, boğazından orğanla asun. İki talusından çəngələ sancun, qıyma-qıyma ağ ətindən çəkün. Qara qaurma edib qırq bəg qızına ilətün. Hər kim yedi, ol degil. Hər kim yemədi, ol Qazan xatunıdır, çəkün döşəgimizə gətürəlim, sağraq sürdirəlim! - demişlər. Sənin ətündən, oğul, yeyəyinmi? Yoxsa, sası dinlü kafərin döşəginə girəyinmi? Ağan Qazanın namusını sındırayınmı? Necədəyin, oğul hey?!" – dedi". (69, 47)

Göründüyü kimi, Burla xatun oğluna qıymır. Seçimi onun öz öhdəsinə buraxır. Lakin eyni zamanda xatırladır ki, bu, Salur Qazanın namusunun tapdalanması olacaqdır ("Ağan Qazanın namusını sındırayınmı?").

Beləliklə, ulu babalarımız oğuzların folklorunda onların milli mentalitet sisteminin ən ali dəyəri olan namus sınağa çəkilir və Uruzun bu məsələyə münasibətində el-oba, dövlət, qadın, ana, bacı namusunun oğuzlar üçün nə qədər uca və ulu dəyər olması üzə çıxır. Əslində, Uruzun anasına cavabı oğuz milli mentalitetində namus, qeyrət dəyərlərinin ən ali dəyər olması haqqında manifestdir. Oğuz dastançıları bu səhnəni yaratmaqla oğuz mənəvi-əxlaqi dəyərlərinə həm də bədii əbədiyyət vermişlər.

"Uruz aydır: "Ağzın qurısın, ana! Dilün çürisin, ana! "Ana həqqi - Tənri həqqi denilməsəydi, qalqubanı yerimdən turaydım, yaqanla boğazından

tutaydım. Qaba öncəm altına salaydım. Ağ yüzini qara yerə dəpəydim. Ağzunla yüzindən qan şorladaydım. Can tatlusın sana göstərəydim. Bu nə sözdür? Saqın, qadın ana! Mənim üzərimə gəlmiyəsin! Mənim içün ağlamıyasan! Qoy bəni, qadin ana, çəngələ ursunlar! Qoy ətimdən çəksünlər, qara qaurma etsünlər, qırq bəg qızının öginə ilətsünlər. Anlar bir yedigində sən iki yegil! Səni kafərlər bilməsünlər, tuymasunlar. Ta kim, sasi dinlü kafərin döşəginə varmıyasan. Sağrağın sürmiyəsən. Atam Qazan namusını sındırmayasan. Saqın!" – dedi". (69, 47)

Burada oğuzların milli mentalitetinin daha bir uca dəyəri – "analıq haqqı" namus və övlad məhəbbəti dəyərləri ilə qarşılaşdırılmışdır. Uruz anasının sözlərini eşitcək qəzəblənir. Anasını onun ətindən yeyib-yeməmək məsələsində tərəddüd etməsinə görə hətta öldürmək istəyir. Ancaq bu işdən onu "Ana haqqı - Tanrı haqqı" görüşü dayandırır. Beləliklə, aydın olur ki, namus oğuzlar üçün ən uca və ülvi mentalitet dəyəridir. Oğuzlar namus məsələsinə öz şirin canlarından artıq dəyər verirlər.

Burada bir önəmli məsələ də diqqəti cəlb edir. Oğuz eposunum təhlili göstərir ki, xalqımız üçün milli mentalitet dəyərlərinin ən ali keyfiyyəti onların müqəddəsliyindədir. Oğuzların milli düşüncəsi üçün xarakterik olan dəyərlər onlar tərəfindən müqəddəs sayılmışdır. Onlar namusa da müqəddəs dəyər kimi yanaşırdılar. Uruzu anasına əl qaldırmaqdan Ana haqqının Tanrı haqqına bərabər tutulması saxlayır. Başqa sözlə, eposda oğuz milli mentalitetinin namus, övlad məhəbbəti, analıq haqqı dəyərlərinin Tanrı haqqı dəyəri ilə qarşılaşdırılması (əlaqələndirilməsi) vasitəsi ilə namusun sakral dəyər olması təsdiqlənir. Azərbaycan folklorunun digər nümunələrinin nəzərdən keçirilməsi göstərir ki, xalqımız namus hissini müqəddəs dəyər saymışdır.

Azərbaycan folklorunda yurdumuzun ulu abidələri birbaşa namus, qeyrət dəyərlərinin simvolu kimi müqəddəsləşdirilmişdir. Səciyyəvidir ki, namus, qeyrət, abır, həya kimi milli mentalitet dəyərləri ilkin mifoloji inamlarla

bağlıdır. Azərbaycan mifoloji mətnlərində bir çox etioloji (izahedici) miflərin məzmunu namus, abır-həya, ismət dəyərləri ilə bağlıdır.

Miflərdən birində deyilir ki, bir gəlin başını yuyurmuş. Qaynı bunu görür. Gəlin utanır. Deyir ki, Allah, məni daş elə. Allah da bunu daş edir. İndi Gərdəni çayının qayalıqlarında bu daş qalır. "Gəlin qaya" adlanır. (39, 84)

Mifin təhlilindən aşağıdakı qənaətlər hasil olur:

Birincisi, namus, qeyrət, abır-həya kimi dəyərlər Azərbaycan xalqının milli mentalitet sistemi üçün arxaik dövrlərdən xarakterikdir.

İkincisi, milli mentalitetin bu dəyərləri ilkin arxaik-mifoloji inamlar sırasında yer almışdır. Bu, o deməkdir ki, həmin dəyərlər ta qədimlərdən sakral (müqəddəs) sayılmış və ilahi dəyərlər səviyyəsində qəbul olunmuşdur.

Üçüncüsü, xalqımızın namus, abır-həya kimi milli mentalitet dəyərlərinin yer-yurd adlarının, dağların, qayalıqların, qalaların yaranması ilə əlaqələndirilməsi bir növ, həmin dəyərlərə qoyulmuş maddi abidələrdirsə, onları yaddaş kimi yaşadan mifoloji əfsanə və rəvayətlər də bədii söz abidələridir. Milli mentalitet dəyərlərinin maddi və mənəvi abidələrimizdə belə təcəssüm olunması folklorumuz üçün xarakterikdir.

Maraqlıdır ki, əfsanələrdə canlı aləmin ayrı-ayrı növlərinin, xüsusilə quşların meydana gəlməsi namus, qeyrət, abır, həya, ismət kimi mentalitet dəyərləri ilə əlaqələndirilmişdir. Məsələn, kəklik quşunun yaranması haqqında əfsanədə deyilir ki, qədimlərdə çox gözəl, ağıllı, namuslu bir qız var imiş. Bu qız öz əmisi oğluna adaxlı imiş. Qızın toy günü olur. Onun əl-ayağına xına qoyurlar. Hamının başı həyət-bacada toy işlərinə qarşır. Qız təkcə yengə ilə evdə oturubmuş. Bu vaxt çoxdan bəri qızı izləyən, onu ələ gətirməyə çalışan başqa bir oğlan başının dəstəsi ilə içəri girir. Yengənin əl-ayağını, ağzını bağlayıb yerə yıxırlar. Qızı da götürüb dağlara qaçırırlar.

Qız nə qədər dartınır, qışqırır, yalvarır, ona qulaq asan olmur. Hər yerdən əlacı kəsilən, əli üzülən qız üzünü göyə tutub deyir:

- Tanrı, məni quş elə,

Qanadı gümüş elə.
Eldə rüsvay eləmə,
Dağda günüm xoş elə,
Daşlara yoldaş elə.

Qız onu deyən kimi dönüb kəklik olur, pırıltı ilə uçub çəmənliyə düşür. Qızın əl-ayağı xınalı olduğu üçün kəkliyin də ayağı xınalı olur. (39, 68)

Göründüyü kimi, Azərbaycan folklorunda kəklik quşunun yaranması, eləcə də onun əsas fizioloji əlaməti olan ayağının qırmızılığı birbaşa namusla əlaqələndirilmişdir. Şanapipik quşunun da meydana çıxması eyni şəkildə baş verir. Əfsanədə deyilir ki, "Şanapipik gözəl bir gəlin imiş. Bir gün o, saçını yuyub darayırmış. Birdən qaynatası gəlini görür. Gəlin utandığından Allaha yalvarır ki, bunu quş eləsin. Başındakı daraqla Allah bunu quş eləyir. Bunun bir oğlu da varmış. Ona görə də həmişə bu "bup-bup" eləyib oğlunu axtarır".(39, 68)

Maraqlıdır ki, Azərbaycan folklorunda dünyanın digər xalqlarının folklorundan fərqli olaraq məhz mənəvi-əxlaqi sifətləri, milli xarakterin müsbət mentalitet dəyərlərini təbliğ edib, antiəxlaqi sifətləri pisləyən xüsusi şeir növü - ustadnamə janrı vardır. Baxmayaraq ki, folklorumuzun digər növ və janrlarının hamısı üçün mənəvi-əxlaqi ideallar xarakterikdir, ancaq bununla bərabər ustadnamə birbaşa mənəvi-əxlaqi dəyərlərin tərənnümünə xidmət edir.

Prof. Ə.Mirəhmədov yazır ki, ustadnamə "ustad sözü", "ustad öyüdü" deməkdir... Belə şeirlər tərbiyəvi, fəlsəfi nəticələri tərənnüm etmək yolu ilə nəsihətamiz fikir söyləyir, məsləhət və öyüd verir". (71, 212)

Prof. M.Həkimov qeyd etmişdir ki, «aşıq poeziyasında ustadnamələr, əsasən, "Bayatı", "Gəraylı", "Qoşma", "Müxəmməs", "Təcnis", "Divani", "Varsağı", "Heydəri", "Əlif-lam" və s. kimi formalarda yazılır. Ustadnamə - ustad nəsihəti, ustad sözü, ustad vəsiyyəti deməkdir. Bu qəbil öyüdləmələrdə nəsihət, məsləhət, atalıq-böyüklük qayğısı, fəlsəfi ümumiləşdirmə, kainat, cəmiyyət, ailə, məişət, insani keyfiyyətlər, yaxşılıq, gözəllik, mərifət, əqil,

kamal, paxıllıq, riya, yamanlıq, yaltaqlıq və s. kimi məsələlər haqqında düşüncələr əks etdirilir. (61, 207-208)

Beləliklə, ustadnamələrdə tərənnüm olunan mənəvi-əxlaqi dəyərlər cəmiyyətin əsas etik-mənəvi ideallarını əks etdirən kanonlardır. Bunlar cəmiyyətin yazılmamış qanunlarıdır. Ustadnamələrdəki əxlaqi-mənəvi dəyərlər xalqın əsrlər boyu uca tutduğu, özünün davranışlarında əməl etdiyi sosial-mənəvi davranış qəliblərdir. Bu cəhətdən Azərbaycan aşıq şeirinin XVI əsr sənətkarları Miskin Abdal və Qurbanidən başlamaqla, təqribən, beş əsrlik tarixinin izlənilməsi göstərir ki, ən azı, bu beş yüz il ərzində xalqımızın mənəvi-əxlaqi dəyərləri sabit keyfiyyətdə qalmaqla, öz kristal saflığını qorumuşdur.

Miskin Abdal «Başın» adlı ustadnamə-gəraylıda öz müasirlərinə ustad nəsihəti verib onlarda aşağıdakı mənəvi keyfiyyətləri görmək istəyir:

Namərdinən yoldaş olma,
Uzun ağrı çəkər başın.
Halalınan ərsiyə çat,
Daş qalalar söykər başın.

Xayın çıxma Yaradana,
Qibləgahdı ata-ana.
Arxalanma bəyə-xana,
Qoy sağ olsun nökər başın.

Haxdan istə baxtı-yığbal,
Yaradanı yadına sal,
Söz gövhərdi, Miskin Abdal,
Saxla, dürdü, tökər basin. (72, 28)

Bu şeirdə bir sıra mühüm orta əsrlər mentalitet dəyərləri ilə qarşılaşırıq. Burada mərdlik, halallıq, Tanrıya sədaqət, ata-anaya hörmət, mənlik ləyaqəti,

şükranlıq, sözə sayğı kimi mentalitet dəyərləri tərənnüm olunmuş, bunun əksi olan sifətlər pislənmişdir.

Ümumiyyətlə, ustadnamələrin poetik strukturunun öyrənilməsi göstərir ki, onlarda mentalitet dəyərlərinin tərənnümü bütün hallarda binar (ikili) sistemə səslənir. Başqa sözlə, mentalitet dəyərləri "ideal-antiideal" qoşalığı əsasında təqdim olunur. Əgər hər hansı müsbət (ideal) dəyər tərənnüm olunursa, buna uyğun olaraq onun əksi (antideal) hökmən pislənir. Məsələn, şeirdə mərdlik, səxavət, qəhrəmanlıq və s. kimi mentalitet dəyərləri təbliğ olunursa, buna uyğun olaraq namərdlik, xəsislik, qorxaqlıq kimi sifətlər antiideal kimi rədd olunur. Bu cəhət bütün ustadnamələr üçün xarakterikdir.

XVəsrin digər nəhəng sənətkarı Qurbani "Gülərmiş" qoşmasında deyir:

Baxgilən fələyin ruzigarına,
Əyyam xoş keçəndə dövran gülərmiş.
Bəhrəli çağlarda, məhsul ayında
Bağı bar verəndə bağban gülərmiş.

Bir baxtın yatıban bir ucalanda,
Tülək-tərlan olub, sar ov çalanda,
Məsəldi deyərlər: qurd qocalanda
Tülkü meydan açıb, dovşan gülərmiş.

Qurbani, qəmlənmə, kərəm-kanı var,
Ədalət hakimin haqq divanı var,
Bu çərxi-fələyin nərdibanı var,
Yenən ağlayarmış, qalxan gülərmiş. (2, 50)

Bu şeirdə qurd və tülkü obrazlarının simasında comərdlik və yaltaqlıq dəyərləri qarşılaşdırılmış və bu, "haqq divanının" strukturu kimi təqdim olunmuşdur. "Haqq divanı obrazı altında Uca Allahın ədalətli mühakiməsi nəzərdə tutulmuşdur. Bu halda, Qurbaninin şeirdə vermək istədiyi əsas ideyaya

görə, bütün mənəvi-əxlaqi keyfiyyətlər, o cümlədən mərdlik, comərdlik, xeyirxahlıq və s. kimi dəyərlər Allahın "haqq divanında bəyənilən sifətlərdir.

XVI sonu - XVII əsrin əvvələrinin görkəmli sənətkarı Aşıq Abbas Tufarqanlının "Bəyənməz" qoşmasında insanlar ("adamlar") müxtəlif mentalitet dəyərlərinin daşıyıcıları kimi binar (ikili) bölgü əsasında təsnif edilmişdir:

Ay həzərat, bir zamana gəlibdi,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz.

Adam var ki, getməyəsən işinə,
Adam var ki, dolanasan başına.
Adam var ki, ayran tapmaz aşına,
Dindirərsən, yağlı nanı bəyənməz.

Adam var, dağları gəzir sərsəri,
Adam var, geyinir pustinən dəri,
Adam var, mərfətdən yoxdur xəbəri.
Adam var, soltanı, xanı bəyənməz.

Adam var, dolanar səhranı, düzü,
Adam var, döşürər gülü, nərgizi,
Adam var, geyməyə tapammaz bezi,
Adam var, al geyər, şalı bəyənməz.

Adam var, çox işlər eylər irada,
Adam var, yetə bilməz murada,
Adam var, çörək tapmaz dünyada,
Adam var, yağ yeyər, balı bəyənməz.

Adam var, adamların naxşıdı,
Adam var ki, anlamazdı, naşıdı,
Adam var ki, heyvan ondan yaxşıdı,
Dindirərsən, heç insanı bəyənməz.

Adam var dəstinə verəsən güllər,
Adam var, gözünə çəkəsən millər,
Tufarqanlı Abbas, başına küllər,
Nə günə qalmısan, qarı bəyənməz. (2, 50)

Göründüyü kimi, şeirdə insanlar müxtəlif kateqoriyalara bölünmüşdür. Bölgünün modeli ikilik üzərində qurulmuşdur: yaxşı və pis insanlar. Yaxşı insanlar müsbət mənəvi-əxlaqi dəyərlərin, pis insanlar isə mənfi keyfiyyətlərin daşıyıcılarıdır. F.e.d. M.Cəfərlinin yazdığı kimi, "şeirin ilk bəndindən Yaxşı - Yaman (pis - İ.A.) semantik qoşalığı qlobal kateqoriyaları ilə Zaman və Dünya şərh olunur ki, bu da həmin oppozitiv strukturun Dünyaya və Zamana münasibətdə ən iri parametrlərdən olduğunun nümayişidir". (49, 167-168) Folklorşünas alim daha sonra göstərir ki, "Tufarqanlının şeiri dünyanın "adam materialının" təhlilini verir. Və bu "material" bütün hallarda ikili struktur nümayiş etdirir. Ancaq bu ikili struktur o qədər də sadə, yəni klassik biçimində deyil: konfiqurasiyalar şəklindədir. Yəni adam var ki, aş bişirməyə ayran tapmır, ancaq danışanda yağlı çörəyi bəyənmir. Əslində, həmin adamın yağlı çörəyi yoxdur, o, həmin çörəkdən yemək istəyir, ancaq quru təkəbbürü, lovğalığı ona sadə olmağa, olduğu kimi görünməyə imkan vermir. Məhz sonuncu keyfiyyət - «olduğu kimi görünməmək" Tufarqanlı şərhində antidünyadır, antinizamdır". (49, 170)

Şeirdə insanları binar təsnifat modelinin müxtəlif qütblərinə aid edən onların hansı mentalitet dəyərlərinin sahibi olmalarıdır:

1. Ata-anaya (böyüyə) hörmət dəyərlərinin sahibləri yaxşı, əksinə olanlar pis insanlardır.

2. Xeyirxah insanlar hər cür hörmətə layiq olduğu halda, bədxah insanlara heç bir yaxşılıq etmək lazım deyildir.

3. İnsanlar mərifətli (qanacaqlı, qabiliyyətli, söz başa düşən) olub-olmamaq baxımından iki kateqoriyaya bölünür.

4. İnsanlar Allahın nemətlərinə münasibətdə şükredən (şükran) və naşükür olmaqla iki qrupa ayrılırlar.

5. İnsanlar zəhmətkeş (zəhmətsevər) və harın olmaqla iki yerə ayrılırlar.

6. Adamlar ariflik və nadanlıq dəyərlərinin daşıyıcıları olmaqla iki yerə ayrılırlar.

Beləliklə, binar mentalitet dəyərləri insanları qədirbilən və nankor, xeyirxah bədxah, sadəqəlbli va xudbin (eqoist), qanacaqlı və qanacaqsız, zəhmətkeş və tənbəl, şükran və naşükür, arif və nadan və s. olmaqla iki kateqoriyaya bölür. M.Cəfərlinin yazdığı kimi: "Tufarqanlının "Bəyənməz" ustadnaməsində onun dünyasının Yaxşı-Yaman prinsipləri elan olunur. Şair nəyin yaxşı, nəyin pis olduğunu "manifestləşdirir". Bunun məhz ustadnamə şəklində reallaşması təsadüfi deyil. Ustadnamələr - ustad, böyük, ulu, müəllim, yol göstərən, ağsaqqal sözləridir". (49, 172)

Milli mentalitet dəyərlərinin poeziyada tərənnümü baxımından XVIII əsrin görkəmli el şairi Xəstə Qasımın şeirləri səciyyəvidir. Sənətkar "Yar olmaz" adlı qoşmada deyir:

Dəli könül, nə divanə gəzirsən,
Bivəfa dilbərdən sənə yar olmaz.
Düz çıxmaz ilqarı, əhdi, peymani,
Hərcayıda namus, qeyrət, ar olmaz.

Üz vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə,

Ot bitər kök üstə, əsli nə isə,
Yovşan bəsləməklə çəmənzar olmaz.

Vəfalıya əmək çəksən itirməz,
Bədəsil nəsihət, öyüd götürməz,
Qabaq tağı tər şamama bitirməz,
Göy söyüddə heyva olmaz, nar olmaz.

Təklif olunmamış bir yerə varma,
Nər olmaz meydanda hər bığıburma,
Seyrağıb adama sən yaxın durma,
Xain çıxar, onda düz ilqar olmaz.

Xəstə Qasım günü keçmiş qocadı.
Gələn bəzirgandi, gedən xocadı.
Sərv ağacı hər ağacdan ucadı.
Əsli qıtdı, budağında bar olmaz.(2, 102-103)

Bu şeir bizə orta əsr milli mentalitet dəyərləri əsasında qurulan insan tiplərini - milli mentalitet sisteminin xarakterik obrazlarını müəyyənləşdirməyə imkan verir:

Bivəfa - ilqar, əhd-peyman, sədaqət kimi mentalitet dəyərlərindən məhrum insan.

Hərcayı - namus, qeyrət, ar, abır, həya kimi mentalitet deyərlərindən məhrum insan: başqa sözlə, namussuzluq, qeyrətsizlik, arsızlıq kimi mənfi əxlaqi sifətlərin daşıyıcısı.

Vəfalı - ilqar, əhd-peyman, sədaqət, qədirşünaslıq (qədirbilənlik) kimi mentalitet dəyərlərinin daşıyıcısı olan insan.

Xəstə Qasımın "Olmaz" qoşmasında da milli mentalitet sistemi dəyərlərinin tipik daşıyıcıları olan obrazlarla qarşılaşırıq:

Adam oğlu, mərifəti dürüst bil,
Yol-ərkan bilənin yeri dar olmaz.
Sirrini söyləmə hər yetən yada,
Bivəfa dilbərdə etibar olmaz.

Atırsan oxunu, səhraya atma,
Gecələr yatanda duasız yatma,
Halal dövlətinə sən haram qatma,
Bu dünya malından sənə var olmaz.

İgid gərək mürvətini atmaya.
Qəflət yuxusunda qafil yatmaya.
Bir oğul ki, böyük sözün tutmaya.
O kimsədə namus, qeyrət, ar olmaz. (2, 102)

Bivəfa - etibarsız (o cümlədən əvvəlki şeirdən məlum olduğu kimi ilqarı, əhd-peymanı olmayan) adam.

İgid - insaf, mürvət, iman kimi müsbət mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı.

Maraqlıdır ki, şeirin sonuncu bəndində böyüklərin sözünə baxmayan, ata-ana hörmətini gətirməyən oğul namus, qeyrət, ar kimi sifətlərdən məhrum adam kimi səciyyələndirilir. Əvvəlki şeirin təhlili zamanı da gördük ki, namus, qeyrət, ar kimi mentalitet dəyərlərindən məhrum olan insan "hərcayı" adlandırılmışdı. Demək, "böyük sözünü tutmayan oğul" da hərcayı insandır.

XVIII əsr sənətkarı Aşıq Valehin "Bəyənməz" qoşmasında hərcayı obrazını müəyyənləşdirən digər antiəxlaqi sifətlərlə də qarşılaşırıq:

Hərcayı bədəslə vermə əməgin,
Səni sayar cüvallağı, bəyənməz.
Kasıblıqda tapmaz yavan çörəyi,

Eşitsə baylığı yağı bəyənməz... (2, 129)

Şeirdən məlum olur ki, hərcayı insan həm də xudbinlik, lovğalıq, təkəbbürlülük kimi mənfi keyfiyyətlərin daşıyıcısı olur. Maraqlıdır ki, belə hərcayını Aşıq Valeh "bədəsil hərcayı, yəni əsli-köklü məlum olmayan, nacins adam hesab etmişdir.

XVIII əsr sənətkarı Dəllək Muradın yaradıcılığında da bir sıra tipik mentalitet daşıyıcıları ilə qarşılaşırıq. Məsələn, sənətkar "Eyləmə" qoşmasının üçüncü bəndində namərd obrazını belə səciyyələndirmişdir:

Namərd körpüsündən ölsəm, keçmərəm,
Karvan olsam, mənzilinə düşmərəm,
Əlindən camını alıb içmərəm.
Sağ əli sol ələ möhtac eyləmə. (2, 149)

Şeirin təhlilindən məlum olur ki, müsbət mentalitet dəyərlərinin daşıyıcısı olan mərd insan obrazının əksi olan namərd ilk növbədə etibar, sədaqət kimi mentalitet dəyərlərindən məhrum adamdır. Ondan hər cür xainlik, kəmfürsətlik gözlənilir. Dəllək Murad bu antiəxlaqi sifətləri rədd edib, bunun əksi olan müsbət mentalitet dəyərlərinin daşıyıcısı olan mərd insan obrazını tərənnüm və təbliğ etmişdir.

Ümumiyyətlə, ustadnamə şeirində müsbət mentalitet dəyərlərinin tərənnüm və təbliğ olunması və mənfi sifətlərin inkar edilməsi bu şeir növünün poetik təbiəti ilə bağlıdır. Ustadnamələr insanın mənəvi cəhətdən saflaşmasına, ictimai gözəlliyin təntənəsinə xidmət edir. Tədqiqatçı O.Əfəndiyev bu haqda yazdığı kimi: "Mənəvi gözəlliyin aşıq şerində təsviri gerçəkliyin gözəlliyinə, yüksək mənəviyyata, kamilliyə can atmaq kimi məsələlərlə bağlıdır. Burada estetik hiss, duyğu, həyəcan, zövq kimi estetik münasibətlərə geniş meydan verilir. Həm də bütün bu təsvirlər estetik idealın təcəssümünə xidmət edir. Estetik ideal bir meyar kimi mənəviyyat aləminin gözəllik qanunlarını təsdiqləyir. Ona görə də aşıq poeziyasının estetik problemlərindən danışarkən "mənəvi gözəllik" məsələsi ön plana keçir. (55, 11)

Bu cəhətdən XIX əsrdə yaşamış Göyçəli el şairi Daşkəndli Şair Məmmədhüseynin poeziyası müsbət mənəvi dəyərlərlə süslənmiş insan tipləri ilə zəngindir. Sənətkara görə, mərd insanı fərqləndirən ən ali keyfiyyət onun «mərdanəliyidir». Onun əksi olan müxənnət isə ən pis əxlaqi sifət olan xəyanət keyfiyyətinin daşıyıcısıdır:

Bir mərd ilə ülfət qılsan mərdana,
Qiyamət pərdəsin çəkərlər üzə,
Müxənnətlər yaxşı gündə dost olar,
Yaman gündə keçib gedər yönünə... . (53, 48)

Şair Məmmədhüseynin yaradıcılığında "dost" ("yar") obrazının da mənəvi cizgiləri aydın şəkildə göstərilmişdir:

Hər yetənə yar deyib, yar arama,
Yar axtar ki, ömrü boyu yar ola.
Çətin gündə, yaman gündə, xoş gündə
Həmdəm ola, sirdaş ola, var ola... . (53, 49)

Beləliklə, aydın olur ki, dost – yar sədaqət, vəfa, etibar, səxavət, cəsarət, mərdlik kimi dəyərlərin daşıyıcısı olan insandır. Belə insana bütün ömrü boyu arxalanmaq olar. O, heç vaxt dost saydığını darda qoymaz. O cümlədən sənətkarın poetik idealına görə, insan arsız olmamalı, başqalarına qarşı həssas olmalı, ar-namus gözləməli, halal yaşamalı, tamahkar olmamalıdır:

Arsız olub, hədyan deyib-danışma,
Danış sən sözünü namus, ar üstə.
Göz dikib güvənmə özgə malına,
Halaldan özünə dövlət, var istə... . (53, 50)

Şair Məmmədhüseynin şeirlərini nəzərdən keçirdikdə görürük ki, o, mənəvi cəhətdən gözəl insanı - xüsusilə, namus, qeyrət kimi mentalitet dəyərlərinin daşıyıcısı kimi təsəvvür etmişdir:

Kasıba, yoxsula, elə dolaşan
Zatdan qırıq olar, qayğıdan kənar.

Hər çirkin əmələ yol verər insan
Əgər gözləməsə, namus, qeyrət, ar. (53, 51)

Dədə Ələsgərin mənəvi gözəllik haqqında poetik idealına görə isə insanın iki əsas mənəvi keyfiyyəti olmalıdır: insanlıq və səxavət:

Haq sözə gərəkdi düz qiymət olsun,
Qiyməti verməyə mərifət olsun,
İnsanda insanlıq, səxavət olsun,
Neylərəm ki, cah-calalı varıymış. (3, 12)

Bu halda insanlıq və səxavət hər biri milli mentalitet sisteminin kompleks obrazlarıdır. Başqa sözlə, həm insanlığı, həm də səxavəti şərtləndirən mentalitet dəyərləri vardır:

İ n s a n l ı q – namus, abır-həya, qeyrət, həssaslıq, alicənablıq, adillik, rəhmdillik, şükranlıq, halallıq, gözütoxluq və s. kimi mentalitet dəyərlərinin kompleksi.

Səxavət - gözütoxluq, tamahsızlıq, nəfssizlik, köməkdarlıq, pənahdarlıq və s. kimi mentalitet dəyərlərinin kompleksi.

Sənətkarın "Gərəkdi" adlı qoşmasında "aşıq" obrazını şərtləndirən mentalitet dəyərləri tərənnüm olunmuşdur:

Aşıq olub, diyar-diyar gəzənin,
Əzəl başdan pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı güldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.
Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən ləli-gövhər süzülə,

Məcazı danışa, məcazı gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyləyə, utana,
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər, haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi. (3, 15-16)

Beləliklə, məlum olur ki, "aşıq" olanın ilk əsas mentalitet dəyəri onun ədəb sahibi, mərifət sahibi olmasıdır. Əgər aşıqda ədəb, mərifət, qanacaq, qabiliyyət dəyərləri olmasa, o, el (ictimaiyyət – sosial mühit) içində baş çıxara bilməz.

Əsil aşıq həqiqətpərəst olmalı, doğruluq, düzgünlük kimi dəyərlərə sahiblənməlidir. Buna gedən yolun özü də başqa mənəvi dəyərlərlə bağlıdır. Belə ki, aşıq həqiqət carçısı olub, insanlara həqiqətdən, doğruluq-düzgünlükdən danışmaq və onları özünə inandırmaq üçün özü ilk növbədə nəfs, tamah kimi mənfi mentalitet sifətlərindən uzaq olmalıdır. Bu halda onun mənəvi simasını səciyyələndirən ən böyük dəyər paklıq (saflıq – təmizlik) olmalıdır.

Aşıq ədəblilik, paklıq, saflıq kimi dəyərlərin sahibi olandan sonra onun danışdığı sözlər ləl-gövhər kimi qiymətli olur. Başqa sözlə, insanın sahib olduğu müsbət mentalitet dəyərləri onun qəlbini paklıq mücəssəməsinə çevirir və bu halda danışdığı sözlər də bir güzgü kimi bu paklığı əks etdirir.

Ələsgərin poetik idealına görə, aşığa şərm (xəcalət), həya, abır kimi sifətlər də xas olmalıdır. O, haqqsevər olmalı, doğruluq onun həyat idealı sayılmalıdır. Bu kimi sifətlərin (mentalitet dəyərlərinin) sahibi olan aşıq (insan)

Allahın sevimli bəndəsinə çevrilir və Uca Yaradandan dünyanı bəsirət gözü ilə görmək, başqalarının adi gözlə görə bilmədiklərini görüb anlamaq qabiliyyəti alır.

Prof. M.Həkimov ustadnamələrin hikmət qaynağını atalar sözələrinə bağlamışdır: "Ustadnamələr də bədii bir növ olmaqla ibrətli xalq kəlamları və atalar sözündən formalaşmışdır". (61, 207-208)

Folklorşünas alim M.Cəfərli də bu cəhəti təsdiq etmişdir: "Ustadnamələrin nəsihət, ata sözü, böyük sözü, öyüd olması göz qabağındadır". (48, 16) "Ustadnamələr ustad nəsihətləridir. Diqqət etsək, bunlarda təqdim edilən nəsihətlər bütün rəngarəngliklərі ilə eyni bir məzmunu ifadə edir. Başqa sözlə, ustadnamələrdəki fikirlər hamısı hökm şəklində ifadə olunur. Yəni bunların funksional gücü atalar sözlərinin mədəniyyətdəki funksional gücü ilə eyni mahiyyətlidir". (48, 17)

Bu deyilənləri nəzərə aldığımız zaman bir daha təsdiq etməli oluruq ki, milli mentalitet dəyərlərinin həyat hökmləri, xalqın mənəvi və cismani həyat təcrübəsinin poetik inikası kimi qorunub qaldığı folklor janrları içərisində atalar sözləri də mühüm yer tutur. Bu atalar sözlərində əsas mənəvi-əxlaqi mentalitet dəyərləri olaraq namus, qeyrət, abır, həya sifətləri təbliğ olunur.

Əvvəlcə abır haqqında atalar sözlərinə diqqət edib, bu mentalitet dəyərinin özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirməyə çalışaq:

Abir harda, çörək orda.
Abrını yeyib, həyasını da belinə bağlayıb.
Abırlı abırdan qorxar, abırsız nədən qorxar?
Abırsızdan abrını saxla. (1, 16)

Ümumiyyətlə, atalar sözləri davranış qəlibləridir. Abırla bağlı atalar sözlərində xalqın həyat təcrübəsi bu deyimlərin poetikasına uyğun olaraq hökmlər şəklində verilmişdir. Məsələn, "Abır harda, çörək orda" atalar sözündə abır xeyir, ruzi, bərəkət dəyərləri ilə əlaqələndirilmişdir. Ənənəvi azərbaycanlı düşüncəsinə görə, insana ruzi-bərəkət Uca Allahdan gəlir. İslam dininin

hökmlərinə uyğun olaraq, hər bir insan yer üzünə gələndə onun ruzisi (çörəyi) özündən qabaq gəlir. Lakin insan öz ruzisinə qovuşmaq üçün Allahın bəyəndiyi sifət və əməllər sahibi olmalıdır. Həmin gözəl əməllərdən biri abırlılıq sifətidir. Atalar sözü belə bir həqiqəti təlqin edir ki, Allah abırlı insanı sevdiyi üçün ona ruzi-bərəkət verir və heç vaxt çörəksiz qoymur.

"Abrını yeyib, həyasını da belinə bağlayıb" atalar sözündən məlum olur ki, abır və həya sifətləri biri-birinə yaxın mənalardadır. Həmin mətn bizə «abrını yeyib, həyasını bellərinə bağlayan» adamdan bəhs edir. Atalar sözünün həqiqətinə görə, belə adamlardan qorunmaq gərəkdir. Çünki onun abır və həyası yoxdur. Abır və həya isə insanı mənəvi cəhətdən gözəlləşdirən əsas sifətlərdəndir. Bu cəhətdən Azərbaycan xalqının folklorunda bədiiləşmiş mənəvi-əxlaqi dünya nizamında abır və həyadan məhrum olan adam antihumanist hadisə kimi rədd edilir. Belə «abrını yeyib, həyasını belinə bağlayan» insanlarla davranış üsulu isə bu atalar sözündə göstərilmişdir: "Abırsızdan abrını saxla".

"Abırlı abırdan qorxar, abırsız nədən qorxar?" atalar sözünün poetik həqiqətindən məlum olur ki, abırsız adam eyni zamanda utanmaz olur. Abır dəyərinin sahibi olan insan daşıdığı bu ali mentalitet dəyərinin məsuliyyətini daim hiss edir. Abırsız adam isə abır, həya, utanmaq, xəcalət çəkmək kimi sifətlərdən məhrum olduğu üçün ondan antiəxlaqi davranışlar gözlənilir.

Abır və həya oxşar (sinonim) mentalitet dəyərləri olduğu kimi onların arasında müəyyən məna fərqləri vardır:

Həyası olmayanın insafı da olmaz.
Həyasızda insaf olmaz, insafsızda həya.
Həyasızdan həyanı qoru.
Həyasıza salam ver, keç.
Həya imandandır. (1, 646)

Bu atalar sözlərindən məlum olur ki, həya dəyəri insaf dəyəri ilə də bağlıdır. Belə ki, atalar sözünün poetik həqiqətinə görə, həyası olmayan adamda

insaf da olmur. Bu halda həyası olan adam heç vaxt insafsızlığa yol vermir. “Həyasızda insaf olmaz, insafsızda həya” atalar sözü bu dəyərlərin nəinki biri-biri ilə bağlı olduğunu, həm də birinin mövcudluğunun digəri üçün şərt olmasını da təsdiq edir. Başqa sözlə, “həya” təkcə “həyasızlıq” sifəti ilə yox, həm də “insafsızlıq” sifəti ilə binar (ikili) qarşılıq təşkil edir:

Həya - Həyasızlıq

Həya – İnsafsızlıq

İnsaf – İnsafsızlıq

İnsaf – Həyasızlıq

Verilmiş atalar sözlərində təkcə həya(sızlıq) və insaf(sızlıq) dəyərləri səciyyələndirilməmişdir. Eyni zamanda həmin dəyərlərin daşıyıcısı olan insanlarla necə rəftar etməyin üsulu (davranış qəlibi) göstərilmişdir. Bu cəhətdən “Həyasızdan həyanı qoru” və “Həyasıza salam ver, keç” atalar sözləri müstəqil deyim vahidləri olsa da, biri-biri ilə sıx bağlıdır. Bu atalar sözlərinin münasibəti “tezis və aprobasiya”, yaxud “ümumi və xüsusi” kontekstlərində reallaşır. Bu halda “Həyasızdan həyanı qoru” deyimi ümumi konseptual tezisi, başqa sözlə, həyasız adamlarla necə rəftar etməyin ümumi prinsiplərini elan edir. “Həyasıza salam ver, keç” deyimində isə həmin konseptual tezis praktik davranış formuluna, yaxud başqa cür desək, ümumi hökm xüsusi hala çevrilir.

“Həya imandandır” atalar sözü isə həya, insaf, abır və s. kimi mentalitet dəyərlərinin müqəddəsliyini göstərməklə bərabər, bizim Azərbaycan milli mentaliet sisteminin bütün müsbət dəyərlərinin öz başlanğıcından mifoloji-dini, sakral-ilahi anlam daşıması haqqında əvvəldə vurğuladığımız fikri bir daha təsdiq edir.

Atalar sözlərində milli mentalitet sistemimizin əsas dəyəri olan “namus” xüsusi mənalandırılmışdır:

Namus insanın qan bahasıdır.

Namusu itə atdılar, it yemədi.

Namus gedər, dönməz geri,

Yoxdur onun bəlli yeri. (1, 501)

Birinci atalar sözünün məzmunundan aydın olur ki, Azərbaycan xalqı üçün namus olum-ölüm məsələsidir. “Namusun insanın qan bahası” olması o deməkdir ki, namus insan varlığının bütöv qiymətidir. Qan bahası – insanın varlığının qiyməti deməkdir. Beləliklə, Azərbaycan xalqının milli mentalitet düşüncəsinə görə, insanın bütün qiyməti onun namusunda ifadə olunur.

“Namusu itə atdılar, it yemədi” atalar sözünün fəlsəfi hikməti çox dərindədir. Başqa sözlə, namus maddi yox, mənəvi dəyərdir. O, var-dövlət, maddiyyat olmasa da, mənəvi planda ondan da üstün hadisədir. Xalqımızın düşüncəsinə görə, namus Allahın yaratdığı varlıq aləmində məhz insana xas keyfiyyət olub, “insanlıq” adlanan ali-ülvi kompleksi təşkil edən ən mühüm və başlıca ünsürdür.

“Namus gedər, dönməz geri, yoxdur onun bəlli yeri” atalar sözü namusu göz bəbəyi kimi qorumaq haqqında poetik manifestasiyadır. Namus insan varlığının elə bir mənəvi dəyəridir ki, ona malik olmaq şansı insana həyatda bir dəfə qismət olur. Kim öz namusunu əlindən çıxararsa, onu bir daha qaytara bilməz. Beləliklə, insan bütün ömrü boyu öz namusunu qorumalıdır. Çünki xalqımızın milli mentalitetinə görə, namusu itirən adam namussuz olur və namussuz yaşamaqdansa, ölüm daha üstündür. Belə ki, namus Azərbaycan insanının varlığının ən başlıca dəyəri və qiymətidir.

Beləliklə, bu yarımfəsildə aparılmış tədqiqat göstərdi ki, Azərbaycan folkloru xalqımızın mənəviyyat dünyasının güzgüsü kimi onun malik olduğu bütün mənəvi-əxlaqi dəyərləri özündə əks etdirir. Folklorumuzda milli mentalitet sisteminə daxil olan bütün mənəvi-əxlaqi dəyərlər tərənnüm və təbliğ olunmuş, bu dəyərlərin əksi olan sifətlər antimənəvi təzahürlər kimi rədd edilmişdir. Tədqiqat göstərdi ki, Azərbaycan folklorunda mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı olan insan tipləri yaradılmışdır. Həmin obrazlar xalqımızın mənəviyyat tarixinin bütün özünəməxsusluğunu əks etdirməklə öz ideal humanizmi baxımından bəşər poetik düşüncəsinin parlaq səhifəsini təşkil edir.

2.3. Folklorda sosial, siyasi, iqtisadi mentalitet dəyərləri

İstər Azərbaycan folkloru, istərsə də Azərbaycan milli mentalitetinin dəyərlər sistemi tarixi kateqoriyalardır. Folklorumuz tariximizə yoldaşlıq etdiyi kimi, milli mənəviyyat tariximizə də güzgü tutmuşdur. Bu baxımdan, Azərbaycan folklorunda siyasi, sosial, iqtisadi mentalitet dəyərləri də bədiiləşərək obraz və süjetlərin məzmununu təşkil etmişdir.

Azərbaycan folklorunun araşdırılması göstərir ki, xalqımızın milli düşüncəsində sosial, siyasi və iqtisadi görüşlər bir sistem təşkil edir. Məsələn, atalar sözlərində cəmiyyət, onun qurduğu dövlət, həmin dövlətin yerləşdiyi ölkə, bü ölkədəki sosial, iqtisadi münasibətlər bütöv bir düzən və nizam daxilindədir. Bu cəhətdən zəngin atalar sözlərimizə diqqət yetirmək kifayətdir.

Məsələn "Oba yiyəsiz qalanda, donuz təpəyə çıxar" (1, 514) atalar sözündə bədii obrazların dili ilə cəmiyyət-dövlət-ölkə münasibətləri modelləşdirilmişdir. Burada dörd əsas obraz vardır: oba, yiyə, donuz və təpə obrazları.

Oba obrazı burada həm hərfi, həm də məcazi mənada işlənmişdir. Oba hərfi mənada elə insanların yaşadığı obanın özünü bildirir. Məcazi mənada isə o, dövləti, ölkəni bildirir.

Yiyə burada sahib, dövlət başçısı, ölkə rəhbərini bildirir. Burada onun məhz hansı siyasi quruma rəhbərlik etməsi fərq etmir. Məsələnin mahiyyəti cəmiyyətin siyasi özünütəşkilinin hər bir forması ilə bağlı ola bilər. Bu cəhətdən obanın sahibi obrazı ilk növbədə dövlətin başçısı, ölkənin rəhbəri deməkdir.

Donuz obrazı burada birbaşa məcazi mənadadır. Bildiyimiz kimi, oba birgə yasayışın siyasi-sosial qurumu kimi elat həyat tərzinə məxsus anlamı bildirir. Oturaq insanlar kəndlər halında, elatlılar isə obalar şəklində yaşayırlar. Bildiyimiz kimi, Azərbaycan xalqı islami dəyərlərin sahibi kimi donuzu murdar sayır və heç vaxt donuz saxlamır. Bu cəhətdən obalarda donuzun olması mümkün deyildir. Bu, o deməkdir ki, oba yiyəsiz olanda təpəyə çıxan donuz

məcazi obrazdır. O, arzuolunmaz, rədd edilən, qəbul olunmayan antimənəvi dəyərlərin simvoludur.

Atalar sözündəki dördüncü obraz təpədir. Təpə burada həm həqiqi, həm də məcazi mənadadır. Onun məcazi mənası unudulmuş, arxaik keçmişimizdə qalmışdır. Belə ki, arxaik-mifoloji düşüncədə dağlar, ucalıqlar pərəstiş obyekti olmuşdur. Türk mifologiyasında dağ kultu (dağa pərəstiş) çox geniş yayılmışdır. Bu baxımdan, dağ (təpə, ucalıq) həm də siyasi hakimiyyətin simvolu sayılmışdır. Ölmüş türk xaqanlarının, şöhrətli sərkərdələrin qəbrinin üstündə kurqanlar – tökmə təpələr ucaldılmışdır. Bu cəhətdən arxaik Azərbaycan-oğuz obasında təpə təkcə fiziki ucalığı yox, həm də siyasi ucalığı bildirmişdir.

Sözü gedən atalar sözündə təpə siyasi zirvəni, dövlət rəhbərliyini bildirir. Beləliklə, atalar sözündə reallaşmış siyasi mentalitet düşüncəsinə görə, xalq öz dövlətinə sahib çıxmayanda ölkə cəmiyyət, xalq tərəfindən qəbul olunmayanların əlinə keçir. Bu cəhətdən "Ölkə sahibsiz olmaz" (24, 286) atalar sözü, əslində, siyasi mentalitet düşüncəsini əks etdirən sosial-siyasi davranış qəlibi – ictimai hərəkət modelidir.

"Ölkə ki var, onun qabağında şah da acizdir, gəda da" (1, 514) atalar sözünün siyasi-sosial həqiqətinə görə, dövlət cəmiyyətfövqü hadisədir. Burada onun cəmiyyətüstü kateqoriya hesab olunması o deməkdir ki, dövlətin varlığı cəmiyyətin, xalqın yaşamasının şərtidir. Dövlət şah üçün də, gəda üçün də vacib siyasi-ictimai mövcudluq modelidir. Bir xalqın dövləti yoxdursa, onun şahı da, gədası da yoxdur. Çünki həmin xalq şahlı və gədalı başqa xalqın quluna, nökərinə çevrilir.

Azərbayan xalqının siyasi mentalitet düşüncəsini özündə əks etdirən "Ölkə abad ikən dəyirman xaraba idi" (1, 514) atalar sözü çox mürəkkəb məna strukturuna malikdir. Bu deyim vahidinin məzmunu ilk baxışdan anlaşılmır. Çünki ölkənin abad olması zamanının dəyirmanın xaraba olması zamanı ilə əlaqələndirilməsi müasir düşüncə baxımından məntiqsiz görünür. Folklorda isə çağdaş düşüncə baxımından məntiqsiz görünən hər bir şeyin arxaik-mifoloji

məntiqi olur. Bu baxımdan, nəzərdən keçirdiyimiz atalar sözündə xalqımızın dövlətçilik haqqında əski mentalitet düşüncəsi ifadə olunmuşur.

Burada dəyirman çörəyin rəmzidir. İslami düşüncəyə görə, çörək hətta "Qurani-Kərim"dən əvvəl yer üzünə gəlib. Bu cəhətdən, həmin atalar sözünün məntiqinə görə, dövlətin (ölkənin), dövlətçilik ənənələrinin yaranması, hətta dəyirmandan (çörəkdən) də əvvəldə durur. Başqa sözlə, dəyirmanın abad olması dövlətin (ölkənin) abad olmasından asılıdır. Bir xalqın dövləti olarsa, onun dəyirmanı da olar. Əksinə olarsa, o xalq ac-yalavac olub, başqa xalqların quluna çevrilər. Beləliklə, təhlil olunan atalar sözündə dövlətçilik dəyəri birinci yerə çəkilir: xalqın dövləti olmasa, çörəyi də olmaz.

Folklorda cəmiyyət və cəmiyyətdaxili münasibətlər çox zəngin obraz və süjetlər vasitəsi ilə bədiiləşmişdir. Elə folklor nümunələri vardır ki, onlarda birbaşa cəmiyyətin sosial struktur modeli – ictimai əsasları əks olunmuşdur. Aşağıdakı atalar sözlərində olduğu kimi:

El atan daşa güc çatmaz
(El atan daşı qalxızmaq olmaz). (1, 301)
El bir olsa-dağ oynadar yerindən,
Söz bir olsa, zərbi kərən sındırar. (1, 302)
El elin itkisini bayatı oxuya-oxuya axtarar. (1, 303)

Buradakı atalar sözlərinin başlıca ideyasına diqqət verdiyimizdə aydın olur ki, cəmiyyətin özünütəşkil forması olan elin mövcudluğunun əsasında birlik durur. Bu cəhətdən "birlik" anlayışı Azərbaycan milli mentalitet sisteminin siyasi məzmunlu dəyəridir. Bu dəyərin məzmununu eli təşkil edən daxili struktur elementlərinin biri-biri ilə qırılmaz şəkildə bağlılığı təşkil edir.

"El", ümumiyyətlə, tarixi kateqoriyadır. Tarixən bu sözün-xalq, ölkə mənaları da olmuşdur. Türk dövlətçiliyinin struktur forması kimi öz aktuallığını itirdikdən sonra çoxmənalı sözə çevrilmiş və dövrümüzədək davam etməklə uzun müddət "cəmiyyət" anlamında işlənmişdir. Bu baxımdan, milli mentalitet

düşüncəmizdə “elin birliyi” dedikdə cəmiyyətin struktur bütövlüyü nəzərdə tutulur.

Azərbaycan folklorunun janrlar dünyasını nəzərdən keçirdiyimizdə görürük ki, milli mentalitet sistemi hər bir folklor janrında sistem şəklində təzahür etmişdir. Məsələn, aşağıdakı bayatıda hər bir cəmiyyət, o cümlədən Azərbaycan cəmiyyəti üçün tarixən xarakterik olan yerli-didərgin (yerli-gəlmə) münasibətlər modeli bədiiləşmişdir:

Aşıx, elimə gülmə,
Köşgün halıma gülmə.
Gələndə rəvanə gəl,
Qəribəm, mənə gülmə. (26, 376)

Burada yerli-gəlmə münasibətlər qoşalığında gəlmə – didərgin tərəfini folklorumuz üçün xarakterik olan qərib obrazı təşkil edir. Digər bayatıda milli mentalitetimiz üçün xarakterik olan Sağlam-Xəstə münasibətləri modelləşmişdir:

Bu yol karvansız olmaz,
Dəvə sarvansız olmaz.
Gedək həkim yanına
Həkim dərmansız olmaz. (19, 325)

Ümumiyyətlə, folklorumuzda, o cümlədən bayatılarda maddi-mülki bərabərsizliyin doğurduğu sosial münasibətlər daha çox öz əksini tapmışdır. Bu münasibətlər varlı-kasıb obraz qoşalığı şəklində gerçəkləşmişdir:

Bu yol gedir otara,
Otar hara, ot hara?
Yoxsul da bir at aldı,
Yer tapmadı otara. (19, 325)

Bayatılarda valideyn-övlad, bacı-qardaş, baba-nəyə və s. münasibətlər zəminində Azərbaycan milli mentalitet sisteminin ailə dəyərləri öz əksini tapmışdır. Məsələn, aşağıdakı mətndə sevən gənclər arasında olan istək-

məhəbbətlə ana-övlad arasında olan məhəbbət qarşılaşdırılmış və ana-bala məhəbbətinin daha sakral, daha əzəli və əbədi olduğu təsdiq edilmişdir. Bayatının məzmununa görə, oğlanla qız arasında olan məhəbbət sonradan yaranırsa, ana ilə bala arasında olan məhəbbət əbədi və sarsılmazdır:

Gecələr, ha gecələr,
Molla dərsin hecələr.
Mən sənsiz dözsəm də,
Anam mənsiz necələr? (26, 376)

Bayatılarda, o cümlədən bacı-qardaş məhəbbəti də ali-ülvi hadisə – Allah yazısı olaraq əbədi dəyər kimi tərənnüm olunmuşdur:

Qardaşdar, ay qardaşdar,
Yağış yağar, qar başdar.
Ölsə, ölə bacılar,
Heç ölmüyə qardaşdar. (26, 377)

Azərbaycan cəmiyyətində mənəvi-əxlaqi münasibətlər ideal-antiideal modeli əsasında qurulmuşdur. Cəmiyyətimiz bütün tarixi boyunca mənəvi münasibətləri ideal səviyyəsində qəbul etmiş, antiideal olanı birmənalı şəkildə rədd etmişdir. Bu, folklorda öz ifadəsini olduğu kimi tapmışdır. Məsələn, aşağıdakı bayatıda insanlararası münasibətin hər cür formasında (sevgi, ailə, dostluq münasibətlərində və s.) ayrılıq, təfriqə, nifaq, münaqişə yaradanlar pislənilmişdir:

Ayrılıx yaman-yaman,
Evlərə tüşsün talan.
Ayrılsın, qavışmasın,
Bizə ayrılıx salan. (26, 387)

Azərbaycan folklorunda milli mentalitet dəyərlərinin, o cümlədən sosial, iqtisadi münasibətlərdə aktual olan mentalitet dəyərlərinin özünəməxsus şəkildə obrazlaşdığı janrlardan biri lətifələrdir. Lətifələrdə milli mentalitet üçün xarakterik olan bütün mənfi dəyərlər gülüş hədəfinə çevrilir. Burada müsbət

milli mentalitet dəyərlərinin tərənnümü əks yolla baş verir. Başqa sözlə, milli-mənəvi dəyərlərin bütün naqisliklərinin əsasında duran mentalitet sifətləri (antiideallar) gülüş hədəfinə çevrilməklə bunun əksi olan müsbət dəyərlər təbliğ olunur. Göründüyü kimi, milli mentalitet dəyərlərinin təcəssümünün bütün folklor janrları üçün xarakterik olan "ideal-antiideal" modeli lətifələr üçün də aktualdır. Xarakterik bir mətnə diqqət edək.

Şəki lətifələrindən birində deyilir ki, Şəkinin baməzə kişilərindən biri olan "Mirzə Abdulcabbar küçə ilə gedərkən iki qadının dalaşdığını görür. Qadınlardan birinin nalayiq sözləri Mirzəyə pis təsir bağışlayır. O, uzaqdan dönə-dönə öskürür ki, bəlkə, hay-küy kəsilə. Amma qadın çox gec sakitləşir. Mirzə ona salam verib deyir:

- Bilirsən nə var?
- Deyərsən, bilərik.
- Bu ətraf məhəllələrdə nə qədər qadın var ha, hamısı saa borcludur. Çünki onların ərləri həmişə bu doqqazdan keçillər. O kişilər səən üzo görüf, səso eşitməsəydilər, öz arvaddarının qədrini bilməzdilər". (18, 232)

Göründüyü kimi, burada sosial mentalitet dəyərlərinin təcəssümü pis-yaxşı modeli üzərində qurulmuşdur. Lətifədə söyüşcül arvad tərifənir, lakin bu tərif, əslində, kinayədir və gülüş yaratmağa xidmət edir.

Lətifələrimizdə sosial mentalitet dəyərlərinin təcəssüm olunduğu münasibətlər modelindən biri "xəstə-sağlam" qarşılıq qoşasıdır: "Bir şəkili xəstələnir və həkimə müraciət etməli olur. Həkim xəstəni müayinə edib mədəsində yara olduğunu bildirir.

Xəstədən soruşurlar:

- Həkim nə dedi:
- Didi ki, qorxulu bi şey yoxdu, ölənə qədər yaşiyiciysən". (18, 261)

Lətifə janrında bütün mentalitet dəyərlərinin bədii təcəssümü gülüş yaratmağa xidmət edir. Məsələn, digər janrlarda ciddi planda təqdim olunan, epik mətnlərdə süjet konfliktinin, lirik mətnlərdə poetik kolliziyanın əsasında

duran varlı-kasıb münasibətləri lətifələrdə istisnasız olaraq gülüşyaradıcı vasitəyə çevrilmişdir:

“ - Hacı dayı, diyillər yaxşıca mal-döylətin var. Habı düzdü görəsən?

- Hayındı haqq-hesavnan heş aram yoxdu. Bi onu bilirəm ki, getdixca məhşurlaşıram, salam verənnərin sayı çoxalır”. (18, 221)

Lətifələrin poetik dünyası bütöv bir sistemdir. Burada cəmiyyətin sosial münasibətlərinin elə bir sahəsi yoxdur ki, inikas olunmasın. Bu, idarəçilik məsələlərinə də aiddir. Bu mövzudakı lətifələrə diqqət yetirdiyimizdə görürük ki, burada sosial idarəçiliyin əsasında duran hər cür dəyərlər lətifə poetikasının tələb prinsiplərinə uyğun olaraq obraz və süjetlərə çevrilmişdir. Məsələn, lətifələrdən birində deyilir:

“İclasda tənqid edilmiş bir vəzifəli şəxs Hacı dayıya öyünərək belə diyir:
- Hacı, sən də dünyagörmüş bir kişisən. Büyün məən iclasda pisdiyənnərə didim ki, gəlin məəm əmmaməmi birozun başına qoyax. Görax siz nağarısooz? Düz didim, yoxsa yox?

Hacı dayı:

-Yaxşı kişilər etibar olunmuş əmmaməni başqasının başına qoymullar”. (18, 225)

Digər bir lətifədə azərbaycanlı mentalitetinin neqativ əməllər sahibi olan vəzifəli şəxsi belə tənqid olunmuşdur: “Yeni təyin edilmiş müdir görür ki, işçilər arasında intizam yoxdur, tam fəaliyyətsizlikdir. Soruşur:

- Hanı intizam, hanı fəaliyyət?

Şəkili yerindən qalxıb deyir:
- Gözo, bax, belə bu anbardar dayın yisin. Onnarı da köhnə müdirimiz özüylə aparıb”. (18, 259)

Lətifələrdə milli mentalitet sistemimizin mal-əmtəə, pul-maliyyə və s. münasibətləri ilə bağlı iqtisadi dəyərləri də çox geniş şəkildə bədiiləşmişdir. Lətifələrdən birində deyilir

“- Hacı dayı, qarınqulunu nəyinə görə qiymətləndirillər?

- İştahasına görə.
- Bəs alverçini?
- Mayasız qazanc götürmax qazancına görə”. (18, 225)

Göründüyü kimi, burada əsas münasibətlər modeli “halal-haram” qarşılıq qoşalığıdır. Biz lətifədə həmin qoşalığı təmsil edən obrazlardan birini görürük: alverçi. Bu halda alverçi obrazı milli mentalitetimizin haram antidəyərini təmsil edir. Çünki halal yolla mayasız heç bir halda qazanc əldə etmək mümkün deyildir. Lətifədə alverçi haram dəyərinə əsaslanıb qazanc götürənlərin obrazı olmaqla, halal dəyərlərə əsaslanıb qazanc götürən ticarətçiyə qarşı durur.

Aşağıdakı lətifədə sosial münasibətlərin mənəvi tərəflərini əks etdirən eqoizm (xudbinlik) gülüş hədəfinə çevrilmişdir:

“Pulu sağa-sola xərcləyən bir şəkili qonşusuna deyir:

- Yaman simicsən ha, yığdıxlaro xaşdamırsan.
- Şəkili köksünü ötürüb dərdindən ah çəkir:
- Nə diyirəm, pulun puluma dönsün”. (18, 249)

Lətifənin məzmunundan məlum olur ki, burada qarşıdurma qoşalıqları təkcə xudbinlik-sadəlik səviyyəsi ilə məhdudlaşmır. Burada varlı-kasıb oppozisiyası da vardır. Həmin oppozisiya tox-ac qoşalığını da əhatə edir. Çünki varlı qonşunun öz kasıb qonşusuna münasibətində “Toxun acdan xəbəri olmaz” formulunun dəyərləri də öz təcəssümünü tapmışdır:

Xudbinlik - Sadəlik

Varlılıq - Kasıblıq

Toxluq - Aclıq

Harınlıq - Qənaətcillik

Lətifələrdə qohumluq sisteminin subyektləri arasında münasibətlərdən də gülüşyaradıcı vasitə kimi istifadə olunmuşdur. Məsələn, bir lətifədə nənə ilə nəvənin arasında belə bir dialoq baş verir:

“Bakıda yaşayan laysqılının nəvəsi imtahan verib gedir kəndə. Nənəsi deyir ki, bala, instituta qəbul olsan, camışları satıb səni oxudacam.

Bu sözlərdən sevinən nəvə deyir:

- Çox sağ ol, nənə. Əvəzində mən də sənin baş daşını yazdıracam”. (18, 241)

Burada nənə ilə nəvənin arasında baş verən bu gülməli söhbətdə Azərbaycan cəmiyyəti üçün ağrılı sosial bəla ifşa olunmuşdur. Nənənin təsəvvürünə görə, ali məktəbdə oxumaq üçün pul lazımdır. Sadəlöhv nəvə də nənəsinə başdaşı düzəltdirməyi vəd verməklə, əslində, ona ölüm arzu edir. Məsələnin bu tərəfi gülüş yaratmağa xidmət edən lətifənin poetik dərinliklərində nə qədər böyük və ciddi məsələlərin durduğunu göstərir. Belə ki, nənənin nəvəsinə etmək istədiyi yaxşılığın adı rüşvətdir: o, camışlarını satmaqla əldə etdiyi pulu nəvəsinə vermək istəyir ki, o da institutda oxumadan – müəllimlərinə rüşvət verməklə qiymət ala bilsin. Nəvənin isə nənəyə etdiyi minnətdarlığın semantik mahiyyəti, əslində, ölümdür. Beləliklə, lətifənin poetik strukturunda milli mentalitet sistemimizin “həyat-ölüm”, “halal-haram” kimi struktur qəlibləri durur.

Folklorumuzda sosial mühit üçün xarakterik olan iqtisadi mübadilə münasibətləri də humanistləşdirilmişdir. Başqa sözlə, Azərbaycan insanının ideal xarakteri bütün hallarda halallıq prinsiplərinə söykənmiş və sakral xarakter dasımışdır. Azərbaycan folklorunun ideal dəyərlər daşıyıcısı olan qəhrəmanı hər cür haram iqtisadi münasibətlərin fövqündə durmuşdur. Məsələn, “Abbas və Gülgəz” dastanından bir nümunəyə diqqət edək.

“Abbas baxdı gördü bir dəstə adam ağacla bir oğlanı döyür. Abbas atdan sıçrayıb yerə düşdü, dedi:

- Bunu niyə döyürsünüz? Nə günahın sahibidi?
- Dedilər:
- Hərəmizə bir manat borcludu, vermir, onunçün döyürük. Abbas döyülən adamdan soruşdu:

- Adın nədi?
- Döyülən adam dedi:
- Qəmbərdi.
- Abbas adamlara dedi:
- Mənim atımı alın, bunun borcunu çıxın. Bu yazığı azad eləyin.

Adamlar atı alıb, oğlanın borcunu çıxdılar". (5, 127)

Göründüyü kimi, Azərbaycan folkloru qəhrəmanı hər cür maddi dəyərlərin fövqündə durur. Abbas üçün onun altındakı atı (malik olduğu maddi dəyər və onun Abbasa verdiyi imkanlar) yox, insanın azadlığı əsasdır. O, atı verib özü piyada qalsa da, Qəmbərin azadlığının simasında mənəvi rahatlıq əldə edir. Başqa sözlə, folklorumuzda iqtisadi dəyərlər humanistləşdirilməklə, onlara əxlaqi-mənəvi cizgilər verilmişdir.

Azərbaycan folklorunun bir bütöv halında nəzərdən keçirilməsi milli mentalitet sisteminin sosial dəyərlərinin də sakral arxetiplərlə bağlılığını ortaya qoyur. Bu cəhətdən Azərbaycan əfsanələri, xüsusilə mifoloji məzmunlu əfsanələr əlamətdardır. Belə ki, əfsanələrdə sosial həyatın bütün sahələrinin mentalitet dəyərlərini müşahidə etmək mümkündür. Məsələn aşağıdakı mifik əfsanədə öz təcəssümünü tapmış mentalitet dəyərləri ilkin kosmoqoniya – yaradılış ideyası ilə bağlıdır:

"Qabaqlar göy yerə yaxın idi. Adamlar bir-birini öldürüb qan tökürdülər, bərəkətin qədrini bilmirdilər. Bunu görəndə Tanrının qəzəbi tutdu, göyü yerdən uzaqlaşdırdı". (39, 35)

Əfsanədə göylə yerin biri-birinə yaxın olması dünyanın başlanğıc kosmoqonik nizamı kimi təqdim olunmuşdur. Lakin insanlar bu nizamın qədrini bilmədiklərinə görə Tanrı tərəfindən cəzalandırılırlar və kainatın hazırkı nizamı yaranır. Beləliklə, burada keçmişlə bugün, nizamla nizamsızlıq arasında olan oppozisiya təqdim olunur ki, onun da əsasında insanların bərəkətə qarşı sayğısızlığı durur. Demək, bərəkət anlayışı Azərbaycan milli düşüncə sisteminin ən ilkin dəyərlərindəndir.

İlkin Azərbaycan türkünün düşüncəsinə görə, dünyanın ictimai sosial nizamının-sosial kosmosun əsasında ilahi mahiyyətli bərəkət dəyəri durur. Digər bir mətnə diqqət edək:

"Çox əzazil, özünnən deyən bir padşah varmış. Bütün adamlar bının əlinnən zağ-zağ əsirmişdər. Bir adamın hünəri nəymiş ki, bınnan icazəsiz cınqırın çıxartsın. Ta işi o yerə çıxarmışdı ki, özünü allah elan eləmişdi. Hamı da qorxudan bını allah sayırdı.

Əmə bının uşağı olmurmuş. Bı da fikir eliyirmiş ki, bə ölənnən sora taxtaja kim sahab olacax?

Bir gün bının yanına bir nurani qoca gəlir. Bına bir alma verip deyir ki, ala bının arvadınnan ye, bir oğlun olacax, əmə gərəh oğlan nə desə, ona əməl eliyəsən.

Padşah razılaşır, almanı götürüb arvadı ilə yeyir. Bəli, vədə yetişir, bının kürəyi pütün oğlu olur. Tez qurban kəsillər, sora camahətə əhvalatı deyillər.

Uşağın qırxı çıxannan sora yığışıllar ki, ona ad qoysunnar. Elə bı vaxt uşaq dil açıb deyir ki, bə mənim adım Uğuzdu. Hamı məhətdəl qalır. İsdiyillər uşağı danışdısınnar. Əmə uşaxda danışmır. Bının adını Uğuz qoyullar.

Bir xeyləh keçir, Uğuz on beş yaşına çatır. Bir iyid olur ki, tayı-bərabəri tapılmır. Günnərin bir günü Uğuz cəməyəti başına yığıb deyir ki, bə mənim atam allah dəyil, allah göydədi, özü də heş kimin gözünə görsəmməz. Padşah bını eşidir. Gəlir ki, oğlunu öldürsün. Bınnar müharibə eliyillər. Uğuz atasını öldürür. Özü keçir onun yerinə. Deyir ki, hamı gərəh göydəki allahı tanısın. Bınnan sora insannar göydəki həqiqi allahı tanıyıllar. (39, 42)

Əfsanədəki Uğuz oğuz tayfalarının ulu əcdadı Oğuz Kağandır. "Oğuznamə"nin müsəlman versiyalarında o, islam dinini inkar edən atası Qaraxanla vuruşaraq onu öldürür və oğuzlar rahat şəkildə islam dininə qovuşurlar. Nəzərdən kecirdiyimiz əfsanə "Oğuznamə"dəki süjetin xalqın yaddaşında qorunmuş şəklidir. Burada Azərbaycan milli mentalitetinin, biz deyərdik ki, fundamental prinsipləri qorunub qalmışdır.

Uğuzun atası olan padşah çox əzazildir. Əfsanə onun əzazilliyini dinsizliyi, Allahı inkar etməsi ilə əlaqələndirmişdir. Demək, Azərbaycan milli mentalitet sistemi üçün tarixən xarakterik olan cəmiyyət modelinə görə, dinsiz və Allahsız cəmiyyət məhvə məhkumdur. Bu cəhətdən, Azərbaycan cəmiyyətində islam dini ilə təsdiq olunmayan, onunla uzlaşdırılmayan hər hansı mentalitet dəyəri qəbul olunmazdır. Milli şüur tariximiz üçün islamdan öncə aktual olmuş bir çox mentalitet dəyərləri islam dininə uyğunlaşdırılmışdır. Elə Oğuz Kağan haqqında əfsanədə də bunun bariz nümunəsini görürük. Oğuz haqqındakı oğuznamələr islam dinindən qabaqkı tanrıçılıq dini görüşləri ilə bağlıdır. Lakin islam dini qəbul olunandan sonra oğuznamələrin əsasında duran tanrıçılıq ideologiyası islam ideologiyasına transformasiya olunmuş və Tanrıçılıq dini yolunda bütpərəstliyə qarşı mübarizə aparan Oğuz Kağan islam dəyərlərinin hamisi olan Oğuz xan obrazına çevrilmişdir.

Azərbaycan əfsanələrini nəzərdən keçirdiyimizdə görürük ki, burada sosial mentalitet dəyərləri üçün xarakterik olan cizgilər çox geniş məna kontekstlərində bədiiləşdirilmişdir. Bu xalq hekayələri xalqımızın milli düşüncəsinin bütün humanizmini ortaya qoymaqla, onun müqəddəs dəyərlərə söykəndiyini də nümayiş etdirir. Məsələn, bir əfsanədə xəstə-sağlam münasibətləri sakral-ilahi dəyərlər kontekstində mənalandırılmışdır:

“Başkeçidin Duluç kəndində bir kişi, bir arvad yaşayırdı. Bunlar ər-arvadıydı. Kişi ovçuydu. O, hər gün meşəyə gedirmiş, oradan quş, heyvan vururmuş. Bir dəfə kişi arvadını meşəyə aparır. Ovçu arvadı ilə meşədə bir qədər gəzdikdən sonra bir bulağın başına gəlirlər. Elə bu zaman onlar bulağın başında bir ana maral görürlər. Ovçu istəyir ki, maralı vursun. Arvadı onun əlini tutub saxlayır, qoymur maralı vurmağa.

Bundan sonra onlar hər gün meşəyə gedirlər. Ana maral da onların qabağına çıxır. Bir gün ovçu bərk xəstələnir. Daha meşəyə gedə bilmirlər. Ana maral təşvişə düşür, nigarançılıq keçirir. Ana maral bir neçə gün də onları gözləyib ovçunun evinə gedir. Gəlib görür ki, ovçu xəstələnib evdə yatır. Maral

geri qeyıdır. Səhəri gün arvad durub görür ki, qapının ağzında bir qabda süd var. Onlar bu işə çox təəccüblənirlər. Sonra bilirlər ki, bu maralın işidir. Arvad hər gün südü kişiyə verir. Bir neçə gün belə keçir. Ovçu tamam sağalır.

Bir neçə ildən sonra da arvad xəstələnir. Ana maral kişiyə necə süd verirdisə, indi də arvada hər gün süd qoyub gedir. Nəhayət, arvad da yaxşılaşıb ayağa durur.

Sonra onlar qocalıb ölürlər. Onları aparıb bir dağın başında basdırırlar. Hər gün ana maral öz sürüsü ilə bu dağın başına çıxar, məzarların başına dolanıb gedərmiş. Ona görə də bu dağa "Maral dağı" deyirlər. (39, 61)

Bu əfsanədə sosial münasibətlər modeli çox geniş tutuma malik olmaqla cəmiyyət-təbiət, insan-heyvan qarşılıq qoşalarını əhatə edir. Səciyyəvidir ki, Azərbaycan milli düşüncəsi insan cəmiyyəti üçün xarakterik olan humanizm prinsipininin sərhədlərini genişləndirərək bütöv təbiəti və onun ayrılmaz parçası olan heyvanları da onun içərisinə daxil etmişdir.

Əfsanədə ovçu maralı vurmaq istəyir, lakin arvadı onu qoymur. Burada humanizmin ilk baxışdan müşahidə olunmayan kultlaşdırılmış səviyyəsi vardır. Belə ki, istər ovçunun arvadı, istərsə də maral ana kultu ilə bağlıdır. Əfsanədə maralın ana olmağı xüsusi vurğulanır. Ovçunu maralı öldürməkdən, əlini ana qanına batırmaqdan saxlayan arvadı da anadır. Burada ana kultunun varlığı ana maralın xəstə ovçu və xəstə arvada bir hami-əcdad kimi qayğı göstərməsi ilə də öz təsdiqini tapır.

Bütün bunlar göstərir ki, Azərbaycan milli mentalitet sistemi üçün humanizm prinsipləri əsasdır. Dünyanın heç bir sərtlik və acılıqları, qan və zorakılıqları Azərbaycan xalqının milli düşüncəsindəki humanizm dəyərlərini sarsıda bilməmiş və mənəvi əxlaqi dəyərlər sistemimiz əzəl başdan humanizm prinsiplərinə söykənmiş və bu prinsip milli mentalitet sistemimizin əbədi atributu olaraq qalmışdır.

Humanizm - insanpərvəlikdir və onun əsasında insan faktoru - antropoloji amil durur. Bu cəhətdən Azərbaycan folklorunda dünyanın

antropomorflaşdırılması - ətraf aləm və onun ünsürlərinə humanist-insani boyalar verilməsi xarakterik hadisədir.

Biz Azərbaycan milli düşüncə dünyasının - milli mentalitet dəyərləri sisteminin humanist-antropoloji hüdudsuzluğuna təbiət cisimlərinin, astral elementlərin insani münasibətlər - ailə münasibətləri sferasına aid edilməsin məsələsində də müşahidə edirik.

Səciyyəvi əfsanələrdən birində deyilir ki, "Gününən Ay bacı-qardaş imiş. Bınnar çox şitəngiyimişdar, elə hey savaşırmışdar. Günnərin bir günü genə bınnar savaşıllar. Analları da xəmir eləyirmiş ki, əppəh yapsın, birdən Gün əlin xəmirə batırıp çırpır Ayın üzünə. Analları da hersdənip bınnara qarğış tökür. Deyir ki, sizi görüm bir-birivizin üzün heş görmüyəsiz.

Odu ki, Gün günüz doğur, Ay da gecə. Gün ki, xəmiri çırpmışdı Ayın üzünə, indi də gecə Aya baxanda görünür – ləkə kimi qalıpdı". (39, 35)

Bu əfsanədə Günəş və Ayın gündüz-gecə münasibətləri fonunda qarşılıq təşkil etməsi bədiiləşdirilmişdir. Burada təbiət və onun ünsürləri bir ailə kimi təsvir edilmişdir. Demək, Azərbaycan milli düşüncə sistemində tək insan və onun qan doğmaları yox, bütöv təbiət və cəmiyyət qlobal ailəni təşkil edir. Bu, milli düşüncə dünyamız və onun əsasında duran mentalitet sisteminin başlıca xarakterik keyfiyyətini – humanist-antropoloji atributunu göstərir.

Azərbaycan folklorunda sosial, iqtisadi mentalitet dəyərləri epik dünya modelinin təkcə təbiət ünsürləri ilə yox, eyni zamanda zaman ünsürü ilə də əlaqələndirilmişdir. Zaman epik cəhətdən maddiləşdirilmiş, antropoloji (insani) obraz kəsb etmişdir. Məsələn, xarakterik əfsanələrdən birində deyilir: "Böyüh Çiləynən Kicik Çillə bacıdılar. Kiçik Çillə Böyüh Çillədən soruşur ki, getdin neynədin?

Böyüh Çillə də deyir ki, getdim cəməhətin dənnərin üyütdüm, qavırmaların

qalaxların vırdım, əppəhlərin yapdım gəldim. Kiçik Çillə deyir ki, kül başıva. Mən gedəcəm qocaları təndirdən basıp küflədən çıxaracam, uşaxları da əllərində

çilləliyəciyəm. Əmə həvih ki, ömrü azdı. Kaş sənin ömrün məndə olaydı". (39, 56)

Ənənəvi Azərbaycan təqvimində qış iki yerə – böyük çillə və kiçik çilləyə bölünür. Böyük çillə 40 gün, kicik çilə 20 gündür. Əfsanə böyük və kiçik çillələri bacı kimi təqdim etmişdir. Ancaq bunların arasında oppozisiya vardır ki, bu da folklor mətnlərinin süjet poetikasına uyğundur. Böyük Çillə – yaxşı bacı, Kiçik çillə - yaman bacıdır. Beləliklə, Azərbaycan folklorunda zaman antropomorflaşdırılmış və onların simasında xeyirxahlıq və bədhaxlıq kimi mentalitet dəyərləri təcəssüm etdirilmişdir.

Azərbaycan milli mentalitet dəyərləri sisteminin aktual modellərindən olan savaş-barış binar qoşalığı da folklorumuzda humanizm kontekstində mənalandırılmış, bədii süjet və obrazlara çevrilmişdir. Səciyyəvi nümunələrdən birində deyilir:

"Bir el ağsaqqalının ərsəyə çatmamış yeddi oğlu vardı. Özü də qocalmışdı, Əli qılınc tutmurdu. Yağılar fürsəti bada vermir, tez-tez basqın edib eli talıyırmışlar. Günnərin bir günü genə yağılar gəlir. Yeddi qardaş qoşun yığıb onların qabağına çıxır. Ancax bılar uşax, yağılar neçə ilin qan tökənnəri. Yeddi qardaşın qoşunu basılır. Qardaşlar görür ki, qoşun basıldı, yağılar genə eli çapıb talayacaqlar. Üzdərin göyə tutup yalvarıllar ki, ya tanrı, bizi keçilməz dağa döndər, qabağı kəsək, yağılar elimizə soxulmasınlar.

Tanrı eşidir onnarı, qardaşların yeddisi də dağa dönüb yan-yana düzülüllər, yağılar keşməyə yol tapmır, qəyidip bir yollux gedillər. Camahat o dağlara "Yeddi qardaş dağı" deməyə başdıyır. Azərbaycannılar dədə-babadan bı dağları oğax sayıllar". (39, 41)

Bu əfsanə mətnində Azərbaycan milli düşüncə sisteminin tarixi insanpərvərlivi təcəssüm olunmuşdur. Xalqımız savaş-barış oppozisiyasını da humanistləşdirmiş, ona bəşəri-insani dəyərlər kontekstində yanaşmışdır. Vətəni öz şirin canlarından əziz tutan yeddi qardaş özlərinin daşa dönməsini Allahdan istəyirlər ki, vətən yağıların tapdağı altına düşməsin. Allah bunların arzusunu

eşidir və yeddi qardaş Yeddi qardaş dağına çevrilir. Bu əfsanə xalqımızın dağlara pənah yeri kimi baxması, onlara canlı yanaşması, ehtiram göstərməsinin də üzərinə işıq saçır. Göründüyü kimi, dağlara sayğı təkcə onların kultlaşdırılması ilə bağlı deyildir. Yeddi qardaşın dağa dönməsi ulu babalarımızın dağları öz övladları qədər sevməsinin də göstəricisidir. Bu da öz növbəsində Azərbaycan milli mentalitet sistemimizin necə ali və müqəddəs dəyərlərə malik olmasını bir daha nümayiş etdirir.

Azərbaycan sosial mentalitet dəyərlərinin tədqiqi göstərir ki, xalqımız təbiəti də sosial münasibətlər sferasına daxil etmiş və onu müqəddəsləşdirmişdir. Belə sakrallaşdırmanın tarixi xalqımızın tarixi qədər qədim olub, ilkin mifoloji inanclarımıza gedib çıxır. Məsələn, miflərimizdən birində deyilir:

"Əvin, həyətin, bəğin, suyun, yolun, dəğin – hər şeyin əyəsi var. Gərəh bınnara səlam verəsən. Timsalı, gəlmisən bəğə. Gərəh deyəsən:

- Səlam a bəğ əyəsi, gəlmişəm bəğivi suvaram, ağaşdarivin dibin belliyəm. Gedəndə də deyirsən ki, salamat qal, a bəğ əyəsi, mən getdim genə gələciyəm.

Elə ki, məhsul yetişdi, gəldin meyvə yığmağa, onda, gərəh bəğ əyəsinnən icazə istiyip, sora bəğdən meyvə dərəsən. Bi dedıxlarımı eləsən, bəğin mədaxılı çox olacax. Bınnarı ucadan da deyə bilərsən. Bəğəyəsi hammısın eşdəcax.

Bı əyələrin içində hammısınnan üsdünü su əyəsidi. Səhər-səhər ki, tezdən gedirsən suyun üsdünə, gərəh su əyəsinə səlam verəsən. Heş vəxdi suya tüpürməx, suya çirkab atmax olmaz. Yoxsa su əyəsin küsdürərsən, sənə zəfər toxuyar". (39, 52)

Göründüyü kimi, ulu babalarımızın əski inanclarına görə canlı, cansız bütün təbiətin sahibi vardır. Sahiblik duyğusu humanist yanaşmanın əsasında durur. Başqa sözlə, davranış, münasibətlə bağlı mentalitet dəyərlərinə görə, təbiətin hər bir ünsürü insan qədər hörmətə layiqdir. Bu cəhətdən babalarımız

suyundan içdiyi bulaqlara, çaylara, göllərə və dənizlərə, meyvəsindən yediyi bağlara və meşələrə, ümumiyyətlə, təbiətə böyük sayğı bəsləmişdir. Bu da öz növbəsində göstərir ki, Azərbaycan milli düşüncəsində sosial, siyasi, iqtisadi mentalitet dəyərləri bütöv bir sistemi təşkil edir.

Ümumiyyətlə, hər bir sistem onu təşkil edən daxili struktur elementlərinin qarşılıqlı münasibətlərinə əsaslanır. Azərbaycan milli mentalitet sistemində sosial, siyasi, iqtisadi və s. dəyərlər də biri-biri ilə sıx şəkildə bağlıdır. Tədqiqat göstərdi ki, bu dəyərlər sistemini iki əsas xassə səciyyələndirir:

Birincisi, milli mentalitet dəyərlərinin sakrallığı:

Belə ki, milli düşüncə sistemindəki mentalitet dəyərləri bu və ya başqa şəkildə ilahi-sakral xassəyə malikdir. Bu, o deməkdir ki, xalqımızın ictimai şüur tarixi üçün xarakterik olan mifoloji-dini görüşlərlə əlaqələndirilməyən hər hansı dəyər mentalitet sisteminə daxil ola bilməmişdir. Bu da öz növbəsində mentalitet sisteminə daxil ola bilən dəyərlərin və həmin dəyərləri təcəssüm etdirən folklor obrazlarının sakrallığını şərtləndirmişdir.

İkincisi, milli mentalitet dəyərlərinin humanist-antropoloji xarakteri:

Belə ki, xalqımızın mentalitetinə zorakılıq, qəddarlıq, vəhşilik kimi antihumanist dəyərlər yaddır. Bu, milli mentalitet düşüncəmizi fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Digər tərəfdən, milli mentalitetimizdəki humanizm folklor obrazlarının antropolojiləşdirilməsində özünü göstərmişdir. Başqa sözlə, Azərbaycan folklor obrazları mifik başlanğıcından bu günə kimi antropoloji xarakter daşımışdır. Folklorda cəmiyyətlə (etnosla) bərabər, təbiət və zaman da antropomorflaşdırılmış və cəmiyyət üçün xarakterik olan sosial, siyasi, iqtisadi mentalitet dəyərləri canlı, cansız təbiətin bu insanlaşdırılmış obrazlarının xarakterik cizgilərini təşkil etmişdir.

NƏTİCƏ

“Azərbaycan folkloru və milli mentalitet” probleminin tədqiqi ilk növbədə bu mövzunun çox ciddi və geniş nəzəri-metodoloji əsaslara malik olduğunu aşkarladı. Tədqiqat göstərdi ki, ümumiyyətlə, hər bir xalqın milli mentaliteti həmin etnosun milli düşüncəsinin özünəməxsusluğunu müəyyənləşdirən amil kimi mədəniyyətin müxtəlif tip və formalarında, o cümlədən folklor yaradıcılığında geniş şəkildə təzahür edir. Bu cəhətdən xalqın ənənəvi mədəniyyətinin istənilən növünü əsas götürməklə milli metalitet sistemini araşdırmaq mümkündür. O cümlədən Azərbaycan xalq mentalitetinin bir sistem kimi öyrənilə biləcəyi ən nəhəng və möhtəşəm qaynaqlardan biri folklordur. Folklor xalqın milli kimliyinin bütün təzahür formalarını özündə inikas edən düşüncə və mətn sistemi kimi milli mentalitet sisteminin bərpasından ötrü zəngin və əvəzolunmaz material verir.

Dissertasiyanın birinci fəslində milli mentalitet və mifoloji arxaik düşüncə məsələsinin öyrənilməsi ilk növbədə “mentalitet” anlayışının nəzəri cəhətlərinin, o cümlədən “mentalitet və folklor” münasibətlərinin poetik əsaslarının araşdırılma zərurətini ortaya qoymuşdur.

“Mentalitet” anlayışı bir söz kimi “mentallıq” anlayışı ilə bağlıdır. Latın dilinə məxsus söz olub, insana, yaxud hər hansı qrup və cəmiyyətə məxsus olan düşüncələrin obrazını, əqli vərdiş və mənəvi davranış modellərini nəzərdə tutur. Anlayışının bu səciyyəsi dissertasiyada onun folklorla münasibətlərinin özünəməxsus tərəflərini görməyə imkan vermişdir. Tədqiqatın nəticələrinə görə, milli mentalitet sistemi və folklorun münasibətləri məzmunla formanın, yaxud düşüncə modeli ilə həmin modelin ənənəvi sənət və yaradıcılıqda bədii təzahür tipinin münasibətləri kimi də xarakterizə oluna bilir. Milli mentalitet və folklor münasibətlərinin poetik özünəməxsusluğu onların etnik-mədəni sistemin tarixi kateqoriyaları olmasında da ifadə olunur. Bu fikirlər tədqiqatda mentalitet anlayışının Azərbaycan mədəniyyətindəki yerini düzgün səciyyələndirməyə imkan vermişdir. Belə ki, mentalitet anlayışı fəal hadisə olaraq həyatımıza son

onilliklərdə daxil olmuş və Azərbaycan mədəniyyəti çevrəsində özünə möhkəm yer tutmuşdur.

Araşdırma göstərdi ki, folklor dinamik sənət və yaradıcılıq hadisəsidir. Onun dinamizmi diaxron və sinxron reallaşmaları bütövlükdə çevrələyir. Folklorun diaxron dinamikası onun tarixi inkişafını nəzərdə tutur. Milli mentalitetin öz təcəssümünü tapdığı əsas düşüncə və mətn formalarından birinin folklor olduğu nəzərə alındıqda milli mentalitetin və folklorun tarixi inkişafının qarşılıqlı proses olduğu da göz önünə gəlir. Milli mentalitet xalqın milli düşüncə və davranışının qəlibləri kimi folklorda yaşayır və metalitetdə baş verən dəyişikliklər onun ifadə vasitələrindən biri olan folklorda da öz əksini tapır. Bu halda folklor milli mentalitetin ilkin və çağdaş tiplərini bu və ya digər şəkildə öz yaddaşı daxilinə alaraq qoruyub saxlayır.

Digər tərəfdən, milli mentalitet və folklorun tarixi inkişafı yekcins hadisə deyildir. Milli mentalitet milli ictimai şüurun qəliblər toplusudur. Folklor da milli şüurla bağlıdır. Lakin o, milli şüuru özündə əks etdirən sənət və yaradıcılıq hadisəsidir. Milli mentalitet sistemində baş verən struktur dəyişmələrinin dinamikası ilə folklorda, onun reallaşma sisteminə görə çox mürəkkəb olan növ və janrlarında baş verən dəyişikliklərin intensivliyi eyni deyildir.

Tədqiqatda aydınlaşdırılmışdır ki, hər bir xalqın milli mentaliteti onun milli düşüncəsinin əsasında duran etnik-psixoloji sistemdir. Bu cəhətinə görə mentalitet anlayışı milli düşüncə anlayışı ilə qırılmaz şəkildə bağlıdır. Milli varlığın ən iri struktur vahidi olan etnos, onun strukturuna daxil olan cəmiyyət, insan ünsürləri fərd-cəmiyyət münasibətləri, «mentalitet, milli düşüncə» anlayışları bir-biri ilə qarşılıqlı şəkildə əlaqəli olub, vahid sistemin struktur səviyyələrini, o cümlədən həmin səviyyələrin elementlərini təşkil edir. Hər bir insanın psixologiyasında mövcud olan mentalitet eyni zamanda həm onun özünə, həm də onun mənsub olduğu etnosun milli düşüncə sisteminə aiddir.

Tədqiqat nəticəsində aşağıdakı nəzəri qənaətlər aprobasiya olunaraq təsdiqlənmişdir:

1. Milli düşüncə bir sistemdir. Həmin sistemin əsasında duran milli mentalitet özü də strukturu etibarilə daha bir (daxili) sistemi təşkil edir.

2. Mentalitet milli düşüncənin əsası kimi öz varlıq enerjisini həm də etnoslararası münasibətlərdən alır.

3.Milli mentalitet milli ruh anlayışı ilə sıx bağlıdır. Milli ruh milli düşüncə sisteminin etnik-psixoloji təzahür səviyyəsi olub, son dərəcə geniş məfhumdur.

4. Milli mentalitet millətin şüurunda əbədi olaraq daşınır. Onun daşınma vasitəsi ənənədir. Ənənə fərdi və ictimai olsa da, onların hər ikisi milli ənənə anlayışında birləşir.

5. Mentalitet anlayışı milli düşüncə sisteminə daxil olduğu kimi, daha böyük anlayış olan millət anlayışı ilə də sıx bağlıdır: millət, milli düşüncə və mentalitet mürəkkəb sistemi təşkil edir və buraya milli xarakter, milli mədəniyyət (mədəniyyətin ən sürəkli və dayanıqlı tiplərindən olan folklor), bütövlükdə milli təfəkkür tipi və s. daxildir;

6. Mentalitet daxil olduğu iri sistemin (meqasistemin) içərisində milli mədəniyyət ünsürü ilə sıx bağlıdır.

7. Mentalitet daha geniş kontekstdə tarixi kateqoriya olub, milli ideologiya ünsürü ilə qırılmaz bağlılıq təşkil edir.

Araşdırma, o cümlədən "Azərbaycan folkloru və milli mentalitet" probleminin "azərbaycanlı mentaliteti" anlayışının etnik əsasları kontekstində tədqiqi zərurətini də ortaya qoymuşdur. Aydınlaşdırılmışdır ki, Azərbaycan xalqı ümumtürk etnosunun oğuz qolu əsasında formalaşmış bir türk xalqı olduğu üçün onun mentalitetinin tarixlə müəyyənləşən bazisini türk mentaliteti təşkil etmişdir. Milli mentalitetimizin bütün özünəməxsusluğu türk etnik başlanğıcına dayandığı kimi, folklorumuzun da bütün özünəməxsusluğu eyni mədəni-etnik qaynaqdan qidalanmışdır. Türk etnosu sivilizasiyalı bəşəriyyətin ən əsas ünsürlərindən biri olub, dünyanın etnik, mədəni, siyasi, ictimai tarixinin inkişafında çox böyük rol oynamışdır. Milli mədəniyyətimiz bütövlükdə qədim türk sivilizasiyası əsasında formalaşmışdır və Azərbaycan xalqı öz tarixi

inkişafında heç bir halda öz türk mentalitetindən qırağa düşməmiş, bu gün də milli mentalitetini qoruyub saxlamaqdadır. Bu cəhətdən dissertasiyada milli mentalitet sisteminin folklor əsasında öyrənilməsi qədim türk mentalitetinə məxsus arxetip vahidlərinin tədqiq edilərək üzə çıxarılması prinsipinin reallaşdırılmasına söykənmişdir.

Tədqiqatın nəticələrinə görə, milli mentalitet və folklor biri-biri ilə qırılmaz şəkildə bağlıdır. Xalqın mentaliteti onun folklorunda təkcə ifadə olunmur: folklorun milli struktur əsaslarında durmaqla, onun forma və məzmununun milliliyini də müəyyənləşdirir. Başqa mentalitet bundan, folklorun dili ilə qırılmaz şəkildə bağlı olur.

Ümumiyyətlə, milli mentalitet və folklor münasibətlərinin nəzəri əsaslarının tədqiqi göstərdi ki, folklor istər xalq biliklərinin məcmusu, istər milli düşüncənin tərzi, istərsə də sənət və yaradıcılıq kimi bütün hallarda milli mentalitetlə – onu yaradan xalqın milli siması ilə bağlıdır. Azərbaycanlı mentaliteti də Azərbaycan-türk xalqının milli obrazını səciyyələndirən keyfiyyətlərin məcmusu kimi folklorda həm "bilik" (mənəvi-fiziki təcrübə – İ.A.), həm milli "düşüncə tərzi", həm də folklor "sənətinin növü" kimi bədiiləşmişdir. Bu da öz növbəsində milli mentalitetin folklor əsasında öyrənilməsi probleminin zərurətini reallığa çevirən başlıca nəzəri-metodoloji amil rolunu oynayır.

Birinci fəsildə Azərbaycan milli mentalitetinin mifoloji-epik qaynaqlarının tədqiqi nəticəsində aydın olmuşdur ki, milli mentalitet dəyərləri etnik-mədəni ənənə sisteminə daxildir. Mifologiya isə etnik-mədəni ənənə sisteminin birbaşa əsasını təşkil edir. Milli mentalitetin də, folklorun da ana qaynağı mifologiyadır. Mifologiya hər bir etnosun milli düşüncəsinin rüşeymi – başlanğıcıdır. Xalqların sonrakı dövrlərdə inkişaf etmiş milli mentalitet sistemləri öz başlanğıcını mifologiyadan götürür. Milli mentalitetin mifologiyadan qaynaqlanan başlanğıcını öyrənmədən mentalitet və folklor münasibətlərini obyektiv və düzgün şəkildə araşdırmaq mümkün deyildir. Çünki

hər bir xalqın milli mentaliteti üçün xarakterik olan xüsusiyyətlərin başlandığı qaynaq birmənalı şəkildə mifologiyadır.

Milli folklorumuzda qorunub qalmış milli mentalitet öz spesifikası etibarilə Azərbaycan-türk mifologiyası ilə müəyyənləşmişdir. Milli mentalitet üçün xarakterik olmaqla yanaşı, həm də folklorda bədiiləşən və onun vasitəsi ilə də nəsillərdən-nəsillərə otürülən kateqoriyalar mifologiyada ortaq bir nöqtədə birləşir. Bu cəhətdən, mifologiya milli mentalitet və milli folklor vahidlərinin ortaqlaşdığı sahə olmaqdan daha çox, vahid, sinkretik başlanğıcıdır.

Aydınlaşdırılmışdır ki, folklordakı müqəddəslik onda mifologiya ilə müəyyənləşən mentalitet dəyərlərinin sakrallığı ilə bağlıdır. İlkin oğuz türklərinin mentaliteti onların mifoloji dünyagörüşünün əsasını təşkil etmişdir. Mifoloji şüurda hər bir şeyin maddi, görünən obrazı olduğu kimi, mentalitet üçün xarakterik olan dəyərlər də obrazlaşaraq miflərin məzmununa daxil olmuşdur. Miflərin folklora keçməsi ilə mentalitet dəyərlərimiz folklor dünyasına daxil olmuş və etnosun inkişafı ilə məzmun baxımından zənginləşməkdə davam etmişdir.

Ümumiyyətlə, ilkin milli mentalitetin əsaslarını etnosun müqəddəs dəyərləri təşkil edir. Yaradılışla bağlı olan hər bir ünsür milli mentalitetdə müqəddəs dəyərlər sisteminə daxil olur. Milli mentalitetin mifologiya ilə müəyyənləşən dəyərləri mifoloji düşüncə epoxası başa çatandan sonra folklora daxil olur. İnsan şüurunun ümumi inkişaf tarixindən məlumdur ki, ibtidai insanların dünyagörüşünü təşkil edən mifologiya sonrakı dövrlərdə dinə, fəlsəfəyə, elmə, incəsənətə və s. parçalandı. Mifoloji fantaziyanın məhsulu olan əsatirlər folklor əfsanə və rəvayətlərinin, ilkin eposların məzmununu təşkil etdi. Milli mentalitetin mifologiya ilə müəyyənləşən müqəddəs dəyərləri, beləliklə, folklora daxil olub, onda yaşamağa başladı.

Araşdırmanın nəticələrinə görə, Azərbaycan folkloru növ, janr, məzmun və forma baxımından inkişaf etdikcə milli mentalitetin mifoloji arxetipləri yeni məzmun və forma kəsb etməyə başlamışdır. Lakin mentalitet dəyərlərinin miflə

bağlılığı genetik əsas kimi özünü qorumaqda davam etmişdir. Mifologiya xalqımızın milli düşüncəsinin genetik əsasıdır. Etnos bir orqanizmə bənzəyir. Öz gen sistemindən məhrum olan orqanizm yaşaya bilmədiyi kimi, xalq da mifoloji genetikasız mövcud ola bilməz. Bizim öz mifoloji dəyərlərimizi nə dərəcədə anlayıb-anlamamağımızdan asılı olmayaraq, milli şüurumuzun alt qatında - bünövrəsində mifoloji genetika durur.

Tədqiqatda əldə olunmuş əsas qənaətlərə görə, Azərbaycan milli mentaliteti bir sistem olaraq xalqımızın epos düşüncəsində qorunub qalmışdır. Mentalitet mifoloji düşüncə çağında mifologiya ilə qaynaqlaşdığı kimi, folklorda da, əsasən, eposla qaynaqlaşır (qovuşur). Bu, epos anlayışının özünəməxsus xüsusiyyətləri ilə bağlıdır.

Araşdırmada qədim türklərin etnik-mental dəyərlərinin "ərdəm", "törə", "uluğluğ" (böyüklük), "ezgülük" (yaxşılıq), "səxavət", "qonaqpərvərlik", ("abır-həya"), "mərdlik", "borc", "zirəklik", "güc" kimi müsbət mentalitet dəyərləri ilə yanaşı, "al" (hiylə), "ərməgü" (tənbəllik), "buşmasar" (kallıq), "öqünqüçi" (lovğalıq), "evek" (tələsgənlik), "isizlik" (pislik) və s. neqativ keyfiyyətlər də folklor kontekstində nəzərdən keçirilmişdir. Aydınlaşdırılmışdır ki, göstərilən mənfi əxlaqi kateqoriyalar da türk mentalitet sisteminə daxildir. Çünki mentalitet dəyərləri bir sistem olaraq təkcə bəyənilən etnik-mental xüsusiyyətlərin yox, eyni zamanda bəyənilməyən, ictimai-etnik davranış tipi, forması və keyfiyyəti kimi qəbul olunmayan kateqoriyaları da əhatə edir.

Araşdırma göstərdi ki, mifologiyamızla qaynaqlaşan etnik-mental dəyərlər sistemimiz daha sonra zaman ardıcıllığı ilə arxaik-mifoloji eposlarda, klassik qəhrəmanlıq dastanlarında və orta əsrlər qəhrəmanlıq eposumuzda yaşamaqda davam etmiş və günümüzədək gəlib çıxmışdır. Oğuz babalarımızın etnik-mental dəyərlər sistemi əvvəlcə miflərdə yaşamış, sonra Oğuz Kağanla bağlı oğuznamələrə keçmiş, daha sonra "Kitabi-Dədə Qorqud" oğuznamələrinin mənəvi-əxlaqi əsaslarını təşkil etmişdir. Tədqiqat bu silsilədə "Koroğlu" eposunun xüsusi yeri olduğunu üzə çıxarmışdır. Belə ki, "Koroğlu" eposunda

ifadə olunmuş milli mentalitet dəyərləri bizə zaman baxımından daha yaxındır. “Kitabi-Dədə Qorqud” oğuznamələrində ifadə olunmuş mentalitet xüsusiyyətləri daha çox arxaik-mifoloji dəyərlər sistemini əks etdirir. “Koroğlu” eposu isə oğuz epik ənənəsinin orta əsrlərdə ifadəsi olmaqla mifoloji olmaqdan üstün hadisədir. “Kitabi-Dədə Qorqud”un milli düşüncə sisteminin əsasında tayfaçılıq dövrünün (ulu babalarımız olan oğuz tayfalarının) dünyagörüşü durursa, “Koroğlu” orta əsrlər hadisəsi kimi Azərbaycan xalqının ümum oğuz kütləsindən üzvlənərək ayrıca Azərbaycan-türk xalqına çevrildiyi dövrün milli düşüncəsini ifadə edir. Bu cəhətdən “Koroğlu” eposunun etnik-mental dəyərlər sistemi bizim üçün, bir növ, müasirdir. “Koroğlu” dastanında mentalitetimiz üçün əsas olan qəhrəmanlıq ruhu ifadə olunmuşdur. Qəhrəmanlıq ruhu xalqımızı formalaşdıran, ayaq üstə saxlayan, bir xalq kimi təsdiq edən, mübarizələrə qaldıran əsas mentalitet dəyəridir. Həmin ruh “mərd(lik)-namərd(lik)” əxlaqi-mənəvi davranış modeli kimi dastan qəhrəmanlarının bütün epik hərəkətlərinin əsasında durur.

Beləliklə, birinci fəsildə aparılmış araşdırmanın ümumi nəticələrinə görə, Azərbaycan milli düşüncə sisteminin əsasını təşkil edən mentalitet dəyərləri öz başlanğıcı etibarilə mifoloji-arxaik qaynaqlara gedib çıxır. Hər bir xalqın mentalitet dəyərləri onun milli simasını müəyyənləşdirir. Milli sima, milli ruh, milli xarakter mifologiya ilə sıx bağlıdır. Çünki mifologiya hər bir xalqın düşüncəsinin əsasını təşkil edir. Milli mentalitet dəyərlərinin müqəddəsliyi onların mifoloji-arxaik ilkinliyi və saflığı ilə müəyyənləşir. Mifologiya ilə müəyyənləşən mentalitet dəyərləri folklora keçərkən daha da inkişaf edib yeni məzmun və forma kəsb edir.

Tədqiqatın milli mentalitet dəyərlərinin folklordakı inikasını araşdıran ikinci fəslində əldə edilmiş əsas nəzəri qənaətə görə, milli mentalitet dəyərləri çox geniş anlayış olub, böyük bir sistemi təşkil edir. Buraya xalqımızın tarixi-mədəni həyatının istisnasız olaraq bütün sahələri aiddir. Dissertasiyada üç əsas istiqamət müəyyənləşdirilmişdir:

1. Vətən, el-oba, yurd, dövlət, dövlətçilik və s. ilə bağlı milli mentalitet dəyərləri;

2. Mənəvi münasibətlər, ailə münasibətləri, etik-estetik münasibətlər, ar, namus, qeyrət, abır, həya, böyük-kiçik və s. ilə bağlı milli mentalitet dəyərləri;

3. Mal-əmtəə münasibətləri, xalq hüququ, alış-veriş və s. ilə bağlı milli mentalitet dəyərləri aiddir.

Tədqiqatda aydınlaşdırılmışdır ki, Azərbaycan folklorunda vətən, el-oba, dövlət, dövlətçiliklə bağlı milli mentalitet dəyərləri rəngarəng bədii obrazlar vasitəsi ilə ifadə olunmuşdur. Xalqımızın milli mentalitet dəyərlərinə görə, vətən ilk növbədə insanın dünyaya göz açdığı məkandır. Bu halda həmin məkanın necə bir yer olmasının, yəni təbii gözəlliklərinin olub-olmamasının azərbaycanlı üçün elə bir əhəmiyyəti yoxdur. Bu faktor onun vətən anlayışına heç bir təsir edə bilməz. Azərbaycanlı üçün vətən onun dünyaya gəldiyi yerdir. O yer ki, insan dünyanı ilk dəfə burada görür və gördüyü andan qəlbinə, ruhuna vətən məhəbbəti hopur. Anadan olduğu məkan azərbaycanlının ömrünün sonuna qədər əbədi sevgisi olaraq qalır.

Araşdırma nəticəsində azərbaycanlı milli mentalitetindəki «vətən» anlayışının iki əsas cəhəti aşkar edilmişdir:

1. Azərbaycan xalqının milli şüurunda islam dini əsas dünyagörüşüdür. Bu səbəbdən vətən ən uca islami dəyər olan cənnətlə müqayisə olunur.

2. Azərbaycan xalqı vətəni ona görə cənnətlə müqayisə edir ki, o, vətəni müqəddəs sayır. Vətən abad, yaxud xaraba olub-olmamasından asılı olmayaraq, azərbaycanlı üçün müqəddəs və sevgili məkan hesab olunur.

Xalqımızın vətən, yurd, el-oba sevgisi ilə bağlı mentalitet dəyərlərinin folklorda təcəssümünün araşdırılması göstərdi ki, azərbaycanlı mentalitetində bu kimi dəyərlər özünə əsaslı yer tutduğu kimi, bu, uyğun olaraq folklorda da öz inikasını tapmışdır. Azərbaycan xalqının yurda məhəbbəti sakral xarakter daşıyır: hər bir vətən oğlu öz yurdunu ona babalardan miras qalmış müqəddəs

məkan sayır və göz bəbəyi kimi qoruyur. Bu müqəddəs məhəbbət folklorda da özünün parlaq təcəssümünü tapmış, çox maraqlı süjet və obrazlara çevrilmişdir.

Folklorda mənəvi-əxlaqi mentalitet dəyərlərinin tədqiqi nəticəsində aydın olmuşdur ki, ümumiyyətlə, Azərbaycan folkloru milli mənəviyyatımızın güzgüsüdür. Xalqımızın bütün tarixi boyunca qazandığı bütün müsbət mənəvi-əxlaqi keyfiyyətlər folkorda bədiiləşmişdir. Folklorumuzda bu cəhətdən milli mentalitetimiz üçün xarakterik olan, bizi bir türk-müsəlman xalqı kimi digər etnoslardan xüsusi şəkildə fərqləndirən ar, namus, ismət, iffət, abır, həya, mərdlik, comərdlik, səxavət, adillik, səbirlilik, böyük-kiçiyə hörmət, ata-anaya hörmət, ailə qeyrəti və s. kimi dəyərlər tərənnüm olunmuş, bunun əksi olan keyfiyyətlər pislənmiş və antiəxlaqi davranışlar kimi rədd edilmişdir.

Milli bədii düşüncə tarixini bir güzgü kimi əks etdirən folklorumuzun nəzərdən keçirilməsi nəticəsində aydın olmuşdur ki, yuxarıda sadalanan mənəvi-əxlaqi keyfiyyətlər milli mentalitet sistemimiz üçün həmişə xarakterik olmuşdur. Bunun bariz örnəyini ilk növbədə oğuz babalarımızın qəhrəmanlıq və mənəviyyat tarixindən bəhs edən "Kitabi-Dədə Qorqud" dastanı qoruyaraq bizlərə çatdırmışdır. Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının ilk növbədə milli-mənəviyyat abidəsi, milli mentalitet dəyərlərimizin bədii söz vasitəsi ilə "yonulmuş" heykəlidir. Oğuz eposunun təhlili göstərdi ki, xalqımız üçün milli mentalitet dəyərlərinin ən ali keyfiyyəti onların müqəddəsliyindədir. Oğuzların milli düşüncəsi üçün xarakterik olan dəyərlər onlar tərəfindən müqəddəs sayılmışdır. Onlar namusa da müqəddəs dəyər kimi yanaşırdılar. Oğuz igidini (Uruzu) anasına əl qaldırmaqdan Ana haqqının Tanrı haqqına bərabər tutulması saxlayır. Eposda oğuz milli mentalitetinin namus, övlad məhəbbəti, analıq haqqı dəyərlərinin Tanrı haqqı dəyəri ilə qarşılaşdırılması (əlaqələndirilməsi) vasitəsi ilə namusun sakral dəyər olması təsdiqlənir.

Azərbaycan folklorunun digər nümunələrinin nəzərdən keçirilməsi göstərmişdir ki, xalqımız namus hissini müqəddəs dəyər saymışdır. Folklorumuzda yurdumuzun ulu abidələri birbaşa namus, qeyrət dəyərlərinin

simvolu kimi müqəddəsləşdirilmişdir. Namus, qeyrət, abır, həya kimi milli mentalitet dəyərləri ilkin mifoloji inamlarla bağlıdır. Azərbaycan mifoloji mətnlərində bir çox etioloji (izahedici) miflərin məzmunu namus, abır-həya, ismət dəyərləri ilə bağlıdır.

Tədqiqat ustadnamə janrının məhz mənəvi-əxlaqi sifətlərini, bilavasitə milli xarakterin müsbət mentalitet dəyərlərini təbliğ edib, antiəxlaqi sifətləri pisləyən xüsusi şeir növü olmasını təsdiq etmişdir. Baxmayaraq ki, folklorumuzun digər növ və janrlarının hamısı üçün mənəvi-əxlaqi ideallar xarakterikdir, ancaq bununla bərabər ustadnamə birbaşa mənəvi-əxlaqi dəyərlərin tərənnümünə xidmət edir.

Araşdırmada ustadnamələrin təhlili nəticəsində milli mentalitet sisteminin pozitiv və neqativ xarakterli aşağıdakı sifətləri müəyyənləşdirilmişdir:

Vəfalı - ilqar, əhd-peyman, sədaqət, qədirşünaslıq (qədirbilənlik) kimi mentalitet dəyərlərinin daşıyıcısı olan insan.

İgid - insaf, mürvət, iman kimi müsbət mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı. İnsanliq – namus, abır-həya, qeyrət, həssaslıq, alicənablıq, adillik, rəhdillik, şükranlıq, halallıq, gözütoxluq və s. kimi mentalitet dəyərlərinin kompleksi.

Səxavət – gözütoxluq, tamahsızlıq, nəfssizlik, köməkdarlıq, pənahdarlıq və s. kimi mentalitet dəyərlərinin kompleksi.

Bivəfa – ilqar, əhd-peyman, sədaqət kimi mentalitet dəyərlərindən məhrum insan.

Hərcayı – namus, qeyrət, ar, abır, həya kimi mentalitet dəyərlərindən məhrum insan: başqa sözlə, namussuzluq, qeyrətsizlik, arsızlıq kimi mənfi əxlaqi sifətlərin daşıyıcısı.

Təhlil nəticəsində təsdiq olunmuşdur ki, milli mentalitet dəyərlərinin həyat hökmləri, xalqın mənəvi və cismani həyat təcrübəsinin poetik inikası kimi

qorunub qaldığı folklor janrları içərisində atalar sözləri də mühüm yer tutur. Ümumiyyətlə, atalar sözləri davranış qəliblərdir.

Aparılmış təhlil göstərmişdir ki, Azərbaycan folkloru xalqımızın mənəviyyat dünyasının güzgüsü kimi, onun malik olduğu bütün mənəvi-əxlaqi dəyərləri özündə əks etdirir. Folklorumuzda milli mentalitet sisteminə daxil olan bütün mənəvi-əxlaqi dəyərlər tərənnüm və təbliğ olunmuş, bu dəyərlərin əksi olan sifətlər antimənəvi təzühürlər kimi rədd edilmişdir. Azərbaycan folklorunda mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı olan insan tipləri yaradılmışdır. Həmin obrazlar xalqımızın mənəviyyat tarixinin bütün özünəməxsusluğunu əks etdirməklə öz ideal humanizmi baxımından bəşər poetik düşüncəsinin parlaq səhifəsini təşkil edir.

Folklorda sosial, siyasi, iqtisadi mentalitet dəyərlərinin tədqiqi göstərdi ki, istər Azərbaycan folkloru, istərsə də Azərbaycan milli mentalitetinin dəyərlər sistemi tarixi kateqoriyalardır. Folklorumuz tariximizə yoldaşlıq etdiyi kimi, milli mənəviyyat tariximizə də güzgü tutmuşdur. Bu baxımdan, Azərbaycan folkorunda siyasi, sosial, iqtisadi mentalitet dəyərləri də bədiiləşərək obraz və süjetlərin məzmununu təşkil etmişdir. Xalqımızın milli düşüncəsində sosial, siyasi və iqtisadi görüşlər bir sistem təskil edir. Məsələn atalar sözlərində cəmiyyət, onun qurduğu dövlət, həmin dövlətin yerləşdiyi ölkə, bü ölkədəki sosial, iqtisadi münasibətlər bütöv bir düzən və nizam daxilindədir.

Tədqiqat nəticəsində aydın olmuşdur ki, Azərbaycan cəmiyyətində mənəvi-əxlaqi münasibətlər ideal-antiideal modeli əsasında qurulmuşdur. Cəmiyyətimiz bütün tarixi boyunca mənəvi münasibətləri ideal səviyyəsində qəbul etmiş, antiideal olan birmənalı şəkildə rədd etmişdir. Bu, folklorda öz ifadəsini olduğu kimi tapmışdır.

Aydınlaşdırılmışdır ki, Azərbacan folklorunda milli mentalitet dəyərlərinin, o cümlədən sosial, iqtisadi münasibətlərdə aktual olan mentalitet dəyərlərinin özünəməxsus şəkildə obrazlaşdığı janrlardan biri lətifələrdir. Lətifələrdə mili mentalitet üçün xarakterik olan bütün mənfi dəyərlər gülüş

hədəfinə çevrilmişdir. Burada müsbət milli mentalitet dəyərlərinin tərənnümü əks yolla baş verir. Milli-mənəvi dəyərlərin bütün naqisliklərinin əsasında duran mentalitet sifətləri (antiideallar) gülüş hədəfinə çevrilməklə bunun əks olan müsbət dəyərlər təbliğ olunur.

Azərbaycan folklorunda sosial mühit üçün xarakterik olan iqtisadi mübadilə münasibətləri də humanistləşdirilmişdir. Başqa sözlə, Azərbaycan insanının ideal xarakteri bütün hallarda halallıq prinsiplərinə söykənmiş və sakral xarakter daşımışdır. Azərbaycan folklorunun ideal dəyərlər daşıyıcısı olan qəhrəmanı hər cür haram iqtisadi münasibətlərin fövqündə durmuşdur.

İkinci fəsildə Azərbaycan folklorunun bir bütöv halında nəzərdən keçirilməsi milli mentalitet sisteminin sosial dəyərlərinin də sakral arxetiplərlə bağlılığını ortaya qoymuşdur. Bu cəhətdən Azərbaycan əfsanələri, xüsusilə mifoloji məzmunlu əfsanələr əlamətdardır. Belə ki, əfsanələrdə sosial həyatın bütün sahələrinin mentalitet dəyərlərini müşahidə etmək mümkündür.

Ümumiyyətlə, təhlil göstərdi ki, Azərbaycan milli mentalitet sistemi üçün humanizm prinsipləri əsasdır. Dünyanın heç bir sərtlik və acılıqları, qan və zora kılıqları Azərbaycan xalqının milli düşüncəsindəki humanizm dəyərlərini sarsıda bilməmiş və mənəvi əxlaqi dəyərlər sistemimiz əzəl başdan humanizm prinsiplərinə söykənmiş və bu prinsip milli mentalitet sistemimizin əbədi atributu olaraq qalmışdır.

Digər tərəfdən, Azərbaycan sosial mentalitet dəyərlərinin tədqiqi göstərir ki, xalqımız təbiəti də sosial münasibətlər sferasına daxil etmiş və onu müqəddəsləşdirmişdir. Belə sakrallaşdırmanın tarixi xalqımızın tarixi qədər qədim olub, ilkin mifoloji inanclarımıza gedib çıxır. Ulu babalarımızın əski inanclarına görə canlı, cansız bütün təbiətin sahibi vardır. Sahiblik duyğusu humanist yanaşmanın əsasında durur. Başqa sözlə, davranış, münasibətlə bağlı mentalitet dəyərlərinə görə, təbiətin hər bir ünsürü insan qədər hörmətə layiqdir. Bu cəhətdən babalarımız suyundan içdiyi bulaqlara, çaylara, göllərə və dənizlərə, meyvəsindən yediyi bağlara və meşələrə, ümumiyyətlə, təbiətə böyük

sayğı bəsləmişdir. Bu da öz növbəsində göstərir ki, Azərbaycan milli düşüncəsində sosial, siyasi, iqtisadi mentalitet dəyərləri bütöv bir sistemi təşkil edir.

Tədqiqatda hər bir sistemin onu təşkil edən daxili struktur elementlərinin qarşılıqlı münasibətlərinə əsaslanması prinsipindən çıxış edilərək aydınlaşdırılmışdır ki, Azərbaycan milli mentalitet sistemində sosial, siyasi, iqtisadi və s. dəyərlər də biri-biri ilə sıx şəkildə bağlıdır və bu dəyərlər sisteminin iki əsas xassəsi – milli mentalitet dəyərlərinin sakrallığı və humanist-antropoloji xarakteri onun ayrılmaz atritublarını təşkil edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Atalar sözü / Toplayanı: Ə.Hüseynzadə, Tərtib edəni: H.Qasımzadə. B.: Yazıçı, 1985, 650 s.

2. Azərbaycan aşıqları və el şairləri. I c. / Tərtib edəni Ə.Axundov. B.: Elm, 1983, 375 s.

3. Azərbaycan aşıqları və el şairləri. II c. / Tərtib edəni Ə.Axundov. B.: Elm, 1984, 544 s.

4. Azərbaycan dastanları. 5 cilddə, I c. / Tərtibçilər: Ə.Axundov və M.H.Təhmasib. B.: Az. SSR EA Nəşriyyatı, 1965, 380 s.

5. Azərbaycan dastanları. 5 cilddə, II c. / Tərtibçilər: Ə.Axundov və M.H.Təhmasib. B.: Az. SSR EA Nəşriyyatı, 1966, 340s.

6. Azərbaycan dastanları. 5 cilddə, III c. / Toplayanı və tərtib edəni Ə.Axundov. B.: Azərbaycan SSR EA Nəşriyyatı, 1967, 476 s.

7. Azərbaycan dastanları. 5 cilddə, IV c. / Tərtib edəni M.H.Təhmasib. B.: Az. SSR EA Nəşriyyatı, 1969, 508 s.

8. Azərbaycan dastanları. 5 cilddə, V c. / Tərtib edəni Ə.Axundov. B.: Az. SSRİ Nəşriyyatı, 1969, 468 s.

9. Azərbaycan dastanları / Toplayıb nəşrə hazırlayanı A. Nəbiyev. B.: Gənclik, 1977, 171 s.

10. Azərbaycan dastanları: 5 cilddə, I c., B.: Lider nəşriyyatı, 2005, 392 s.

11. Azərbaycan dastanları: 5 cilddə, II c., B.: Lider nəşriyyatı, 2005, 448 s.

12. Azərbaycan dastanları: 5 cilddə, III c., B.: Lider nəşriyyatı, 2005, 328 s.

13. Azərbaycan ədəbiyyatı inciləri: Dastanlar / Tərtibçi B.Abdullayev. B.: Yazıçı, 1987, 571 s.

14. Azərbaycan folklor antologiyası / Tərtib edəni Ə. Axundov. I cild, B.: 1969, 259 s.

15. Azərbaycan folklor antologiyası. I c. Naxçıvan folkloru / Tərtib edənlər T.Fərzəliyev və M.Qasımlı. B.: Sabah, 1994, 381

10. Azərbaycan folklor antologiyası. II c. İraq-Türkman folkloru / Tərtib edənlər Q.Paşayev və Ə.Bəndəroğlu. B.: Ağrıdağ, 1999, 467 s.

17. Azərbaycan folklor antologiyası. III c. Göyçə folkloru / Toplayıb tərtib edəni H. İsmayılov. B.: Səda, 2000, 766 s.

18. Azərbaycan folklor antologiyası. IV c. Şəki folkloru / Tərtib edənlər O.Əliyev, H.Əbdülhəlimov, R. Qafarlı və V.Aslan. B.: Səda, 2000, 497 s.

19. Azərbaycan folklor antologiyası. V c. Qarabağ folkloru / Toplayanlar İ.Abbaslı, T.Fərzəliyev və Nəcəf Nazim (Quliyev), tərtibçi İ.Abbaslı. B.: Səda, 2001, 413 s.

20. Azərbaycan folklor antologiyası. VI c. Şəki folkloru / Toplayıb tərtib edəni H.Əbdülhəlimov. B.: Səda, 2002, 494 s.

21. Azərbaycan folklor antologiyası. VII C. Qaraqoyunlu folkloru / Toplayıb tərtib edənlər H. İsmayılov və Q.Süleymanov. B.: Səda, 2002, 464 s.

22. Azərbaycan folklor antologiyası. VIII c. Ağbaba folkloru / Toplayıb tərtib edənlər H.İsmayılov və T.Qurbanov. B.: Səda, 2003, 475 s.

23. Azərbaycan folklor antologiyası. IX c. Gəncəbasar folkloru / Tərtib edənlər H.İsmayılov və R. Quliyeva. B.: Səda, 2004, 521 s.

24. Azərbaycan folklor antologiyası. X c. İrəvan folkloru / Toplayıb tərtib edənlər H.İsmayılov və Ə.Ələkbərli. B.: Səda, 2004, 471 s.

25. Azərbaycan folklor antologiyası. XI c. / Toplayanı S.Qəniyev, tərtib edənlər H.İsmayılov və S.Qəniyev. B.: Səda, 2005, 442 s.

26. Azərbaycan folklor antologiyası. XII c. Zəngəzur folkloru | Toplayanlar V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, tərtib edənlər Ə.Əsgər və M.Kazımoğlu. B.: Səda, 2005, 463 s.

27. Azərbaycan folklor antologiyası. XIII c. Şəki-Zaqatala folkloru / Tərtib edənlər İ.Abbaslı, O.Əliyev və M.Abdullayeva. B. Səda, 2005, 549 s.

28. Azərbaycan folklor antologiyası. XIV c. Dərbənd folkloru / Toplayıcılar H.İsmayılov və S.Xurdamiyeva, tərtib edənlər H.İsmayilov və T.Orucov. B.: Səda, 2006, 429 s.

29. Azərbaycan folklor antologiyası. XV c. Dərələyəz folkloru / Toplayıb tərtib edənlər H.Mirzəvey H. İsmayılov və Ə.Ələkbərli. B.: Səda, 2006, 484 s.

30. Azərbaycan folkloru külliyyatı: I c., Nağıllar I kitab / Tərtib edənlər H. İsmayılov və O.Əliyev. B.: Səda, 2006, 400 s.

31. Azərbaycan folkloru külliyyatı: II c., Nağıllar II kitab / Tərtib edənlər H. İsmayılov və O.Əliyev. B.: Səda, 2006, 400 s.

32. Azərbaycan folkloru külliyyatı: III c., Nağıllar III kitab / Tərtib edənlər H. İsmayılov və O.Əliyev. B.: Səda, 2006, 400 s.

33. Azərbaycan folkloru külliyyatı: IV c., Nağıllar IV kitab / Tərtib edənlər H.İsmayılov və O.Əliyev. B.: Nurlan, 2007, 400 s.

34. Azərbaycan folkloru külliyyatı: V c., Nağıllar V kitab / Tərtib edənlər H.İsmayılov və O.Əliyev. B.: Nurlan, 2007, 400 s.

35. Azərbaycan folkloru külliyyatı: VI c., Nağıllar VI kitab / Tərtib edənlər H.İsmayılov və O.Əliyev. B.: Nurlan, 2007, 400 s.

36. Azərbaycan xalq dastanları. 2 cilddə, I c. / Toplayanı və tərtib edəni Ə.Axundov. B.: 1961, 394 s.

37. Azərbaycan xalq dastanları. 2 cilddə, II c. / Toplayanı və tərtib edəni Ə.Axundov. B.: 1961, 394 s.

38. Azərbaycan xalq dastanları / Toplayanı və tərtib edəni Ə.Axundov. B., 1980, 249 s.

39. Azərbaycan mifoloji mətnləri. Tərtibçi A. Acalov. B.: Elm, 1988, 195 s.

40. Azərbaycan nağılları. 5 cilddə, I c. Tərtibçi M.H.Təhmasib. B.: Az SSR EA Nəşriyyatı, 1960, 328 s.

41. Azərbaycan nağılları. 5 cilddə, II c. Tərtibçi Ə.Axundov. B.: Az SSR EA Nəşriyyatı, 1961, 376 s.

42. Azərbaycan nağılları. 5 cilddə, III c. Tərtibçi Ə.Axundov. B.: Az SSR EA Nəşriyyatı, 1962, 283 s.

43. Azərbaycan nağılları. 5 cilddə. IV c. Toplayanı və tərtibçisi N.Seyidov. B.: Az SSR EA Nəşriyyatı, 1963, 288 s.

44. Azərbaycan nağılları 5 cilddə. V c. Toplayanı və tərtibçisi Ə.Axundov. B.: Az SSR EA Nəşriyyatı, 1960, 289 s.

45. Bayat F. Oğuznamələr. Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. B.: Öndər nəşriyyatı, 2004, s. 255-274

46. Bəydili C. Türk mifoloji sözlüyü. B.: Elm, 2003, 418 s.

47. Bəydili C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. B.: Mütərcim. 2007, 271 s.

48. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 266 s.

49. Cəfərli M. Dastan və mif. B.: Elm, 2001, 186 s.

50. Cəfərli M. Folklorun milli düşüncənin inkişafına təsir imkanları // "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" II Uluslararası Folklor Konfransının materialları. B.: Səda, 2004

51. Cəfərov. N. Eposdan kitaba. B.: Maarif, 1999

52. Cəfərov N. Azərbaycanşünaslığa giriş. B.: Az.Ata M, 2002, 600 s.

53. Daşkəndli Şair Məmmədhüseyn. Yatıb oyanmaz, oyanmaz... / Toplayıb tərtib edəni Səyyad Süleyman oğlu Şairov. B.: Nurlan, 2005, 240 s.

54. Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı) / Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. B.: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2002

55. Əfəndiyev O. Aşıq poeziyasının estetik problemləri. B.: Azərnəşr, 1983, 116 s.

56. Əliyev E. Azərbaycan mentaliteti haqqında // "Xalq qəzeti", 20 dekabr 1998.

57. Əliyev Q: Mentalitet: milli ləyaqət ölçüsündə // "Azərbaycan" qəzeti, 6 aprel, 2001.

58. Fəlsəfə. Ensiklopedik lüğət. B.: "Azərbaycan ensiklopediyası" Nəşriyyat Poliqrafiya Birliyi, 1997, 471 s.

59. Hacılı A. Bayatı poetikası. B.: Elm, 2000, 162 s.

60. Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. B.: Mütərcim, 2002, 162

61. Həkimov M. Azərbaycan aşıq şeirinin şəkilləri və qaynaqları. Bakı: Maarif, 1999, 376 s.

62. Xəlil A. Paremioloji mətnin strukturuna dair ("Divani lüğət-it türk"dəki paremioloji mətnlər üzrə) / Struktur-semiotik araşdırmalar, ¹ 2, Bakı: Səda, 2002, s. 73-97.

63. Xəlil A. Əski türk savlarının semiotikası. B.: Səda, 2006, 164 s.

64. Xəlilov S. Lider, Dövlət, Cəmiyyət. B.: Azərbaycan Universiteti, 2001, 341 c. 83.

65. İsmayılov H. Göyçə dastanları: Türk epik sistemində dastan informasiyasının fasiləsizliyi – Göyçə dastanları və aşıq rəvayətləri. Toplayanı, tərtib edəni, ön sözün, qeyd və izahların müəllifi f.e.n. H.İsmayılov. B., 2001, s. 3-82

66. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. B.: Elm, 2002, 311 s.

67. İsmayılov H. Türk eposunun dastan informasiyası erməni mənbələrində // Struktur-semiotik araşdırmalar, № 2, B.: Səda, 2002, s. 145-156

68. İsmayılova Y. "Koroğlu" dastanında obrazlar sistemi. B.: Nurlan, 2003, 176 s.

69. Kitabi-Dədə Qorqud / Tərtibçilər: F.Zeynalov və S.Əlizadə. B.: Yazıçı, 1988, 265 s.

70. Koroğlu / Tərtib edəni M.Təhmasib, redaktoru H.Araslı. 2-ci nəşri. B.: Az. SSR EA Nəşriyyatı, 1956, 456 s.

71. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı: "Azərbaycan Ensiklopediyası", N-PM, 1998, 240 s.

72. Misgin Abdal / Toplayanı, tərtib edəni, ön söz, qeyd və izahların müəllifi H.İsmayılov. B.: Səda, 2001, 286 s.

73. Oğuznamə / Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə. B.: Yazıçı, 1987, 223 s.

Oğuznamələr | İşləyib çapa hazırlayanlar: K.V.Nərimanoğlu və F.Uğurlu. B.: 1993, 92 s.

75. Rzasoy. S. Türk eposunun informativ strukturu: mətnləri və yeni təhlil modeli // "Dədə Qorqud" dərgisi, 2002, N3, s. 105-12

76. Şükürov A. Mifologiya. 1-ci kitab. Nəzəri-fəlsəfi təhlil. B.: Elm, 1995 188 s.

77. Şükürov A. Mifologiya. 6-ci kitab. Qədim türk mifologiyası. B.: Elm, 1995, 232 s.

78. Şükürov A. Fəlsəfə. B.: Adiloğlu, 2002, 490 s.

79. Şükürov A. Qloballaşma və fəlsəfə. B.: Adiloğlu, 2002, 391 s.

Türk dilində

80. Amos D.B. Şartlar və Çevre İçinde Folklorun Bir Anlamına Doğru || Halkbilimində kuramalar və yaklaşmalar. Milli Folklor Yayınları. Yenişehir, Ankara, 2003, 27 s.

81. Dundes A. Halk kimdir? || Halk bilimində kuramalar və yaklaşmalar. Milli Folklor Yayınları. Yenişehir, Ankara, 2003, 19 s.

82. İnan A. Makaleler ve İncelemeler. 3 Baskı, I cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1998, 417s.

83. İnan A. Makaleler ve İncelemeler. 3 Baskı, II cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1998, 714 s..

84 İnan A. Türklerdə Su Kültü İle İlgili Gelenekler // Makaleler ve İncelemeler. 3 Baskı, II cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1998, s. 491-495

85 Rouks J.P. Türklerin ve Moğolların Eski Dini. İstanbul: 1998, 303 s.

86. Rouks J.P. Orta Asyada Kutsal Bitkiler ve Hayvanlar. İstanbul: Kabalçı Yayın Evi, 2005, 440 s.

87 Toğan Z.V. Oğuz Destanı. Toğan Z.V. Reşideddin Oğuznamesi, Tercüme ve Tehlili. İstanbul: 1972

88. Yıldırım D. Sözlü Kültür ve Folklor Anlayışları Açısından Düşüncelerim // Türk bitiyi, Ankara, 1988, s. 31-52

Rus dilində

89. Аманжолов А.С. К генезису Тюркских рун // Вопросы языкознания. 1978, № 2, , с. 76-87

2. Бартольд В.В. Очерк истории туркменского народа // Сочинения, Том

ЫЫ, часть Ы. М.: 1963, с. 547-623

91. Басилов В.Н. Шаманство у народов Средней Азии и Казахстана. М.: Наука, 1992, 328 с.

92. Бикбулатов Н.В. Башкирская система родства. М.: Наука, 1981, 124 с.

93. Бичурин Н.Я. (Иакинф). Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. Том 1. М.: АН СССР, Институт Этнографии им. М.Н.Миклухо-Маклая, 1950, 381 с.

94. Болотоков В.Х., Кумыков А.М. Национально-психологические проблемы в русского зарубежья. М.: 1997, 339 с.

95. Валеев Д.Ж. Очерк “Этнопсихология” / Башкирская энциклопедия. Уфа, 1996, с. 654

96. Гумилев Л.Н. Этногенез и биосфера человека. Л.: ЛГУ, 1989, 496 с.

97. Гумилев Л.Н. Древние тюрки. М.: Клышников-Комаров и комп., 1993, 527 с.

98. Гумилев Л.Н. Хунну. С.Пб.: Тайм-аут компас, 1993, 224 с.

90 Гуревич П.С., Шульман О.И. Очерк “Ментальность, менталитет” / Энциклопедия

100. Жирмунский В.М. Тюркский героический эпос. Л.: Наука, 1974, 727 с.

101. Кассирер Э. Мифологические мышление. Философия символических форм. В 2-х томах. Т. 2. М.: СПб.: Университет. Книга, 2001, 280 с.

102 Кляшторный С.Г. Древнетюркские рунические памятники как источ

ник по истории Средней Азии. М.: Наука, 1964, 216 с.

103. Крадин Н.Н. Империя Хунну. М.: Наука, 2002, 311 с.

104. Кулиев Г. Архетипичные азери: лики менталитета. Б.: Йени Несил, 2002, 246

105. Кульшарипова Н.М. Человек и пространство: специфика пространственно-временных представлений кочевников // Жур. “Ядкяр”, 1995, No 2, с. 17-22

106. Леви-Брюль Л. Сверхъестественное в первобытном мышлении. М.: Педагогика – Пресс, 1994, 604 с.

107. Леви-Стросс К. Структурная антропология. М.: Наука, 1985, 536 с.

108. Леви-Стросс К. Первобытное мышление. М.: Республика, 1994, 384 с.

109. Малов С.Е. Памятники древнетюркской письменности Монголии и Киргизии. М.-Л.: Институт Языкознания, 1959, 111 с.

110. Малов С.Е. Памятники древнетюркской письменности. Тексты и исследования. М.-Л.: Издательство АН СССР, 1951, 446 с.

111. Е.М.Мелетинский. Поэтика мифа. М., “Восточная литература” РАН, 2000, 407 с.

112. Парсинев Б.Ф. Социальная психология и общественная практика. М.: 1966, 291 с.

113. Петренко О.А. Этнический менталитет и язык фольклора. Курск: Издательство Курского Государственного Педагогического Университета, 1996, 118 с.

114. Поздяев С.М. Российское общество в условиях модернизации (социально-философский анализ). Уфа: Издательство Башкирского Университета, 1998. 210 с.

115. Родлов В.И. Из Сибири. М.: Наука, 1989, 700с.

116. Сейидов М. К вопросу о трактовке Йер-Суб в древнетюркских памятниках // Жур. “Советская тюркология”, 1973, № 3, с. 63-69

117. Стеблева И.В. К реконструкции древнетюркской религиозномифологической системы / “Тюркологический сборник -1971”, М.: Наука, Главная редакция восточной литературы, 1972, с. 213-06

118. Сулейменов О. Аз и Я. Алма-Ата, Жазумы, 1991, 274 с.

119.Теория личности в западноевропейской и американской психологии: Хрестоматия / ред. Д.Я.Райгородский. Самара: Бахрах-М. 1996, 480 с.

120. Токарев С.А. Ранние формы религии. М.: 1990, 379 с.

121.Топоров В.Н. О космологических источниках раннеисторических описаний // Труды по знаковым системам. Выпуск — 6, Тарту, 1973, с. 111-139

122. Топоров В.Н. О ритуале. Введение в проблематику // Архаический ритуал в фольклорных и раннелитературных памятниках. М.: Наука, 1988, с. 3-31

125. Халил А. С. О проблематике письменности и жанрого состава огузского эпоса (на материале “Книги Деде Коркута”) // Тюркологический сборник. Вып. ЫЫ, Материалы Международной тюркологической конференции “Языки и литература тюркских народов: история и современность”. Елабуга: 2004, с. 227-234

124.Халиков А.Х. Монголы, татары, Золотая Орда и Булгария. Казань: Издательство “Фен”, 1994, 164 с.

125.Шарипов Р.Г. Понятие менталитета этнокультцурных общностей // Вестник Башкирского Университета, 1997, No 2, с. 81-84

126.Шарипов Р.Г. Менталитет древних тюрков. Философско-мировоззренческий анализ / Диссертация на соискание ученой степени кандидата философских наук. Уфа, 1999, 142 с.

MİLLİ MENTALİTET VƏ FOLKLOR MÜNASİBƏTLƏRİNİN NƏZƏRİ MƏSƏLƏLƏRİ

Azərbaycan folklorunda milli mentalitet xüsusiyyətlərinin bir sistem kimi tədqiqi ilk növbədə "mentalitet" anlayışının nəzəri cəhətlərinə, o cümlədən "mentalitet və folklor" münasibətlərinin poetik əsaslarına diqqət verməyi tələb edir.

Dünya elmi-nəzəri fikrində mentalitet, onun nəzəri-kateqorial mahiyyəti, məzmun və formaları, milli düşüncə sistemindəki yeri, təzahürünün tip və şəkilləri və s. barəsində saysız-hesabsız tədqiqatlar aparılmış və onların nəticələri ilk növbədə mötəbər ensiklopediyalarda ümumiləşmiş tezislər kimi öz əksini tapmışdır.

Ümumiyyətlə, "mentalitet" anlayışı bir söz kimi "mentallıq" anlayışı ilə bağlıdır. Latın dilinə məxsus söz olub, insana, yaxud hər hansı qrup və cəmiyyətə məxsus olan düşüncələrin obrazını, əqli vərdiş və mənəvi davranış modellərini nəzərdə tutur.

Tədqiqatçı E.Əliyev müasir dövrümüzdə Azərbaycan mentalitetinin inkişafına təhsilin, maarifin təsirini araşdıran məqaləsində mentalitet anlayışının ensiklopedik izahlarını ümumiləşdirərək yazır: "Mentalitet – konkret mədəniyyət və psixologiyaya malik olan bir xalqın inteqral xarakteristikası olub, özündə bu kateqoriyaları saxlayır: fərdi, kütləvi, ictimai şüur, özünü dərketmə və düşünmə, dünyagörüşü, milli ənənələr, mədəniyyətdə universallıq, ictimai rəy, ümumi intellekt, təfəkkür dominantlığı, siyasi şüur, siyasi mədəniyyət, kütləvi əhvali-ruhiyyə və s.". (3)

Göründüyü kimi, Azərbaycan folklorunda milli mentalitet məsələsinin araşdırılması milli mədəniyyət və psixologiyamızın ümumi xarakterə inteqrasiya olunmuş cəhətlər sisteminin tədqiqi deməkdir. Bunun üçün folklorda milli şüurun fərdi, kütləvi, ictimai səviyyələrinin təzahürünün poetikası öyrənilməli, folklor obrazlarının milli mentallıqla bağlı cəhətləri sistemləşdirilməlidir.

Fəlsəfə elmləri doktoru Q.Əliyev mentaliteti təfəkkürün özünəməxsus tipi hesab edərək yazır: "Mentalitet fərdi və kollektiv şüurun spesifik səviyyələrini xarakterizə edir. Bu mənada o, spesifik təfəkkür tipidir. Lakin insanın sosial davranışı heç də aramsız fəaliyyətdən ibarət deyildir. Bu və ya digər hadisəni qiymətləndirməyə cəhd göstərən fərdə onun əvvəlki sosial təcrübəsi, sağlam düşüncə, maraqlar, emosional xüsusiyyətləri təsir edir. Dünyanın qavranılması şüuraltı dərinliklərdə baş verir, formalaşır. Deməli, mentalitet təbii əlamətlərdən və sosial şərtlənmiş komponentlərdən yaranır və insanın həyat hadisələri haqqında təsəvvürlərini ehtiva edir. Ətraf aləmin dərk olunması vərdişləri, düşüncə sxemləri, obrazlar, komplekslər mentalitetdə özünün mədəni təcəssümünü tapır". (4)

Mentalitet anlayışının yuxarıda verilmiş səciyyəsi onun folklorla münasibətlərinin özünəməxsus tərəflərini görməyə imkan verir. Folklor ənənəvi xarakterli ictimai şüurun formalarından biridir. Xalqın tarixi-mədəni təcrübəsi folklorda yaddaşlaşır. Bu halda filosof Q.Əliyevin mentaliteti gerçəkliyin qavranılmasının "vərdişləri, düşüncə sxemləri, obrazları, kompleksləri" kimi səciyyələndirməsi onun folklor dünyagörüşü və obrazlar aləmi ilə qırılmaz bağlılığının üzərinə, daha dəqiq desək, qovuşan (ortaqlaşan, kəsişən, sintezləşən) məqamlarına işıq salır.

Milli mentalitet sistemi və folklorun münasibətləri məzmunla formanın, yaxud düşüncə modeli ilə həmin modelin ənənəvi sənət və yaradıcılıqda bədii təzahür tipinin münasibətləri kimi də xarakterizə oluna bilər. Milli mentalitet və folklor münasibətlərinin poetik özünəməxsusluğu onların etnik-mədəni sistemin tarixi kateqoriyaları olmasında da ifadə olunur. Q.Əliyev yazır: "Dünya

xalqlarının, o cümlədən Azərbaycan xalqının mifologiyası və folkloru, dastanları və rəvayətlərinin mətn təhlili sayəsində əldə olunmuş ümumiləşdirmələr bunu deməyə əsas verir ki, mentalitet bir fenomen olaraq uzun sürən təkamül prosesinin məhsuludur, hər bir ənənəvi milli düşüncənin sabiq ədəbi, mənəvi-mədəni, siyasi-əxlaqi vərdişlərinin yığcam təzahürüdür". (4)

Tədqiqatçı H.Quliyev azərbaycanlı mentalitetinin arxetiplərindən danışan kitabında mentalitet anlayışının kifayət qədər mürəkkəb və mübahisəli olduğunu, o qədər də asan başa düşülmədiyini göstərərək yazır: "Mentalitet mədəniyyətin milli özünəməxsusluğunu (ona xas olan şüur tipini, həyat tərzini, ənənələri və s.) göstərən ümumişlək elmi kateqoriyadır. Mentalitet obyektiv hadisədir, lakin öz təbiətinin spesifikliyindən irəli gəlməklə çox sirli və mübahisəlidir. Bu isə onun mahiyyətinin özünə uyğun şəkildə başa düşülməsini əhəmiyyətli dərəcədə çətinləşdirir. Mentalitet bizim hamımız üçün yaxın zamanlara qədər əsrarəngiz fenomen olaraq qalırdı. Ancaq axırıncı illərdə dövlət müstəqilliyinin əldə edilməsi kontekstində o, diqqət obyektinə çevrildi. Cəmiyyətdə həyat tərzi və şüurda köklü dəyişikliklərlə müşayiət olunan yeni sahmanın mürəkkəb formalaşma prosesi başladı. Baş verən yeniliklər məcrasında "yoxluqdan" baş qaldırdı və ani olaraq xüsusi aktuallıq kəsb etdi...". (20, 5)

Bu fikirlər, əslində, mentalitet anlayışının Azərbaycan mədəniyyətindəki yerini düzgün səciyyələndirir. Doğrudan da, mentalitet anlayışı fəal hadisə olaraq həyatımıza son onilliklərdə daxil oldu və Azərbaycan mədəniyyəti çevrəsində özünə möhkəm yer tutdu. Bu anlayışın Azərbaycan ictimai şüurunun arxetipik qaynaqları, ənənəvi mədəniyyət tip və formaları ilə bağlılığı onun daha dərindən dərk olunması üçün bizim nəzər-diqqətimizi istər-istəməz folklorun üzərinə yönəldir.

Mentalitet anlayışı tarixi kateqoriyadır: elmin inkişafı zəminində zənginləşmiş, semantik tutumu genişlənmişdir. Daha çox sosial-fəlsəfi

kateqoriya olan mentalitet sisteminin müxtəlif tərəfləri dünyanın görkəmli alimlərinin diqqətini cəlb etmiş və onunla bağlı sanballı araşdırmalar aparılmışdır. Həmin fikirlərin nəzərdən keçirilməsi mentalitet anlayışının ictimai şüurun əsasında duran milli düşüncə modeli kimi dərki ilə yanaşı, onun folklorda təzahürünün nəzəri əsaslarını da görməyə imkan verir.

Mentalitet, onun ənənəvi mədəniyyətlə bağlılığı haqqında qərb dünyasının görkəmli alimləri L.Levi-Brülün (21), K.Levi-Strosun (22; 23), E.Kassirerin (18) və çox sayda digərlərinin əsərlərində dəyərli araşdırmalar aparılmış, çox qiymətli fikirlər deyilmişdir.

P.Qureviç və O.Şulman "mentallıq, mentalitet" anlayışları ilə bağlı qərb elmi nəzəri fikir tarixindəki əsərləri tarixi kontekstdə ümumiləşdirərək göstərirlər ki, "mentalitet" termini Amerika filosofu R.Emersonda (1856) rast gəlinir... Anlayış yeni kantçılar, fenomenoloqlar, psixoanalitiklər tərəfindən işlədilir. Lakin bu anlayış son dərəcə məhsuldar şəkildə XX əsr fransız humanitar elmi tərəfindən işlənərək hazırlanmışdır. Marsel Prust bu neologizmiə rast gələrək onu şüurlu şəkildə özünün yeni lüğətinə daxil edir. (17, 26)

Etnologiyada evolyusionizm və animist məktəb, daha sonra Emil Drükheymin sosial rasionalizmi primitiv mentallığın ünsürlərini fərqləndirir və cəmiyyətin arxaik dövrünə aid edir. "Primitiv mentallığın" dəqiq təyinatını verə bilməyən bu ilkin tədqiqatlar kontekstində primitiv (ictimai iqtisadi formasiyalar düzümünün ən aşağı pilləsində duran – İ.A.) xalqların açıq və ya gizli şəkildə inkişaf etmiş xalqlara qarşı qoyulması görünür. (17, 26)

P.Qureviç və O.Şulman göstərirlər ki, Birinci Dünya müharibəsindən dərhal sonra Moss sosiologiyanın sahələri haqqındakı oçerkində qeyd etmişdir ki, "mentallığın" öyrənilməsi dəb halını alır. "Primitiv mentalitet" anlayışının hazırlanmasında həlledici töhfəni L.Levi-Brül verdi. O, antropoloji və etnoloji tədqiqatların istiqamətlərinə böyük təsir göstərərək, yazısız xalqların kollektiv həyatının dərki zamanı müasir anlayışların əsas götürülməsi cəhdinin təhlükə yaratdığını xüsusi vurğuladı. O, primitiv və sivilizasiyalı mentalitetlər arasında

əhəmiyyətli fərq olduğunu qeyd etməklə yanaşı, onlar arasında keçidlər olduğunu da istisna etməmişdir. (17, 26)

Qeyd edək ki, mentalitetin ilkin və çağdaş tipləri arasındakı fərqlərin və keçid məqamlarının olması haqqında L.Levi-Brülün yanaşması "milli mentalitet və folklor" münasibətlərinin araşdırılması zamanı da xüsusi aktuallıq kəsb edən məsələdir. Belə ki, folklor dinamik sənət və yaradıcılıq hadisəsidir. Onun dinamizmi diaxron və sinxron reallaşmaları bütövlükdə çevrələyir. Folklorun diaxron dinamikası onun tarixi inkişafını nəzərdə tutur. Milli mentalitetin öz təcəssümünü tapdığı əsas düşüncə və mətn formalarından birinin folklor olduğu nəzərə alındıqda milli mentalitetin və folklorun tarixi inkişafının qarşılıqlı proses olduğu da göz önünə gəlir. Milli mentalitet xalqın milli düşüncə və davranışının qəlibləri kimi folklorda yaşayır və metalitetdə baş verən dəyişikliklər onun ifadə vasitələrindən biri olan folklorda da öz əksini tapır. Bu halda folklor milli metalitetin ilkin və çağdaş tiplərini bu və ya digər şəkildə öz yaddaşı daxilinə alaraq qoruyub saxlayır. Lakin burada məsələnin mahiyyətinin dərki sadə olmayıb, qarışıq və mürəkkəb münasibətlər kompleksini əhatə edir.

Milli mentalitet və folklorun tarixi inkişafı yekcins hadisə deyildir. Milli mentalitet milli ictimai şüurun qəliblər toplusudur. Folklor da milli şüurla bağlıdır. Lakin o, milli şüuru özündə əks etdirən sənət və yaradıcılıq hadisəsidir. Bu amil nəzərə alındıqda görürük ki, milli mentalitet sistemində baş verən struktur dəyişmələrinin dinamikası ilə folklorda, onun reallaşma sisteminə görə çox mürəkkəb olan növ və janrlarında baş verən dəyişikliklərin intensivliyi eyni deyildir. Məs., folklor poeziyası öz forma xüsusiyyətlərinə görə sadədən mürəkkəbə doğru zənginləşmə keçirmişdir. Əvvəlcə alliterasiyalara söykənən poetik qəliblər (deyimlər – paremiyalar) yaranmış, daha sonra qafiyələnmə sisteminin ikilik, dördlükləri meydana gəlmiş, sonrakı inkişafda isə bəndlər və misraların kombinasiyasından çoxlu formalar hasil olmuşdur. Folklorun forma strukturunda baş verən və müəyyən epoxalarla şərtlənən (müəyyənləşən) bu dəyişmələrin inkişaf ritmi milli mentalitet qəliblərinin dəyişməsi ilə bağlı

olmamışdır. Məs., mifoloji mentalitet qəlibi olan “yaxşı-pis” qarşılıq qoşasının orta əsrlər şərq mentalitet qəlibi olan “xeyir-şər” qarşılıq qoşasına keçidi folklor poeziyasının forma strukturuna hiss olunacaq təsir göstərməmişdir. Lakin bu dəyişiklik folklorun məzmun qatında daha tez və daha güclü dəyişikliklər yaratmışdır. Mifoloji epoxada qəhrəman və onun antipodu obrazlarında gerçəkləşən “yaxşı-pis” qoşası orta əsrlər Azərbaycan folklorunda uyğun olaraq “mərd-namərd” qoşasına transformasiya olunmuşdur. Bu halda L.Levi-Brülün çağdaş və primitiv mentalitetlər arasında çox böyük fərq olması və ilkin metalitetlərin dərkində müasir mentalitet üçün xarakterik olanların tətbiqinin yanlış nəticələr törətməsinin təhlükə yaratması haqqındakı xəbərdarlığı milli mentalitetin folklor əsasında öyrənilməsi üçün də aktual olduğu təsdiq olunur.

Görkəmli qərb alimi E.Kassirerin fikrinə görə, primitiv mentallıq bizimkindən xüsusi məntiqlə seçilmir. Öz təbiət qavrayışına görə nə nəzəri, nə praqmatik, nə də simpatik olaraq fərqlənir. Primitiv insan əşyalar arasında empirik fərqləndirmə aparmağa qadir deyildir. Lakin onda özünü ayıra bilmədiyi təbiətlə vəhdət duyğusu daha güclüdür. (17, 26)

Milli mentalitet sisteminin folklorla münasibətləri hər ikisinin milli varlığı onun ibtidai çağından tutmuş müasir mərhələsinədək əhatə etmək imkanlarında da ifadə olunur. Bu “mentallığın” işarəvi (semiotik) struktur səciyyəsindən də aydın görünməkdədir: “Mentallıq bir anlayış kimi analitik təfəkkürü, şüurun inkişaf formasını yarımşüuri mədəni şifrələrlə birləşdirməyə imkan verir. Bu mənada mentallığın daxilində təbii və mədəni, hissi və idraki, irrasional və rasional, fərdi və ictimai kimi müxtəlif qarşıdurma qoşaları özünü göstərir”. (17, 25)

Maraqlıdır ki, mentalitetin mifologiya ilə sıx şəkildə bağlılığı, ilkin mental formaların mifoloji düşüncənin aktiv struktur elementləri kimi işlənməsi folklorla mentalitetin münasibətlərinin araşdırıla biləcəyi ən səciyyəvi məqamdır. Tədqiqatçılar yazırlar ki, “mentallıq anlayışı mifoloji şüurun arxaik strukturunun təhlili zamanı xüsusi məhsuldarlıqla istifadə olunur”. (17, 26)

Hər bir xalqın milli mentaliteti onun milli düşüncəsinin əsasında duran etnik-psixoloji sistemdir. Bu cəhətinə görə mentalitet anlayışı milli düşüncə anlayışı ilə qırılmaz şəkildə bağlıdır. Milli varlığın ən iri struktur vahidi olan etnos, onun strukturuna daxil olan cəmiyyət, insan ünsürləri, fərd-cəmiyyət münasibətləri, "mentalitet", "milli düşüncə" anlayışları biri-biri ilə qarşılıqlı şəkildə əlaqəli olub, vahid sistemin struktur səviyyələrini, o cümlədən həmin səviyyələrin elementlərini təşkil edir. Hər bir insanın psixologiyasında mövcud olan mentalitet eyni zamanda həm onun özünə, həm də onun mənsub olduğu etnosun milli düşüncə sisteminə aiddir. K.Q.Yunq yazır: "Bizim təhtəlşüurumuz bizim bədənimiz kimi keçmişin izlərini özündə əks etdirir. Biz yalnız bioloji varis olaraq deyil, psixoloji varis kimi də doğuluruq. Bu və ya digər mərhələdə görüş və təcrübə ayrılır. İnsan bədəni özünü bütün orqanların muzeyi olaraq göstərdiyi kimi, psixologiya da nəslin tarixi təcrübəsini əks etdirir". (27, 134)

K.Q.Yunqun göstərdiyi "insan psixologiyasında inikas olunan nəslin tarixi təcrübəsi"lə milli düşüncə sistemi və onun ən mühüm ünsürü olan mentalitet vacib şəkildə daxildir. Bu halda görkəmli etnos nəzəriyyəçisi L.N.Qumilyovun: "Etnik diaqnostikanın əsasında hissiyyat dayanır. İnsan öz etnosuna uşaqlıqdan mənsub olur" (16, 49), – fikri də fərdə məxsus mentalitetin cəmiyyətə məxsus mentalitet olaraq milli düşüncə sisteminin daxilndə olmasını bir daha təsbit edir.

Milli düşüncə bir sistemdir. Həmin sistemin əsasında duran milli mentalitet özü də strukturu etibarilə daha bir sistemi təşkil edir. Sistem anlayışının "öz aralarında müəyyən münasibətdə və əlaqədə olan müəyyən bütövlük, vəhdət əmələ gətirən ünsürlərin məcmusu" olması haqqında ensiklopedik tərifi (5, 374) mentalitet sistemi anlayışına münasibətdə özünü tam təsdiq etməklə mentalitetin özünün müxtəlif ünsürlərlə həm sistemdaxili, həm də sistemxarici səviyyədə əlaqədə olduğunu göstərir.

Mentalitet milli düşüncənin əsası kimi öz varlıq enerjisini həm də etnoslararası münasibətlərdən alır. B.F.Parsinev bu xüsusda göstərir ki, "məhz başqaları ilə qarşılıqlı ziddiyyət zəminində daxili etnik ümumilik möhkəmlənir,

etnik fərqlər meydana çıxır". (24, 95) Bu cəhətdən etnoslararası münasibətlər milli mentalitet sistemini də inkişaf etdirir.

Milli mentalitet milli ruh anlayışı ilə sıx bağlıdır. Milli ruh milli düşüncə sisteminin etnik-psixoloji təzahür səviyyəsi olub, son dərəcə geniş məfhumdur. Tədqiqatçıların yazdığı kimi daha çox mənəvi ünsürləri əhatə edir: "İnsanların etnik təşkil sistemi kimi milləti insan ekzistensiyasının yalnız obyektiv forması yox, daha çox subyektiv, ideal komponentlər xarakterizə edir. Milliliyin müəyyənlik prinsipi, onun dominant xassəsi daha çox mənəvi olaraq özünü göstərir. Millətin ruhu mənəvi aləmin mürəkkəb anlayışıdır". (15, 79)

Milli mentalitet millətin şüurunda əbədi olaraq daşınır. Onun daşınma vasitəsi ənənədir. Ənənə fərdi və ictimai olsa da, onların hər ikisi milli ənənə anlayışında birləşir. Q.Əliyev yazır: "Milli ənənə xalqın məişət, əxlaqi, mənəvi dəyərlərinin təmərküzləşmiş təcrübəsi və onun davranışında, hərəkətində, həyat tərzində, məişətində ifadəsini tapmış müdrikliyidir. Bütün xalqlarda olduğu kimi azərbaycanlıların da milli adət-ənənələri əsrlər boyu yaranmış və təşəkkül tapmış, zamanın sərt və amansız sınaqlarından çıxmışdır". (4)

Mentelitet anlayışı milli düşüncə sisteminə daxil olduğu kimi, daha böyük anlayış olan millət anlayışı ilə də sıx bağlıdır. Ümumiyyətlə, "Millət – insanın tarixən əmələ gəlmiş sabit birliyidir ki, bu da dil, ərazi, iqtisadi həyat birliyi, mədəniyyət ümumiliyində təzahür edən mənəviyyat birliyi zəminində meydana çıxmışdır". (10, 425)

Başqa sözlə, millət, milli düşüncə və mentalitet mürəkkəb sistemi təşkil edir və buraya milli xarakter, milli mədəniyyət (mədəniyyətin ən sürəkli və dayanıqlı tiplərindən olan folklor), bütövlükdə milli təfəkkür tipi və s. daxildir: "Milli mədəniyyət, mill təfəkkür və milli mövcudluq – bunların dialektik münasibəti milli xarakteri verir;

Milli mövcudluq milli xarakterin maddi əsasıdır – bu anlayışda xalqın tarix səhnəsinə gəlişi, coğrafi lokallaşması, yerdəyişmələri, məskunlaşmaları... ifadə olunur;

Milli təfəkkür milli xarakterin potensiyasıdır – bu anlayışda xalqın yaradıcılıq imkanı ifadə olunur;

Milli mədəniyyət isə milli xarakterin bilavasitə göstəricisidir – bu anlayışda xalqın bütün tarixi boyu yaratdığı nə varsa, hamısı ifadə olunur". (2, 16)

Mentalitet daxil olduğu iri sistemin (meqasistemin) içərisində milli mədəniyyət ünsürü ilə sıx bağlıdır. Onun folklorla münasibətləri "mentalitet-mədəniyyət" kontekstinin ümumi qanunauyğunluqlarına söykənir. D.Yıldırımın mədəniyyət və onun milli mahiyyəti haqqında yazdıqlarından göründüyü kimi: "Dünya millətlərinin, yaxud da insan qruplarının bir-birindən fərqli təzahür etməsini şərtləndirən mədəniyyət sonadək dərk edilməyən bir məfhumdur. Mədəniyyətin sonadək dərk edilməməsi onun mahiyyətindən irəli gəlir. O, təmsil etdiyi cəmiyyətin yaşadığı təbii şəraitin, onun dünyagörüşünün, tarixinin və dəyərlər sisteminin xarakterindən asılı olaraq müxtəlif səciyyələrdə təzahür edir. Bir mədəniyyət üçün son dərəcə əhəmiyyətli bir anlayış başqa bir mədəniyyət üçün heç bir dəyər daşımaya bilər. Beləliklə, aydın olur ki, dünyada mədəniyyətlərin sayı dünyadakı insan toplularının sayı qədərdir. Problemə bu bucaqdan yanaşdıqda, belə bir qənaətə gəlmək olar ki, mədəniyyət kimliyini təmsil etdiyi cəmiyyətin yaşam tərzi ilə şərtlənir. Dünyanın mozaik millətlər mənzərəsi də bu mədəniyyət müxtəlifliyində özünü göstərir. Millətləri biri-birindən ayıran və biri-biri ilə əlaqələrini nizamlayan mədəniyyət başlıca olaraq millilik xarakteri kəsb edir". (14, 37)

Bir qədər geniş kontekstə çıxardıqda görürük ki, mentalitet tarixi kateqoriya olub, milli ideologiya ünsürü ilə də qırılmaz bağlılıq təşkil edir. Hər bir etnosun davranışını milli ideologiya idarə edir. Milli ideologiya millətin taleyi üçün bütün tarixi dövrlərdə böyük əhəmiyyət daşımışdır. Prof. A.Şükürovun yazdığı kimi, "milli ideologiyanın əsas məqsədi kütlələri səfər-bərliyə almaqdır. Milli ideologiyanın tələbləri sırasında: dövlətçiliyin, milli mənafeyin müdafiə edilməsi, milliyətindən asılı olmayaraq hər bir vətəndaşın

haqlarının ümumbəşəri tələblər səviyyəsində qorunması, bərabər seçki hüququnun tətbiqi, milli azlıqların və etnik qurumların, dilinin, mədəniyyətinin, adət-ənənələrinin inkişafına şərait yaradılması, dövlət idarəedici orqanlarında onların düzgün təmsil olunması və s. amillər mühüm yer tutmalıdır". (11, 82)

Bu halda mentalitet milli ideologiyanın bütün təzahür tip və formalarında bu və ya digər dərəcədə iştirak edir.Millətin mentaliteti onun dövlətə, cəmiyyətə, insana, dünyaya və s. baxışlarında özünəməxsusluğu şərtləndirir. Prof. S.Xəlilovun milli ideologiya ilə bağlı fərqləndirdiyi səviyyələrə də diqqət verdikdə fikrimiz təsdiq olunur: "Birincisi, "milli ideologiya" müəyyən bir millətin, xalqın, unitar dövlətin ideologiyası, rəhbər tutduğu, həyata keçirdiyi ideya-siyasi xətdir; Millətlə bağlılıq, sözün müstəqim mənasında millilik bu ideologiyanın strukturunda özünəməxsus yer tutsa da, onun elementlərindən yalnız biri kimi çıxış edir. İkincisi, "milli ideologiya", əslində, "milli ideya" anlayışı əvəzinə işlənir. "İdeologiya" və "ideya" anlayışlarının qarışıq salınması xüsusən müasir Azərbaycan publisistikasında (bu sahədə elmi-fəlsəfi fikir hələ formalaşmadığına görə) geniş yayılmışdır". (7, 93)

"Milli metalitet və Azərbaycan folkloru" problemini "azərbaycanlı mentaliteti" anlayışının etnik əsaslarına enmədən geniş əsaslarla araşdırmaq mümkün deyildir. Azərbaycan xalqı ümumtürk etnosunun oğuz qolu əsasında formalaşmış bir türk xalqıdır. Bu cəhətdən onun mentalitetinin tarixlə müəyyənləşən bazisini türk mentaliteti təşkil edir. Milli mentalitetimizin bütün özünəməxsusluğu türk etnik başlanğıcına dayandığı kimi, folklorumuzun da bütün özünəməxsusluğu eyni mədəni-etnik qaynaqdan qidalanmışdır.

Türk etnosu sivilizasiyalı bəşəriyyətin ən əsas ünsürlərindən biri olub, dünyanın etnik, mədəni, siyasi, ictimai tarixinin inkişafında çox böyük rol oynamışdır. Özünün hərbi-siyasi gücü, intellektual-mədəni hünərləri ilə dünyanı daim heyrətdə qoyub, tarixi biri-birindən əzəmətli çoxsaylı imperiyalarla zənginləşdirən, Asiyanın, Avropanın, Afrikanın, Şimali Amerikanın tarixində silinməz izlər qoyan türklərin mentaliteti, onların bir etnos kimi mental

keyfiyyətləri dünya alimlərinin diqqətini daim cəlb etmiş və bu barədə V.V.Bartold, V.İ.Radlov, S.E.Malov, N.Y.Biçurin, L.N.Qumilyov, J.P.Ru, Z.V.Toğan, A.İnan, V.M.Jirmunski, O.Seleymenov, S.A.Tokarev, S.Q.Klyaştornı, İ.V.Stebeleva, A.S.Amonjolov, V.N.Basilov, D.J.Valeev, N.M.Kulşaripova, A.X.Xaliqov, N.V.Bikbulatova, R.Q.Şaripov və başqa Avropa, rus, türk alimləri dəyərli tədqiqatlar aparmışlar. Bu müəlliflərin əsərləri tarixi, filoloji, ədəbiyyatşünaslıq, fəlsəfi əsərləri olub, qədim tərklərin mentalitetinin ən müxtəlif vacib məsələlərini də əhatə edir.

Başqırd alimi R.Q.Şaripov özünün qədim türklərin mentalitetinin fəlsəfi dünyagörüşü kontekstində təhlilinə həsr olunan namizədlik dissertasiyasında yuxarıdakı alimlərin tədqiqatlarının nəticələrinə, o cümlədən tədqiqatçı S.M.Pozdyayevin mentalitet haqqında "insan varlığına öz davranışını sonsuza qədər dəyişməyə imkan verməklə bərabər, yenə də dəyişməz qalan stasionar karkası" olması haqqında fikrinə (25, 116) söykənərək yazır ki, qədim türklərin mentaliteti "beləliklə, qədim türk sivilizasiyasının bütün struktur qatlarında əmələ gəldi və "kollektiv qeyri-şüuridə" sintezləşərək qədim türk dövlət və xalqlarının, onların yaradıcılarının tarixi talelərini müəyyənləşdirdi, etnogenez proseslərinə müəyyən ritm verdi, qədim türk sivilizasiyasına onu başqa antik və orta əsrlər sivilizasiyalarından kəskin şəkildə seçdirən təkrarolunmaz aura bəxş etdi". (28, 122)

Tədqiqatçı qədim türkrlərin mentalitetinin təşəkkülünün əsas mərhələlərini aşağıdakı kimi müəyyənləşdirmişdir:

1. Qədim türk mentalitetinin türk etnomədəni ümumilyinin formalaşması ilə paralel baş verən təşəkkülü prosesi rəsmi türkologiyada qəbul olunduğuna nisbətən, heç olmazsa, iki-üç min il əvvəl başlanmışdır. Onun başlanğıc mərhələlərini, təqribən, tunc və erkən daş dövrünə aid etmək lazımdır. Məhz bu dövrdə Avrasiyanın çöllərində köçəbə həyat tərzinin gur təşəkkülü baş vermişdir...

... Qədim türk mentalitetinin təşəkkülünün ana bazasını tanrıçılıq dini-fəlsəfi doktrinası təşkil etmişdir... Tanrıçılıq əsasında, heç olmazsa, min il ərzində türk köçərilərinin sonrakı epoxalarda psixi simasını müəyyənləşdirən norma, adət və ənənələrin təşəkkülünün fəal prosesi getmişdir. (28, 124-125)

2. Qədim türklərin mentalitetinin formalaşmasında ən əhəmiyyətli mərhələ bizim eranın V-VI əsrlərindəki kaqanat dövrü olmuşdur. Bu dövrdə qədim türk etnomədəni birliyi özünün ən yüksək zirvəsinə çataraq dünya səviyyəsinə qalxdı. Bu çağda türklər Avrasiyanın siyasi durumunu fəal şəkildə müəyyənləşdirir, onların təsirini Çin (Tan sülaləsi epoxası), Orta Asiya dövlətləri, Şərqi və Mərkəzi Avropa, Yaxın Şərq öz üzərində hiss edir. (28, 125)

Bu "qızıl" dövrdə türk mentalitetinin sonrakı inkişafına böyük təsir etmiş türk üstünlüyü, "Əbədi el" və "köçəbə militarizmi" doktrinası qanuniləşir.

Kaqanat dövründə hər bir «əsl» türkün əməl etməli olduğu davranış stereotipi, "cəngavər kodeksi" yaranır. Ənənə və vərdişlərin davranış-situativ modellərdən tutmuş paltar xırdalıqlarına və at yəhər-yüyəninə qədər geniş dairəsini əhatə edən müəyyən "imperiya" stili müəyyənləşir... Türk stili "dəbinə" uyğunlaşma qədim türk oykumeninindən çox qıraqlara yayılır. Çinlilər yurtaya (türk alaçığına – İ.A.) şövqlü odalar həsr edir, əyanlar türk paltarı geyməyə çalışırdılar. Bu, Çində Qərbin "məhvedici təsirinə" qarşı mübarizə aparan "humanistlər" arasında müəyyən mənfi reaksiyaya səbəb olurdu (Axı Çöl Çin üçün, doğrudan da, Qərb idi). Türk stili Qərbi Avropaya da nüfuz edir. Bunun üçün Böyük Karl dövrü frank əsgərlərinin hətta məktəb dərsliklərinə yerləşdirilmiş rəsmlərinə baxmaq kifayətdir: onlar geniş şalvarlar geyinmiş, uzun sallaq bığları var, saçları isə hörüklüdür. (28, 127)

3. Türk mentalitetinin inkişafının üçüncü dövrünü VIII-XI əsrlər kimi müəyyənləşdirmək olar. Bu dövrdə türk dünyasına təsir edən ümumi böhranla bağlı olaraq sivilizasiya yönləri əhəmiyyətli dərəcədə dəyişir. O, əlverişsiz iqlim dəyişmələri ilə daha da dərinləşir: Mərkəzi və Orta Asiyanın çölləri sərt quraqlığa məruz qalır. Bu, bir çox hallarda "klassik" dövrün əzəmətli

imperiyalarının çökməsini müəyyənləşdirir... Tanrıçılıq keçmişdə qaldı. Uyğur xaqanlığı xanın hakimiyyətini nominal olduğu, manixey icması tərəfindən idarə olunan teokratik ölkəyə çevirdi. Xəzərlər əvvəlcə iudaizmi, sonra islamı qəbul etdi. Oğuzlar, yağmalar, çigillər və başqa tayfalar da islamı qəbul etdi. Müsəlman dininin forpostu bütpərəst Rusiyaya və pravoslav Bizansa qarşı olaraq Volqa Bulqariyası oldu. Qədim türk düyasının qürubu epoxası bütün bunlarla yanaşı, incəsənət və mədəniyyət şedevrlərinin doğulduğu dövr oldu. (28, 127-128)

R.Q.Şaripov qədim türklərin mentalitetinin fəlsəfi dünyagörüşü kontekstində tədqiqinə həsr olunmuş əsərinin yekununda yazır ki, "qədim türk ümumiliyinin tamamilə dağıldığı XI əsrdən sonra qədim türklərin mentaliteti haqqında etnomədəni ümumilik kimi danışılmasının mənası yoxdur. Bu andan etibarən keyfiyyətcə (bizim müasir dünyamızda gördüyümüz) yeni etnosların nüvəsinin formalaşması başlanır. Lakin ümumi dövlətçilik və dini-fəlsəfi ənənənin qırılmasına, ümumi yazı sistemi və məişət tərzinin itirilməsinə baxmayaraq, bu xalqları böyük inam hissi ilə qədim türk sivilizasiyasının varisləri saymaq olar. Və şübhəsiz ki, onların əcdadlarından aldığı əsas "miras" maddi mədəniyyətlərinə nisbətən daha dayanıqlı olan mentalitet strukturudur". (28, 129-130)

Alimin fikri Azərbaycan türk mentaliteti üçün də eyni dərəcədə xarakterikdir. Milli mədəniyyətimiz bütövlükdə qədim türk sivilizasiyası əsasında formalaşmışdır və Azərbaycan xalqı öz tarixi inkişafında heç bir halda öz türk mentalitetindən qırağa düşməmiş, bu gün də milli mentalitetini qoruyub saxlamaqdadır. Bu cəhətdən milli mentalitet sisteminin folklor əsasında öyrənilməsi qədim türk mentalitetinə məxsus arxetip vahidlərinin tədqiq edilərək üzə çıxarılması deməkdir.

Milli mentalitet və folklorun münasibətləri həm də onların biri-birinə qarşılıqlı təsir imkanları ilə şərtlənir. F.e.d.M.Cəfərli yazır ki, "bəşəriyyət yaranandan bəri insanların həyatı və dünyanı dərk etmək arzuları müxtəlif

mərhələlərdən keçərək hər mərhələdə bir cür reallaşmışdır. Eyni zamanda bu reallıqlar içərisində milli müəyyənlik faktoru bu və ya digər dərəcədə öndə olmuşdur. Hansı xalq öz milli kimliyini hansı dövrdə daha yaxşı dərk edibsə, o, daha böyük müvəffəqiyyətlərə nail olub. Bu mənada Azərbaycan folklor nümunələri milli şüurun formalaşması prosesinə kifayət qədər təsir edəcək imkanlara malikdir". (1, 264)

M.Cəfərli folklorun milli düşüncənin inkişafına təsirini onun yaddaş funksiyasını yerinə yetirməsi ilə əlaqələndirmişdir: "Milli təfəkkürün formalaşması son dərəcə mürəkkəb prosesdir. Əslində, bu yol millətin yetkinləşməsi, qeyri millətlərdən özünü seçməsi, gələcəyə açıq və ayıq gözlə baxması deməkdir. Lakin bu da bir həqiqətdir ki, hər bir xalq həmin prosesi tarixi çətinlikləri dəf edə-edə, öz real təcrübəsində sınaqdan keçirə-keçirə yaşayır. Bütün bu proseslər bu və ya digər dərəcədə onun maddi və mənəvi yaddaş abidələrində (həmin abidələrin əsas qismini təşkil edən folklorda – İ.A.) öz əksini tapır". (1, 264)

Etnik-milli şüurun formalaşmasına həmin şüurun məhsulu olan maddi və mənəvi mədəniyyət abidələrinin, o cümlədən folklorun təsirinin milli təfəkkürün, etnik özünüdərkin fasiləsiz təkamül dinamikası ilə bağlı olması qənaətinə gələn alim yazır: "Belə bir sadə həqiqət məlumdur ki, milli şüurun formalaşması sistemli və ardıcıl təfəkkürün bərqərar olmasından, bu təfəkkürün həyat və dünya hadisələrində nizam, qayda və qanun axtarışından keçib gedir. İlk baxışda belə düşünmək olar ki, bəşər mədəniyyətinin inkişafı sadədən mürəkkəbə doğru hərəkət etdiyinə görə sistemli və ardıcıl təfəkkürdə öz-özünə hasil olur. Lakin belə düşünənlər yanılırlar. Əslinə qalsa, milli şüurun formalaşmasına ciddi təkan verən sistemli və ardıcıl təfəkkür tərzi bəşər tarixində xüsusi bir yol keçmişdir. Sözün, hərfin, yazının, nitqin əmələ gəlməsi və inkişaf edərək cilalanması bu yolun keçid pillələrini aydın və səlis göstərir. Biz buraya müxtəlif memarlıq abidələrini, müxtəlif üslubda yaradılmış tikililəri, musiqi və rəssamlıq əsərlərini və digər faktları da əlavə edə bilərik. Ancaq bütün

bunlardan öncə insanın yaşadığı zamanı sistemli, nizamlı görmək istəyi gəlir. Çünki insan zamandan və yaşadığı mühitdən kənarda mövcud deyil. Buna görə də qədim insanlar ayları və illəri öz təfəkkürünə sığışdırıb, onları təbii ahənginə görə qavramağa daha çox meyl göstərmişlər. Bu mənada, (məsələn – İ.A.) illərin siçan, öküz, pələng, dovşan, balıq, ilan, at, qoyun, meymun, toyuq, it, donuz kimi adlandırılmasından bəhs edən "İl adları" adlı folklor nümunəsində bunun parlaq əksini görmək olar". (1, 264)

Milli mentalitet və folklor biri-biri ilə qırılmaz şəkildə bağlıdır. Xalqın mentaliteti onun folklorunda təkcə ifadə olunmur: folklorun milli struktur əsaslarında durmaqla, onun forma və məzmununun milliliyini də müəyyənləşdirir. Metalitet bundan başqa, folklorun dili ilə qırılmaz şəkildə bağlı olur. Etnik mentalitet və folklor dili problemini araşdırmış tədqiqatçı O.A.Petrenko göstərir ki, dil və mentalitet planı dil və mədəniyyət planı ilə birgə "dil və etnos" probleminin tərkibinə daxildir. (26, 5)

O.A.Petrenko problemi hind-Avropa xalqlarının (rus və ingilis) tərixi-mədəni təcrübəsində tədqiq edib, nəticələri ümumiləşdirərək yazır: "Rus və ingilis etnoslarının xalq mahnı ənənəsində təqdim olunan folklor dünya mənzərəsinin üç fraqmentinin (rəng kontinumu, quşlar dünyası və insanın zahiri görkəminin) tutuşdurulması və əldə olunan nəticələrin sonrakı təhlili belə mülahizə yürütməyə əsas verir ki, təkcə özünəməxsus milli konseptləri işarə edən ayrı-ayrı sözlər və bir sıra qeyri-spesifik leksemlərin konnotasiyası yox, dilin bütöv leksik sisteminin (indiki halda folklor dilinin) etnik baxımdan işarələnməsi haqqında olan fikrimiz böyük faktiki material əsasında təsdiq olunur...". (26, 99) Başqa sözlə, tədqiqatçıya görə, "xalq mahnı mətnlərində hər bir sözdə etnikliyin bütün əlamətləri aşkarlanmasa da, bir qayda olaraq, heç olmasa, bir əlamət olur". (26, 101)

Göründüyü kimi, milli mentalitet folklor adlanan möhtəşəm, tükənməz hadisənin bütün struktur qatları, o cümlədən dilinin strukturu ilə bağlıdır. Doğrudan da, Azərbaycan folklorunun dilində onun milli ruhu, milli

özünəməxsusluğu yaşayır. Hər bir milli dünyagörüşü, milli mədəniyyətlə bağlı söz abidəsidir. Dildə elə sözlər var ki, birbaşa milli varlığımızın, etnik ruhumuzun ifadəsinə xidmət edir. Bəzən dildə yaşayan təkcə bir söz milli tariximizin açılmaz sirlərinin qapısını açır, milli düşüncəmizin tarixin dərinliklərində gözdən itmiş özünəməxsusluqlarından soraq verir.

Ümumiyyətlə, azərbaycanlı mentalitetində sözə münasibətdə həssaslıq var. Bu, təsadüfi olmayıb, milli şüurumuzun mifoloji-kosmoqonik çağları ilə bağlıdır. Azərbaycan xalqı üçün tarixi dəyəri olan söz müqəddəs dəyər kəsb edir. Məsələn, ulularımızın, böyüklərimizin sözü olan atalar sözləri xalqımız tərəfindən müqəddəs hikmətlər məqamındadır. Atalar sözlərindən ibarət "Oğuznamə"də deyilir: "Atalarun sözi Qurana girməz, amma Quran yanınca yalın-yalın yalışur". (9, 18)

Göründüyü kimi, atalar sözü azərbaycanlı mental düşüncəsində adi söz olmayıb, milli düşüncəmizin son 1400 illik tarixinin sakral ucalığına – müqəddəs "Qurani-Kərim"ə istinad edilərək dəyərləndirilir. Atalar sözləri Azərbaycan xalqının mənəvi-fiziki təcrübəsinin deyimlərdə qəlibləşmiş formullarıdır. Onların ululuramız tərəfindən dəyər baxımından müqəddəs "Quran" ayələrinə bənzədilməsi də təsadüfi olmayıb, eləcə də azərbaycanlı mentalitetinin – milli düşüncə sisteminin sakral məqamları ilə bağlıdır.

Görkəmli Azərbaycan alimi H.İsmayılov özünün aşıq sənətinin mənşəyinə həsr olunmuş konsepsiyasında təkcə bir sözün – "ata" sözünün hikmətinə, daşıdığı milli-mənəvi yükə istinad edərək etnik-mədəni tariximizin çox böyük bir mərhələsinin üzərindən sirr pərdəsini götürmüşdür. O, sübut etmişdir ki, folklorumuzun ən geniş yayılmış janrı olan atalar sözlərindəki "ata" kəlməsi, sadəcə olaraq, ulularımızı, böyüklərimizi işarələndirmir. Bu söz milli-mənəvi düşüncə tariximizin ilkin dövrləri ilə bağlıdır və milli mentalitetimizdə böyüklərə, ulular a sayğının əsas yer tutması "ata" və "atalar sözləri" vahidlərinin arxaik himətindən qaynaqlanır.

F.e.d. H.İsmayılov göstərmişdir ki, atalar sözləri, sadəcə, xalqın təcrübəsini əks etdirən deyimlər yox, türk Tanrıçı peyğəmbəri Atanın müqəddəs kəlamlarıdır. Alim yazır: "Öncə bu ad əcdad kultunun işarəsidir. İcma başçısıdır. Sonra şaman-kahindir. Daha sonra əski türk monoteist dini olan Tanrıçılığın peyğəmbəridir". (8, 16)

Beləliklə, məlum olur ki, Ata arxaik oğuz cəmiyyətində icmanın başçısıdır. Bu halda o, siyasi və sakral güclərin təmərküzləşdiyi mərkəzi işarələndirir. Sakral aləmlə bağlılığına görə əcdad kultunun daşıyıcısıdır. Eyni zamanda şaman-kahin kimi insanlarla əcdad ruhlar arasında vasitəçilik (mediatorluq) edir. Bu, onun öz simasında adi və müqəddəs olanları, profanlığı və sakrallığı, kosmosu və xaosu eyni zamanda birləşdirə bilən müqəddəs varlıq olmasından irəli gəlir. N.N.Kradinin oğuzların babaları hunlara aid tədqiqatında yazdığı kimi, "müqəddəs çar tanrılarla təbəələr arasında "əlaqələndirici" idi: öz sakral qabiliyyətlərinin vasitəsi ilə cəmiyyət üçün sabitliyi və çiçəklənməni təmin edirdi". (19, 328)

Bu fikir oğuz cəmiyyəti üçün xarakterikdir. "Kitabi-Dədə Qorqud"da Bayındır xanın "qamğan" titulu vardır. Bu söz iki hissədən ibarətdir: "qam"-"xan". "Qam" – şaman demək olub, Bayındır xanın sakral-mistik hakimiyyətini, "xan" – dünyəvi (siyasi-inzibati) hakimiyyətini ifadə edir. Arxaik oğuz cəmiyyətində – qəbilə icmasında sakral və mistik hakimiyyət Atanın simasında mərkəzləşmişdi. O, oğuz cəmiyyətinin mənəvi düşüncəsində mühüm yer tuturdu. Ata arxaik oğuz mentalitetində sakral dəyərlərin təmərküzləşdiyi müqəddəs varlıq idi və bu mentalitetin müqəddəs dəyərlərinin əsas hissəsi "Ata" ilə müəyyənləşirdi.

H.İsmayılov "ata" sözünün etnik-mədəni sirlərini aşkarlamaqla, əslində, milli mentalitetimizdə böyüklərə, ululara olan hörmətin, onların müqəddəslər məqamında tutulmasının səbəblərinə aydınlıq gətirmişdir. Alimin araşdırmaları milli mentalitetimizin "Ata" arxetipinin günümüzədək davam edən sakrallığının "Baba" və "Dədə" mərhələlərindən keçdiyini də aşkarlamışdır. O yazır:

“1. Atanın ədəbiyyatımızda saxladığı bir irs ata sözləridir. Ata tanrı savçısıdır (peyğəmbəridir- İ.A). Nəzərdən qaçırmayaq ki, ata sözü əski türk dillərində bu janra daxil olan bir sıra xalq deyimlərinin ümumi adı savdır. H.Zeynallı bu termini “söz-sov” deyimindən çıxış edərək onun “söz”dən törəndiyini ehtimal etmişdir. . Bizə görə, söz – “sovmaq, sovuşdurmaq” sözünə daha çox uyğundur. DQK-də (“Dədə Qorqud kitabı”nda - İ.A.) “Azıb gələn qəzayı Tənqri sovsun” alqışında da müşahidə olunur. Bu da atanın qoruyuculuq funksiyasına uyğundur.

2. Babanın ədəbi irsi isə sufi dərvişlərinin yaradıcılıq nümunələridir. Bizə görə, klassik məhəbbət dastanlarının da yaradıcısı onlardır. Bütün dərvişlər baba deyildir. Baba yalnız şeyxlər, pirlər, mürşidlər, övliyalardır.

3. Dədənin ədəbi irsinə Dədə Qorquddan Dədə Ələsgərə qədər bütün dədə sənətkarların yaradıcı örnəkləri daxildir.

Ata sənət sistemindən üstün mövqedə dayanır və bir qədər ondan kənarda təsəvvür olunur. Amma onun söz ehtiyatı bütün hallarda və zamanlarda aparıcı mövqedə istifadə olunur. Ata sözləri, ozan və aşıq sənətlərinin estetik-ürfani əsasını təşkil edir. İnam kimi da türk sufi dünyagörüşünün mənşəyi ona bağlanır. (8, 22-23)

Ümumiyyətlə, hər bir xalqın mentalitet xüsusiyyətləri folklor deyimlərində bariz şəkildə ifadə olunur. Bu, Azərbaycan folkloruna da eyni dərəcədə aiddir. Azərbaycan xalqının adət-ənənələrində, xasiyyət və vərdişlərində ifadə olunan bütün milli özünəməxsusluğu – etnik mentaliteti deyim folklorunda sözlü təsvir vahidlərinə çevrilmişdir.

Bildiyimiz kimi, folklorun deyim janrları kəmiyyətcə zəngindir. F.e.n. A.Xəlil xalq deyimlərini belə çeşidləmişdir: “Deyimlərə, əsasən, aşağıdakılar aid edilir: Atalar sözləri, zərb məsəllər, məsəllər, tapmacalar, alqışlar, qarğışlar, təmsilciklər, nəsihətlər, tövsiyələr, məsləhətlər, şüarlar, mühakimələr, müşahidələr, əlamətlər, sınaqlar, yozumlar, ovsunlar, cadular, hökmlər, təkliflər, xahişlər, icazələr, qadağalar, xeyir-dualar, ürək-dirəklər, arzular, and-amanlar,

and içmələr, and vermələr, sağlıqlar, təriflər, söyüşlər, hərbə-zorbalar, salamlar və cavablar, məzhəkələr, lağlağalar, başsağlığılar, sözkəsmələr, kəlamlar, atmacalar, didişmələr, bədyələr, yamsılamalar, şux eşqnamələr, toy söyləmələri, beşikbaşılar, əzizləmələr, səciyyələndirmələr, müqayisələr, bənzətmələr, ayamalar, nüktələr, sözgəlişilər, təqlidlər, təriflər, sayıncaqlar, yanıltmaclar, zıqqımalar, alver deyimləri". (6, 78)

Deyimlərin bu siyahısı milli mentalitetin folklorla nə qədər bağlı olduğunu əyani şəkildə göstərir. Doğrudan da, hər bir xalqın söyüş folkloru, alqış və qarğışları, andları və s. yalnız onun özünün milli-mənəvi düşüncə dünyası ilə bağlı olub, məhz həmin xalqa məxsus mentalitet keyfiyyətlərini özündə ehtiva edir.

Hər bir milli mentalitet və folklorun əlaqələri onu daşıyan xalqla bağlı olur. Milli mentalitet və folklor ilk növbədə ənənəyə söykənir. Ənənəni isə qərb alimi A.Dandis xalq anlayışının əsas ünsürlərindən biri hesab edir: "Xalq termini ortaq bir faktoru paylaşan hər hansı bir insan qurumunu ifadə edir. Bu qurumu bir-birinə bağlayan faktorun ortaq bir əqidə, dil və ya din olması önəmli deyil. Daha önəmli olan hansısa bir amilə bağlı olaraq formalaşmış qrupun özünə aid hesab etdiyi ənənələrə sahib olmasıdır" . (13, 10)

Xalqın folkloru öz strukturunun bütün qatları ilə onu yaradan və yaşadan xalqın milli mentalitetinə bağlı olur. Qərb alimi D.B.Amos folklorun strukturunda üç əsas səviyyəni müəyyənləşdirmişdir: "... folklor bir bilik məcmusudur; folklor bir düşüncə tərzidir; folklor bir sənət növüdür. Bu kateqoriyalar bir-birindən tam ayrı deyildir. Bir-biri ilə qarşılıqlı əlaqədədir" (12, 35)

Bu səviyyələri nəzərə aldığımızda görürük ki, folklor istər xalq biliklərinin məcmusu, istər milli düşüncənin tərzi, istərsə də sənət və yaradıcılıq kimi bütün hallarda milli mentaliletlə – onu yaradan xalqın milli siması ilə bağlıdır. Azərbaycanlı mentaliteti də Azərbaycan-türk xalqının milli obrazını səciyyələndirən keyfiyyətlərin məcmusu kimi folklorda həm "bilik" (mənəvi-

fiziki təcrübə – İ.A.), həm milli "düşüncə tərzi", həm də folklor "sənətinin növü" kimi bədiiləşmişdir. Bu da öz növbəsində milli mentalitetin folklor əsasında öyrənilməsi probleminin zərurətini reallığa çevirən başlıca nəzəri-metodoloji amil rolunu oynayır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Cəfərli M. Folklorun milli düşüncənin inkişafına təsir imkanları // "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" II Uluslararası Folklor konfransının materialları. B.: Səda, 2004

2. Cəfərov N. Azərbaycanşünaslığa giriş. B.: Az.Ata M, 2002, 600 s.

3. Əliyev E. Azərbaycan mentaliteti haqqında // "Xalq qəzeti", 20 dekabr 1998.

4. Əliyev Q. Mentalitet: milli ləyaqət ölçüsündə // "Azərbaycan" qəzeti, 6 aprel, 2001.

5. Fəlsəfə. Ensiklopedik lüğət. B.: "Azərbaycan ensiklopediyası" Nəşriyyat Poliqrafiya Birliyi, 1997, 471 s.

6. Xəlil A. Paremioloji mətnin strukturuna dair ("Divani lüğət-it türk"dəki paremioloji mətnlər üzrə) / Struktur-semiotik araşdırmalar, № 2, Bakı: Səda, 2002, s. 73-97.

7. Xəlilov S. Lider, Dövlət, Cəmiyyət. B.: Azərbaycan Universiteti, 2001, 341 c. 83.

8. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. B.: Elm, 2002, 311 s.

9. Oğuznamə / Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə. B.: Yazıçı, 1987, 223 s.

10. Şükürov A. Fəlsəfə. B.: Adiloğlu, 2002, 490 s.

11. Şükürov A. Qloballaşma və fəlsəfə. B.: Adiloğlu, 2002, 391 s.

12. Amos D.B. Şartlar və Çevre İçinde Folklorun Bir Anlamına Doğru // Halkbilimində kuramalar və yaklaşmalar. Milli Folklor Yayınları. Yenişehir, Ankara, 2003, 27 s.

13. Dundes A. Halk kimdir? // Halkbilimində kuramalar və yaklaşmalar. Milli Folklor Yayınları. Yenişehir, Ankara, 2003, 19 s.

14. Yıldırım D. Sözlü Kültür ve Folklor Anlayışları Açısından Düşüncelerim // Türk bitiyi, Ankara, 1988, s. 31-52

15. Болотоков В.Х., Кумыков А.М. Национально-психологические проблемы русского зарубежья. М.: 1997, 339 с.

16. Гумилев Л.Н. Этногенез и биосфера человека. Л.: ЛГУ, 1989, 496 с.

17. Гуревич П.С., Шульман О.И. Очерк «Ментальность, менталитет» / Энциклопедия

18. Кассирер Э. Мифологические мышление. Философия символических форм. Ф 2- томах. Т. 2. М.: СПб.: Университет. Книга, 2001, 280 с.

19. Крадин Н.Н. Империя Хунну. М.: Наука, 2002, 311 с.

20. Кулиев Г. Архетипичные азери: лики менталитета. Б.: Йени Несил, 2002, 246

21.Леви-Брюль Л. Сверхъестественное в первобытном мышлении. М.: Педагогика –Пресс, 1994, 604 с.

22.Леви-Стросс К. Структурная антропология. М.: Наука, 1985, 536 с.

23.Леви-Стросс К.Первобытное мышление. М.: Республика, 1994, 384 с.

24. Парсинев Б.Ф. Социальная психология и общественная практика. М.: 1966, 291 с.

25.Поздяев С.М. Российское общество в условиях модернизации (социанльно-философский анализ). Уфа: Издательство Башкирского Университета, 1998. 210 с.

26. Петренко О.А. Этнический менталитет и язык фольклора. Курск: Издательство Курского Государственного Педагогического Университета, 1996, 118 с.

27. Теория личности в западноевропейской и американской психологии: хрестаматия / ред. Д.Я.Райгородский. Самара: Бахрах-М. 1996, 480 с.

28.Шарипов Р.Г. Менталитет древних тюрков. Философско-мировоззренческий анализ / Диссертация на соискание ученой степени кандидата философских наук. Уфа, 1999, 142 с.

AZƏRBAYCAN MİLLİ MENTALİTET SİSTEMİ VƏ ARXAİK-MİFOLOJİ DÜŞÜNCƏ

Azərbaycan milli mentalitet sistemini onun mifoloji-epik qaynaqlarına enmədən, milli mentalitetin mifoloji arxeotiplərini öyrənmədən dolğun tədqiq etmək mümkün deyildir. Bu, ilk növbədə onunla bağlıdır ki, milli mentalitet dəyərləri etnik-mədəni ənənə sisteminə daxildir. Mifologiya isə etnik-mədəni ənənə sisteminin birbaşa əsasını təşkil edir. Mifoloq C.Bəydili yazır: “Öz adət-ənənələri, inam və etiqadları ilə ayrılıqda hər bir etnos bəlli üsluba və yalnız bu etnosda rast gəlinə bilən əlamətlərə görə seçilir ki, bunlar da həmin etnosun mədəni ənənəsinin – etnik-mədəni sistemin əsasında dayanır... “. (3, 12)

Müəllif daha sonra türk mifoloji düşüncə sisteminin öyrənilməsi təcrübəsini nəzərdə tutaraq göstərir ki, “mifoloji düşüncə etnik-mədəni həyatın bütün qatlarına təsir göstərir. Etnoqrafik gerçəkliklərin, dini-mənəvi dəyərlərin həqiqi elmi yozumu mifologiyadan qıraqda mümkün deyil. Etnik-mədəni ənənə isə onun folklor kimi arxaik mərhələdə ictimai və dini qurumlarla, inanışlar və mərasimlərlə sıx bağlılığı olan sinkretik təbiətli hər bir hadisənin kompleks şəklində araşdırılmasını tələb edir. Bununla yanaşı, dünya və yaradılış haqqında əski türk düşüncə sistemi də tam bərpa olunmadan ənənəvi türk mədəniyyətinin ayrılıqda götürülmüş hər hansı faktının simvolikasını açmaq mümkün deyildir. Bu baxımdan, mifologiyanın müstəsna yeri var. Mifoloji sistem özlüyündə

etnik-mədəni ənənənin özülünü, onun tarixi inkişafının başlıca meylini təşkil edir". (3, 19-20)

Alim milli mentalitet və mifologiyanın qarşılıqlı münasibətlər sistemində mifologiyanı əsas hərəkətverici ünsür hesab edərək yazır: "Milli mentalitetin mahiyyətini ifadə etməklə qalmayıb, həmçinin onu formalaşdıran da məhz milli mifologiya və əsasında dayanan dünya modelidir. Bu üzdən də hər hansı dünya modeli hər yerdə, hər zaman milliliyi ilə səciyyələnir. Kənar təsirlərə reaksiyası da, yabançı amillərin ona əsaslı təsir göstərə bilməməsi də büsbütün milliliyindən gəlir. Təsadüfi deyildir ki, dil və ənənəvi mədəniyyət hər zaman qarşılıqlı münasibətdədir. Ənənəvi mədəniyyətin öyrənilməsinin bir başlıca qaynağı bu mənada, şübhəsiz, dildir. O, mifoloji dünya modelinin milliliyini səciyyələndirən ən ilkin amildir. Milli duyğu və din düçüncəsi də enerji yüklü dil arasındakı bağlılığın qüvvətlilik dərəcəsini də bu amil müəyyənləşdirir" (3, 20-21)

C.Bəydili milli xarakterin formalaşmasında mentalitetin rolu haqqında sabit fikrin olmamasına baxmayaraq, mifologiya amilinin etnik-mədəni ənənədəki qüvvətli rolunu nəzərə almaqla mentalitetin milli xarakter üçün müəyyənləşdirici fikrini irəli sürür: "Milli mentalitetin formalaşdırdığı milli xarakterin təşəkkülü problemi ilə bağlı nə Qərb, nə də rus elmində sabit bir fikir yoxdur. Bəziləri milli xarakterin elitanın xarakteri ilə müəyyən olunduğu konsepsiyasını irəli sürür, digərləri isə "milli xarakter anlayışını ümumiyyətlə qeyri-elmi və əsası olmayan bir hipotezə sayırlar. Əlbəttə, hər hansı milli xarakter anlayışının özündə də ziddiyyətlər ola bilməsi mümkün haldır. Lakin gerçəklik budur ki, hər xalqın yalnız onun özünəməxsus milli obrazları var və həmin obrazların davranış streotiplərini də milli mentalitet müəyyən edir. Xalqın ruhu deyilən milli mentalitet isə məhz bu xalqın bütün üzvləri üçün eyni inam və etiqadlar toplusu ilə, mifologiya və onda ifadəsini tapan dünya modeli ilə müəyyən olunur". (3, 21)

Ümumiyyətlə, hər bir xalqın milli ictimai şüur formaları qədimlərə doğru getdikcə vahid başlanğıcda birləşir. Başqa sözlə, hər bir etnosun ilkin dünyagörüşü sonradan inkişaf edərək müxtəlif qollara, ictimai şüur formalarına parçalanmazdan əvvəl vahid (qovuşaq) olur. Buna elmdə sinkretizm deyilir. İbtidai düşüncə sinkretik xarakterli olur. Hər bir xalqın arxaik düşüncəsini mifologiya təşkil edir. Mifoloji şüurun bizə məxsus olan tarixi şüurdan əsas fərqi ondadır ki, bizim ictimai şüurumuz üçün xarakterik olan elm, din, fəlsəfə, incəsənət və s. formalar mifoloi şüurda sinkretik vəziyyətdə, yəni dini, fəlsəfi, elmi başlanğıcların rüşeym formalarının qovuşması durumunda olur. Prof. A.Şükürovun yazdığı kimi: "Miflər bəşəriyyətin mənəvi mədəniyyətinin ən qədim forması olub, özündə ilk bilik ünsürlərini, dini etiqadları, siyasi baxışları incəsənətin müxtəlif növlərini və fəlsəfəni birləşdirir. Yalnız sonralar bu ünsürlər müstəqil inkişaf edib, həyata vəsiqə almışlar. Deməli, mif şüurun vahid, bölünməz (sinkretik) universal formasıdır. O, yarandığı dövrün nəyi varsa, hamısını özündə əks etdirmişdir. Mifoloji şüurda müxtəlif xalqların poetika zənginliyi və müdrikliyi öz əksini tapmışdır". (8, 34)

Folklor və milli mentalitet də mifoloji dünyagörüşündə olduğu kimi biri-birindən ayrılmazdır. Folklor mifologiyadan sonrakı hadisədir. Folklor üçün xarakterik olan fantastik süjet və obrazlar mifologiyada qədim insanlar tərəfindən həqiqət şəklində qəbul olunan dünyagörüşüdür. Milli mentalitetin də, folklorun da ana qaynağı mifologiyadır. Mifologiya hər bir etnosun milli düşüncəsinin rüşeymi – başlanğıcıdır. Xalqların sonrakı dövrlərdə inkişaf etmiş milli mentalitet sistemləri öz başlanğıcını mifologiyadan götürür. Milli mentalitetin mifologiyadan qaynaqlanan başlanğıcını öyrənmədən mentalitet və folklor münasibətlərini obyektiv və düzgün şəkildə araşdırmaq mümkün deyildir. Çünki hər bir xalqın milli mentaliteti üçün xarakterik olan xüsusiyyətlərin başlandığı qaynaq birmənalı şəkildə mifologiyadır.

Azərbaycan folklorunda yaşayan milli mentalitet də öz spesifikası etibarilə Azərbaycan-türk mifologiyası ilə müəyyənləşmişdir. Milli mentalitet üçün

xarakterik olmaqla yanaşı, həm də folklorda bədiiləşən və onun vasitəsi ilə də nəsillərdən-nəsillərə ötürülən kateqoriyalar mifologiyada ortaq bir nöqtədə birləşir. Bu cəhətdən, mifologiya milli mentalitet və milli folklor vahidlərinin ortaqlaşdığı sahə olmaqdan daha çox, vahid, sinkretik başlanğıcdır.

Mifoloji dünya modelinə məxsus olan sinkretizm mifoloji düşüncənin xarakteri ilə bağlıdır. Görkəmli mifoloq alim Y.M.Meletinski özünün məşhur "Mifin poetikası" kitabının "Mifoloji təfəkkürün ümumi xassələri" hissəsində göstərir ki, "mifoloji təfəkkürün bir sıra xüsusiyyətləri ondan irəli gəlirdi ki, "ibtidai insan" özünü onu əhatə edən təbiət dünyasından aydın şəkildə ayrı bilmir, özünəməxsus olan xüsusiyyətləri təbiət obyektlərinə köçürür, həyat, insan ehtirasları, şüurlu, məqsədəyönlü təsərrüfat fəaliyyəti, insanaoxşar fiziki görkəmdə çıxış etmək, sosial təşkilata malik olmaq və s. kimi xüsusiyyətləri təbiət obyektlərinə aid edirdi ". (11, 164-165)

Y.M.Meletinski göstərir ki, "ibtidai insan şüurunun bu keyfiyyəti onun düşüncəsində "diffuziyalılıq" adlanan xassənin yaranmasına səbəb olmuşdur: "İbtidai təfəkkürün diffuziyalılığı (qovuşuqluğu – İ.A.) subyekt və obyektin, maddi və idealın (başqa sözlə, predmetin və işarənin, əşyanın və sözün, varlıq və onun adının), şeylər və onların atributlarının, təkin və cəmin, statik və dinamikin, məkan və zaman münasibətlərinin dəqiq şəkildə fərqləndirilməməsində ifadə olunur". (11, 165)

Mifoloji şüurun özünəməxsusluğu onu bizim malik olduğumuz tarixi şüurdan fərqləndirir. Heç təsadüfi deyildir ki, məşhur fransız alimi L.Levli-Brül buna əsaslanıb, mifoloji təfəkkürün məntiqini "məntiqəqədərki" (yəni tarixi şüur məntiqindən əvvəl olan – İ.A.) adlandırmışdır . (10, 491)

Mifoloji şüurda dünya və insan eyniləşdirilmişdir: onlar hər ikisi canlı və eyni xüsusiyyətlərə malik varlıqlar kimi təsəvvür edilmişdir. V.N.Toporov göstərir ki, mifopoetik dünyagörüşü makrokosm (dünya) və mikrokosm (insanın) eyniyyətinə söykənir. Bu prinsip təkcə bütövlükdə kosmik məkanı və

torpağı deyil, başqa səviyyələrin də (yaşayış yerləri, avadanlıqlar, paltarlar) modelləşdirilməsinin çoxlu nümunələrini müəyyənləşdirir. (13, 114, 14, 12,)

Prof. A.Şükürov yazır ki, mifdə forma məzmunla yenidir və ona görə də onun modelləşdirdiyi simvolik obraz da həmin prinsipə uyğun gəlir... Mifoloji təfəkkür subyekt və obyekt, predmet və işarə, şey və söz, mahiyyət və s. aydın olmayan ayrılmasında (fərqləndirilməsinə də) ifadə olunur. (6, 74)

Beləliklə, mifoloji şüur bizə məxsus olan tarixi şüur tipindən bir sıra əsas keyfiyyətlərinə görə fərqlənir. Bunlardan əsas olanı bu şüur tipinə xas diffuziyalılıqdır. Mifologiyada mentalitet və folklorun sinkretik olaraq birləşməsi də mifoloji şüurun diffuziyalılığı ilə bağlıdır. Çünki mifoloji dəyərlərlə müəyyənləşdirilən mentalitet xüsusiyyətləri və onun bədii söz vasitəsi ilə ifadəsini təşkil edən əsatirlər (miflər – mifoloji hekayələr) bir-birindən ayrılmazdır.

Mifoloji şüurda maddi ilə idealın, əşya ilə onun adının sinkretik bağlılığı folklorda qorunub qalmış mentalitet dəyərlərinin nəyə görə sakral (qutsal – müqəddəs) xarakter daşımasının üzərinə işıq salır. Mifoloji düşüncədə etnos üçün müqəddəs olan dəyərlər həm də mifoloji fantaziyanın məhsulu olan miflərin sakral obrazlarını təşkil edirdi. Məsələn, bu gün atalar sözlərinə hamının sayğı ilə yanaşması, onlardakı həqiqətlərə güvənilməsi mifoloji düşüncə ilə yaşamış oğuz-türk babalarımızın dünyagörüşündəki “ata” inancı ilə bağlı idi. Oğuz mifolojisində “Ata” qəbilə icmasının başçısı olmaqla yanaşı, ruhlar aləmi ilə əlaqə saxlayan şaman-kahin, əcdad ruhunun daşıyıcısı idi. O, özü müqəddəs olduğu üçün, sözü də müqəddəs tutulmuşdur. Yaxud Oğuz mifoloji-epik düşüncəsinin məhsulu olan oğuznamələr, həmçinin “Kitabi – Dədə Qorqud” oğuznamələri oğuz babalarımız üçün yalnız əylənmək, estetik zövq almaq naminə ozan dilində dinlədikləri dastanlar deyildi. Oğuzlar oğuznamələrə – oğuz folklorunun bu ilk dastanlarına onların ulu əcdadı Oğuz kağandan bəhs edən müqəddəs mətnlər kimi baxırdılar.

Beləliklə, folklorun müqəddəsliyi onda mifologiya ilə müəyyənləşən mentalitet dəyərlərinin sakrallığı ilə bağlıdır. İlkin oğuz türklərinin mentaliteti onların mifoloji dünyagörüşünün əsasını təşkil etmişdir. Mifoloji şüurda hər bir şeyin maddi görünən obrazı olduğu kimi, mentalitet üçün xarakterik olan dəyərlər də obrazlaşaraq miflərin məzmununa daxil olmuşdur. Miflərin folklora keçməsi ilə mentalitet dəyərlərimiz folklor dünyasına daxil olmuş və etnosun inkişafı ilə məzmun baxımından zənginləşməkdə davam etmişdir.

Azərbaycan milli mentalitetinin folklorda qorunub qalmış obrazlarının hamısı öz başlanğıcını qədim türk (oğuz) mifologiyasından götürür. Məsələn, bizim folklorumuzda, xüsusilə nağıl və dastanlarımızda, müdrik qoca obrazı vardır. Bu obrazlar Azərbaycan epik folklorunda müqəddəs biliklərin qoruyucusu, qəhrəman, öz məsləhəti (sehrli biliyi) ilə düşdüyü ağır vəziyyətdən çıxmaqda kömək edən xilaskarlardır. Onlar folklorumuzda müqəddəs dəyərlərin daşıyıcısı olan surətlərdir. Azərbaycan məhəbbət dastanlarında haqq aşiqləri belə müqəddəs qocaların sayəsində ölümdən qurtulub ilahi məhəbətlərinə qovuşa bilirlər.

Milli mentalitetimizdə böyüklərə hörmətin, ağsaqqallara sayğının folklordakı obrazları olan bu qocalar öz mənşəyi etibari ilə qədim türk mifologiyasına gedib çıxırlar. Bu obrazların strukturunda əcdad kultu dayanır. Prof. A.Şükürovun qeyd etdiyi kimi: “Qədim türklərin mühüm inanc sistemi atalar - əcdadlar kultu olmuşdur. Türklər atalarına dərin hörmət bəsləyir, onlar üçün böyük məzarlar yapar, heykəllər düzəldər, yazılı daşlar ucaldardılar”. (7, 43)

Milli mentalitetimizlə bağlı ağsaqqal, əcdad obrazı “Kitabi-Dədə Qorqud” oğuznamələrində özünə əsas yer tutmuşdur. Burada Dədə Qorqudun simasında qocaların müqəddəs hesab edilməsinin şahidi oluruq. Dədə Qorqud obrazının bir ağsaqqal kimi, eləcə də qadınların bir ana kimi müqəddəs sayılmalarının oğuz milli mentaliteti ilə bağlılığına toxunan Q.Əliyev göstərir ki, “Dədə Qorqud”, eləcə də orta əsrlərin digər dastanları ağsaqqallara dərin ehtiram, onların kəlamlarına yüksək ibrətamiz nümunə kimi yanaşmağı uca tutur. “Dədə

Qorqud”un müdrik dünyasını nüfuz etmək qədim oğuz türklərinin mentalitetində anaya müqəddəs varlıq, ümumiyyətlə, qadına hədsiz hörmətlə yanaşmağın, qadınlarda bakirəlik, ismət, namus kimi, yüksək əxlaqi normaların ülvi keyfiyyətlər kimi tərənnümününün şahidi oluruq. Eposda ana müqəddəsliyini uca tutan Qazan xanın oğlu Uruz atasının qeyrət yolunu seçir: o, anası Burla xatunun namusunun tapdalanmaması üçün canından keçməyə hazır olduğunu göstərir”. (5)

Valideynlərin məqamının uca tutulması, ata-anaya, qocalara dərin hörmət və sevginin bəslənilməsi azərbaycanlı mentalitetinin əsas keyfiyyətidir. Dinimiz olan islamda ata-anaya olan hörmətsizlik bağışlanılmaz günah hesab olunur. Ululara, atalara və analara hörmətin kökləri bizim mifoloji düşüncə ilə müəyyənləşən arxaik-əsatiri mentalitetimizə gedib çıxır. Məsələn, oğuz babalarımızda “Ana haqqı – Tanrı haqqı” hesab edilmişdir.

Ana obrazı milli mentalitetimizin əsas müqəddəs dəyərlərindən hesab edilir. Qədim oğuzlarda ananın haqqının Tanrının haqqına bərabər tutulması oğuz-türk babalarımızın islamdan əvvəlki tanrıçılıq dini ilə bağlıdır. Tanrıçılıq dinində əsas varlıq uca Tanrıdır. Prof. A.Şükürov yazır ki, “qədim türk mifologiyasının allahlar pentenonunda birinci – mərkəzi yeri Tenqri – Tanrı tutur. Tenqri, yaxud çox vaxt deyildiyi kimi, göy tanrı qədim türklərin “əsl dini gerçək inam bəslədikləri”dir. Bu, bütün qədim türklərin ana kultu idi. Qədim türklər üçün Günəş, Ay və Ulduzlar Tanrı deyil, sadəcə, çox əziz varlıqlar idilər. Tanrı isə kainata hakim olan bütün göy üzü idi. (7, 24)”

Mifoloji düşüncə məntiqindən çıxış etsək, oğuz inanclarında ana haqqının Tanrı haqqına bərabər tutulması, əslində, elə ananın Tanrıya bərabər tutulması deməkdir. Bu da, bir növ, ananın tanrı statusunda qəbul olunmasıdır. Türk mifologiyasının arxaik qatlarının öyrənilməsi göstərir ki, ana, doğrudan da, ilkin mifoloji qüvvə, yaradıcı başlanğıc, bir növ, tanrı statusunda qəbul edilmişdir. Mifoloq alim C.Bəydilinin (Məmmədovun) araşdırmaları göstərir ki, ana kultunun yaşı tanrıçılıq dinindən əvvələ gedib çıxır. Arxaik türk mifoloji

düşüncələrində müqəddəs Yer Ana obrazı vardır. Alim yazır ki, Yer Ana türk mifoloji dünya modelində yeri yaradıcı, həyat verici və qurucu başlanğıc kimi funksiyalarla səciyyələnən, bəzən isə Ulu Ana, İlahi Ana, Qarı Nənə kimi deyimlərdə şəxsləndirilən bolluq-bərəkət hamısı, torpaq yiyəsi olub, təbiət başlanğıcının özünü təmsil edən mifoloji kompleksdir. Alim daha sonra göstərir ki, bir neçə aspekti olan bu kompleks, adından da göründüyü kimi, əsasən, yerlə, torpaqla identifikasiya olunur (eyniləşir – İ.A.). Onun yaradıcı, qurucu funksiyası isə ondan irəli gəlir ki, yerə, torpağa əskilərdən bitib-tükənməz həyat qüvvəsi, ölümsüzlüyün ən ali ifadəsi gözüylə baxılmışdır. Qadın-ana başlanğıcı yerlə eynləşdirildi. C.Bəydili əlavə edərək yazır ki, Yer Ana kultu özünün bütün variasiyalarında qadın-ana başlanğıcını, həyatverici güc-qüdrət rəmzini qoruyub saxlayır. (2, 396-397)

Ümumiyyətlə, mifoloji düşüncə ilə yaşayan cəmiyyətlərdə mentalitetin əsasında duran müqəddəs dəyərlər kult səviyyəsində olur. Qədim türk mifologiyasında müxtəlif kultlar olmuşdur: əcdad, dağ, ağac, su və s. kultlar. Məsələn, su azərbaycanlıların çağdaş mentalitetində müqəddəs hesab olunur. Azərbaycanlı heç vaxt suyu murdarlamır və bunu günah sayır. Folklor yaddaşımızda suyun müqəddəsliyi ilə bağlı çoxlu atalar sözləri vardır. Bu mətnlərdə su paklığın, təmizliyin, mənəvi ucalığın rəmzi sayılır. Milli mentalitetimizin bu xüsusiyyətinin arxaik-mifoloji əsasları vardır. Mifologiyada su həyatın əsası hesab olunur. Buna görə də yaradıcı stixiya sayılır. Folklorda, xüsusən nağıllarda, su həyatverici qüvvə, "dirilik suyu" sayılır.

Azərbaycan mifoloji mətnlərindən birində deyilir ki, Allah insanları yaradandan sonra peyğəmbərin biri gedir, dirilik suyunu doldurur bardağa ki, gətirsin insanlara. Qayıdanbaş yolda yatır ki, dincini alsın, bardaq aşıb tökülür. İki qarğa bardağın suyundan içir. Ona görə də qarğalar 300 il yaşayırlar (1.48).

Göründüyü kimi, bu mifin mətnində suyun uzunömürlülük keyfiyyəti vardır. Lakin o, insanlara yox, qarğaya qismət olmuşdur. İlk baxışdan insana bədii uydurma təsiri bağışlayan bu mətndə qədim insanların həyati müşahidələri

öz əksini tapmışdır. Qarğa uzunömürlü quş hesab olunur. Mifə görə, bunun səbəbi qarğanın təsadüfən dirilik suyundan içməsidir. Mif əski insanların inamlar sistemidir. Suyun müqəddəs olması haqqında mifoloji inanc onun milli mentalitetimizdə paklığın, saflığın mənəvi və fiziki ölçüsü hesab olunması ilə nəticələnmişdir.

Azərbaycanlı mentalitetinin mifologiya ilə müəyyənləşən əsas dəyərlərindən biri də torpağın müqəddəs hesab olunmasıdır. Azərbaycanlılar torpağa sayğı ilə yanaşır: onu ruzi-bərəkət mənbəyi hesab etməklə, bir ana kimi sevirlər. Torpaq milli mentalitetimizdə su kimi mənəvi münasibətlərin sakrallıq (müqəddəslik) ölçüsü hesab olunur. Bizə belə gəlir ki, Azərbaycan folklorunda torpaqla bağlı çoxsaylı inanc nümunələri, o cümlədən, digər folklor mətnləri içərisində ən diqqətəlayiqi "ana torpaq" ifadəsidir.

"Ana torpaq" ifadəsi el-obaya, doğma yurda, vətənə, ölkəyə, dövlətə bağlılığın müqəddəslik məqamıdır. Ananın müqəddəs varlıq hesab olunduğu Azərbaycan mentalitetində torpağın ana hesab edilməsi milli mentalitet sistemimizdə təbiət obrazlarının necə bir ülvi məna daşıdığının da bariz nümunəsidir.

Torpağın "ana" epiteti ilə təyinləndirilməsi öz mifoloji əsaslarına malikdir. Yuxarıda qeyd olundu ki, mifologiyamızda torpaq Yer Ana kompleksi ilə əlaqədar olaraq ilkin inamlar sırasındadır. (bax: 2, 397) Torpaq mifoloji düşüncədə, doğrudan-doğruya, ana hesab edilmişdir. Bu barədə arxaik türk inancları sonradan islami mahiyyət kəsb etsə də, ilkin mifoloji məlumat öz mənasını folklor mətnlərimizdə qoruya bilmişdir.

Azərbaycan mifoloji mətnlərindən birində göstərilir ki, lap qabaqlar Allahdan başqa heç kim yox imiş. Yer üzü də başdan-ayağa su imiş. Allah bu suyu lil edir. Sonra bu lili qurudub torpaq edir. Sonradan torpaqdan bitkiləri cücərdir. Ondan sonra da torpaqdan palçıq qayırıb insanları yaradır, onlara ruh verir. (1, 35)

Bu mif mətninin məzmununa fikir versək, burada yaradılışla bağlı ilahi ünsürlərin su və torpaq olduğunu görərik. Əvvəlcə su olur, sonra Allah sudan torpaq, torpaqdan da insan yaradır. Demək, su və torpaq insanın əvvəlki halı, insan olmazdan qabaqkı vəziyyətidir. Yaradılışla bağlılıq suyu və torpağı müqəddəsləşdirmişdir. Yer və su əski türk mifolojisində birgə varlıq kimi düşünülmüşdür. Türk alimi A.İnan yazır ki, Yer-su kultu, Göytürk kitabələrində anlaşıldığına görə, VIII əsrdə Türk imperatorluğunda dövlətin rəsmi kultlarından biri olmuşdur. Bu kitabələrdə yer-su (b) eynilə bugünkü şamanlarda olduğu kimi, yan-yana qeyd edilmişdir. (9, 491)

Prof. M.Seyidov Yer-Su(b) obrazına həsr olunmuş məqaləsində bu obrazın türk mifoloji düşüncəsi üçün müqəddəs varlıq olduğunu göstərmişdi: "Gültəkinə, Mogilyana, Tonyukuka və başqalarına qoyulmuş abidələr belə bir ehtimal etməyə əsas verir ki, "yer su (b)" qədim türk xalqlarında müqəddəs sayılmışdır". (12, 63)

Maraqlıdır ki, M.Seyidovun bu tədqiqatı və onun gəldiyi nəticələr Yer-Sub obrazının milli mentalitetimizin mifoloji qaynaqlarının üzərinə də işıq saçır : "Türk xalqlarında su və yer qədimlərdən ilahiləşdirilmişdir. Bu ilahilərə "vətən" anlayışının meydana çıxdığı dövrdə pərəstiş edilmişdir. Türkdilli xalqlar bu ilahilərin birləşmiş obrazının (Yer və Su obrazlarının – İ.A.) simasında özlərinin əsas hamisini və qoruyucusunu görmüşlər. Biz belə hesab edirik ki, "yer-sub" – həm vətən-torpaq, həm də onun mifoloji təcəssümüdür". (12, 69)

Göründüyü kimi, Yer-Su mifoloji obrazı türk mifologiyasında təkcə yer və su kosmoqonik başlanğıclarının mifolojiləşdirilmiş obrazı olaraq qalmamış, etnik-mifoloji özünüdərkin inkişafı ilə mentalitet dəyərlərinin sırasına daxil olmuşdur. F.e.d. M.Cəfərli yazır ki, dövlətçilik və dövlətdə ədalət anlayışları ilə bağlı folklor nümunələrindəki faktlar birbaşa milli şüurun formalaşmasına xidmət edir. Bu, dünən də belə olmuş, bu gün də belədir və gələcəkdə də belə olacaqdır. Araşdırmalar göstərir ki, folklor nümunələrində inikas olunan milli şüur problemi xalq düşüncəsinin ən ümdə problemlərindən biridir. Xalq uzun əsrlər

boyu yaratdığı hər hansı bir folklor mətnində öz kimliyini ifadə etmək arzusunda olmuş və bu arzunu reallaşdıra bilmişdir. (4, 269) Bu fikrin məntiqindən çıxış edildiyində görürük ki, Yer-Su obrazının vətən, yer-yurd ilə bağlı olması əski türk insanının öz etnik kimliyini yurduna olan məhəbbətinin, bağlılığının nümunəsində inikas etmək istəyi ilə də əlaqədar olmuşdur.

Beləliklə yazıda aparılmış araşdırma göstərir ki, milli mentalitet sistemi arxaik mifoloji düşüncə ilə sıx bağlıdır. Mentalitet dəyərlərinin başlıca atributu onların ilkinliyində ifadə olunur. Bu da öz növbəsində Azərbaycan mentalitet dəyərlərinin mifoloji şüur üçün də aktual olduğunu göstərməklə onun araşdırılması istiqamətlərindən birini də müəyyənləşdirir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan mifoloji mətnləri. Tərtibatçı A.Acalov. B.: Elm, 1988, 195 s.
2. Bəydili C. Türk mifoloji sözlüyü. B.: Elm, 2003, 418 s.
3. Bəydili C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. B.: Mütərcim.2007, 271 s.
4. Cəfərli M. Folklorun milli düşüncənin inkişafına təsir imkanları // “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” II Uluslararası Folklor Konfransının materialları. B.: Səda, 2004
5. Əliyev Q. Mentalitet: milli ləyaqət ölçüsündə // “Azərbaycan”qəzeti, 6 aprel, 2001.
6. Şükürov A. Mifologiya. 1-ci kitab. Nəzəri-fəlsəfi təhlil. B.: Elm, 1995, 188 s.
7. Şükürov A. Mifologiya. 6-ci kitab. Qədim türk mifologiyası. B.: Elm, 1995, 232 s.
8. Şükürov A. Fəlsəfə. B.: Adiloğlu, 2002, 490 s.
9. İnan A. Türklərdə su kültü ile ilgili gelenekler // Makaleler ve İncelemeler. 3 Baskı, II cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1998, s. 491-495.

10. Леви-Брюль Л. Сверхъестественное в первобытном мышлении. М.: Педагогика –Пресс, 1994, 604 с.

11. Е.М.Мелетинский. Поэтика мифа. М., “Восточная литература” РАН, 2000, 407 с.

12. Сейидов М. К вопросу о трактовке Йер-Суб в древнетюркских памятниках // Жур. “Советская тюркология”, 1973, № 3, с. 63-69

13. Топоров В.Н. О космологических источниках раннеисторических описаний // Труды по знаковым системам. Выпуск — 6, Тарту, 1973, с. 111-139

14. Топоров В.Н. О ритуале. Введение в проблематику // Архаический ритуал в фольклорных и раннелитературных памятниках. М.: Наука, 1988, с. 3-31

AZƏRBAYCAN MİLLİ MENTALİTETİNİN EPİK-MİFOLOJİ QAYNAQLARI

Ümumiyyətlə, ilkin milli mentalitetin əsaslarını etnosun müqəddəs dəyərləri təşkil edir. Yaradılışla bağlı olan hər bir ünsür milli mentalitetdə müqəddəs dəyərlər sisteminə daxil olur. Milli mentalitetin mifologiya ilə müəyyənləşən dəyərləri mifoloji düşüncə epoxası başa çatandan sonra folklora daxil olur. İnsan şüurunun ümumi inkişaf tarixindən məlumdur ki, ibtidai insanların dünyagörüşünü təşkil edən mifologiya sonrakı dövrlərdə dinə, fəlsəfəyə, elmə, incəsənətə və s. parçalandı. Mifoloji fantaziyanın məhsulu olan əsatirlər folklor əfsanə və rəvayətlərinin, ilkin eposların məzmununu təşkil etdi. Milli mentalitetin mifologiya ilə müəyyənləşən müqəddəs dəyərləri, beləliklə, folklora daxil olub, onda yaşamağa başladı.

Hər bir xalqın milli mentalitet dəyərləri tarixi kateqoriya olub, tarixi inkişaf nəticəsində məzmun baxımından zənginləşmişdir. Azərbaycan folkloru növ, janr, məzmun və forma baxımından inkişaf etdikcə milli mentalitetin

mifoloji arxetipləri yeni məzmun və forma kəsb etməyə başlamışdır. Lakin mentalitet dəyərlərinin miflə bağlılığı genetik əsas kimi özünü qorumaqda davam etmişdir. Mifologiya xalqımızın milli düşüncəsinin genetik əsasıdır. Etnos bir orqanizmə bənzəyir. Öz gen sistemindən məhrum olan orqanizm yaşaya bilmədiyi kimi, xalq da mifoloji genetikasız mövcud ola bilməz. Bizim öz mifoloji dəyərlərimizi nə dərəcədə anlayıb-anlamamağımızdan asılı olmayaraq, milli şüurumuzun alt qatında – bünövrəsində mifoloji genetika durur.

Azərbaycan milli mentaliteti bir sistem olaraq, xalqımızın epos düşüncəsində qorunub qalmışdır. Mentalitet mifoloji düşüncə çağında mifologiya ilə qaynaqlaşdığı kimi, folklorda da, əsasən, eposla qaynaqlaşır (qovuşur). Bu, epos anlayışının özünəməxsus xüsusiyyətləri ilə bağlıdır.

Epos milli düşüncənin epik sistemidir. Prof. N.Cəfərov eposu "müxtəlif süjetlər, motivlər verən, mənsub olduğu xalqın ictimai-estetik təfəkkürünü bütövlükdə ifadə edən möhtəşəm dastan – potensiyası" kimi səciyyələndirmişdir. (2, 12) Elmdə "epos" termini çox vaxt dastan sözü ilə eyniləşdirilir. Halbuki bu ssöz təkcə dastanları yox, eləcə də epik janra daxil olan bütün mətnləri öz içərisinə alan epik düşüncə sistemi mənasındadır.

Görkəmli folklorşünas H.İsmayılov epos-dastan münasibətləri haqqında yazır: "Dastanın eposla identik (eyni – S.R.) vahid olmadığı aydındır. Eyni zamanda dastan epik sistemdə avtonom hüquqlara malikdir. Əslində, dastanın mətn avtonomiyası vardır. Xalq yaradıcılığı örnəklərinin digər elementləri onun strukturunda yalnız kanonik qəliblərə dola və ya hansısa vahidi əvəzləyə bilir. Amma dastanın strukturu dəyişmir; çünki o, sabit informasiya daşıyıcısı kimi bir işarə bütövüdür və mətn strukturunun sabitliyi həm də bununla bağlıdır". (6, 9)

Milli mentalitetin xalqın epos düşüncəsində yaşayan kateqoriyaları eposun ən böyük janrı olan dastanlarda qorunub qalır. Bu dastanın epik düşüncə ilə özünəməxsus bağlılığından, epos düşüncəsini əks etdirmək baxımından ən iri imkanlara malik olmasından irəli gəlmişdir. H.İsmayılov dastan janrı haqqında

yazır: “Dastan” adı altında dayanan ədəbi hadisə faktı əski epik ənənənin etnik-işarəvi və modelləşdirici sistemini saxlamaqda bu terminlə anlaşılan ədəbi forma və məzmuna – differensial mətn tipinə transformasiya olunmuşdur. (6, 3)

H.İsmayılovun dastana verdiyi bu tərif kifayət qədər mürəkkəb məzmuna malik olmaqla, bir tərəfdən dastan-epos münasibətlərinin spesifikasını aydınlaşdırır, digər tərəfdən isə milli mentalitet elementlərinin dastan mətnlərində niyə sistem halında qorunub qalmasını da aydınlaşdırır.

Alimin “dastan” janrına verdiyi tərif tədqiqatçıların diqqətini cəlb etmiş və ona izahlar verilmişdir. S.Rzasoy H.İsmayılovun tərifini semantik məna hissələrinə ayıraraq, belə təhlil etmişdir: “Struktur yanaşmanın tipik nümunəsi olan bu tərifdə dastan termini daşıdığı anlamın informativ strukturunun sistemi səviyyəsində təsvir-izah olunmuşdur. Tərifin buradakı təhlili onun semanatik qatlarını ortaya qoymaqla dastana H.İsmayılov yanaşmasının keyfiyyətini aşkarlamış olar. Tərifdən bəlli olur ki:

a) Dastan ilk növbədə bir hadisə faktıdır. (estetik kontekstdə);
b) Epik ənənənin faktıdır (düşüncənin epos konteksti);
c) Arxaik epik ənənənin aktual (semantik) üzvlənmiş faktıdır; (epik informasiyanın funksionallaşma-fasiləsizlik konteksti);
d) Etnosun epik özünüifadə faktıdır (etnopsixoloji kontekst);
e) Etnik düşüncənin total strukturunun işarəvi və modelləşdirici xassələrini epik kodla proyeksiyalandırma faktıdır (semiotik kontekst);
f) Total türk eposunun differensial transformasiya faktıdır” (aktual üzvlənmənin janr konteksti)” (11, 110-111).

“Dastan” haqqında H.İsmayılovun verdiyi tərifin təhlilindən aydın olur ki, dastan özündə milli epik düşüncənin müxtəlif kontekstlərini – “düşüncənin epos kontekstini”, “epik informasiyanın funksionallaşma-fasiləsizlik kontekstini”, “etnopsixoloji konteksti”, “semiotik konteksti”, “aktual üzvlənmənin janr kontekstini” sintezləşdirir. Bu kontekstlərin hamısı milli

mentalitetlə bu və digər şəkildə bağlıdır. Belə ki, etnik-milli mentalitet "düşüncənin epos kontekstində" bir sistem halında mövcud olur. Arxaik çağda milli mentalitetin əsasında duran dəyərlər mifologiya ilə müəyyənləşdiyi kimi, milli mentalitet epos düşüncəsi çağında bir sistem olaraq epikləşir: epik növün janrlarının əxlaqi-mənəvi dəyərlərinin əsasını təşkil edir. Dastanın "epik informasiyanın funksionallaşma-fasiləsizlik kontekstini" təşkil etməsi, etnik-milli mentalitet dəyərlərinin hər cür inkişafı, təkamülü və tranfsormativ çevrilmələrini nəzərdə tutur. "Etnopsixoloji kontekst" milli mentalitet dəyərlərinin etnik psixologiyanın əsas vahidləri kimi dastan düşüncəsinin də əsasında durduğunu göstərir. Dastanın "semiotik konteksti" mentalitet dəyərlərinin folklor düşüncəsinin poetikasına uyğun olaraq işarəvi mahiyyət kəsb etdiyini göstərir. O cümlədən dastanın, "aktual üzvlənmənin janr konteksti milli mentalitet dəyərlərinin bu janrda daha dolğun, geniş şəkildə ifadə olunduğunu vurğulayır.

Beləliklə, dastan epik informasiyadır və mifologiyadan eposa transformasiya olunan milli mentalitet dəyərləri eposun bu qlobal janrının məzmun elementlərini və epik-əxlaqi (mənəvi) dəyərlər sistemini təşkil edir. Bundan irəli gəlməklə qədim dövr epos mədəniyyətimizi tədqiq etməklə milli mentalitetimizin ilkin dəyərlər sistemi haqqında zəngin məlumatlar əldə etmək mümkündür.

Azərbaycan milli mentalitetinin mifoloji-epik qaynaqları içərisində ən mühün yeri qədim dövr və orta əsrlər qəhrəmanlıq dastanlarımız tutur. Bunlar ilk növbədə azərbaycanlıların ulu babaları olan oğuz türklərinin əfsanəvi ulu əcdadı Oğuz Kağan haqqında olan "Oğuznamə"lər, daha sonra "Kitabi-Dədə Qorqud" oğuznamələri, o cümlədən "Koroğlu" eposudur. Milli mentalitetimizin yurd, dövlət, torpaq, xalq, ulus, namus, qeyrət, mərdlik, qəhrəmanlıq və s. ilə bağlı bütün dəyərləri bu eposlarda özünün parlaq ifadəsini tapmışdır.

Mentalitet dəyərlərimizin arxaik epos olan oğuznamə janrında öz mifoloji-epik anlamlarını qoruyaraq qalması bu janrın milli düşüncə sistemi ilə

qüvvətli şəkildə bağlı olması ilə əlaqədardır. “Oğuznamə” sözü hərfi mənada “Oğuzun kitabı” deməkdir. Buruda “Oğuz” adı həm xalqın, həm də onun ulu, əfsanəvi əcdadının – “Oğuz Kağanın” adını bildirir.

Tədqiqatçıların oğuznamə janrı ilə bağlı yazdıqlarından aydın olur ki, bu janrda Azərbaycan-oğuz milli mentalitetinin ən səciyyəvi xüsusiyyətlərinin əks olunması oğuznamənin Azərbaycan-oğuz etnosunun ən uca, ülvi kitabı, oğuzlara aid “ensiklopedik bilklər məcmuəsi” olması ilə əlaqədardır. Məsələn, prof. K.V.Nərimanoğlu və tədqiqatçı F.Uğurlu “Oğuznamə” haqqında yazırlar:

“Oğuznamə – türk xalqının həyatını, mübarizəsini, mənəviyyatını əks etdirən ədəbi-tarixi qaynaqdır.

Oğuznamə – oğuz eposudur.

Oğuznamə – oğuz tarixidir.

Oğuznamə – oğuz mədəniyyətinin nəsildən-nəslə keçə-keçə yaşayan həyat kitabıdır”. (10, 3)

Bu halda “Oğuznamə” istər “ədəbi-tarixi qaynaq”, istər “epos” (müəlliflər “epos” dedikdə dastanı nəzərdə tuturlar – İ.A.), istər “tarix”, istərsə də oğuzların “həyat kitabı” kimi bütün hallarda Azərbaycan-oğuz xalqının etnik mentalitet dəyərlərinin qorunduğu xəzinədir.

“Oğuznamə” janrı birbaşa mifoloji-epik qaynaqlarla bağlıdır. F.e.n. A.Xəlilin tədqiqatlarına görə, “Oğuznamə” dastan ənənəsi kimi öz başlanğıcını tanrıçılıq mifoloji-dini ənənəsini əks etdirən “Bitik” abidəsindən götürmüş, daha sonra isə “namə” və “kitab” janrlarına transformasiya olunmuşdur:

“1. **Bitik.** Türk Tanrıçılığı dövrünə aid qədim türk kitabı**.** M.F.Köprülü mənbələrə istinad edərək “Ulu xan Ata Bitikçi”dən bəhs etmişdir. Birincisi, ehtimal etmək olar ki, “bitik” Tanrıcılığın müqəddəs kitabı idi. Ulu xan, yaxud Qorqud həmin dinin peyğəmbəri idi. İkincisi, “bitik” Şaman magik mətnlərindən ibarət idi. “Irk bitik” elə bu profilə uyğundur. Üçüncüsü, “bitik” folklor mətnlərindən, ilk növbədə, atalar sözü, məsəl, pişrov, kəlam, alqış, qarğış, and

və başqa paremioloji vahidlərdən təşkil olunmuşdu. Oğuz "bitiy"i bizə gəlib çatmamışdır. Ancaq buna baxmayaraq onun haqqında səhih məlumat vardır.

2. **Namə.** Orta əsrlər türk kitabı. Oğuz variantı – Oğuznamədir. Bizə Rəşidəddindən ("Cəmi ət-təvarix") tutmuş Əbülqazi xan Xivəliyə ("Şəcəreyi-tərakimə" və "Şəcəreyi-türk") qədər çoxsaylı "oğuznamə"lər məlumdur. Bu kitablarda oğuz eposunun tərkib hissələri, müxtəlif janrları qorunur.

3. **Kitab**. İslam epoxasının türk kitabı. Ərəb-İslam mənşəlidir". (5, 228)

Göründüyü kimi, oğuzların milli mentalitet dəyərləri "Oğuznamə"də özünün bədii inikasını tapır ki, bu da həmin janrın simasında folklor milli mentalitet münasibətlərinin nə qədər aktual bir problem olduğunu göstərir.

Mifoloq C.Bəydili yazır ki, Oğuz xan türk etnik-mədəni ənənəsində ilkin əcdad, mədəni qəhrəman cizgiləri aydın seçilən mifoloji varlıqdır. Mədəni ənənə onu dövlətin, hərbi quruluşun yaradıcısı kimi təqdi edir. (1, 285)

Beləliklə, azərbaycanlı mentalitetinin əsas taprixi qaynağını təşkil edən oğuz etnik mentalitet sistemində bütün dəyərlər əfsanəvi Oğuz Kağana istinad olunur. Milli mentalitet sistemi milli düşüncənin ilkin, saf, ülvi dəyərlər sistemini əhatə edir. Azərbaycan-oğuz xalqının bu ilkin dəyərlər sistemi Oğuz Kağanla bağlıdır. O, birinci növbədə ilk insandır. "Oğuznamə"nin uyğur versiyasında deyilir:

...Günlərdə bir gün Ay kağanın gözü parladı,
Erkək oğul doğdu. Uşağın üzü göy idi,
Ağzı alqırmızı, gözləri al,
saçları, qaşları qara idi... (10, 10)

Oğuz ilk insan olduğu üçün müqəddəsdir və onun ilk insan olaraq etdiyi bütün əməllər də müqəddəsdir və bu mənada oğuz xalqının mentaliteti üçün əsasdır. Oğuzun mentalitet dəyərlərinin əsasında durması onun ilk insan olmaqla

bərabər, həm də ilk əcdad olması ilə bağlıdır. Bütün oğuzlar onun göy və yer qızlarından olan altı oğlundan törəmişdir.

Oğuz Kağan bir yerdə Tanrıya tapınırdı.
Qaranlıq çökdü. Göydən bir işıqlı şüa düşdü.
Günəşdən işıqlı, Aydan parlaq idi.
Oğuz Kağan (ona sarı) getdi, gördü ki,
Bu şüanın içində bir bir qız var.
Yalqız oturmuşdu. Gözəl bir qız idi,
Onun alnında atəşli, parlaq xal vardı.
Dan ulduzuna bənzəyirdi.
Qız o qədər gözəl idi ki,
Gülsə, Göy Tanrı gülürdü,
Ağlasa, Göy Tanrı ağlayırdı.
Oğuz Kağan onu gördükdə özündən getdi,
Sevdi, aldı, onunla yatdı, həzz aldı.
Qız (hamilə) oldu. Günlərdən sonra, gecələrdən sonra
Yükünü yerə qoydu, üç erkək oğul doğdu.
Birincisinə Gün adı qoydular,
İkincisinə Ay adı qoydular,
Üçüncüsünə Ulduz adı qoydular. (10, 13-14)

Oğuz Kağan bir gün yenə ova gedir. Bir gölün ortasında bir ağac görür. Ağacın koğuşunda çox gözəl bir qız var idi. Oğuz onunla evlənir:

Oğuz Kağan onu gördükdə özündən getdi,
Ürəyinə atəş düşdü, onu sevdi.
Onunla yatdı, həzz aldı. Qız hamilə oldu.
Günlərdən sonra, gecələrdən sonra

Yükünü yerə qoydu, üç erkək oğul doğdu.
Birincisinə Göy adı qoydular,
İkincisinə Dağ adı qoydular,
Üçüncüsünə Dəniz adı qoydular. (10, 15)

Burada oğuz etnik mentalitet dəyərləri ilə bağlı ciddi məqamlar vardır. Azərbaycanlı mentalitetində ailə müqəddəs sayılır. Bu, tarixən həmişə belə olmuşdur, bu gün də belədir. "Oğuznamə" dastanında biz ilk insan olan Oğuzun evlənməsi və altı oğlunun olmasının simasında, əslində, müqəddəs ailənin yaranmasının şahidi oluruq. Oğuz ilk insan, ilk əcdaddır. Onun yaratdığı ailə də oğuzların ilk ailəsi olaraq müqəddəsdir. Demək, Azərbaycan-oğuz xalqında ailənin müqəddəsliyi mifoloji-epik dəyərlərlə müəyyənləşmişdir. Lakin burada oğuzların təkcə ailə ilə bağlı mentalitet dəyərlərinin yox, digər mentalitet dəyər və xüsusiyyətlərinin də formalaşmasının şahidi oluruq.

Diqqət etdiyimizdə görürük ki, Oğuzun evləndiyi qadınlardan biri (göydən işıq şüası ilə enən qız) göyü, ikincisi (gölün ortasındakı ağacın koğuşunda oturmuş qız) yeri təmsil edir. Bu halda birinci qız epik-mifoloji obraz kimi göy aləmini, Günəşi təmsil edir. İkinci qız isə gölün simasında su stixiyasını, koğuşunda oturduğu ağacın simasında bitki (ağac – dünya ağacı) kosmoqonik ünsürünü təmsil edir. Bütün bunlar Oğuzun ailəsində bir araya gəlməklə vahid sistem yaradır. Mifologiyada kosmoqonik ünsürlərin birləşməsi, sintezi evlənmə (kosmoqonik izdivac) şəklində baş verirdi. Oğuzun bu qadınlarla evlənməsi ilə təbiət ünsürlərinin bir araya gəlməsi oğuz mentalitetində təbiətə – dünyaya sakral (müqəddəs) münasibət bəslənməsinin təzahürüdür. Milli mentalitetimizdə su, ağac, dağ və s. bu gün də müəyyən hallarda sakral inanc yerləri, ocaqlar, ziyarətgahlar, tapınaq obyektləridir. Bunun mifoloji kökləri var. Qədim oğuz insanı təbiət ünsürlərini ulu əcdadı Oğuzun ailəsinə daxil etməklə, o cümlədən Gün, Ay, Ulduz, Göy, Dağ, Dənizi onun oğlanlarına çevirməklə eyni zamanda bu təbiət ünsürlərini öz etnik

mentalitetinin müqəddəs dəyərləri sırasına daxil etmişdir. Başqa sözlə, oğuz babalarımız təbiətə canlı bir ailə kimi baxmış və ailənin müqəddəsliyini bütövlükdə təbiətə və ayrı-ayrılıqda onun müxtəlif ünsürlərinə aid etmişlər.

Milli mentalitetimizdə adın çox böyük dəyəri vardır. "İgid ölər, adı qalar", "İgidin adı çıxınca, canı çıxsa yaxşıdır" kimi atalar sözlərinin məna yükü adın ənənəvi Azərbaycan cəmiyyətində necə böyük rola malik olduğunun göstəricisdir. Belə ki, ad birbaşa mənəvi-əxlaqi dəyərlərlə bağlı olmuş, insanın adı onun cəmiyyətdəki rolu və nüfuzunu ifadə etmişdir.

Azərbaycanlı mentalitetində adın sakral dəyərə malik olması da arxaik mifoloji düşüncə ilə müəyyənləşir. Mifoloq C.Bəydili yazır ki, "mifoloji görüşlərə əsasən, bir kimsənin və ya nəsnənin adının olması onun mövcudluğunun başlıca nişanıydı. Adı əşya və şəxs ilə eyniyyətdə götürən mifoloji düşüncədən ötrü adın məhv edilməsi ad daşıyıcısının özünün də məhvinə gətirirdi. Qədim inanclara görə, bir nəsnənin var ola bilməsi, yaranması üçün ona ad vermək gərəkdi". (1, 13)

Göründüyü kimi, mifoloji şüur çağında ad insan varlığının mahiyyətini təşkil edir. Bu baxımdan, onun etnik-mental dəyərlər sisteminə birbaşa dəxli vardır. Çünki hər bir mental dəyərin adı vardır. Adı olmayan, yəni özünü varlıq olaraq təsdiq etməyən mentalitet sisteminə daxil ola bilməzdi. Bu cəhətdən ad-adlandırma mentalitet sisteminin formalaşma, mövcudluq vasitəsidir. Etnik mentalitet adlar vasitəsi ilə formalaşır, sistemə çevrilir və bir sistem olaraq özünü təsdiq edirdi.

Əlamətdardır ki, ulu babalarımız olan oğuzların mifologiya ilə müəyyənləşən mentalitet dəyərləri əfsanəvi Oğuz Kağanla bağlı olduğu kimi, ad-advermə də birbaşa Oğuz Kağanın funksiyasıdır. Başqa sözlə, mənəvi və fiziki oğuz dünyasının qurucusu Oğuz Kağan olduğu kimi, mənəvi sistem olan mentalitet dəyərlərinin də adlar vasitəsi ilə yaradılması və təsbiti də Oğuz Kağanın funksiyasına daxildir.

Məsələn, Əbülqazi Bahadır xanın “Şəcəreyi-tərakimə” əsərində deyilir ki, Oğuz xan dünyanı fəth edib yurduna qayıdır və “ulu toy” mərasimi düzənləyir:

“[Oğuz xan]: “Mən öz uşaqlarım və xalqımla sağ-salamat [öz yurduma] gəldim”, – dedi və böyük toy üçün lazımi hazırlıq görməsini buyurdu, bir də bütün ağac hissələri qızılla örtülmüş və yaqut, ləl, zümrüd, firuzə və mirvari ilə bəzədilmiş böyük alaçıq (x a r g a h) qurulmasını əmr etdi. Həmin alaçığın (öy) tərifi üçün bu şeir qoşulmuşdu:

Bir ev tikdi qızıldan o hökmdar

Ki, o ev göy qübbəsinin qabağını kəsdi.

[Oğuz xan] on min qoyun və doqquz yüz at kəsilməsini tapşırdı. **Yıftdan** doxsan doqquz **hovuz** düzəldilməsini əmr etdi, tapşırdı ki, onlardan doqquzunu **araka** ilə, doxsanını **qımızla** doldursunlar.

Bütün nökərlərini çağırdı. Özünün altı oğlanlarına çoxlu xeyirli məsləhətlər verdi, bəylərə isə nəsihət verib, ölkələr (y u r t), şəhərlər, həm də hədiyyələr bağışladı...

... Sonra o, döyüşlərdə, yürüşlərdə və işlərdəki xidmətlərinə görə bütün nökərlərinə şəhərlər, sərhədlər, kəndlər və hədiyyələr verdi. Öz oğlanlarına isə dedi: “Siz üç böyüklər qızıl yayı tapıb gətirdiniz və sındıraraq öz aranızda payladınız, B u z u k adlanacaqsınız. Sizdən olacaq törəmələr də qoy qiyamətə qədər buzuk adlansınlar. Üç oxu gətirən üç kiçik oğlanlar və onlardan törəyənlər bu gündən dünyanın sonuna qədər qoy U ç u k adlansınlar. Sizin tapıb gətirdiyiniz yay və oxlar insanlardan deyil, Tanrıdan idilər. Bizdən öncə yaşayan adamlar yayı – hökmdar, oxları isə – elçi sandılar. Ona görə ki, yay oxu hara tuşlasa, ox ora uçar.

İndi mən öləndən sonra qoy mənim taxt-tacımda Gün xan otursun. Ondan sonra xalq qoy buzukların törəmələrindən [ən çox] qabiliyyəti olanı hökmdar etsin; qoy dünyanın sonuna qədər buzuklardan ən yaxşıları hökmdar olsunlar. Onlardan başqaları qoy sağda otursunlar, uçuklar isə – solda. Qoy onlar evin sol

tərəfinə otursunlar və qoy dünyanın sonuna qədər nökər vəziyyətləri ilə kifayətlənsinlər».

[Oğuz xan] yüz on altı il padşahlıq etdi və [sonra] Tanrı dərgahına getdi”. (3, 64-65)

Bu parçanın təhlili zamanı görürük ki, ulu babalarımız oğuzların milli mentalitetində mifoloji Oğuz Kağan obrazının müstəsna yeri vardır. O, oğuz dünyasının qurucusudur. Oğuzlar üçün sakral olan dövlətçilik strukturunu da Oğuz Kağan müəyyənləşdirmişdir. 24 oğuz tayfasını 12-12 olmaqla iki yerə ayırmış və bunlardan birini Boz oq, o birini Uc oq adlandırmışdır. Bozoq-Ucoq birliyində siyasi sabitlik Oğuz kağanın müəyyənləşdirdiyi idarəetmə modeli ilə təmin olunur. O, bozoqları yaya bənzədib onlara siyasi üstünlük verir. Ucoqlar isə oxlar yaydan asılı olduğu kimi, bozoqlara siyasi baxımdan tabe olurlar. Beləliklə, Oğuz Kağan oğuz milli mentalitetinin siyasi-inzibati dəyərlərini adlandırma ilə vasitəsi ilə müəyyənləşdirmişdir.

«Kitabi-Dədə Qorqud»da Oğuz kağanın bu sakral funksiyasını Dədə Qorqud obrazında görürük. Oğuz Kağan ilkin əcdad, ata, kosmoqonik başlanğıc kimi oğuz mentalitet düşüncəsi üçün müqqəddəs simadır. Onun müqəddəsliyi milli mentalitetin ilkin mifoloji dəyərlərinin müqəddəs tutulmasını müəyyənləşdirir. Çünki oğuzlarda bütün ilkin dəyərlər müqəddəs Oğuz Kağan tərəfindən yaradılmışdır.

Dədə Qorqud da Oğuz kimi müqəddəsdir: “Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından Qorqut ata diyərlər bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, – nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həqq təala anun könlünə ilham edərdi”. (8, 31)

Bizim fikrimizcə, Azərbaycanlı mentalitetinin bütün semantik nüvəsi, o cümlədən ulu babalarımız oğuzların etnik-mental düşüncə sistemlərinin bütün strukturu abidədən nümunə verilmiş bu cümlədə rəmzləşmişdir. Dədə Qorqud obrazı, onun tarixi, əfsanəvi, bədii-poetik, mifoloji-dini və s. cizgiləri haqqında çox yazılmışdır. Qənaətimizcə, Dədə Qorqud həm də Azərbaycan-oğuz

mentalitet dəyərlərinin simvoludur. Bu obrazda Oğuz etnosunun milli xarakteri öz əksini tapmışdır. Onu obrazlı şəkildə oğuz mentalitetinin əbədi heykəli adlandırmaq olar.

Abidə Dədə Qorqud obrazı haqqında yuxarıdakı cümlə ilə başlayır. Həmin cümlənin təhlili xalqımızın mentalitetinin mifoloji-epik xüsusiyyətlərinin üzərinə işıq saçır. Belə ki, təhlildən aşağıdakılar məlum olur:

1. Dədə Qorqud Məhəmməd peyğəmbərin (s.) zamanına yaxın anadan olmuşdur. Bu, o deməkdir ki, oğuzlar üçün müqəddəs sima olan Dədə Qorqud onlar islamı qəbul etdikdən sonra da müqəddəs sayılmışdır. Oğuzlar onu sonuncu peyğəmbər (s.) qədər əziz tutmuşlar. Oğuzların bütün müqəddəs dəyərlərinin, o cümlədən etnik-mental dəyərlərinin Dədə Qorqudla bağlı olduğunu nəzərə alsaq, onun müqəddəsliyinin islam peyğəmbəri (s.) ilə əlaqələndirilməsi oğuzların öz etnik-mental dəyərlərinə islamı qəbul etdikdən sonra da sadiq qalmalarının ifadəsidir.

2. Dədə Qorqudun oğuzun bilicisi sayılması onun birbaşa oğuz etnik-mental dəyərlər ststeminin qoruyucusu, yaşadıcısı və ötürücüsü olması deməkdir. Demək, oğuz cəmiyyətində etnik-mədəni sistemi şərtləndirən bütün müqəddəs bilgilər Dədə Qorqudla bağlıdır. Bu halda o, həmin biliklərin daşıyıcısı kimi, oğuz etnik-mental dəyərlər sisteminin simvollaşmış obrazı kimi də çıxış edir.

3. Uca Allahın Dədə Qorqudun könlünə ilham verməsi, onun qeybdən, yəni ilahi aləmdən müxtəlif xəbərlər söyləməsi göstərir ki, o, etnik-mental dəyərlər ststeminin, sadəcə olaraq, qoruyucusu, yaşadıcısı və ötürücüsü yox, həm də sahibidir. Bu dəyərləri o, Tanrıdan informasiyalar şəklində alır və oğuzlara çatdırır. Demək, oğuzların ictimai davranışları üçün əsas olan mentalitet dəyərlərini Dədə Qorqud müəyyənləşdirir. Onun Tanrı ilə əlaqəsi var. O, Tanrının iradəsi ilə mentalitet dəyərlərinə müdaxilə edib, onları zamana uyğun dəyişdirə də bilər.

Qeyd edək ki, abidənin müqəddiməsində Dədə Qorquda aid edilən ata sözləri verilmişdir. Bunlar, bizim fikrimizcə, oğuz etnik-mədəni sisteminin qanunlarının, ictimai, fərdi, dini, mənəvi davranışlarının əsasında duran etnik-mental dəyərlər – oğuz mentaliteti üçün əsas olan davranışlar qəlibidir.

Azərbaycanlı mentalitetinin mifoloji-epik qaynaqları türkologiyanın banisi Mahmud Kaşqarlının "Kitabi-divani-lüğət-it-türk" abidəsində də özünün parlaq təcəssümünü tapmışdır. Abidənin paremioloji sistemini – deyim vahidlərini tədqiq etmiş f.e.n. A.Xəlil oğuz mentaliteti üçün xarakterik olan kateqoriyaları tədqiq edərək sistemləşdirmişdir.

A.Xəlil qədim türk mentalitet dəyərlərinin abidədəki deyim vahidlərində necə əks olunması haqqında yazır: "Paremiyalarda əski türklərin yaşam normaları, əxlaq və davranış kriteriyaları mükəmməl şəkildə əks olunur. Əski epoxanın ictimai münasibətlərində güc, agıl, mərhəmət, səxavət və s. kimi keyfiyyətlər aparıcı mövqedədir. (4, 121)

Qədim türklərin etnik-mental dəyərlərinin Kaşqarlı "Divan"ında qorunub qalmış əsas dəyərlərindən biri "ərdəm" kateqoriyasıdır: "Türk cəmiyyətinin əsas intellekt vahidi kimi «ərdəm» semantemi xüsusilə seçilir. Bu semantem özündə ədəb-ərkan, əxlaq, bilik, mənəvi gözəllik, fəzilət, şərəf və ləyaqət kimi kateqoriyaları ehtiva edir. M.Kaşqarlı bu sözün (...) fəzilət, ədəb, tərbiyə, hünər mənalarını ifadə etdiyini bildirir... Ərdəm əski türk cəmiyyətində etik minimumu ifadə edir. "Kitabi Dədə Qorqud"da Oğuz igidlərinə ad verilməsi zamanı iki əsas zəruri qabiliyyətdən (ərdəm və hünər) birinin ərdəm olduğu aydın şəkildə görünür. Ritualın icraçısı Dədə Qorqud Oğuz igidinin mənəvi və fiziki yetkinliyini təsdiq edəndən sonra boy başçısı Dirsə xan ona bəylik, başqa sözlə, sosial status verir, toplumda yerini müəyyənləşdirir. Beləliklə ərdəmin bütövlükdə türk mədəni fenomenini ifadə etdiyi aydınlaşır". (4, 121-122)

Bildiyimiz kimi, əski türk cəmiyyətinin qayda-qanunları "törə" adlanmışdır, Bu baxımdan, "törə"ni həm də oğuz etnik-mental dəyərlər sisteminin adı kimi də qəbul etmək olar. "Törə" Kaşqarlı "Divan"ında da əsas

yer tutur: “M.Kaşqarlı bu sözün (...) düzən, nizam, adət, yaradılmaq mənalarının oldugunu izah etmişdir...Törü islam öncəsi türk alplıq dönəminin həyat və yaşayış normalarını tənzimləyən etik yaşayış qaydalarını nəzərdə tutur. İslam çevrəsinə girdikdən sonra isə törü ilə şəriətin qoşalaşması baş verir. Törü prinsipləri daşlaşmış davranış qaydaları kimi etnik əxlaqı islam əxlaqına transformasiya edir. Bundan sonra törü türk üçün haqq-ədalət, insaf-mürvət kateqoriyalarına üzvlənmiş olur. Törü prinsipi ilə yaşayış islam mühitində də davam edir. Etnopsixoloji davranış forması kimi törü aydın şəkildə əski savlarda (atalar sözləri, məsəllər, andlar, alqışlar və s. – İ.A.) əks olunur. Bu mənada törü təkcə bu terminin işləndiyini deyimlərlə məhdudlanmır. Əslində, savlar törünün mühafizəsini təmin edən əsas müddəalar, hökmlərdir». (4, 122)

Göründüyü kimi, “törü”, yaxud “törə” türklərin mənəvi-əxlaqi dəyərlərinin, milli düşüncə və davranışların əsasında duran etnik-mental sistemin ümumi adıdır. Bu sistemə “uluğluğ” (ululuq – böyüklük) da daxildir.

M.Kaşqarlı “Divan”ındakı “paremiyalardan görünən etik-əxlaqi institutlardan biri də “uluğluğ”dur (böyüklük). Bu institut özündə böyüklərə hörmətin bir davranış norması oldugunu nəzərdə tutur”. (4, 123)

“Divan”da türk mentalietinin əsas dəyərlərindən biri olan “yaxşılıq” “ezgülük” adı altında keçir: “Türk etnik mentalını, etik-mənəvi keyfiyyətlərini səciyyələndirən xarakterik əlamətlərdən biri də yaxşılıqdır. Bu keyfiyyət özündə xeyir əməlləri birləşdirir”... Bu və başqa misallardan göründüyü kimi, türk xalq deyimləri türk üçün yaxşılığı bir etik norma kimi təqdim edir”. (4, 123-124)

M.Kaşqarlı “Divan”ında türk etnik-mental sistemi üçün xarakterik olan “səxavət”, “qonaqpərvərlik”, “abır-həya”, “mərdlik”, “borc”, “zirəklik”, “güc” katqoriyaları da vardır. A.Xəlilin tədqiqatından aydın olur ki, “açığlıq” (səxavət) bir çox hallarda semantik baxımdan sintetik xarakterli oldugundan eyni zamanda özündə bir neçə keyfiyyəti işarələyə bilir... Bu mənəvi keyfiyyət türk xarakterində mühüm yer tutur. Çünki mala-mülkə baglı olmağın neqativ cəhətlərini göstərən başqa örnəklər də bunu təsdiqləyir”. (4, 124)

“Əsli türk xalq deyimlərində qonaq müqəddəslik səviyyəsində olan dəyərlərlə bir sferaya daxil edilir. Qonaq əski türk üçün ən mühüm uğur elementi olan “qut”un daşıyıcısı kimi təqdim olunur. (4, 124)

Kaşqarlı “Divan”ında “uvut” – “abır-həya” kimi əski əxlaqi keyfiyyəti əks etdirən paremiyalar da işlənmişdir. (4, 124)

“Ataç (mərd). Paremiyalarda mərdlik, insan ləyaqəti və onu şərtləndirən bir sıra etik-mənəvi keyfiyyətlər müxtəlif formalarda əks olunmuşdur... DLT-də (“Divanü-lüğət-it-Türk”də – İ.A.) kişi və qadın mərdliyi, ləyaqəti ayrı-ayrı vahidlərlə işarələnir. Ləyaqətli kişini ataç, bəy, alp ər, açıqlıq ər, ezgü ər, qadını isə anaç, qatun kimi söz və ifadələr işarələyir”. (4, 124-125)

“Alım (borc). Türk üçün haqq-hesabın dəqiqliyi, hər bir işin vaxtında görülməsi kimi xarakterik xüsusiyyətlərin paremiyalarda əks olunması bu keyfiyyəti də əxlaqi-mənəvi sferaya daxil edir”. (4, 125) “Divan”da, o cümlədən “ərik” – “zirəklik tənbəlliklə binar oppozisiyada verilir və birincinin pozitivliyi bildirilir”. (4, 125)

Bundan başqa, “Divan»da əski mental kateqoriya kimi təqdim olunmuş “güc” (güclülük) “əski cəmiyyətin, xüsusilə də alplıq epoxasının çox mühüm bir hadisəsidir. Amma paremiyalarda güc həm də mənəvi bir hadisə kimi görünür”. (4, 125)

A.Xəlilin tədqiqatına görə “Divan”dakı “savların içərisində “al” (hiylə), “ərməgü” (tənbəllik), “buşmasar” (kallıq), “öqünqüçi” (lovgalıq), “evek” (tələsgənlik), “isizlik” (pislik) və s. keyfiyyətlər isə neqativ anlamda işlənir. Bu da öz növbəsində türk əxlaqi-mənəvi kriteriyaları haqqında geniş təsəvvür yaradır”. (4, 125)

Qeyd olunan mənfi əxlaqi kateqoriyalar da türk mentalitet sisteminə daxildir. Çünki mentalitet dəyərləri bir sistem olaraq təkcə bəyənilən etnik-mental xüsusiyyətlərin yox, eyni zamanda bəyənilməyən, ictimai-etnik davranış tipi, forması və keyfiyyəti kimi qəbul olunmayan kateqoriyaları da əhatə edir.

Mifologiyamızla qaynaqlaşan etnik-mental dəyərlər sistemimiz daha sonra zaman ardıcıllığı ilə arxaik-mifoloji eposlarda, klassik qəhrəmanlıq dastanlarında və orta əsrlər qəhrəmanlıq eposumuzda yaşamaqda davam etmiş və günümüzədək gəlib çıxmışdır. Oğuz babalarımızın etnik-mental dəyərlər sistemi əvvəlcə miflərdə yaşamış, sonra Oğuz Kağanla bağlı oğuznamələrə keçmiş, daha sonra "Kitabi-Dədə Qorqud" oğuznamələrinin mənəvi-əxlaqi əsaslarını təşkil etmişdir. Bu silsilədə "Koroğlu" eposunun xüsusi yeri vardır.

"Koroğlu" eposunda ifadə olunmuş milli mentalitet dəyərləri bizə zaman baxımından daha yaxındır. "Kitab-Dədə Qorqud" oğuznamələrində ifadə olunmuş mentalitet xüsusiyyətləri daha çox arxaik-mifoloji dəyərlər sistemini əks etdirir. "Koroğlu" eposu isə oğuz epik ənənəsinin orta əsrlərdə ifadəsi olmaqla mifoloji olmaqdan üstün hadisədir. Belə ki, "Kitabi-Dədə Qorqud"un milli düşüncə sisteminin əsasında tayfaçılıq dövrünün (ulu babalarımız olan oğuz tayfalarının) dünyagörüşü durursa, "Koroğlu" orta əsrlər hadisəsi kimi Azərbaycan xalqının ümumoğuz kütləsindən üzvlənərək, ayrıca Azərbaycan-türk xalqına çevrildiyi dövrün milli düşüncəsini ifadə edir. Bu cəhətdən "Koroğlu" eposunun etnik-mental dəyərlər sistemi bizim üçün, bir növ, müasirdir.

"Koroğlu" dastanında mentalitetimiz üçün əsas olan qəhrəmanlıq ruhu ifadə olunmuşdur. Qəhrəmanlıq ruhu xalqımızı formalaşdıran, ayaq üstə saxlayan, bir xalq kimi təsdiq edən, mübarizələrə qaldıran əsas mentalitet dəyəridir. Həmin ruh "mərd(lik)-namərd(lik)" əxlaqi-mənəvi davranış modeli kimi dastan qəhrəmanlarının bütün epik hərəkətlərinin əsasında durur. Koroğluşünas alim Y.İsmayılova yazır: "Bildiyimiz kimi, dastanda qarşı duran tərəfləri təşkil edən obrazlar sabit süjet hərəkətlərinə malik olduqları kimi, sabit epik xarakterə də malikdir. Daha aydın desək, dastanda, yaxud hər hansı digər epik mətndə qəhrəman Mərdliyi, antiqəhrəman isə Namərdliyi təmsil edir. Eləcə də bunu Ədalətlilər-Zalımlar və s. kimi də təsnif etmək mümkündür. Bu baxımdan, dastandakı obrazları biz "Mərdlər və Namərdlər" kimi də təsnif edə

bilərik. Əgər nəzərə alsaq ki, “Koroğlu” dastanında sosial semantika epik konfliktin əsasını təşkil edir, onda qarşı duran qütbləri biz sosial-etik baxımdan müxtəlif səviyyəli terminlərlə işarələyə bilərik:

Mərdlər – Namərdlər

Haqlılar – Haqsızlar

Adillər – Zalımlar

Dostlar – Düşmənlər

Yaxşılar – Pislər

Kasıblar – Varlılar və s.”. (7, 89)

Qeyd etmək istəyirik ki, tədqiqatçının dual prinsiplə düzdüyü obrazlar sistemi, əslində, orta əsrlər Azərbaycan etnik-mental dəyərlər sisteminin dastandakı obrazlaşmasıdır. Başqa sözlə, etnik-mental sistemin dəyərləri dastanda obrazlara çevrilmişdir. Bu baxımdan, Y.İsmayılovanın verdiyi sistemi asanlıqla eposda öz əksini tapmış mentalitet dəyərlərinin sisteminə çevirmək məmkünlür:

mərdlik – namərdlik

haqlılıq – haqsızlıq

adillik – zalımlıq

dostluq – düşmənçilik

yaxşılıq – pislik

Dastandan aydın olur ki, xalqımızın mentalitet düşüncəsində “mərdlik-namərdlik” qəlibi əsas yer tutmuşdur. Dastanda qırşı duran qüvvələrin əsaslandıqları başlıca mənəvi-əxlaqi prinsip budur. Mədrlik bir yaşam formulu kimi dastanın bütün qollarında öz ifadəsini tapmışdır. Məsələn, bu əsas mentalitet xüsusiyyəti “Koroğlununu Qars səfəri” qolunda bir epizodda parlaq şəkildə ifadə olunmuşdur:

“Eyvaz xəncəri çəkdi, dayadı Ərəb Reyhanın boğazına. Ondan döndü Koroğluya tərəf ki, görsün, onun fikri nədi.

Koroğlu dedi:

– Eyvaz, mən bir dəfə onu mərdliklə basıb, mərdliklə də buraxmışdım. Amma o, bunun əvəzində mənə namərdlik elədi. Namərd də gərək bu dünyada yaşamasın”. (9, 283)

Tədqiqatçı Y.İsmayılova bu epizoda münasibət bildirərək yazır: “Koroğlunun dili ilə verilmiş bu epik “fəlsəfəyə” görə, yəni dastanın daşıdığı, təqdim etdiyi epik əxlaq ideallarına görə, namərd bu dünyada yaşamamalıdır. Dünya mərdlərin dünyasıdır. Mərdlər daim namərdlərin kökünü kəsməlidir. Koroğlu bu prinsiplə yaşayır”. (7, 153)

Beləliklə, “Namərdlərin bu dünyada yaşamaq haqqının olmaması” Azərbaycan mentalitetinin orta əsrlərdən üzü bəri əsas münasibət formullarından birini təşkil edir. Xalqımız heç vaxt namərdliyi qəbul etməmiş, mərdliyi alqışlamışdır. “Koroğlu” dastanı orta əsrlər azərbaycanlı düşüncəsində olan mərd-namərd qəlibini bədiiləşdirərək bizə yuxarıdakı formada təqdim etmişdir.

Azərbaycanlı mentalitetinin ən qədim dəyərlərindən biri igidlikdir. İgidlik “Koroğlu” dastanı qəhrəmanlarının əsas poetik cizgisini təşkil edir. Dastanda igidlik yüksək mənəvi-əxlaqi keyfiyyət, Azərbaycan-türk ərdəmliyinin əsas sifəti kimi tərənnüm olunur və qorxaqlığa qarşı qoyulur. “Həmzənin Qıratı qaçırması” qolunda Hasan paşa ilə Koroğlunun arasındakı dialoqda və Koroğlunun söylədiyi qoşmada “igidliyin” (“qoç igidin”) struktur keyfiyyətləri ifadə olunmuşdur.

Keçəl Həmzə namərdlik edib Koroğlunun atını qaçırır, Hasan paşaya verir. Koroğlu Qıratın ardınca gəlir və aşıq libasında saraya daxil olur. Paşanın məclisində onların arasında belə bir dialoq olur.

“Hasan paşa dedi:

– Aşıq, dediyin haman o Qırat bu saat mənim tövləmdədi. İndi de görüm, mən ki onu Koroğlunun əlindən çıxartmışam, mən igidəm, Koroğlu?

Koroğlu dedi:

– Paşa, əgər doğrudan da belədirsə, onda sən igid adamsan. Ancaq paşam, igidlik ondu. Sən onun birini eləmisən. Qulaq as o birilərini də sənə deyim:

Sənə deyim qoç igidin nişanın,
Açа yağılarla meydan gərəkdi.
Nərə çəkib atılanda ortaya
Qaça qabağından düşman gərəkdi.

Təslim deyib qəniminə etməyə,
Əcəl çağı yoldaşından dönməyə,
Düşman qabağında heç vaxt sinməyə,
Meydanlarda qızmış aslan gərəkdi.

Qoç Koroğlu meydan açıb öyünü,
Namərd sinəsinə çəkər düyünü,
Ac qurdlardan saldırmağa qoyunu
Qurd ağızlı qoçaq oğlan gərəkdi". (9, 283)

Beləliklə, "Koroğlu" dastanına əsasən görürük ki, orta əsrlər azərbaycanlı mentalitetində "igidlik" on əsas cizgi ilə ifadə olunur. Başqa sözlə, orta əsr igidi üçün on mental xüsusiyyət lazımdır. Onlar Koroğlunun dilindən söylənmiş qoşmada sadalanmışdır. Şeiri təhlil etmiş koroğluşünas Y.İsmayılova yazır: "Bu şeirdə igidliyin on şərti ifadə olunub. O şərtlər ki, Koroğlu bir igid olaraq həmin şərtlər – igidlik nişanələri ilə yaşayır. Fikrimizcə, bu, orta əsr Azərbaycan epos qəhrəmanının igidlik kodeksidir. Qoç igidliyin şərtlərinə görə:

1) Qoç igid yağılara meydan açmalıdır;
2) Qoç igid düşmən üstünə gedəndə dəli nərə çəkməlidir;
3) Qoç igid düşməni qabağına qatıb qovmalıdır;
4) Qoç igid heç vaxt düşmənə təslim olmamalıdır;
5) Qoç igid ölüm təhlükəsi olsa belə, yoldaşını atmamalıdır;
6) Qoç igid düşmən qabağında heç vaxt əyilməməlidir;

7) Qoç igid meydanlarda qızmış aslan kimi döyüşməlidir.

Koroğlu igidliyin qalan üç şərtini şeirin sonuncu bəndində bilavasitə özü ilə əlaqələndirir. Yəni qoç igid:

8) Koroğlu tək özünü düşmən qabağında öyməlidir;

9) Koroğlu tək namərd sinəsinə düyün (dağ) çəkməlidir;

10) Koroğlu tək qurd ağızlı qoçaq oğlan olmalıdır". (7, 110-111)

Beləliklə, aparılmış araşdırma göstərdi ki, Azərbaycan milli düşüncə sisteminin əsasını təşkil edən mentalitet dəyərləri öz başlanğıcı etibarilə mifoloji-arxaik qaynaqlara gedib çıxır. Hər bir xalqın mentalitet dəyərləri onun milli simasını müəyyənləşdirir. Milli sima, milli ruh, milli xarakter mifologiya ilə sıx bağlıdır. Çünki mifologiya hər bir xalqın düşüncəsinin əsasını təşkil edir. Milli mentalitet dəyərlərinin müqəddəsliyi onların mifoloji-arxaik ilkinliyi və saflığı ilə müəyyənləşir. Mifologiya ilə müəyyənləşən mentalitet dəyərləri folklora keçərkən daha da inkişaf edib yeni məzmun və forma kəsb edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Bəydili C. Türk mifoloji sözlüyü. B.: Elm, 2003, 418 s.

2. Cəfərov N. eposdan kitaba. B.: Maarif. 1999

3. Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı) / Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. B.: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2002

4. Xəlil A. Əski türk savlarının semiotikası. B.: Səda, 2006, 164 s.

5. Халил А.С. О проблематике письменности и жанрого состава огузского эпоса (на материале "Книги Деде Коркута") // Тюркологический сборник. Вып. II, Материалы Международной тюркологической конференции "Языки и литература тюркских народов: история и современность". Елабуга: 2004, с. 227-234

6. İsmayılov H., “Göyçə dastanları: Türk epik sistemində dastan informasiyasının fasiləsizliyi- Göyçə dastanları və aşıq rəvayətləri. Toplayanı, tərtib edəni, ön söz, qeyd və izahların müəllifi, f.e.n, İsmayılov A., Bakı, 2001, s.3-82

7. İsmayılova Y. “Koroğlu” dastanında obrazlar sistemi. B.: Nurlan, 2003, 176 s.

8. Kitabi-Dədə Qorqud / Tərtibçilər: F.Zeynalov və S.Əlizadə. B.: Yazıçı, 1988, 265 s.

9. Koroğlu / Tərtib edəni M.Təhmasib, redaktoru H.Araslı. 2-ci nəşri. B.: Az. SSR EA Nəşriyyatı, 1956, 456 s.

10. Oğuznamələr / İşləyib çapa hazırlayanlar: K.V.Nərimanoğlu və F.Uğurlu. B.: 1993, 92 s.

11. Rzasoy. S. “Türk eposunun informativ strukturu: mətnləri və yeni təhlil modeli” adı altında bu qaynaqda çap olunmuşdur: “Dədə Qorqud” dərgisi, 2002, № 3, s. 105-121

MİLLİ MENTALİTET DƏYƏRLƏRİ VƏ FOLKLOR

Azərbaycan folkloru özünün rəngarəng növ və janrlar sistemi ilə bu gün dünyanın ən zəngin folklor ehtiyatlarını təşkil edir. Sözə qarşı həssas olan xalqımız özünün bütün mənəvi, əxlaqi, siyasi, ictimai, iqtisadi, mədəni təcrübəsini folklorunda yaşatmışdır. Bu cəhətdən milli mentalitet dəyərlərimiz böyük bir mənəviyyat xəzinəsi olan aşıq şeirimizdə (bax: 1; 2 və s.), möhtəşəm dastan dünyamızda (bax: 3; 4; 5; 6; 7; 8; 9; 10; 11; 12; 35; 36; 37 və s.), dünya nağılçılıq fondunun ən zəngin səhifəsi olan nağıllarımızda (bax: 29; 30; 31; 32; 33; 34; 38; 39; 40; 41;42 və s.), o cümlədən, folklorumuzun məzmun və forma baxımından əsrarəngiz bədii söz gülşəni olan digər janrlarında (bax:13;14; 15; 16; 17; 18; 19; 20; 21; 22; 23; 24; 25; 26; 27; 28 və s.) özünün tarixi koloritini və bütün milli təravətini (özünəməxsusluğunu) qoruyaraq yaşamaqdadır.

Milli mentalitet dəyərləri çox geniş anlayış olub, böyük bir sistemi təşkil edir. Buraya xalqımızın tarixi-mədəni həyatının istisnasız olaraq bütün sahələri aiddir. Bu cəhətdən milli mentalitet dəyərlərini bir tədqiqat həcmində bütün incəliklərinə qədər əhatə etmək mümkünsüzdür. Bu da öz növbəsində bizim qarşımıza əsas istiqamətləri əhatə etmək vəzifəsini qoyur. Belə hesab edirik ki, ilk olaraq aşağıdakı istiqamətləri əhatə etmək məqsədəuyğundur:

1. Etnik-siyasi həyatla bağlı milli mentalitet dəyərlərinin folklorumuzdakı inikası. Buraya ilk növbədə vətən, el-oba, yurd, dövlət, dövlətçilik və s. ilə bağlı milli mentalitet dəyərləri aiddir.
2. Mənəvi-əxlaqi münasibətlərlə bağlı milli mentalitet dəyərlərinin folklorumuzdaki inikası. (Buraya insanlararası mənəvi münasibətlər, ailə münasibətləri, etik-estetik münasibətlər, ar, namus, qeyrət, abır, həya, böyük-kiçik və s. ilə bağlı milli mentalitet dəyərləri aiddir).
3. Sosial-iqtisadi münasibətlərlə bağlı mentalitet dəyərlərinin folklorumuzdaki inikası. (Buraya mal-əmtəə münasibətləri,xalq hüququ, alış-veriş və s. ilə bağlı milli mentalitet dəyərləri aiddir).

Azərbaycan folklorunda vətən, el-oba, dövlət, dövlətçiliklə bağlı milli mentalitet dəyərləri rəngarəng bədii obrazlar vasitəsi ilə ifadə olunmuşdur. Folklorumuzu nəzərdən keçirdikcə xalqımızın öz vətəninə, dövlətinə necə müqəddəs münasibət bəsləməsinin, yurd uğrunda öz şirin canlarından asanlıqla keçmələrinin şahidi oluruq.

Xalqımızın milli mentalitet dəyərlərinə görə, vətən ilk növbədə insanın dünyaya göz açdığı məkandır. Bu halda həmin məkanın necə bir yer olmasının, yəni təbii gözəlliklərinin olub-olmamasının azərbaycanlı üçün elə bir əhəmiyyəti yoxdur. Bu faktor onun vətən anlayışına heç bir təsir edə bilməz. Azərbaycanlı üçün vətən onun dünyaya gəldiyi yerdir. O yer ki, insan dünyanı ilk dəfə burada görür və gördüyü andan qəlbinə, ruhuna vətən məhəbbəti hopur. Anadan olduğu məkan azərbaycanlının ömrünün sonuna qədər əbədi sevgisi olaraq qalır. Çünki Azərbaycan milli metalitetinə görə, insanın harada anadan olması onun taleyinə Allah tərəfindən yazılır və bu, onun qismətidir. Xalqımız belə hesab edir ki, "Qismətdən qaçmaq olmaz". Bütün bunlar folklorda maraqlı bədii obrazlar vasitəsi ilə təcəssüm olunmuşdur.

Folklorda mentalitet dəyərlərinin, əsasən, üç transformativ qatını bərpa etmək mümkündür:

1. Mifoloji informasiya qatı;
2. Tanrıçılıq dünyagörüşü qatı;
3. İslami dünyagörüşü qatı;

Azərbaycan xalqının milli mentalitet düşüncəsində vətən, el-oba, yurd adi cansız məkan, torpaqdan ibarət deyildir. Azərbaycan insanı öz doğmalarını necə görürsə, yurdunu da elə görür: ona , insani obraz verir. Prof. A.Hacılının yazdığı kimi, insan, əslində, ətrafı öz içində, vətəndaş vətəni öz daxilində, yurddaş yurdu öz qəlbində görür. Azərbaycan türkü beləcə öz daxili aləmini ətrafa, təbiətə, mühitə keçirir, yurd canlanır, mənəviləşir, insan obrazı kimi qavranılır. Coğrafi mənzərə ilə insan arasında eyniyyət, psixoloji paralelizm yaranır və bu vəhdət adi bədii metafora deyil, magik şüurla bağlı sintetik anlam, sakral

simvoldur. Azərbaycanlı Azərbaycanı adi bir məkan kimi qavramır, qarşısında məsuliyyət duyduğu, sevdiyi, süslədiyi, qınadığı, acıladığı, fərəhləndiyi, halına yandığı ümumiləşmiş bir şəxs, ali bir müsahib, canlı surət kimi duyur. Yurddaşımız vətən torpağı ilə daim belə daxili təmasda olduğundan dağların nifrinindən, çayların coşmasından, torpağın küsməsindən, göylərin qəzəbindən çəkinir, əksinə, təbiətin bir insan kimi səxavətindən qürrələnir". (43, 53)

Azərbaycan folklorunda qürbət, qəriblik "Aşıq Qərib" dastanının qəhrəmanı Qəribin adında çox geniş təsəvvüfi-islami mənalar kəsb etmiş və bu obraz xalq tərəfindən sevilmişdir. F.e.d. H.İsmayılov bu dastanın geniş yayılmasının səbəbləri üzərində düşünərək yazır: "Qəribə belə məhəbbət hardandır? Bu işarə altında hansı informasiya gizlənir? Bizə görə, Qəribin belə nüfuz qazanmasına səbəb birbaşa "qəriblik" hissinə bağlıdır. Azərbaycan dilində "qərib" çox emosional səslənir və çox semantik çalarları vardır. Bu semantemlərdən biri də tənhalıq hissidir (hicran). Azərbaycan xalq poeziyasında (həmçinin yazılı ədəbiyyatda) "qəriblik" nəsə ilahi məziyyət daşıyır: göyün doqquzuncu təbəqəsindəki vahid Allahdan başqa yer üzündə heç kimi olmayan tənha insan. Yalnız O (Uca Allah – İ.A.), insanı bu vəziyyətdən qurtara bilər. "Qərib" sözü türk mənşəli olmasa da, leksik statusda qətiyyən fərqlənmir və Azərbaycan şeir sisteminin poetik elementidir. Məsələn, Aşıq Qərib uzun ayrılıqdan sonra ana və bacısı ilə görüşərkən oxuduğu gəraylı belədir:

Uzaq yollardan gəlmişəm,
Ana, mən Qəribəm, Qərib.
Qəriblikdən xəbər verim,
Bacı, mən Qəribəm, Qərib". (44, 152)

H.İsmayılovun şərhindən göründüyü kimi, məhəbbət dastanlarında qəriblik ilahi hissdir. İnsanın yad bir məkana düşməsi onun ilahi qismətindən iraq düşməsi anlamına gəlir. Demək, azərbaycanlının vətənə bağlılığı ilahi hadisədir. Onun vətəni təsadüfən anadan olduğu yer yox, İlahinin qismətidir. Ona görə də xalqımız vətəni dini-imanı qədər əziz tutub, müqəddəs sayır.

Azərbaycanlı düşüncəsində qəriblik ilahi qismətdir. Vətəndən çıxmaq ayrılıq günü sayılır. Ona görə ki, azərbaycanlılar harada olurlarsa-olsunlar vətəndən kənarda özlərini heç vaxt xoşbəxt hiss etmirlər. Onlar öz vətənlərində keçirdikləri kasıb həyatı qürbətdə keçirdikləri varlı həyatdan üstün tuturlar. Bu, "Uzaq yerin halvasın hoza ilə döyərlər" atalar sözündə daha aydın mənalandırılmışdır. Başqa sözlə, insana öz vətənindən çox asan başa gələn iş qürbətdə həddindən artıq çətin başa gəlir.

Yurda bağlılıq xalqımızın canında, qanındadır. Vətən məhəbbəti azərbaycanlı üçün elə bir hissdir ki, dünya durduqca onu tərk etməyəcək. Biz Qarabağla bağlı bayatıları nəzərdən keçirdikdə görürük ki, xalqımızın vətənin birliyi və bütövlüyü haqqındakı hissləri sarsılmaz və əbədidir. Heç bir düşmən, onun məkri və hiyləsi, gücü və qüdrəti Azərbaycan xalqının vətəninə bəslədiyi məhəbbətdən, o cümlədən vətənimizin ayrılmaz parçası olan Qarabağdan döndərə bilməz.

Azərbaycan folkloru milli mənəviyyatımızın güzgüsüdür. Xalqımızın bütün tarixi boyunca qazandığı müsbət mənəvi-əxlaqi keyfiyyətlər folklorda bədiiləşmişdir. Folklorumuzda bu cəhətdən milli mentalitetimiz üçün xarakterik olan, bizi bir türk-müsəlman xalqı kimi digər etnoslardan xüsusi şəkildə fərqləndirən ar, namus, ismət, iffət, abır, həya, mərdlik, comərdlik, səxavət, adillik, səbirlilik, böyük-kiçiyə hörmət, ata-anaya hörmət, ailə qeyrəti və s. kimi dəyərlər tərənnüm olunmuş, bunun əksi olan keyfiyyətlər pislənmiş və antiəxlaqi davranışlar kimi rədd edilmişdir.

Azərbaycan bədii düşüncə tarixini bir güzgü kimi əks etdirən folklorumuzu nəzərdən keçirdikdə görürük ki, yuxarıda sadalanan mənəvi-əxlaqi keyfiyyətlər milli mentalitet sistemimiz üçün həmişə xarakterik olmuşdur. Bunun bariz örnəyini ilk növbədə oğuz babalarımızın qəhrəmanlıq və mənəviyyat tarixindən bəhs edən "Kitabi-Dədə Qorqud" dastanı qoruyaraq bizlərə çatdırmışdır. Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının ilk növbədə milli-

mənəviyyat abidəsi, milli mentalitet dəyərlərimizin bədii söz vasitəsi ilə "yonulmuş" heykəlidir.

Folklorumuzda yurdumuzun ulu abidələri birbaşa namus, qeyrət dəyərlərinin simvolu kimi müqəddəsləşdirilmişdir. Səciyyəvidir ki, namus, qeyrət, abır, həya kimi milli mentalitet dəyərləri ilkin mifoloji inamlarla bağlıdır.

Miflərin təhlilindən aşağıdakı qənaətlər hasil olur:

Birincisi, namus, qeyrət, abır-həya kimi dəyərlər Azərbaycan xalqının milli mentalitet sistemi üçün arxaik dövrlərdən xarakterikdir.

İkincisi, milli mentalitetin bu dəyərləri ilkin arxaik-mifoloji inamlar sırasında özünə yer almışdır. Bu, o deməkdir ki, həmin dəyərlər ta qədimlərdən sakral (müqəddəs) sayılmış və ilahi dəyərlər səviyyəsində qəbul olunmuşdur.

Üçüncüsü, xalqımızın namus, abır-həya kimi milli mentalitet dəyərlərinin yer-yurd adlarının, dağların, qayalıqların, qalaların yaranması ilə əlaqələndirilməsi, bir növ, həmin dəyərlərə qoyulmuş maddi abidələrdirsə, onları yaddaş kimi yaşadan mifoloji əfsanə və rəvayətlər də bədii söz abidələridir. Milli mentalitet dəyərlərinin maddi və mənəvi abidələrimizdə belə təcəssüm olunması folklorumuz üçün xarakterikdir.

Səciyyəvidir ki, Azərbaycan folklorunda dünyanın digər xalqlarının folklorundan fərqli olaraq məhz mənəvi-əxlaqi sifətləri, milli xarakterin müsbət mentalitet dəyərlərini təbliğ edib, antiəxlaqi sifətləri pisləyən xüsusi şeir növü – ustadnamə janrı vardır. Baxmayaraq ki, folklorumuzun digər növ və janrlarının hamısı üçün mənəvi-əxlaqi ideallar xarakterikdir, ancaq bununla bərabər ustadnamə birbaşa mənəvi-əxlaqi dəyərlərin tərənnümünə xidmət edir.

Beləliklə, Azərbaycan folkloru xalqımızın mənəviyyat dünyasının güzgüsü kimi, onun malik olduğu bütün mənəvi-əxlaqi dəyərləri özündə əks etdirir. Folklorumuzda milli mentalitet sisteminə daxil olan bütün mənəvi-əxlaqi dəyərlər tərənnüm və təbliğ olunmuş, bu dəyərlərin əksi olan sifətlər antimənəvi təzahürlər kimi rədd edilmişdir. Tədqiqat göstərdi ki, Azərbaycan folklorunda mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı olan insan tipləri yaradılmışdır. Həmin

obrazlar xalqımızın mənəviyyat tarixinin bütün özünəməxsusluğunu əks etdirməklə öz ideal humanizmi baxımından bəşər poetik düşüncəsinin parlaq səhifəsini təşkil edir.

Həm Azərbaycan folkloru, həm də Azərbaycan milli mentalitetinin dəyərlər sistemi tarixi kateqoriyalarıdır. Folklorumuz tariximizə yoldaşlıq etdiyi kimi, milli mənəviyyat tariximizə də güzgü tutmuşdur. Bu baxımdan, Azərbaycan folklorunda siyasi, sosial, iqtisadi mentalitet dəyərləri də bədiiləşərək obraz və süjetlərin məzmununu təşkil etmişdir.

Azərbaycan folklorunun araşdırılması göstərir ki, xalqımızın milli düşüncəsində sosial, siyasi, iqtisadi görüşlər bir sistem təşkil edir. Məsələn atalar sözlərində cəmiyyət, onun qurduğu dövlət, həmin dövlətin yerləşdiyi ərazi, bu ölkədəki sosial, iqtisadi münasibətlər bütöv bir düzən və nizam daxilindədir.

Folklorda cəmiyyət və cəmiyyətdaxili münasibətlər çox zəngin obraz və süjetlər vasitəsi ilə bədiiləşmişdir. Elə folklor nümunələri vardır ki, onlarda birbaşa cəmiyyətin sosial strukturu modeli – ictimai əsasları əks olunmuşdur.

Azərbaycan folklorunda “el”, ümumiyyətlə, tarixi kateqoriyadır. Tarixən bu sözün xalq, ölkə mənaları da olmuş, vahid Türk dövlətçiliyinin struktur forması kimi öz aktuallığını itirdikdən sonra çoxmənalı sözə çevrilmiş və dövrümüzədək davam etməklə uzun müddət “cəmiyyət” anlamında işlənmişdir. Bu baxımdan, milli mentalitet düşüncəmizdə “elin birliyi” dedikdə cəmiyyətin struktur bütövlüyü nəzərdə tutulur.

Cəmiyyətimizdə mənəvi-əxlaqi münasibətlər ideal-antiideal modeli əsasında qurulmuşdur. Azərbaycan cəmiyyəti bütün tarixi boyunca mənəvi münasibətləri ideal səviyyədə qəbul etmiş, antiideal olanı birmənalı şəkildə rədd etmişdir. Bu, folklorda öz ifadəsini olduğu kimi tapmışdır.

Qeyd edək ki, folklorumuzda milli mentalitet dəyərlərinin, o cümlədən sosial, iqtisadi münasibətlərdə aktual olan mentalitet dəyərlərinin özünəməxsus şəkildə obrazlaşdığı janrlardan biri lətifələrdir. Lətifələrdə milli mentalitet üçün

xarakterik olan bütün mənfi dəyərlər gülüş hədəfinə çevrilir. Burada müsbət milli mentalitet dəyərlərinin tərənnümü əks yolla baş verir. Başqa sözlə, milli-mənəvi dəyərlərin bütün naqisliklərinin əsasında duran mentalitet sifətləri (antiideallar) gülüş hədəfinə çevrilməklə bunun əks olan müsbət dəyərlər təbliğ olunur. Göründüyü kimi, milli mentalitet dəyərlərinin təcəssümünün bütün folklor janrları üçün xarakterik olan "ideal-antiideal" modeli lətifələlr üçün də aktualdır.

Azərbaycan lətifələrinin poetik dünyası bütöv bir sistemdir. Burada cəmiyyətin sosial münasibətlərinin elə bir sahəsi yoxdur ki, inikas olunmasın. Bu, idarəçilik məsələlərinə də aiddir. Bu mövzudakı lətifələrə diqqət yetirdiyimizdə görürük ki, burada sosial idarəçiliyin əsasında duran hər cür dəyərlər lətifə poetikasının tələb və prinsiplərinə uyğun olaraq obraz və süjetlərə çevrilmişdir.

Azərbaycan folklorunda sosial mühit üçün xarakterik olan iqtisadi mübadilə münasibətləri də humanistləşdirilmişdir. Başqa sözlə, Azərbaycan insanının ideal xarakteri bütün hallarda halallıq prinsiplərinə söykənmiş və sakral xarakter daşımışdır. Azərbaycan folklorunun ideal dəyərlər daşıyıcısı olan qəhrəmanı hər cür haram iqtisadi münasibətlərin fövqündə durmuşdur.

Folklorumuzun bir bütöv halında nəzərdən keçirilməsi milli mentalitet sisteminin sosial dəyərlərinin də sakral arxetiplərlə bağlılığını ortaya qoyur. Bu cəhətdən Azərbaycan əfsanələri, xüsusilə mifoloji məzmunlu əfsanələr əlamətdardır. Belə ki, əfsanələrdə sosial həyatın bütün sahələrinin mentalitet dəyərlərini müşahidə etmək mümkündür.

Əfsanələri nəzərdən keçirdiyimizdə görürük ki, burada sosial mentalitet dəyərləri üçün xarakterik olan cizgilər çox geniş məna kontekstlərində bədiiləşdirilmişdir. Bu xalq hekayələri xalqımızın milli düşüncəsinin bütün humanizmini ortaya qoymaqla, onun müqəddəs dəyərlərə söykəndiyini də nümayiş etdirir.

Ümumiyyətlə, Azərbaycan milli mentalitet sistemi üçün humanizm prinsipləri əsasdır. Dünyanın heç bir sərtlik və acılıqları, qan və zorakılıqları Azərbaycan xalqının milli düşüncəsindəki humanizm dəyərlərini sarsıda bilməmiş və mənəvi əxlaqi dəyərlər sistemimiz əzəl başdan humanizm prinsiplərinə söykənmiş və bu prinsip milli mentalitet sistemimizin əbədi atributu olaraq qalmışdır.

Humanizm – insanpərvərlikdir və onun əsasında insan faktoru – antropoloji amil durur. Bu cəhətdən Azərbaycan folklorunda dünyanın antropomorflaşdırılması - ətraf aləm və onun ünsürlərinə humanist-insani boyalar verilməsi xarakterik hadisədir.

Biz Azərbaycan milli düşüncə dünyasının – milli mentalitet dəyərləri sisteminin humanist-antropoloji hüdudsuzluğuna təbiət cisimlərinin, astral elementlərin insani münasibətlər – ailə münasibətləri sferasına aid edilməsində də şahid oluruq.

Folklorda sosial, iqtisadi mentalitet dəyərləri epik dünya modelinin təkcə təbiət ünsürləri ilə yox, eyni zamanda zaman ünsürü ilə də əlaqələndirilmişdir. Zaman epik cəhətdən maddiləşdirilmiş, antropoloji (insani) obraz kəsb etmişdir. Folklorda sosial mentalitet dəyərlərinin tədqiqi göstərir ki, xalqımız təbiəti də sosial münasibətlər sferasına daxil etmiş və onu müqəddəsləşdirmişdir. Belə sakrallaşdırmanın tarixi xalqımızın tarixi qədər qədim olub, ilkin mifoloji inanclarımıza gedib çıxır.

Ulu babalarımızın əski inanclarına görə canlı, cansız bütün təbiətin sahibi vardır. Sahiblik duyğusu humanist yanaşmanın əsasında durur. Başqa sözlə, davranış, münasibətlə bağlı mentalitet dəyərlərinə görə, təbiətin hər bir ünsürü insan qədər hörmətə layiqdir. Bu cəhətdən babalarımız suyundan içdiyi bulaqlara, çaylara, göllərə və dənizlərə, meyvəsindən yediyi bağlara və meşələrə, ümumiyyətlə, təbiətə böyük sayğı bəsləmişdir. Bu da öz növbəsində göstərir ki, Azərbaycan milli düşüncəsində sosial, siyasi, iqtisadi mentalitet dəyərləri bütöv bir sistem təşkil edir.

Ümumiyyətlə, hər bir sistem onu təşkil edən daxili struktur elementlərinin qarşılıqlı münasibətlərinə əsaslanır. Azərbaycan milli mentalitet sistemində sosial, siyasi, iqtisadi və s. dəyərlər də bir-biri ilə sıx şəkildə bağlıdır. Tədqiqat göstərdi ki, bu dəyərlər sistemini iki əsas xassə səciyyələndirir:

B i r i n c i s i, milli mentalitet dəyərlərinin sakrallığı:

Belə ki, milli düşüncə sistemindəki mentalitet dəyərlər bu və ya başqa şəkildə ilahi-sakral xassəyə malikdir. Bu, o deməkdir ki, xalqımızın ictimai şüur tarixi üçün xarakterik olan mifoloji-dini görüşlərlə əlaqələndirilməyən hər hansı dəyər mentalitet sisteminə daxil ola bilməmişdir. Bu da öz növbəsində mentalitet sisteminə daxil ola bilən dəyərlərin və həmin dəyərləri təcəssüm etdirən folklor obrazlarının sakrallığını şərtləndirmişdir.

İ k i n c i s i, milli mentalitet dəyərlərinin humanist-antropoloji xarakteri:

Belə ki, xalqımızın mentalitetinə zorakılıq, qəddarlıq, vəhşilik kimi antihumanist dəyərlər yaddır. Bu, milli mentalitet düşüncəmizi fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Digər tərəfdən, milli mentalitetimizdəki humanizm folklor obrazlarının antropolojiləşfirilməsidə özünü göstərmişdir. Başqa sözlə, Azərbaycan folklor obrazları mifik başlanğıcından bu günə kimi antropoloji xarakter daşımışdır. Folklorda cəmiyyətlə (etnosla) bərabər, təbiət və zaman da antropomorflaşdırılmış və cəmiyyət üçün xarakterik olan sosial, siyasi, iqtisadi mentalitet dəyərləri canlı, cansız təbiətin bu insanlaşdırılmış obrazlarının xarakterik cizgilərini təşkil etmişdir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan aşıqları və el şairləri. I c. / Tərtib edəni Ə.Axundov. B.: Elm, 1983, 375 s.

2. Azərbaycan aşıqları və el şairləri. II c. / Tərtib edəni Ə.Axundov.B.: Elm, 1984, 544 s.

3. Azərbaycan dastanları. 5 cilddə, I c. / Tərtibçilər: Ə.Axundov və M.H.Təhmasib. B.: Az. SSR EA Nəşriyyatı, 1965, 380 s.

4. Azərbaycan dastanları. 5 cilddə, II c. / Tərtibçilər: Ə.Axundov və M.H.Təhmasib. B.: Az. SSR EA Nəşriyyatı, 1966, 340 s.

5. Azərbaycan dastanları. 5 cilddə, III c. / Toplayanı və tərtib edəni Ə.Axundov. B.: Azərbaycan SSR EA Nəşriyyatı, 1967, 476 s.

6. Azərbaycan dastanları. 5 cilddə, IV c. / Tərtib edəni M.H.Təhmasib. B.: Az. SSR EA Nəşriyyatı, 1969, 508 s.

7. Azərbaycan dastanları. 5 cilddə, V c. / Tərtib edəni Ə.Axundov. B.: Az. SSRİ Nəşriyyatı, 1969, 468 s.

8. Azərbaycan dastanları / Toplayıb nəşrə hazırlayanı A.Nəbiyev. B.: Gənclik, 1977, 171 s.ev. B.:

9. Azərbaycan dastanları: 5 cilddə, I c., B.: Lider nəşriyyatı, 2005, 392 s.

10. Azərbaycan dastanları: 5 cilddə, II c., B.: Lider nəşriyyatı, 2005, 448s.

11. Azərbaycan dastanları: 5 cilddə, III c., B.: Lider nəşriyyatı, 2005, 328s.

12. Azərbaycan ədəbiyyyatı inciləri: Dastanlar / Tərtibçi B.Abdullayev Yazıçı, 1987, 571 s.

13. Azərbaycan folklor antologiyası / Tərtib edən Ə.Axundov. 1-ci Cild, B.: 1969, 259 s.

14. Azərbaycan folklor antologiyası. I c. Naxçıvan folkloru / Tərtib edənlər T.Fərzəliyev və M.Qasımlı. B.: Sabah, 1994, 381 s.

15. Azərbaycan folklor antologiyası. II c. İraq-Türkmən folkloru / Tərtib edənlər Q.Paşayev və Ə.Bəndəroğlu. B.: Ağrıdağ, 1999, 467 s.

16. Azərbaycan folklor antologiyası. III c. Göyçə folkloru / Toplayıb tərtib edəni H.İsmayılov. B.: Səda, 2000, 766 s.

17. Azərbaycan folklor antologiyası. IV c. Şəki folkloru / Tərtib edənlər O.Əliyev, H.Əbdülhəlimov, R.Qafarlı və V.Aslan.B.: Səda, 2000, 497 s.

18. Azərbaycan folklor antologiyası. V c. Qarabağ folkloru / Toplayanlar İ.Abbaslı, T.Fərzəliyev və Nəcəf Nazim (Quliyev), tərtibçi İ.Abbaslı. B.: Səda, 2001, 413 s.

19. Azərbaycan folklor antologiyası. VI c. Şəki folkloru / Toplayıb tərtib edəni. Əbdülhəlimov. B.: Səda, 2002, 494 s.

20. Azərbaycan folklor antologiyası. Qaraqoyunlu folkloru/ Toplayıb tərtib edənlər H.İsmayılov və Q.Süleymnov. B.: Səda, 2002, 464 s.

21. Azərbaycan folklor antologiyası. VIII c. Ağbaba folkloru / Toplayıb tərtib edənlər H.İsmayılov və T.Qurbanov. B.: Səda, 2003, 475 s.

22. Azərbaycan folklor antologiyası. IX c. Gəncəbasar folkloru / Tərtib edənlər H.İsmayılov və R.Quliyeva. B.: Səda, 2004, 521 s.

23. Azərbaycan folklor antologiyası. X c. İrəvan folkloru/ Toplayıb tərtib edənlər H.İsmayılov və Ə.Ələkbərli. B.: Səda, 2004, 471 s.

24. Azərbaycan folklor antologiyası. XI c. / Toplayanı S.Qəniyev, tərtib edənlər H.İsmayılov və S.Qəniyev. B.: Səda, 2005, 442 s.

25. Azərbaycan folklor antologiyası. XII c. Zəngəzur folkloru/ Toplayanlar V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, tərtib edənlər Ə.Əsgər və M.Kazımoğlu. B.: Səda, 2005, 463 s.

26. Azərbaycan folklor antologiyası. XIII c. Şəki-Zaqatala folkloru / Tərtib edənlər İ.Abbaslı, O.Əliyev və M.Abdullayeva. B.: Səda, 2005,549 s.

27. Azərbaycan folklor antologiyası. XIV c. Dərbənd folkloru / Toplayıcılar H.İsmayılov və S.Xurdamiyeva, tərtib edənlər H.İsmayılov və T.Orucov. B.: Səda, 2006, 429 s.

28. Azərbaycan folklor antologiyası. XV c. Dərələyəz folkloru / Toplayıb tərtib edənlər H.Mirzəyev, H.İsmayılov və Ə.Ələkbərli. B.: Səda, 2006, 484 s.

29. Azərbaycan folkloru külliyyatı. I c., Nağıllar II kitab / Tərtib edənlər H.İsmayılov və O.Əliyev. B.: Səda, 2006, 400 s.

30. Azərbaycan folkloru külliyyatı.II c., Nağıllar II kitab / Tərtib edənlər H.İsmayılov və O.Əliyev. B.: Səda, 2006, 400 s.

31. Azərbaycan folkloru külliyyatı. III c., Nağıllar III kitab / Tərtib edənlər H.İsmayılov və O.Əliyev. B.: Səda, 2006, 400 s.

32. Azərbaycan folkloru külliyyatı. IV c., Nağıllar IV kitab / Tərtib edənlər H.İsmayılov və O.Əliyev. B.: Nurlan, 2007, 400 s.

33. Azərbaycan folkloru külliyyatı. V c., Nağıllar V kitab / Tərtib edənlər H.İsmayılov və O.Əliyev. B.:Nurlan, 2007, 400 s.

34. Azərbaycan folkloru külliyyatı. VI c., Tərtib edənlər H.İsmayılov və O.Əliyev. B.: Nurlan, 2007, 400 s.

35. Azərbaycan folkloru dastanları. 2 cilddə, I c. /Toplayanı və tərtib edəni Ə.Axundov. B.: Səda, 1961, 394 s.

36. Azərbaycan folkloru dastanları. 2 cilddə, II c. /Toplayanı və tərtib edəni Ə.Axundov. B.: Səda, 1961, 394 s.

37. Azərbaycan folkloru dastanları /Toplayanı və tərtib edəni Ə.Axundov. B.: Səda, 1980, 249 s.

38. Azərbaycan nağılları. 5 cilddə, I c. Tərtibçi M.H.Təhmasib. B.: Az SSR EA Nəşriyyatı, 1960, 328 s.

39. Azərbaycan nağılları. 5 cilddə, II c. Tərtibçi Ə.Axundov. B.: Az SSR EA Nəşriyyatı, 1960, 376 s.

40. Azərbaycan nağılları. 5 cilddə, III c. Tərtibçi Ə.Axundov. B.: Az SSR EA Nəşriyyatı, 1960, 283 s.

41. Azərbaycan nağılları. 5 cilddə, IV c. Toplayanı və tərtibçisi N.Seyidov. B.: Az SSR EA Nəşriyyatı, 1963, 288 s.

42. Azərbaycan nağılları. 5 cilddə, V c. Toplayanı və tərtibçisi Ə.Axundov. B.: AzSSR EA Nəşriyyatı, 1960, 289 s.

43. Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. B.: Mütərcim, 2002, 162

44.İsmayılov H. Türk eposunun dastan informasiyası erməni mənbələrində // /Struktur-semiotik araşdırmalar, № 2, B.: Səda, 2002, s.145-156

AZƏRBAYCAN FOLKLORUNDA VƏTƏN, YURD SEVGİSİ İLƏ BAĞLI MENTALİTET DƏYƏRLƏRİ

Azərbaycan folklorunda vətən, el-oba, dövlət, dövlətçiliklə bağlı milli mentalitet dəyərləri rəngarəng bədii obrazlar vasitəsi ilə ifadə olumuşdur. Foklorumuzu nəzərdən keçirdikcə xalqımızın öz vətəninə, dövlətinə necə müqaddəs münasibət bəsləməsinin, yurd uğrunda öz şirin canlarından asanlıqla keçmələrinin şahidi oluruq.

Folklorumuzda vətən sevgisi müxtəlif bədii obrazların dili ilə ifadə olunmuşdur. Məsələn, aşağıdakı atalar sözlərində insanın vətən sevgisi ilə bülbülün vətən sevgisi qarşılaşdırılmışdır:

Bülbülü qızıl qəfəsə salmışlar, "Vay vətən!" demiş.

Bülbül gülü sevər, insan vətəni. (1, 158)

Azərbaycan və ümumiyyətlə, Şərq ədəbi düşüncəsində bülbül sevginin, həsrətin, vurğunluğun rəmzi sayılır. Bülbülün qəfəs içində azadlıq həsrəti ilə qəmli nəğmələr oxuması təbii-bioloji hadisədir. Xalqımız bu hadisəni bədilləşdirmiş və eyni zamanda Azərbaycan insanının mentalitetindəki yurda, el obaya, vətənə olan qırılmaz və sarsılmaz bağlılıq dəyərləri də poetik şəkildə obrazlaşmışdır.

Xalqımızın milli mentalitet dəyərlərinə görə, vətən ilk növbədə insanın dünyaya göz açdığı məkandır. Bu halda həmin məkanın necə bir yer olmasının, yəni təbii gözəlliklərinin olub-olmamasının azərbaycanlı üçün elə bir əhəmiyyəti yoxdur. Bu faktor onun vətən anlayışına heç bir təsir edə bilməz. Azərbaycanlı üçün vətən onun dünyaya gəldiyi yerdir. O yer ki, insan dünyanı ilk dəfə burada görür və gördüyü andan qəlbinə, ruhuna vətən məhəbbəti hopur. Anadan olduğu məkan azərbaycanlının ömrünün sonuna qədər əbədi sevgisi olaraq qalır. Çünki Azərbaycan milli mentalitetinə görə, insanın harada anadan olması onun taleyinə Allah tərəfindən yazılır və bu, onun qismətidir. Xalqımız belə hesab edir ki, "Qismətdən qaçmaq olmaz". Bütün bunlar folklorda maraqlı bədii obrazlar vasitəsi ilə təcəssüm olunmuşdur.

Əbülqasim Hüseynzadənin topladığı bir atalar sözündə deyilir:

“Qartala dedilər:

- Harda anadan olmusan?

Dedi: - Uca dağlarda.

Dedilər: -Haraya uçursan?

Dedi: -Uca dağlara” (1, 168).

Məlumdur ki, mifoloji dünyagörüşündə zaman və məkan qapalı quruluşa malikdir. Hərəkət hansı nöqtədən başlanırsa, yenə də həmin nöqtəyə qayıdaraq tamamlanır. Mifdə məkan və zamanının hərəkəti qapalı olmaqla, təkrarlanan struktura malikdir. Bu cəhətdən uca dağlarda anadan olmuş qartalın yenə də uca dağlara üz tutması onun varlığında təcəssüm olunan hərəkət qəlibinin qapalı quruluşa malik olduğunu göstərir.

Türk tanrıçılıq dini mifoloji görüşlər əsasında formalaşmış monoteist canlı (təktanrılı) dindir. O, özünün əsas məzmun və forma qəliblərini türk mifologiyasından götürdüyü üçün həmin atalar sözündəki xronotop qəlibi (məkan-zaman sistemi) dəyişməz qalmışdır.

Mifin atalar sözündə ifadə olunmuş struktur formulu islam dinində daha da inkişaf etdirilmişdir. İslam dinində hər bir şey Allahdan başlanıb, ona doğru qayıdır. Müqəddəs Qurani-Kərimin təlqin etdiyi fəlsəfəyə görə yaradılış aləmindəki hər bir ünsür öz ilkin şəklinə qayıdır. İslam fəlsəfəsi insanın həyatını Allahdan başlanıb, yenə də Onda tamamlanan qapalı dövrə kimi təqdim edir. Bu cəhətdən, uca dağlarda anadan olmuş qartalın bütün ömrü boyu həmin uca dağlara doğru uçmasında mifin, tanrıçılığın və islamın həyat fəlsəfələri biri-birinə transformasiya olunmuşdur. Burada bir cəhət göz önünə gətirilməlidir ki, azərbaycanlılar üçün islami dəyərlər müqəddəsdir. Onların dünyagörüşündə islam dini tərəfindən qəbul olunmayan, islam fəlsəfəsi ilə təsdiq olunmayan görüşə yer ola bilməz. Digər atalar sözlərini nəzərdən keçirdikcə milli mentalitetimizdə çox mühüm yer tutan vətən, yurd dəyərləri vasitəsi ilə müqəddəsləşdirildiyinin şahidi oluruq:

Vətən viranə də olsa, cənnətdir.

Vətənə gəldim, imana gəldim.

Vətənə məhəbbət iman əsəridir. (1, 167-168)

Göründüyü kimi, birinci atalar sözündə vətən cənnətə bərabər tutulmuşdur. Cənnət islam dinində mömin müsəlmanların öləndən sonra sakin olacaqları əbədi məkandır. Azərbaycanlı milli mentalitetində "vətən" anlayışının "cənnət anlayışı əsasında dəyərləndirilməsi iki cəhəti üzə çıxarır:

1. Azərbaycan xalqının milli şüurunda islam dini əsas dünyagörüşüdür. Bu səbəbdən vətən ən uca islami dəyər olan cənnətlə müqayisə olunur.

2. Azərbaycan xalqı vətəni ona görə cənnətlə müqayisə edir ki, o, vətəni müqəddəs sayır. Vətən abad, yaxud xaraba olub-olmamasından asılı olmayaraq, azərbaycanlı üçün müqəddəs və sevgili məkan hesab olunur.

Azərbaycan xalqının vətənə, yurda, el-obaya bağlılığı folklorda qəriblik - qürbət motivi və qərib obrazında özünün parlaq təcəssümünü tapmışdır. Bu barədə çoxlu atalar sözləri vardır:

Vətən yadına düşən qərib ağlamasın, neyləsin?

Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır. (1, 168)

Qürbət - adı bəd.

Qürbət yerdən vətən olmaz.

Qürbət görməyən adam vətən qədri bilməz.

Qürbətdə keçən ömür, nə dəmirdir, nə kömür.

Qürbətdə ölənin papağı nişanə gedər.

Qürbətdə öyünmək, hamamda oxumağa bənzər. (1, 230)

Vətəndən ayrılıq azərbaycanlı üçün çox çətin hadisədir. Məhəbbət dastanlarında buta almış qəhrəman həmişə qürbətə yola düşməli olur. Ata və anası, doğmaları onu buraxmaq istəmir. Çoxlu göz yaşları töksələr də, yalnız ilahi qismət qarışısında güzəştə gedirlər. Məsələn, "Əsli və Kərəm" dastanında Kərəm Əslini götürüb qaçmış Qara keşişin ardı ilə getmək istəyir. Atası və anası bu işə razı olmurlar:

“Söz tamam oldu. Kərəm dedi:

- Ata, mənim dərdim Keşiş qızı Əsli xanın dərdidi.

Ziyad xan dedi:

- Oğul, sən gəl o qızın eşqini ürəyindən sil! Mən burada könlün istədiyi bir qızı sənə alaram.

Kərəm dedi:

- Ata, mənə Əslidən qeyr-əz-gözəl lazım deyil. Mən gərək onu axtaram, tapam.

Ziyad xan dedi:

- Oğul, gəl sən bir keşişin qızından ötrü diyar-qürbətə düşmə!

Kərəm dedi:

- Ata, izn ver, mən gedim. Qürbət mənə xoşdu. Bəlkə, qismət ola, yarıma yetişəm.

Ziyad xan dedi:

- Oğul, sən ki bu sevdadan əl çəkmirsən, get, Allah sənə yar olsun!”. (2, 24)

Göründüyü kimi, Ziyad xan oğlunun qürbətə getməsini - vətəndən uzaq duşməsini heç bir vəchlə qəbul etmək istəmir. Lakin bu ayrılığın İlahi qisməti olduğunu biləndən sonra razılaşır: oğluna “get, Allah sənə yar olsun” deyir. Bu, o deməkdir ki, azərbaycanlılar öz vətənlərindən ancaq İlahi naminə - Allahın bəyəndiyi əməllər naminə uzaq düşməyə razı olurlar. Bu cəhətdən “vətən və qəriblik” anlayışlarının milli mentalitetimizdə kəsb etdiyi yüksək ilahi mənalar, təsəvvüfi-irfani anlamlar Kərəmin anası ilə dialoqu zamanı söylədiyi şeirdə bütün poetizmi ilə öz əksini tapmışdır.

“Kərəm atasının əlindən öpdü, Sofi ilə birlikdə anasının yanına getdi. Anası bunu belə görəndə xəbər aldı:

- Oğlum, belə gəlməyinin əsli nədi?

Kərəm dedi:

- Ana can, izn ver saznan deyim.

Aldı Kərəm, görək anasına nə dedi:

Qəm, qəzavət bu gün başa verildi,
Ağla, ana, ayrılığın günüdü!
Bizə qismət qərib ellər yazıldı,
Ağla, ana, ayrılığın günüdü!

Məni xar elədi elin dilləri,
Mən gedirəm, gözləməyin yolları;
Varıban məsafə burax gəzərəm qürbət elləri,
Ağla, ana, ayrılığın günüdü!

Fələk bizi daşa çalar nə üzlər,
Ana, intizarda qalmasın gözlər;
Kərəm deyər: Əslim yolumu gözlər,
Ağla, ana, ayrılığın günüdü". (2, 24-25)

Göründüyü kimi, burada qəriblik ilahi qismətdir. Vətəndən çıxmaq ayrılıq günü sayılır. Ona görə ki, azərbaycanlılar harada olurlarsa-olsunlar vətəndən kənarda özlərini heç vaxt xoşbəxt hiss etmirlər. Onlar öz vətənlərində keçirdikləri kasıb həyatı qürbətdə keçirdikləri varlı həyatdan üstün tuturlar.: "Uzaq yerin halvasın hoza ilə döyərlər" atalar sözündə bu daha aydın mənalandırılmışdır. Başqa sözlə, insana öz vətənində çox asan başa gələn iş qürbətdə həddindən artıq çətin başa gəlir.

Öz vətənindən uzaq düşmüş azərbaycanlı daim yurdun intizarında olur: yurddan ayrı düşəndə gözü yaşlı, ürəyi qəmli, qulağı səsdə olur:

Əzizim çeşmə, haray,
Gözümnən getmə, haray.
Əldən çıxıb bulaxlar,
Gəzirəm çeşmə, haray. (5,376)

Öz vətənindən uzaq düşən azərbaycanlı üçün ən böyük dərd qürbətdə ölməkdir. Ömrünü qürbətdə keçirməyə məcbur olduqda onun bircə məqəddəs arzusu olur: öləndə vətəndə ölmək:

Dağlarda lalə yalqız,
Gül qoşa, lalə yalqız
Qorxuram qərib öləm,
Qəbrim də qala yalqız (5,376)

Qürbət azərbaycanlı üçün bütün gözəlliyi ilə bərabər dərd, ağrı, acıdır. Çünki o, öz vətənində deyildir. Bütün varlığı ilə vətəninə, yurduna bağlı olan azərbaycanlının qəlbi qürbətdə həssaslaşır: qəribliyin kiçik bir zərbəsi də onun üçün böyük bir əzaba, ağrıya dönür:

Eləmi bu dar məni,
Həm sıxar bu dar məni.
Qürbətdə qalan canım
Hər yetən budar məni (5, 324).

Maraqlıdır ki, elat həyatı yaşayan azərbaycanlı hətta müvəqqəti olaraq dağlardan ayrı düşəndə də qəriblik hissi keçirir. Bildiyimiz kimi, elat insanları yayı yaylaqda (dağlarda), qışı aranda keçirirlər. Xalqımız bu ayrılığa da dözməyib öz qəriblik hisslərini bayatıya çevirmişdir:

Əzizim bizim dağlar,
Dibi buz-bulax dağlar.
Dağda yaylax eliyən,
Aranda qalıf ağlar (5,376).

Ümumiyyətlə, bayatılar folklorumuzun poetik möcüzəsidir. Prof. A.Hacılının yazdığı kimi: "Hər bir bayatı yalnız ümumiləşmiş insan obrazının və ya müəyyən tipik situasiyanın bədii inikası deyil, həm də poetik dünya modeli, həyat haqqında ənənəvi bədii-estetik təsəvvürlər məcmusudur. Bədii modelləşdiricilik bir sıra vasitələrlə, o cümlədən mətndə təbii, ictimai və sakral mühitlərin paralelliyi ilə yaradılır. Bundan əlavə bədii simvolika, alleqoriya,

ritoriklik və şərtilikdən istifadə modelləşdiriciliyə xidmət edir. Təsvir olunan mənzərə real və simvolik, təbii və sakral məkanların ehtizası təmasından yaranır. Ümumi cizgiləri türk dünya modelinə uyğun gələn bu bədii mənzərə əsərin məna dərinliyi və fəlsəfiliyini əsaslandırır". (6,91)

Yurda bağlılıq xalqımızın canında, qanındadır. Vətən məhəbbəti azərbaycanlı üçün elə bir hissdir ki, dünya durduqca onu tərk etməyəcək. Biz Qarabağla bağlı bayatıları nəzərdən keçirdikdə görürük ki, xalqımızın vətənin birliyi və bütövlüyü haqqındakı hissləri sarsılmaz və əbədidir. Heç bir düşmən. onun məkri və hiyləsi, gücü və qüdrəti Azərbaycan xalqını vətəninə bəslədiyi məhəbbətdən, o cümlədən vətənimizin ayrılmaz parçası olan Qarabağdan – döndərə bilməz. Əslində, Qarabağla bağlı bayatılarda çağdaş azərbaycanlı mentalitetinə məxsus vətənsevərlik dəyərləri öz ifadəsini tapmışdır:

Qəribəm o vətəndə,
Gözüm yoldan ötəndə.
Dizin-dizin sürünnəm
Qarabağdan ötəndə.

Əzizinəm, bu dərdi,
Dərya dərdi, su dərdi.
Qarabağdan gen düşdüm,
Çəkəmmədim bu dərdi.

Mən aşıq əldə fanar,
Tutmuşam əldə fanar.
Qarabağın dərdinə,
Ah çəksəm, ürək yanar.

Aşıq qarabağlıdı,
Belim haqdan bağlıdı,

Yolçu, qayt qonaq ol,
Bu el qara bağlıdı.

Bu dağda gözüm qaldı,
Söhbətim sözüm qaldı.
Qarabağda qəribəm,
Gedirəm, izim qaldı.

Bülbül Qarabağdadı,
Oxur Qarabağdadı,
"Öldü" deyə bilmərəm,
Odu, Qarabağdadı.

Bu dərədən çay gəldi,
Bahar getdi, yay gəldi.
Sınıq könlüm gülməmiş,
Qarabağdan hay gəldi (4, 333-334).

Bu bayatları təhlil etdiyimizdə Azərbaycan xalqının Qarabağın simasında vətənə verdiyi aşağıdakı dəyərləri müşahidə edirik:

1. Qarabağ azərbaycanlı üçün qarşısında diz çökdüyü, bütün varlığını qurban etməyə hazır olduğu müqəddəs və ulu məkandır.
2. Qarabağ vətəninin ayrılmaz bir parçası kimi hər bir azərbaycanlının qəlbində köz bağlamış yaradır.

3. Qarabağ Azərbaycan xalqı üçün dünyaya sübüt edə bilmədiyi, ancaq heç vaxt üz döndərmədiyi vətəndaşlıq haqqıdır.

4. Qarabağ müqəddəs yurd kimi azərbaycanlıların uğrunda son damla qanlarına qədər mübarizə aparacaqları haqq işidir.

5. Qarabağ bu gün azərbaycanlı düşüncəsində öz vətənində qəribliyin simvoludur.

6. Qarabağ xalqımız üçün olum-ölüm həqiqətidir.

7. Qarabağ azərbaycanlının düşüncəsində sızlayan yurd yeri, insanları ayaqda saxlayan milli qeyrət qalasıdır.

Vətən sevgisi, yurda bağlılıq "Koroğlu" dastanında da əsas motivlərdən birini təşkil edir. Məsələn, "Koroğlu ilə Bolu bəy" qolunda göstərilir ki, Bolu bəy namərdlik edib, sözünə xilaf çıxır və Koroğlunu əsir aparır. Uzun mübarizədən sonra Koroğlu düşmənlərinin üzərində həmişə olduğu kimi qələbə çalıb geri qayıdır:

"Qərəz, Koroğlu, İsabalı, Dünya xanım, qarabaş Mehtər Murtuzu da qabaqlarına qatıb Çənlibelə tərəf yola düşdülər. O qədər at sürdülər ki, gəlib çatdılar Çənlibelin dağlarına. Dağları görcək Koroğlunun ürəyi oynadı, gözləri doldu. Koroğlu çox qürbətlərdə olmuşdu. Amma heç belə qəribsəməmişdi. Bu dəfəki qürbət ona çox əsər eləmişdi. Üzünü dağlara tutub dedi:

Bir zamanlar səfa sürüb gəzərdim,
Onda səndin mənim qardaşım, dağlar!
Nə zaman ki yağı düşman gələndə
Səndə çox olurdu savaşım, dağlar!

Taladım şahları, hələ az dedim,
Türfə gözəllərə işvə, naz dedim,
Neçə tacir-tüccar səndə gizlədim,
Açmadım sirrimi sirdaşa dağlar!

Koroğluyam, gəzdiyimi tapardım,
Qayalar başında qala yapardım,
Ağ sürüdən əmlik quzu qapardım,
Yeyib qurtlarınla ulaşım, dağlar! (3, 307-308)

Qeyd edək ki, Koroğlunun yurd həsrətinin dağ obrazı ilə ifadə olunması təkcə Çənlibelin dağlarda yerləşməsi ilə bağlı deyildir. Bunun arxaik-mifoloji

düşüncəyə gedib çıxan digər səbəbləri də vardır. Prof. A.Hacılı yazır ki, "Azərbaycan türklərinin etnik-coğrafi təsəvvürlərinin tədqiqinin müəyyən özünəməxsusluqları var. Belə ki, yurdumuzun ərazisi bir çox digər tarixi-etnik məkanlardan fərqli olaraq, daxilən olduqca rəngarəngdir: dağlar, düzənlər, meşələr, qumluqlar, dənizlər, çaylar zəngin bir mənzərə yaradır. Məhz buna görə azərbaycanlıların mentalitetində köçəri, oturaq, dağlı, dənizçi həyatı keçirən xalqlara xas özəlliklər qovuşur. Və milli mədəniyyətimiz yurdun coğrafi əlvanlağından gələn, şüurumuzun kökündə, substrat mahiyyytində izlənən polietnoqrafiklik (etnoqrafik çoxçalarlılıq - İ.A.) qazanır". (7,51)

Demək, Koroğlunun dağları görəndə ruhunun yerindən oynaması, vətən duyğularının cuşa gəlməsi onun qanında yaşayan dağ yaddaşı ilə bağlıdır. Dağa bağlılıq, onu sakral məkan - Uca Tanrının simvolu kimi qəbul etmək Azərbaycan türkünə mifoloji çağdan xas olan etnopsixoloji mentalitet cizgisidir. Koroğlu da xalqımızın müsbət milli mentalitet cizgilərinin üymumiləşmiş obrazıdır. Bu cəhətdən onun vətən sevgisində dağların xüsusi simvolik mənası vardır.

Beləliklə, xalqımızın vətən, yurd, el-oba sevgisi ilə bağlı mentalitet dəyərlərinin folklorda təcəssümünün araşdırılması göstərdi ki, azərbaycanlı mentalitetində bu kimi dəyərlər özünə əsaslı yer tutduğu kimi, bu, uyğun olaraq folklorda da öz inikasını tapmışdır. Tədqiqat göstərdi ki, Azərbaycan xalqının yurda məhəbbəti sakral xarakter daşıyır: hər bir vətən oğlu öz yurdunu ona babalardan miras qalmış müqəddəs məkan sayır və göz bəbəyi kimi qoruyur. Bu müqəddəs məhəbbət folklorda da özünün parlaq təcəssümünü tapmış, çox maraqlı süjet və obrazlara çevrilmişdir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Atalar sözü / Toplayanı: Ə.Hüseynzadə, tərtib edəni: H.Qasımzadə.B.:Yazıçı, 1985, 650 s.

2. Azərbaycan dastanları. 5 cildə, II c. / Tərtibçilər: Ə.Axundov və M.H.Təhmasib. B.: Az.SSR EA Nəşriyyatı, 1966, 340s.

3. Azərbaycan dastanları. 5 cilddə, IV c. / Tərtib edəni M.H.Təhmasib. B.: AZ. SSR EA Nəşriyyatı, 1969, 508 s.

4. Azərbaycan folklor antologiyası. V c. Qarabağ folkloru

Toplayanlar İ.Abbaslı, T.Fərzəliyev və Nəcəf Nazim (Quliyev), tərtibçi İ.Abbaslı. B.: Səda, 2001, 413 s.

5. Azərbaycan folklor antologiyası. XII c. Zəngəzur folkloru / Toplayanlar V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, tərtib edənlər Ə.Əsgər və M.Kazımoğlu. B.: Səda, 2005, 463 s.

6. Hacılı A. Bayatı poetikası. B.: Elm, 2000, 162 s. 7. Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. B.: Mütərcim, 2002, 162 s.

AZƏRBAYCAN FOLKLORUNDA MƏNƏVİ-ƏXLAQİ MENTALİTET DƏYƏRLƏRİ

Azərbaycan folklor milli mənəviyyatımızın güzgüsüdür. Xalqımızın bütün tarixi boyunca qazandığı bütün müsbət mənəvi-əxlaqi keyfiyyətlər folklorda bədiiləşmişdir. Folklorumuzda bu cəhətdən milli mentalitetimiz üçün xarakterik olan, bizi bir türk-müsəlman xalqı kimi digər etnoslardan xüsusi şəkildə fərqləndirən ar, namus, ismət, iffət, abır, həya, mərdlik, comərdlik, səxavət, adillik, səbirlilik, böyük-kiçiyə hörmət, ata-anaya hörmət, ailə qeyrəti və s. kimi dəyərlər tərənnüm olunmuş, bunun əksi olan keyfiyyətlər pislənmiş və antiəxlaqi davranışlar kimi rədd edilmişdir.

Bədii düşüncə tarixini bir güzgü kimi əks etdirən folklorumuzu nəzərdən keçirdikdə görürük ki, yuxarıda sadalanan mənəvi-əxlaqi keyfiyyətlər milli mentalitet sistemimiz üçün həmişə xarakterik olmuşdur. Bunun bariz örnəyini ilk növbədə oğuz babalarımızın qəhrəmanlıq və mənəviyyat tarixindən bəhs edən "Kitabi-Dədə Qorqud" dastanı qoruyaraq bizlərə çatdırmışdır. Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının, ilk növbədə, milli-mənəviyyat abidəsi, milli mentalitet dəyərlərimizin bədii söz vasitəsi ilə "yonulmuş" heykəlidir.

Abidənin "Salur Qazanın evinin yağmalanması" boyunda kafirlər Qazan xanın ovda olmasından istifadə edib namərdcəsinə evini talayır, qızını-gəlinini, o cümlədən oğlu Uruzu əsir götürürlər. kafirlərin başçısı Qazandan "heyif almaq üçün" onun namusuna sataşmaq qərarına gəlir:

"Bu yana, Şökli Məlik kafərlərlə şən-şadman yeyüb-içüb oturardı. Aydır: - Bəglər, bilürmisiz, Qazana necə heyf eyləmək gərək? Boyı uzun Burla xatunını gətürib sağra sürdürmək gərək, - dedi". (8, 46)

Bu xəbər Qazanın arvadı Burla xatun tərəfindən həyəcanla qarşılanır. Düşmən əsirliyində olan qadın heç də öz şirin canı, sağ qalmaq barəsində yox, əri Salur Qazanın namusunu qorumaq haqqında düşünür. Çünki onun əri xanlar xanı Bayındır xanın kürəkəni, bəylər bəyi, Oğuz elinin sərkərdəsi idi. Burla

xatun başa düşürdü ki, Salur Qazanın namusunun tapdalanması bütöv Oğuz elinin təhqir oluması deməkdir. Bunu bütün məsuliyyəti ilə dərk edən Burla xatun ərinin namusunu qorumaq haqqında yollar fikirləşir.

Bu epizodda kafirlər Qazanın namusuna sataşa bilmirlər. oğuz qadınları təkcə namuslu yox, həm də ağıllı və müdrik insanlar idi. Onlar öz ağıllarının sayəsində xilas olurlar.

Dastanın növbəti epizodunda oğuz mentalitetinin iki sakral dəyəri – namus və övlad məhəbbəti qarşılaşdırılır. Kafirlər belə qərara gəlirlər ki, Qazanın oğlu Uruzun ətindən kabab çəkib bəy qızına versinlər və bu yolla Burla xatunun kimliyini müəyyənləşdirsinlər.

Qeyd etmək istərdik ki, bu, dastanın psixoloji baxımdan çox təsirli səhnələrindəndir. Bu səhnədə oğuz dastançılığının iki yüksək keyfiyyəti təzahür etmişdir :

1. Bir tərəfdən ana ilə balanın simasında həyat və ölüm dilemması yaradılmış və bu, bədii cəhətdən son dərəcə yüksək psixoloji lövhələr vasitəsi ilə təcəssüm etdirilmişdir. Bu, oğuz bədii düşüncəsinin sənətkarlıq göstəricisi kimi diqqəti cəlb edir.

2. Bu, son dərəcə həyəcanlı psixoloji lövhələrdə oğuz milli mentaliteti üçün xarakterik olan ali və ideal dəyərlər tərənnüm olunmuşdur. Oğuz milli ruhunun bu səciyyəvi keyfiyyətləri bədii-tarixi sınağa məruz qalmış və bədii həqiqətin qələbəsinin simasında oğuz milli dəyərlərinin əbədiliyi və həmişəyaşarlılığı təsdiq olunmuşdur. Epizoda diqqət edək:

"Kafir aydır : "Mərə, varın Qazanın oğlı Uruz tartun çəngələ asun. Qıyma-qıyma ağ ətindən çəkün. Qara qaurma bişürüb qırq bəg qızına ilətün. Hər kim yedi, ol degil, hər kim yemədi, oldur. Alun gəlün, sağraq sürsün!" - dedi". (8,46)

Dastanın gözəlliyi ondadır ki, burada epik obrazların tipikləşdirmə səviyyəsi çox yüksəkdir. Belə ki, Burla xatun surətində ana obrazı üçün xarakterik olan bütün cizgiləri tapmaq mümkündür. Burla xatun kafirin bu tədbiri haqqında eşidəndə canına od düşür. Namusunu hər şeydən uca tutan qadının düşüncəsində

övlad məhəbbəti tərəddüdlər yaradır. Ana seçim edə bilmir : namusundan da, övladından da keçə bilmir. Hər iki dəyər onun üçün əzizdir. Birini o birinə qurban verə bilmir. Seçimi oğlunun öhdəsinə buraxır. Lakin eyni zamanda xatırladır ki, bu Salur Qazanın namusunun tapdalanması olacaqdır ("Ağan Qazanın namusunu sındırayınmı?").

Beləliklə, ulu babalarımız oğuzların folklorunda onların milli mentalitet sisteminin ən ali dəyəri olan namus sınağa çəkilir və Uruzun bu məsələyə münasibətində el, oba, dövlət, qadın, ana, bacı namusunun oğuzlar üçün nə qədər uca və ulu dəyər olması üzə çıxır. Əslində, Uruzun anasına cavabı milli mentalitetdə namus, qeyrət dəyərlərinin ən ali dəyər olması haqqında manifestdir. Oğuz dastançıları bu səhnəni yaratmaqla oğuz mənəvi-əxlaqi dəyərlərinə həm də bədii əbədiyyət vermişlər.

"Uruz aydır: "ağzın qurısın, ana! Dilün çürisin, ana! "Ana həqqı – Tənri həqqi" denilməsəydi, qalqubanı yerimdən turaydım, yaqanla boğazından tutaydım. Qaba öncəm altına salaydım. Ağ yüzini qara yerə dəpəydim. Ağzunla yüzindən qan şorladaydım. Can tatlusın sana göstərəydim. Bu nə sözdür? Saqın, qadın ana! Mənim üzərimə gəlmiyəsın! Mənim içün ağlamıyasan! Qoy bəni, qadın ana, çəngələ ursunlar! Qoy ətimdən çəksünlər, qara qaurma etsünlər, qırq bəg qızının öginə ilətsünlər. Anlar bir yedigində sən iki yegil! Səni kafərlər bilməsünlər, tuymasunlar. Ta kim, sası dinlü kafərin döşəginə varmıyasan. Sağrağın sürmiyəsən. Atam Qazan namusını sımayasan. Saqın!" – dedi" (8, 47).

Burada oğuzların milli mentalitetinin daha bir uca dəyəri - "analıq haqqı" namus və övlad məhəbbəti dəyərləri ilə qarşılaşdırılmışdır. Uruz anasının sözlərini eşitdikdə qəzəblənir. Anasını onun ətindən yeyib-yeməmək məsələsində tərəddüd etməsinə görə, hətta öldürmək istəyir. Ancaq bu işdən onu "Ana haqqı-Tanrı haqqı" görüşü dayandırır. Beləliklə, aydın olur ki, namus oğuzlar üçün ən uca və ülvi mentalitet dəyəridir. Oğuzlar namus məsələsinə öz şirin canlarından artıq dəyər verirlər.

Oğuz eposunun təhlili göstərir ki, xalqımız üçün milli mentalitet dəyərlərinin ən ali keyfiyyəti onların müqəddəsliyindədir. Oğuzların milli düşüncəsi üçün xarakterik olan dəyərlər onlar tərəfindən müqəddəs sayılmışdır.

Onlar namusa da müqəddəs dəyər kimi yanaşırdılar. Uruzu anasına əl qaldırmaqdan Ana haqqının Tanrı haqqına bərabər tutulması saxlayır. Başqa sözlə, eposda oğuz milli mentalitetinin namus, övlad məhəbbəti, analıq haqqı dəyərlərinin Tanrı haqqı dəyəri ilə qarşılışdırılması (əlaqələndirilməsi) vasitəsi ilə namusun sakral dəyər olması təsdiqlənir. Azərbaycan folklorunun digər nümunələrinin nəzərdən keçirilməsi göstərir ki, xalqımız namus hissini müqəddəs dəyər saymışdır.

Azərbaycan folklorunda yurdumuzun ulu abidələri birbaşa namus, qeyrət dəyərlərinin simvolu kimi müqəddəsləşdirilmişdir. Səciyyəvidir ki, namus, qeyrət, abır, həya kimi milli mentalitet dəyərləri ilkin mifoloji inamlarla bağlıdır. Azərbaycan mifoloji mətnlərində bir çox etioloji (izahedici) miflərin məzmunu namus, abır-həya, ismət dəyərləri ilə bağlıdır.

Miflərdən birində deyilir ki, bir gəlin başını yuyurmuş. Qaynı bunu görür. Gəlin utanır. Deyir ki, Allah, məni daş elə. Allah da bunu daş edir. İndi Gərdəni çayının qayalıqlarında bu daş qalır. “Gəlin qaya” adlanır (4, 84).

Mifin təhlilindən aşağıdakı qənaətlər hasil olur:

Birincisi, namus, qeyrət, abır-həya kimi dəyərlər Azərbaycan xalqının milli mentalitet sistemi üçün arxaik dövrlərdən xarakterikdir.

İkincisi, milli mentalitetin bu dəyərləri ilkin arxaik-mifoloji inamlar sırasında özünə yer almışdır. Bu, o deməkdir ki, həmin dəyərlər ta qədimlərdən sakral (müqəddəs) sayılmış və ilahi dəyərlər səviyyəsində qəbul olunmuşdur.

Üçüncüsü, xalqımızın namus, abır-həya kimi milli mentalitet dəyərlərinin yer-yurd adlarının, dağların, qayalıqların, qalaların yaranması ilə əlaqələndirilməsi, bir növ həmin dəyərlərə qoyulmuş maddi abidələrdirsə, onları yaddaş kimi yaşadan mifoloji əfsanə və rəvayətlər də bədii söz abidələridir.

Milli mentalitet dəyərlərinin maddi və mənəvi abidələrimizdə belə təcəssüm olunması folklorumuz üçün xarakterikdir.

Maraqlıdır ki, əfsanələrdə canlı aləmin ayrı-ayrı növlərinin, xüsusilə quşların meydana gəlməsi namus, qeyrət, abır, ismət kimi mentalitet dəyərləri ilə əlaqələndirilmişdir. Məsələn, kəklik quşunun yaranması haqqında əfsanədə deyilir ki, qədimlərdə çox gözəl, ağıllı, namuslu bir qız var imiş. Bu qız öz əmisi oğluna adaxlı imiş. Qızın toy günü olur. Onun əl-ayağına xına qoyurlar. Hamının başı həyət-bacada toy işlərinə qarışır. Qız təkcə yengə ilə evdə oturubmuş. Bu vaxt çoxdan bəri qızı izləyən, onu ələ gətirməyə çalışan başqa bir oğlan başının dəstəsi ilə içəri girir. Yengənin əl-ayağını, ağzını bağlayıb yerə yıxırlar. Qızı da götürüb dağlara qaçırırlar.

Qız nə qədər dartınır, qışqırır, yalvarır ona qulaq asan olmur. Hər şeydən əlacı kəsilən, əli üzülən qız üzünü göyə tutub deyir:

- Tanrı, məni quş elə,
Qanadı gümüş elə.
Eldə rüsvay eləmə,
Dağda günüm xoş elə,
Daşlara yoldaş elə.

Qız onu deyən kimi dönüb kəklik olur, pırıltı ilə uçub çəmənliyə düşür. Qızın əl-ayağı xınalı olduğu üçün kəkliyin də ayağı xınalı olur. (4, 68)

Göründüyü kimi, Azərbaycan folklorunda kəklik quşunun yaranması, eləcə də onun əsas fizioloji əlaməti olan ayağının qırmızılığı birbaşa namusla əlaqələndirilmişdir. Şanapipik quşunun da meydana çıxması eyni şəkildə əfsanələşdirilmişdir. Əfsanədə deyilir ki, şanapipik gözəl bir gəlin imiş. Bir gün o, saçını yuyub darayırmış. Birdən qaynatası gəlini görür. Gəlin utandığından Allaha yalvarır ki, onu quş eləsin. Başındakı daraqla "Allah bunu quş eləyir. Bunun bir oğlu da varmış. Ona görə də həmişə bu "bup-bup" eləyib oğlunu axtarır". (4, 68)

Maraqlıdır ki, Azərbaycan folklorunda dünyanın digər xalqlarının folklorundan fərqli olaraq məhz mənəvi-əxlaqi sifətləri, milli xarakterin müsbət mentalitet dəyərlərini təbliğ edib, antiəxlaqi sifətləri pisləyən xüsusi şeir növü – ustadnamə janrı vardır. Baxmayaraq ki, folkorumuzun digər növ və janrlarının hamısı üçün mənəvi-əxlaqi detallar xarakterikdir, ancaq bununla bərabər ustadnamə birbaşa mənəvi-əxlaqi dəyərlərin tərənnümünə xidmət edir.

Prof. Ə.Mirəhmədov yazır ki, ustadnamə "ustad sözü", "ustad öyüdü", deməkdir... belə şeirlər tərbiyəvi, fəlsəfi nəticələri tərənnüm etmək yolu ilə nəsihətamiz fikir söyləyir, məsləhət və öyüd verir". (9, 212)

Prof. M.Həkimov qeyd etmişdir ki, "aşıq poeziyasında ustadnamələr əsasən, "Bayatı", "Gəraylı", "Qoşma", "Müxəmməs", "Təcnis", "Divani", "Varsağı", "Heydəri", "Əlif-lam" və s. kimi formalarda yazılır. Ustadnamə - ustad nəsihəti, ustad sözü, ustad vəsiyyəti deməkdir. Bu qəbil öyüdləmələrdə " nəsihət, məsləhət, atalıq-böyüklük qayğısı, fəlsəfi ümumiləşdirmə, kainat, cəmiyyət, ailə, məişət, insani keyfiyyətlər, yaxşılıq, gözəllik, mərifət, əqil, kamal, paxıllıq, riya, yamanlıq, yaltaqlıq və s. kimi məsələlər haqqında düşüncələr əks etdirilir. (7, 207-208)

Beləliklə, ustadnamələrdə tərənnüm olunan mənəvi-əxlaqi dəyərlər cəmiyyətin əsas etik-mənəvi ideallarını əks etdirən kanonlardır. Bunlar cəmiyyətin yazılmamış qanunlarıdır. Ustadnamələrdəki əxlaqi-mənəvi dəyərlər xalqın əsrlər boyu uca tutduğu, özünün davranışlarında əməl etdiyi sosial-mənəvi davranış qəliblərdir. Bu cəhətdən Azərbaycan aşıq şeirinin XVI əsr sənətkarları Miskin Abdal və Qurbanidən başlamaqla, təqribən, beş əsrlik tarixinin izlənilməsi göstərir ki, ən azı, bu beş yüz il ərzində xalqımızın mənəvi-əxlaqi dəyərləri sabit keyfiyyətdə qalmaqla, öz kristal saflığını qorumuşdur.

Miskin Abdal "Başın" adlı ustadnamə-gəraylıda öz müasirlərinə ustad nəsihəti verib onlarda aşağıdakı mənəvi keyfiyyətləri görmək istəyir:

Namərdinən yoldaş olma,
Uzun ağrı çəkər başın.

Halalınan ərsiyə çat,
Daş qalalar söykər başın.

Xayın çıxma Yaradana,
Qibləgahdı ata-ana.
Arxalanma bəyə-xana,
Qoy sağ olsun nökər başın.

Haxdan istə baxtı-yığbal,
Yaradanı yadına sal,
Söz gövhərdi, Miskin Abdal,
Saxla, dürdü, tökər başın. (10, 28)

Bu şeirdə bir sıra mühüm orta əsr mentalitet dəyərləri ilə qarşılaşırıq. Burada mərdlik, halallıq, Tanrıya sədaqət, ata-anaya hörmət, mənlik ləyaqəti, şükranlıq, sözə sayğı kimi mentalitet dəyərləri tərənnüm olunmuş, bunun əksi olan sifətlər pislənmişdir.

Milli mentalitet dəyərlərinin poeziyada tərənnümü baxımından XVIII əsrin görkəmli el şairi Xəstə Qasımın şeirləri səciyyəvidir. Sənətkar "Yar olmaz" adlı qoşmada deyir:

Dəli könül, nə divanə gəzirsən,
Bivəfa dilbərdən sənə yar olmaz.
Düz çıxmaz ilqarı, əhdi, peymanı,
Hərcayıda namus, qeyrət, ar olmaz.

Üz vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə,
Ot bitər kök üstə, əsli nə isə,
Yovşan bəsləməklə çəmənzar olmaz.

Vəfalıya əmək çəksən itirməz,
Bədəsil nəsihət, öyüd götürməz,
Qabaq tağı tər şamama bitirməz,
Göy söyüddə heyva olmaz, nar olmaz.

Təklif olunmamış bir yerə varma,
Nər olmaz meydanda hər bığıburma,
Suyrağıb adama sən yaxın durma,
Xain çıxar, onda düz ilqar olmaz.

Xəstə Qasım günü keçmiş qocadı,
Gələn bəzirgandı, gedən xocadı,
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı, budağında bar olmaz (2, 102-103).

Bu şeir bizə orta əsr milli mentalitet dəyərləri əsasında qurulan insan tiplərini – milli mentalitet sisteminin xarakterik obrazlarını müəyyənləşdirməyə imkan verir:

B i v ə f a – ilqar, əhd-peyman, sədaqət kimi mentalitet dəyərlərindən məhrum insan.

H ə r c a y ı - namus, qeyrət, ar, abır, həya kimi mentalitet dəyərlərindən məhrum insan: başqa sözlə, namussuzluq, qeyrətsizlik, arsızlıq kimi mənfi əxlaqi sifətlərin daşıyıcısı.

V ə f a l ı – ilqar, əhd-peyman, sədaqət, qədirşünaslq (qədirbilənlik) kimi mentalitet dəyərlərinin daşıyıcısı olan insan.

Ümumiyyətlə, ustadnamə şeirində müsbət mentalitet dəyərlərinin tərənnüm və təbliğ olunması və mənfi sifətlərin inkar edilməsi bu şeir növünün poetik təbiəti ilə bağlıdır. Ustadnamələr insanın mənəvi cəhətdən saflaşmasına, ictimai gözəlliyin təntənəsinə xidmət edir. Tədqiqatçı O.Əfəndiyev bu haqda yazdığı kimi: “Mənəvi gözəlliyin aşıq şeirində təsviri gerçəkliyin gözəlliyinə, yüksək

mənəviyyata, kamilliyə can atmaq kimi məsələlərlə bağlıdır. Burada estetik hiss, duyğu, həyəcan, zövq kimi estetik münasibətlərə geniş meydan verilir. Həm də bütün bu təsvirlər estetik idealın təcəssümünə xidmət edir. Estetik ideal bir meyar kimi mənəviyyat aləminin gözəllik qanunlarını təsdiqləyir. Ona görə də aşıq poeziyasının estetik problemlərindən danışarkən "mənəvi gözəllik" məsələsi ön plana keçir". (6, 11)

Dədə Ələsgərin mənəvi gözəllik haqqında poetik idealına görə isə insanın iki əsas mənəvi keyfiyyəti olmalıdır: insanlıq və səxavət:

Haq sözə gərəkdi qiymət olsun,
Qiymət verməyə mərifət olsun,
İnsanda insanlıq, səxavət olsun,
Neylərəm ki, cah-calalı varıymış. (3, 12)

Bu halda insanlıq və səxavət hər biri milli mentalitet sisteminin kompleks obrazlarıdır. Başqa sözlə, həm insanlığı, həm də səxavəti şərtləndirən mentalitet dəyərləri vardır:

İ n s a n l ı q – namus, abır-həya, qeyrət, həssaslıq, alicənablıq, adillik, rəhmdillilik, şükranlıq, halallıq, gözütoxluq və s. kimi mentalitet dəyərlərinin kompleksi.

S ə x a v ə t – gözütoxluq, tamahsızlıq, nəfssizlik, köməkdarlıq, pənahdarlıq və s. kimi mentalitet dəyərlərinin kompleksi.

Sənətkarın "Gərəkdi" adlı qoşmasında "aşıq" obrazını şərtləndirən mentalitet dəyərləri tərənnüm olunmuşdur:

Aşıq olub, diyar-diyar gəzənin,
Əzəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı güldürə, nəfsin yandıra,

El içində pak otura, pak dur,
Dalısınca xoşsədalı gərkdi.

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən ləlü gövhər süzülə,
Məcazı danışa, məcazı gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyləyə, utana,
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər, haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi. (3, 15-16)

Beləliklə, məlum olur ki, "aşıq" olanın ilk əsas mentalitet dəyəri onun ədəb sahibi, mərifət sahibi olmasıdır. Əgər aşıqda ədəb, mərifət, qanacaq, qabiliyyət dəyərləri olmasa, o, el (ictimaiyyət – sosial mühit) içində baş çıxara bilməz.

Əsil aşıq həqiqətpərəst olmalı, doğruluq, düzgünlük kimi dəyərlərə sahiblənməlidir. Buna gedən yolun özü də başqa mənəvi dəyərlərlə bağlıdır. Belə ki, aşıq həqiqət carçısı olub, insanlara həqiqətdən, doğruluq-düzgünlükdən danışmaq və onları özünə inandırmaq üçün özü ilk növbədə nəfs, tamah kimi mənfi mentalitet sifətlərindən uzaq olmalıdır. Bu halda onun mənəvi simasını səciyyələndirən ən böyük dəyər paklıq (saflıq – təmizlik) olmalıdır.

Aşıq ədəblilik, paklıq, saflıq kimi dəyərlərin sahibi olandan sonra onun danışdığı sözlər ləl-gövhər kimi qiymətli olur. Başqa sözlə, insanın sahib olduğu

müsbət mentalitet dəyərləri onun qəlbini paklıq mücəssiməsinə çevirir və bu halda danışdığı sözlər də bir güzgü kimi bu paklığı əks etdirir.

Ələsgərin poetik idealına görə, aşığa şərm (xəcalət), həya, abır kimi sifətlər də xas olmalıdır. O, haqqsevər olmalı, doğruluq onun həyat idealı olmalıdır. Bu kimi sifətlərin (mentalitet dəyərlərinin) sahibi olan aşıq (insan) Allahın sevimli bəndəsinə çevrilir və Uca Yaradandan dünyanı bəsirət gözü ilə görmək, başqalarının adi gözlə görə bilmədiklərini görüb anlamaq qabiliyyəti alır.

Prof. M.Həkimov ustadnamələrin hikmət qaynağını atalar sözlərinə bağlamışdır: "Ustadnamələr də bədii bir növ olmaqla ibrətli xalq kəlamları və atalar sözündən formalaşmışdır". (7, 207-208)

Folklorşünas alim M.Cəfərli də bu cəhəti təsdiq etmişdir: "Ustadnamələrin nəsihət, ata sözü, böyük sözü, öyüd olması göz qabağındadır". (5, 16) "Ustadnamələr ustad nəsihətləridir. Diqqət etsək, bunlarda təqdim edilən nəsihətlər bütün rəngarəngliklərі ilə eyni bir məzmunu ifadə edir. Başqa sözlə, ustadnamələrdəki fikirlər hamısı hökm şəklində ifadə olunur. Yəni bunların funksional gücü atalar sözlərinin mədəniyyətindəki funksional gücü ilə eyni mahiyyətlidir". (5, 17)

Bu deyilənləri nəzərə aldığımızda bir daha təsdiq etməli oluruq ki, milli mentalitet dəyərlərinin həyat hökmləri, xalqın mənəvi və cismani həyat təcrübəsinin poetik inikası kimi qorunub qaldığı folklor janrları içərisində atalar sözləri də mühüm yer tutur. Bu atalar sözlərində əsas mənəvi-əxlaqi mentalitet dəyərləri olaraq namus, qeyrət, abır, həya sifətləri təbliğ olunur.

Əvvəlcə abır haqqında atalar sözlərinə diqqət edib, bu mentalitet dəyərinin özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirməyə çalışaq:

Abır harda, çörək orda.
Abrını yeyib, həyasını da belinə bağlayıb.
Abırlı abrından qorxar, abırsız nədən qorxar?
Abırsızdan abrını saxla. (1, 16)

Ümumiyyətlə, atalar sözləri davranış qəliblərdir. Abırla bağlı atalar sözlərində xalqın həyat təcrübəsi bu deyimlərin poetikasına uyğun olaraq hökmlər şəklində verilmişdir. Məsələn, "Abır harda, çörək orda" atalar sözündə abır xeyir, ruzi, bərəkət dəyərləri ilə əlaqələndirilmişdir. Ənənəvi azərbaycanlı düşüncəsinə görə, insana ruzi-bərəkət Uca Allahdan gəlir. İslam dininin hökmlərinə uyğun olaraq, hər bir insan yer üzünə gələndə onun ruzisi (çörəyi) özündən qabaq gəlir. Lakin insan öz ruzisinə qovuşmaq üçün Allahın bəyəndiyi sifət və əməllər sahibi olmalıdır. Həmin gözəl əməllərdən biri abırlılıq sifətidir. Atalar sözü belə bir həqiqəti təlqin edir ki, Allah abırlı insanı sevdiyi üçün ona ruzi-bərəkət verir və heç vaxt çörəksiz qoymur.

Atalar sözlərində milli mentalitet sistemimizin əsas dəyəri olan "namus" xüsusi mənalandırılmışdır:

Namus insanın qan bahasıdır.
Namusu itə atdılar, it yemədi.
Namus gedər, dönməz geri,
yoxdur onun bəlli yeri (1, 501).

Birinci atalar sözünün məzmunundan aydın olur ki, Azərbaycan xalqı üçün namus olum-ölüm məsələsidir. "Namusun insanın qan bahası" olması o deməkdir ki, namus insan varlığının bütöv qiymətidir. Qan bahası – insanın varlığının qiyməti deməkdir. Beləliklə, Azərbaycan xalqının milli mentalitet düşüncəsinə görə, insanın bütün qiyməti onun namusunda ifadə olunur.

"Namusu itə atdılar, it yemədi" atalar sözünün fəlsəfi hikməti çox dərindir. Başqa sözlə, namus maddi yox, mənəvi dəyərdir. O, var-dövlət, maddiyyat olmasa da, mənəvi planda ondan da üstün hadisədir. Xalqımızın düşüncəsinə görə, namus Allahın yaratdığı varlıq aləmində məhz insana xas keyfiyyət olub, "insanlıq" adlanan ali-ülvi kompleksi təşkil edən ən mühüm və başlıca ünsürdür.

"Namus gedər, dönməz geri, yoxdur onun bəlli yeri" atalar sözü namusu göz bəbəyi kimi qorumaq haqqında poetik manifestasiyadır. Namus insan varlığının elə bir mənəvi dəyəridir ki, ona malik olmaq şansı insana həyatda bir dəfə

qismət olur. Kim öz namusunu əlindən çıxararsa, onu bir daha qaytara bilməz. Beləliklə, insan bütün ömrü boyu öz namusunu qorumalıdır. Çünki xalqımızın milli mentalitetinə görə, namusu itirən adam namussuz olur və namussuz yaşamaqdansa, ölüm daha üstündür. Belə ki, namus Azərbaycan insanının varlığının ən başlıca dəyəri və qiymətidir.

Beləliklə, tədqiqat göstərdi ki, Azərbaycan folkloru xalqımızın mənəviyyat dünyasının güzgüsü kimi, onun malik olduğu bütün mənəvi-əxlaqi dəyərləri özündə əks etdirir. Folklorumuzda milli mentalitet sisteminə daxil olan bütün mənəvi-əxlaqi dəyərlər tərənnüm və təbliğ olunmuş, bu dəyərlərin əksi olan sifətlər antimənəvi təzahürlər kimi rədd edilmişdir. Tədqiqat göstərdi ki, Azərbaycan folklorunda mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı olan insan tipləri yaradılmışdır. Həmin obrazlar xalqımızın mənəviyyat tarixinin bütün özünəməxsusluğunu əks etdirməklə, öz ideal humanizmi baxımından, bəşər poetik düşüncəsinin parlaq səhifəsini təşkil edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Atalar sözü / Toplayanı: Ə.Hüsüynzadə, tərtib edən: H.Qasımzadə. B.: Yazıçı, 1985, 650 s.
2. Azərbaycan aşıqları və el şairləri. I c. / Tərtib edəni Ə.Axundov. B.: Elm, 1983, 375 s.
3. Azərbaycan aşıqları və el şairləri. II c. / Tərtib edəni Ə.Axundov. B.: Elm, 1984, 544 s.
4. Azərbaycan mifoloji mətnləri. Tərtibçi A.Acalov. B.: Elm, 1988, 195 s.
5. Cəfərli M. Azərbaycan məhəbbət dastanalarının poetikası.B.: Elm, 2000, 266 s.
6. Əfəndiyev O. Aşıq poeziyasının estetik problemləri. B.: Azərnəşr, 1983, 116 s.
7. Həkimov M. Azərbaycan aşıq şeirinin şəkilləri və qaynaqları. Bakı.: Maarif, 1999, 376 s.

8. Kitabi-Dədəd Qorqud / Tərtibçilər: F.Zeynalov və S.Əlizadə. B.: Yazıçı, 1988, 265 s.

9. Mirəhməd Ə. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı.: “Azərbaycan Ensiklopediyası”, N-PM, 1998, 240 s.

10. Misgin Abdal / Toplayanı, tərtib edəni, ön söz, qeyd və izahların müəllifi H.İsmayılov. B.: Səda, 2001, 286 s.

AZƏRBAYCAN FOLKLORUNDA SOSİAL, SİYASİ, İQTİSADİ MENTALİTET DƏYƏRLƏRİ

İstər Azərbaycan folkloru, istərsə də Azərbaycan milli mentalitetinin dəyərlər sistemi tarixi kateqoriyalardır. Folklorumuz tariximizə yoldaşlıq etdiyi kimi, milli mənəviyyat tariximizə də güzgü tutmuşdur. Bu baxımdan, Azərbaycan folklorunda siyasi, sosial, itisadi mentalitet dəyərləri də bədiiləşərək obraz və süjetlərin məzmununu təşkil etmişdir.

Azərbaycan folklorunun araşdırılması göstərir ki, xalqımızın milli düşüncəsində sosial, siyasi və iqtisadi görüşlər bir sistem təşkil edir. Məsələn, atalar sözlərində cəmiyyət, onun qurduğu dövlət, həmin dövlətin yerləşdiyi ölkə buölkədəki sosial, iqtisadi münasibətlər bütöv bir düzən və nizam daxilindədir. Bu cəhətdən zəngin atalar sözlərimizə diqqət yetirmək kifayətdir.

Məsələn "Oba yiyəsiz qalanda, donuz təpəyə çıxar" (1, 514) atalar sözündə bədii obrazların dili ilə cəmiyyət-dövlət-ölkə münasibətləri modelləşdirilmişdir. Burada dörd əsas obraz vardır: oba, yiyə, donuz və təpə obrazları.

Oba obrazı burada həm hərfi, həm də məcazi mənada işlənmişdir. Oba hərfi mənada elə insanların yaşadığı obanın özünü bildirir. Məcazi mənada isə o, dövləti, ölkəni ifadə edir.

Yiyə burada sahib, dövlət başçısı, ölkə rəhbərini bildirir. Burada onun məhz hansı siyasi quruma rəhbərlik etməsi fərq etmir. Məsələnin mahiyyəti cəmiyyətin siyasi özünütəşkilinin hər bir forması ilə bağlı ola bilər. Bu cəhətdən obanın sahibi obrazı ilk növbədə dövlətin başçısı, ölkənin rəhbəri deməkdir.

Donuz obrazı burada birbaşa məcazi mənadadır. Bildiyimiz kimi, oba birgəyaşayışın siyasi-sosial qurumu kimi elat həyat tərzinə məxsus anlayışı bildirir. Oturaq insanlar kəndlər halında, elatlılar isə obalar şəklində yaşayırlar. Bildiyimiz kimi, Azərbaycan xalqı islami dəyərlərin sahibi kimi donuzu murdar sayır və heç vaxt donuz saxlamır. Bu cəhətdən obalarda donuzun olması mümkün deyildir. Bu, o deməkdir ki, oba yiyəsiz olanda təpəyə çıxan donuz

məcazi obrazdır. O, arzuolunmaz, rədd edilən, qəbul olunmayan antimənəvi dəyərlərin simvoludur.

Atalar sözündəki dördüncü obraz təpədir.Təpə burada həm həqiqi, həm də məcazi mənadadır. Onun məcazi mənası unudulmuş, arxaik keçmişimizdə qalmışdır. Belə ki, arxik-mifoloji düşüncədə dağlar, ucalıqlar pərəstiş obyekti olmuşdur.Türk mifologiyasında dağ kultu (dağa pərəstiş) çox geniş yayılmışdır. Bu baxımdan, dağ (təpə, ucalıq) həm də siyasi hakimiyyətin simvolu sayılmışdır.Ölmüş türk xaqanlarının, şöhrətli sərkərdələrin qəbrinin üstündə kurqanlar - tökmə təpələr ucaldılmışdır. Bu cəhətdən arxaik Azərbaycan-oğuz obasında təpə təkcə fiziki ucalığı yox, həm də siyasi ucalığı bildirmişdir.

Sözü gedən atalar sözündə təpə siyasi zirvəni, dövlət rəhbərliyini bildirir. Beləliklə, atalar sözündə reallaşmış siyasi mentalitet düşüncəsinə görə, xalq öz dövlətinə sahib çıxmayanda ölkə cəmiyyət, xalq tərəfindən qəbul olunmayanların əlinə keçir. Bu cəhətdən "Ölkə sahibsiz olmaz" (4, 286) atalar sözü, əslində, siyasi mentalitet düşüncəsini əks etdirən sosial-siyasi davranış qəlibi - ictimai hərəkət modelidir.

Azərbaycan folklorunun janrlar dünyasını nəzərdən keçirdiyimizdə görürük ki, milli mentalitet sistemi hər bir folklor janrında sistem şəklində təzahür etmişdir. Məsələn, aşağıdakı bayatıda hər bir cəmiyyət, o cümlədən Azərbaycan cəmiyyəti üçün tarixən xarakterik olan yerli-didərgin (yerli-gəlmə) münasibətlər modeli bədiiləşmişdir:

Aşıx, elimə gülmə,
Köşgün halıma gülmə.
Gələndə rəvana gəl,
Qəribəm, mənə gülmə. (5,376)

Burada yerli-gəlmə münasibətlər qoşalığında gəlmə - didərgin tərəfini folklorumuz üçün xarakterik olaq qərib obrazı təşkil edir. Ümumiyyətlə, folklorumuzda, o cümlədən bayatılarda maddi-mülki bərabərsizliyin doğurduğu sosial münasibətlər daha çox öz əksini tapmışdır. Bayatılarda valideyn-övlad,

bacı-qardaş, baba-nəvə və s. münasibətlər zəminində Azərbaycan milli mentalitet sisteminin ailə dəyərləri öz əksini tapmışdır. Məsələn, aşağıdakı mətndə sevən gənclər arasında olan istək-məhəbbətlə ana-övlad arasında olan məhəbbət qarşılaşdırılmış və ana-bala məhəbbətinin daha sakral, daha əzəli və əbədi olduğu təsdiq edilmişdir. Bayatının məzmununa görə, oğlanla qız arasında olan məhəbbət sonradan yaranırsa, ana ilə bala arasında olan məhəbbət əbədi və sarsılmazdır:

Gecələr, ha gecələr,
Molla dərsin hecələr.
Mən sənsiz dözsəm də,
Anam mənsiz necələr? (5, 376).

Bayatılarda o cümlədən bacı-qardaş məhəbbəti də ali-ülvi hadisə - Allah yazısı olaraq əbədi dəyər kimi tərənnüm olunmuşdur:

Qardaşdar, ay qardaşdar,
Yağış yağar, qar başdar.
Ölsə, ölə bacılar,
Heç ölmüyə qardaşdar. (5, 377)

Azərbaycan cəmiyyətində mənəvi-əxlaqi münasibətlər ideal-antiideal modeli əsasında qurulmuşdur. Cəmiyyətimiz bütün tarixi boyunca ideal mənəvi münasibətləri qəbul etmiş, antiideal olanı birmənalı şəkildə rədd etmişdir. Bu, folklorda öz ifadəsini olduğu kimi tapmışdır. Məsələn, aşağıdakı bayatıda insanlararası münasibətin hər cür formasında (sevgi, ailə, dostluq münasibətlərində və s.) ayrılıq, təfriqə, nifaq, münaqişə yaradanlar pislənilmişdir:

Ayrılıx yaman-yaman,
Evlərə tüşsün talan.
Ayrılsın, qavışmasın,
Bizə ayrılıx salan. (5, 387)

Azərbacan folklorunda milli mentalitet dəyərlərinin, o cümlədən sosial, iqtisadi münasibətlərdə aktual olan mentalitet dəyərlərinin özünəməxsus şəkildə obrazlaşdığı janrlardan biri lətifələrdir. Lətifələrdə mili mentalitet üçün xarakterik olan bütün mənfi dəyərlər gülüş hədəfinə çevrilir. Burada müsbət milli mentalitet dəyərlərinin tərənnümü əks yolla baş verir. Başqa sözlə, milli-mənəvi dəyərlərin bütün naqisliklərinin əsasında duran mentalitet sifətləri (antiideallar) gülüş hədəfinə çevrilməklə bunun əksi olan müsbət dəyərlər təbliğ olunur. Göründüyü kimi, milli mentalitet dəyərlərinin təcəssümünün bütün folklor janrları üçün xarakterik olan "ideal-antideal" modeli lətifələr üçün də aktualdır.Xarakterik bir mətnə diqqət edək.

Şəki lətifələrindən birində deyilir ki, Şəkinin baməzə kişilərindən biri olan «Mirzə Abdulcabbar küçə ilə gedərkən iki qadının dalaşdığını görür. Qadınlardan birinin nalayiq sözləri Mirzəyə pis təsir bağışlayır. O, uzaqdan dönə-dönə öskürür ki, bəlkə, hay-küy kəsilə. Amma qadın çox gec sakitləşir. Mirzə ona salam verib deyir:

- Bilirsən nə var?

- Deyərsən, bilərik.

- Bu ətraf məhəllələrdə nə qədər qadın var ha, hamısı saa borcludur. Çünki onların ərləri həmişə bu doqqazdan keçillər. O kişilər səən üzo görüf, səso eşitməsəydilər, öz arvaddarının qədrini bilməzdilər". (3, 232)

Göründüyü kimi, burada sosial mentalitet dəyərlərinin təcəssümü pis-yaxşı modeli üzərində qurulmuşdur. Lətifədə söyüşcül arvad tərifənir, lakin bu tərif, əslində, kinayədir və gülüş yaratmağa xidmət edir.

Lətifələrin poetik dünyası bütöv bir sistemdir. Burada cəmiyyətin sosial münasibətlərinin elə bir sahəsi yoxdur ki, inikas olunmasın. Bu, idarəçlik məsələlərinə də aiddir. Bu mözudakı lətifələrə diqqət yetirdiyimizdə görürük ki, burada sosial idarəçiliyin əsasında duran hər cür dəyərlər lətifə poetikasının tələb və prinsiplərinə uyğun olaraq obraz və süjetlərə çevrilmişdir: Məsələn, lətifələrdən birində deyilir:

“İclasda tənqid edilmiş bir vəzifəli şəxs Hacı dayıya öyünərək belə diyir:

- Hacı, sən də dünyagörmüş bir kişisən. Büyün məən iclasda pisdiyənnərə didim ki, gəlin məəm əmmaməmi birozun başına qoyax. Görax siz nağarisooz? Düz didim, yoxsa yox?

Hacı dayı:

- Yaxşı kişilər etibar olunmuş əmmaməni başqasının başına qoymullar (31. s. 225).

Lətifələrdə milli mentalitet sistemimizin mal-əmtəə, pul-maliyyə və s. münasibətləri ilə bağlı iqtisadi dəyərləri də çox geniş şəkildə bədiiləşmişdir. Lətifələrdən birində deyilir:

Hacı dayi, qarınqulunu nəyinə görə qiymətləndirillər?

- İştahasına görə.

- Bəs alverçini?

- “Mayasız qazanc götürmax qazancına görə” (3, 225).

Göründüyü kimi, burada əsas münasibətlər modeli “halal-haram” qarşılıq qoşalığıdır. Biz lətifədə həmin qoşalığı təmsil edən obrazlardan birini görürük: alverçi. Bu halda alverçi obrazı milli mentalitetimizin haram antidəyərini təmsil edir. Çünki halal yolla mayasız heç bir halda qazanc əldə etmək mümkün deyildir. Lətifədə alverçi haram dəyərinə əsaslanıb qazanc götürənlərin obrazı olmaqla, halal dəyərlərə əsaslanıb qazanc götürən ticarətçiyə qarşı durur.

Azərbaycan folklorunun bir bütöv halında nəzərdən keçirilməsi milli mentalitet sisteminin sosial dəyərlərinin də sakral arxetiplərlə bağlılığını ortaya qoyur. Bu cəhətdən Azərbaycan əfsanələri, xüsusilə, mifoloji məzmunlu əfsanələr əlamətdardır. Belə ki, əfsanələrdə sosial həyatın bütün sahələrinin mentalitet dəyərlərini müşahidə etmək mümkündür. Məsələn, aşağıdakı mifik əfsanədə öz təcəssümünü tapmış mentalitet dəyərləri ilkin kosmoqoniya - yaradılış ideyası ilə bağlıdır:

“Qabaqlar göy yerə yaxın idi.Adamlar bir-birini öldürüb qan tökürdülər, bərəkətin qədrini bilmirdilər. Bunu görəndə Tanrının qəzəbi tutdu, göyü yerdən uzaqlaşdırdı”. (6,35)

Əfsanədə göylə yerin biri-birinə yaxın olması dünyanın başlanğıc kosmoqonik nizamı kimi təqdim olunmuşdur. Lakin insanlar bu nizamın qədrini bilmədiklərinə görə Tanrı tərəfindən cəzalandırılırlar və kainatın hazırkı nizamı yaranır. Beləliklə, burada keçmişlə bu gün, nizamla nizamsızlıq arasında olan oppozisiya təqdim olunur ki, onun da əsasında insanların bərəkətə qarşı sayğısızlığı durur. Demək, bərəkət anlayışı Azərbaycan milli düşüncə sisteminin ən ilkin dəyərlərindəndir.

Azərbaycan milli mentalitet sistemi üçün humanizm prinsipləri əsasdır. Dünyanın heç bir sərtlik və acılıqlari, qan və zorakılıqları Azərbaycan xalqının milli düşüncəsindəki humanizm dəyərlərini sarsıda bilməmiş və mənəvi əxlaqi dəyərlər sistemimiz əzəl başdan humanizm prinsiplərinə söykənmiş və bu prinsip milli mentalitet sistemimizin əbədi atributu olaraq qalmışdır.

Humanizm - insanpərvəlikdir və onun əsasında insan faktoru - antropoloji amil durur. Bu cəhətdən Azərbaycan folklorunda dünyanın antropomorflaşdırılması - ətraf aləm və onun ünsürlərinə humanist-insani boyalar verilməsi xarakterik hadisədir.

Biz Azərbaycan milli düşüncə dünyasının milli mentalitet dəyərləri sisteminin humanist-antropoloji hüdudsuzluğuna təbiət cisimlərinin, astral elementlərinin insani münasibətlər – ailə münasibətləri sferasına aid edilməsində də şahid oluruq.

Səciyyəvi əfsanələrdən birində deyilir ki, “Günnən Ay bacı-qardaş imiş. Amma çox sitəngiyimişdər, elə hey savaşırmışdar. Günnərin bir günü genə bınnar savaşıllar. Anaları da xəmir eləyirmiş ki, əppəh yapsın, birdən Gün əlin xəmirə batırıp çırpır Ayın üzünə. Anaları da hesdənip binnara qarğış tökür. Deyir ki, sizi görüm bir-birivizin üzün heş görmüyəsiz.

Odu ki, Gün günüz doğur, Ay da gecə. Gün ki, xəmiri çırpmışdı Ayın üzünə, indi də gecə Aya baxanda görünür - ləkə kimi qalıpdı". (6, 35).

Bu əfsanədə Günəş və Ayın gündüz-gecə münasibətləri fonunda qarşılıq təşkil etməsi bədiiləşdirilmişdir. Burada təbiət və onun ünsürləri bir ailə kimi təsvir edilmişdir. Demək, Azərbaycan milli düşüncə sistemində tək insan və onun qan doğmaları yox, bütöv təbiət və cəmiyyət qlobal ailəni təşkil edir. Bu, milli düşüncə dünyamız və onun əsasında duran mentalitet siseminin başlıca xarakterik keyfiyyətini - humanist-antropoloji atributunu göstərir.

Azərbaycan folklorunda sosial, iqtisadi mentalitet dəyərləri epik dünya modelinin təkcə təbiət ünsürləri ilə yox, eyni zamanda zaman ünsürü ilə də əlaqələndirilmişdir.Zaman epik cəhətdən maddiləşdirilmiş, antropoloji (insani) obraz kəsb etmişdir. Məsələn, xarakterik əfsanələrdən birində deyilir: "Böyüh Çilləynən Kiçik çillə bacıdılar. Kiçik çillə Böyüh Çillədən soruşur ki, getdin neynədin?

Böyüh Çillə də deyir ki, getdim cəməhətin dənnərin üyütdüm, qavırmaların elədim, qalaxların verdım, əppəhlərin yapdım gəldim. Kiçik çillə deyir ki, kül başıva. Mən gedəcəm qocaları təndirdən basıp küflədən çıxaracam, uşaxları da əllərində çilləliyəciyəm. Əmə həvih ki, ömrür azdı. Kaş sənin ömrün məndə olaydı". (6, 56)

Ənənəvi Azərbaycan təqvimində qış iki yerə - böyük çillə və kiçik çilləyə bölünür. Böyük çillə 40 gün, kiçik çilə 20 gündür. Əfsanə böyük və kiçik çillələri bacı kimi təqdim etmişdir. Ancaq bunların arasında oppozisiya vardır ki, bu da folklor mətnlərinin süjet poetikasına uyğundur. Böyük Çillə - yaxşı bacı, Kiçik Çillə - yaman bacıdır. Beləliklə, Azərbaycan folklorunda zaman antropomorflaşdırılmış və onların simasında xeyirxahlıq və bədxahlıq kimi mentalitet dəyərləri təcəssüm etdirilmişdir.

Azərbaycan milli mentalitet dəyərləri sisteminin aktual modellərindən olan savaş-barış binar qoşalığı da folklorumuzda humanizm kontekstində

mənalandırılmış, bədii süjet və obrazlara çevrilmişdir. Səciyyəvi nümunələrdən birində deyilir:

"Bir el ağsaqqalının ərsəyə çatmamış yeddi oğlu vardı. Özü də qocalmışdı, əli qılınc tutmurdu. Yağılar fürsəti bada vermir, tez-tez basqın edib eli talıyırmışlar. Günnərin bir günü genə yağılar gəlir. Yeddi qardaş qoşun yığıb onların qabağına çıxır. Ancax bilar uşax, yağılar neçə ilin qan tökənnəri.Yeddi qardaşın qoşunu basılır. Qardaşlar görür ki, qoşun basıldı, yağılar genə eli çapıb-tayacaqlar. Üzdərin göyə tutup yalvarıllar ki, ya tanrı, bizi keçilməz dağa döndər, qabağı kəsək, yağılar elimizə soxulmasınlar.

Tanrı eşidir onnari, qardaşların yeddisi də dağa dönüb yan-yana düzülüllər, yağılar keşməyə yol tapmır, qəyidip bir yollux gedillər. Camahat o dağlara "Yeddi qardaş dağı" deməyə başdıyır. Azərbaycannılar dədə-babadan bı dağları ocax sayıllar). (6, 41)

Bu əfsanə mətnində Azərbaycan milli düşüncə sisteminin tarixi insanpərvərliyi təcəssüm olunmuşdur. Xalqımız savaş-barış oppozisiyasını da humanistləşdirmiş, ona bəşəri-insani dəyərlər kontekstində yanaşmışdır. Vətəni canlarından əziz tutan yeddi qardaş özlərinin daşa dönməsini Allahdan istəyirlər ki, vətən yağıların tapdağı altına düşməsin. Allah bunların arzusunu eşidir və yeddi qardaş "Yeddi qardaş" dağına çevrilir. Bu əfsanə xalqımızın dağlara pənah yeri kimi baxması, onlara canlı yanaşması, ehtiram göstərməsinin də üzərinə işıq saçır. Göründüyü kimi, dağlara sayğı təkcə onların kultlaşdırılması ilə bağlı deyildir.Yeddi qardaşın dağa dönməsi ulu babalarımızın dağları öz övladları qədər sevməsinin də göstəricisidir. Bu da öz növbəsində Azərbaycan milli mentalitet sistemimizin necə ali və müqəddəs dəyərlərə malik olmasını bir daha nümayiş etdirir.

Azərbaycan sosial mentalitet dəyərlərinin tədqiqi göstərir ki, xalqımız təbiəti də sosial münasibətlər sferasına daxil etmiş və onu müqəddəsləşdirmişdir.Belə sakrallaşdırmanın tarixi xalqımızın tarixi qədər

qədim olub, ilkin mifoloji inanclarımıza gedib çıxır. Məsələn, miflərimizdən birində deyilir:

“Əvin, həyətin, bəğin, suyun, yolun, dəğin - hər şeyin əyəsi var. Gərəh bınnara səlam verəsən.Timsalı, gəlmisən bəğə. Gərəh deyəsən:

-Səlam a bəğəyəsi, gəlmişəm bəğivi suvaram, ağaşdarivin dibin belliyəm. Gedəndə də deyirsən ki, salamat qal, a bəğ əyəsi, mən getdim genəgələciyəm.

Elə ki, məhsul yetişdi, gəldin meyvə yığmağa, onda, gərəh bəğ əyəsinnən icazə istiyip, sora bəğdən meyvə dərəsən. Bi dedıxlarımı eləsən, bəğin mədaxili çox olacax.Binnarı ucadan da deyə bilərsən. Bəğəyəsi hammısın eşdəcax.

Bı əyələrin içində hammısınnan üsdünü su əyəsidi. Səhər-səhər ki, tezdən gedirsən suyun üsdünə, gərəh su əyəsinə səlam verəsən. Heş vəxdi suya tüpürməx, suya çirkab atmax olmaz.Yoxsa su əyəsin küsdürərsən, sənə zəfər toxuyar” . (6, 52)

Göründüyü kimi, ulu babalarımızın əski inanclarına görə canlı, cansız bütün təbiətin sahibi vardır.Sahiblik duyğusu humanist yanaşmanın əsasında durur. Başqa sözlə, davranış, münasibətlə bağlı mentalitet dəyərlərinə görə, təbiətin hər bir ünsürü insan qədər hörmətə layiqdir. Bu cəhətdən babalarımız suyundun içdiyi bulaqlara, çaylara, göllərə və dənizlərə, meyvəsindən yediyi bağlara və meşələrə, ümumiyyətlə, təbiətə böyük sayğı bəsləmişdir. Bu da öz növbəsində göstərir ki, Azərbaycan milli düşüncəsində sosial, siyasi, iqtisadi mentalitet dəyərləri bütöv bir sistemi təşkil edir.

Ümumiyyətlə, hər bir sistem onu təşkil edən daxili struktur elementlərinin qarşılıqlı münasibətlərinə əsaslanır. Azərbaycan milli mentalitet sistemində sosial, siyasi, iqtisadi və s. dəyərlər də biri-biri ilə sıx şəkildə bağlıdır. Tədqiqat göstərdi ki, bu dəyərlər sistemini iki əsas xassə səciyyələndirir:

Birincisi, milli mentalitet dəyərlərinin sakrallığı:

Belə ki, milli düşüncə sistemindəki mentalitet dəyərləri bu və ya başqa şəkildə ilahi-sakral xassəyə malikdir. Bu, o deməkdir ki, xalqımızın ictimai şüur tarixi üçün xarakterik olan mifoloji-dini görüşlərlə əlaqələndirilməyən hər hansı dəyər mentalitet sisteminə daxil ola bilməmişdir. Bu da öz növbəsində mentalitet sisteminə daxil ola bilən dəyərlərin və həmin dəyərləri təcəssüm etdirən folklor obrazlarının sakrallığını şərtləndirmişdir.

İkincisi, milli mentalitet dəyərlərinin humanist-antropoloji xarakteri:

Belə ki, xalqımızın mentalitetinə zorakılıq, qəddarlıq, vəhşilik kimi antihumanist dəyərlər yaddır. Bu, milli mentalitet düşüncəmizi fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Digər tərəfdən, milli mentalitetimizdəki humanizm folklor obrazlarının antropolojiləşdirilməsində özünü göstərmişdir. Başqa sözlə, Azərbaycan folklor obrazları mifik başlanğıcından bu günə kimi antropoloji xarakter daşımışdır. Folklorda cəmiyyətlə (etnosla) bərabər, təbiət və zaman da antropomorflaşdırılmış və cəmiyyət üçün xarakterik olan sosial, siyasi, iqtisadi mentalitet dəyərləri canlı, cansız təbiətin bu insanlaşdırılmış obrazlarının xarakterik cizgilərini təşkil etmişdir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Atalar sözü / Toplayanı: Ə.Hüseynzadə, tərtib edəni: H.Qasımzadə. B.: Yazıçı, 1985, 650 s.

2. Azərbaycan dastanları. 5 cildə, II c. / Tərtibçilər: Ə.Axundov və M.H.Təhmasib. B.: Az.SSR EA Nəşriyyatı, 1966, 340s.

3. Azərbaycan folklor antologiyasi. IV c. Şəki folkloru / Tərtib edənlər O.Əliyev, H.Əbdülhəlimov, R.Qafarlı və V.Aslan. B.: Səda, 2000, 497 s.

4. Azərbaycan folklor antologiyası. X c. İrəvan folkloru / Toplayıb tərtib edənlər H.İsmayılov və Ə.Ələkbərli. B.: Səda, 2004, 471 s.

5. Azərbaycan folklor antologiyası. XII c. Zəngəzur folkloru /

Toplayanlar V. Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, tərtib edənlər Ə.Əsgər və M.Kazımoğlu. B.: Səda, 2005, 463 s.

6. Azərbaycan mifoloji mətnləri. Tərtibçi A.Acalov. B.: Elm, 1988, 195 s.

MİLLİ MENTALİTET VƏ FOLKLOR

Dünya elmi-nəzəri fikrində mentalitet, onun nəzəri-kateqorial mahiyyəti, məzmun və formaları, milli düşüncə sistemindəki yeri, təzahürünün tip və şəkilləri və s. barəsində saysız-hesabsız tədqiqatlar aparılmış və onların nəticələri ilk növbədə mötəbər ensiklopediyalarda ümumiləşmiş tezislər kimi öz əksini tapmışdır. "Mentalitet" anlayışı bir söz kimi "mentallıq" anlayışı ilə bağlıdır. Latın dilinə məxsus söz olub, insana, yaxud hər hansı qrupa və cəmiyyətə məxsus olan düşüncələrin obrazını, əqli vərdiş və mənəvi davranış modellərini nəzərdə tutur. Tədqiqatçı E.Əliyev "Mentalitet – konkret mədəniyyət və psixologiyaya malik olan bir xalqın inteqral xarakteristikası olub, özündə bu kateqoriyaları saxlayır: fərdi, kütləvi, ictimai şüur, özünü dərketmə və düşünmə, dünyagörüşü, milli ənənələr, mədəniyyətdə universallıq, ictimai rəy, ümumi intellekt, təfəkkür dominantlığı, siyasi şüur, siyasi mədəniyyət, kütləvi əhvali-ruhiyyə və s.". (3)

Azərbaycan folklorunda milli mentalitet məsələsinin araşdırılması milli mədəniyyət və psixologiyamızın ümumi xarakterə inteqrasiya olunmuş cəhətlər sisteminin tədqiqi deməkdir. Fəlsəfə elmlər doktoru Q.Əliyev mentaliteti təfəkkürün özünəməxsus tipi hesab edərək yazır: "Mentalitet fərdi və kollektiv şüurun spesifik səviyyələrini xarakterizə edir. Bu mənada o, spesifik təfəkkür tipidir". (4)

Tədqiqatçı H.Quliyev azərbaycanlı mentalitetinin arxetiplərindən danışan kitabında mentalitet anlayışının kifayət qədər mürəkkəb və mübahisəli olduğunu, o qədər də asan başa düşülmədiyini göstərərək yazır : "Mentalitet mədəniyyətin milli özünəməxsusluğunu (ona xas olan şüur tipini, həyat tərzini, ənənələri və s.) göstərən ümumişlək elmi kateqoriyadır. Mentalitet obyektiv hadisədir, lakin öz təbiətinin spesifikliyindən irəli gəlməklə çox sirli və mübahisəlidir. Bu isə onun mahiyyətinin özünə uyğun şəkildə başa düşülməsini əhəmiyyətli dərəcədə çətinləşdirir". (19, 5)

Mentalitet, onun ənənəvi mədəniyyətlə bağlılığı haqqında qərb dünyasının görkəmli alimləri L.Levi-Brülün (20), K.Levi-Strosun (21; 22), E.Kassirerin (17) və çox sayda digərlərinin qərb elmi əsərlərində dəyərli araşdırmalar aparılmış, çox qiymətli fikirlər deyilmişdir.

P.Qureviç və O.Şulman "mentallıq, mentalitet" anlayışları ilə bağlı qərb nəzəri fikir tarixindəki əsərləri tarixi konteksdə ümumiləşdirərək göstərirlər ki, "mentalitet" termini Amerika filosofu R.Emersonda (1856) rast gəlinir... Anlayış yeni kantçılar, fenomenoloqlar, psixoanalitiklər tərəfindən işlədilir... "Primitiv mentalitet" anlayışının hazırlanmasında həlledici töhfəni L.Levi-Brül verdi. O, antropoloji və etnoloji tədqiqatların istiqamətlərinə böyük təsir göstərərək, yazısız xalqların kollektiv həyatının dərki zamanı müasir anlayışların əsas götürülməsi cəhdinin təhlükə yaratdığını xüsusi vurğuladı (16, 26).

Milli mentalitet və folklorun tarixi inkişafı yekcins hadisə deyildir. Milli mentalitet milli ictimai şüurun qəliblər toplusudur. Folklar da milli şüurla bağlıdır. Lakin o, milli şüuru özündə əks etdirən sənət və yaradıcılıq hadisəsidir. Bu amil nəzərə alındıqda görürük ki, milli mentalitet sistemində baş verən struktur dəyişmələrinin dinamikası ilə folklorda, onun reallaşma sisteminə görə çox mürəkkəb olan növ və janrlarında baş verən dəyişikliklərin intensivliyi eyni deyildir. Məs., folklor poeziyası öz forma xüsusiyyətlərinə görə sadədən mürəkkəbə doğru zənginləşmə keçmişdir. Əvvəlcə alliterasiyalara söykənən poetik qəliblər (deyimlər - paremiyalar) yaranmış, daha sonra qafiyələnmə sisteminin ikilik, dördlükləri meydana gəlmiş, sonrakı inkişafda isə bəndlər və misraların kombinasiyasından çoxlu formalar hasil olmuşdur. Folklorun forma strukturunda baş verən və müəyyən epoxalarla şərtlənən (müəyyənləşən) bu dəyişmələrin inkişaf ritmi milli mentalitet qəliblərinin dəyişməsi ilə bağlı olmamışdır. Məs., mifoliji mentalitet qəlibi olan "yaxşı-pis" qarşılıq qoşasının orta əsrlər şərq mentalitet qəlibi olan "xeyir-şər" qarşılıq qoşasına keçidi folklor poeziyasının forma strukturuna hiss olunacaq təsir göstərməmişdir. Lakin bu dəyişiklik folklorun məzmun qatında daha tez və daha güclü dəyişiklik

yaratmışdır. Mifoloji epoxada qəhrəman və onun antipodu obrazlarında gerçəkləşən “yaxşı-pis” qoşası orta əsrlər Azərbaycan folklorunda uyğun olaraq “mərd-namərd” qoşasına transformasiya olunmuşdur. Bu halda L.Levi-Brülün çağdaş və primitiv mentalitetlər arasında çox böyük fərq olması və ilkin mentalitetlərin dərkində müasir mentalitet üçün xarakterik olanların tətbiqinin yanlış nəticələr törətməsinin təhlükə yaratması haqqındakı xəbərdarlığı milli mentalitetin folklor əsasında öyrənilməsi üçün də aktual olduğu təsdiq olunur.

Hər bir xalqın milli mentaliteti onun milli düşüncəsinin əsasında duran etnik-psixoloji sistemdir. Bu cəhətinə görə mentalitet anlayışı milli düşüncə anlayışı ilə qırılmaz şəkildə bağlıdır. K.Q.Yunq yazır : “Bizim təhtəlşüurumuz bizim bədənimiz kimi keçmişin izlərini özündə əks etdirir. Biz yalnız bioloji varis olaraq deyil, psixoloji varis kimi də doğuluruq. Bu və ya digər mərhələdə görüş və təcrübə ayrılır. İnsan bədəni özünü bütün orqanların muzeyi olaraq göstərdiyi kimi, psixologiyada da nəslin tarixi təcrübəsini əks etdirir”. (12, 134)

K.Q.Yunqun göstərdiyi “insan psixologiyasında inikas olunan nəslin tarixi təcrübəsi” nə milli düşüncə sistemi və onun ən mühüm ünsürü olan mentalitet vacib şəkildə daxildir. Bu halda görkəmli etnos nəzəriyyəçisi L.N.Qumilyovun “Etnik diaqnostikasının əsasında hissiyyat dayanır. İnsan öz etnosuna uşaqlıqdan mənsub olur” (15, 49), - fikri də fərdə məxsus mentalitetin cəmiyyətə məxsus mentalitet olaraq milli düşüncə sisteminin daxilində olmasını bir daha təsbit edir.

Milli düşüncə bir sistemdir. Həmin sistemin əsasında duran milli mentalitet özü də strukturu etibarilə daha bir sistemi təşkil edir. Sistem anlayışının “öz aralarında müəyyən münasibətdə və əlaqədə olan müəyyən bütövlük, vəhdət əmələ gətirən ünsürlərin məcmusu” olması haqqında ensiklopedik tərifi (5, 374) mentalitet sistemi anlayışına münasibətdə özünü tam təsdiq etməklə mentalitetin özünün müxtəlif ünsürlərlə həm sistemdaxili, həm də sistemxarici səviyyədə əlaqədə olduğunu göstərir.

Mentalitet milli düşüncənin əsası kimi öz varlıq enerjisini həm də etnoslararası münasibətlərdən alır. B.F.Parsinev bu xüsusda göstərir ki, "məhz başqaları ilə qarşılıqlı ziddiyyət zəminində daxili etnik ümumilik möhkəmlənir, etnik fərqlər meydana çıxır". (23, 95) Bu cəhətdən etnoslararası münasibətlər milli mentalitet sistemini də inkişaf etdirir.

Milli mentalitet milli ruh anlayışı ilə sıx bağlıdır. Milli ruh milli düşüncə sisteminin etnik-psixoloji təzahür səviyyəsi olub, son dərəcə geniş məfhumdur. Tədqiqatçıların yazdığı kimi daha çox mənəvi ünsürləri əhatə edir. "İnsanların etnik təşkil sistemi kimi milləti insan ekzistensiyasının yalnız obyektiv forması yox, daha çox subyektiv, ideal komponentlər xarakterizə edir. Milliliyin müəyyənlik pirinsipi, onun dominant xassəsi daha çox mənəvi olaraq özünü göstərir. Millətin ruhu mənəvi aləmin mürəkkəb anlayışıdır". (14, 79)

Mentalitet anlayışı milli düşüncə sisteminə daxil olduğu kimi, daha böyük anlayış olan millət anlayışı ilə də sıx bağlıdır. Ümumiyyətlə, "Millət – insanın tarixən əmələ gəlmiş sabit birliyidir ki, bu da dil, ərazi, iqtisadi həyat birliyi, mədəniyyət ümumiliyində təzahür edən mənəviyyat birliyi zəminində meydana çıxmışdır". (9, 425)

"Milli mədəniyyət, milli təfəkkür və milli mövcudluq – bunların dialektik münasibəti milli xarakteri verir; Milli mövcudluq milli xarakterin maddi əsasıdır – bu anlayışda xalqın tarix səhnəsinə gəlişi, coğrafi lokallaşması, yerdəyişmələri, məskunlaşmaları... ifadə olunur; Milli təfəkkür milli xarakterin potensiyasıdır – bu anlayışda xalqın yaradıcılıq imkanı ifadə olunur; Milli mədəniyyət isə milli xarakterin bilavasitə göstəricisidir – bu anlayışda xalqın bütün tarixi boyu yaratdığı nə varsa, hamısı ifadə olunur ". (2, 16)

Mentalitet daxil olduğu iri sistemin (meqasistemin) içərisində milli mədəniyyət ünsürü ilə sıx bağlıdır. Onun folklorla münasibətləri "mentalitet-mədəniyyət" kontekstinin ümumi qanunauyğunluqlarına söykənir. D.Yıldırımın yazdığı kimi: "Dünya millətlərinin, yaxud da insan qruplarının bir-birindən fərqli təzahür etməsini şərtləndirən mədəniyyət sonadək dərk edilməyən bir

məfhumdur. Mədəniyyətin sonadək dərk edilməməsi onun mahiyyətindən irəli gəlir. O, təmsil etdiyi cəmiyyətin yaşadığı təbii şəraitin, onun dünyagörüşünün, tarixinin və dəyərlər sisteminin xarakterindən asılı olaraq müxtəlif səviyyələrdə təzahür edir". (13, 37)

Görürük ki, mentalitet tarixi kateqoriya olub, milli ideologiya ünsürü ilə də qırılmaz bağlılıq təşkil edir. Hər bir etnosun davranışını milli ideologiya idarə edir. Milli ideologiya millətin taleyi üçün bütün tarixi dövrlərdə böyük əhəmiyyət daşımışdır. Prof. A.Şükürovun yazdığı kim, "milli ideologiyanın əsas məqsədi kütlələri səfərbərliyə almaqdır". (10, 82)

Mentalitet milli ideologiyanın bütün təzahür tip və formalarında bu və ya digər dərəcədə iştirak edir. Prof. S.Xəlilov yazır ki, "milli ideologiya" müəyyən bir millətin, xalqın, unitar dövlətin ideologiyası, rəhbər tutduğu, həyata keçirdiyi ideya-siyasi xətdir". (6,93)

"Milli mentalitet və Azərbaycan folkloru" problemini "azərbaycanlı mentaliteti" anlayışının etnik əsaslarına enmədən geniş əsaslarla araşdırmaq mümkün deyil. Azırbaycan xalqı ümumtürk etnosunun oğuz qolu əsasında formalaşmış bir türk xalqıdır. Türk etnosu sivilizasiyalı bəşəriyyətin ən əsas ünsürlərindən biri olub, dünyanın etnik, mədəni, siyasi, ictimai tarixinin inkişafında böyük rol oynamışdır. Bu barədə V.V.Bartold, V.İ.Radlov, S.E.Malov, N.Y.Biçurin, L.N.Qumilyov, J.P.Ru, Z.V.Toğan, A.İnan, V.M.Jirmunski, O.Süleymanov, S.A.Tokarev, S.Q.Klyaştornı, İ.V.Stebleva, A.S.Amonjolov, V.N.Basilov, D.J.Valeev, N.M.Kulşaripova, A.X.Xaliqov, A.V.Bikbulatova, R.Q.Şaripov və başqa Avropa, rus, türk alimləri dəyərli tədqiqatlar aparmışlar. Bu müəlliflərin əsərləri tarixi, filoloji, ədəbiyyatşünaslıq, fəlsəfi əsərləri olub, qədim türklərin mentalitetinin ən müxtəlif vacib məsələlərini də əhatə edir.

Başqırd alimi R.Q.Şaripov özünün qədim türklərin mentalitetinin fəlsəfi dünyagörüşü kontekstində təhlilinə həsr olunan namizədlik dissertasiyasında yuxarıda alimlərin tədqiqatlarının nəticələrinə, o cümlədən tədqiqatçı

S.M.Pozdyayevin mentalitet haqqında "insan varlığına öz davranışını sonsuza qədər dəyişməyə imkan verməklə bərabər, yenə də dəyişməz qalan stasionar karkası" olması haqqında fikrinə (24, 116) söykənərək yazır ki, qədim türklərin mentaliteti "beləliklə, qədim türk sivilizasiyasının bütün struktur qatlarında əmələ gəldi və "kollektiv qeyri-şüuridə" sintezləşərək qədim türk dövlət və xalqlarının, onların yardıcılarının tarixi talelərini müəyyənləşdirdi, etnogenez proseslərinə müəyyən ritm verdi, qədim tərk sivilizasiyasına onu başqa antik və orta əsrlər sivilizasiyalarından kəskin şəkildə seçdirən təkrarolunmaz aura bəxş etdi". (27, 122)

Tədqiqatçı qədim türklərin mentalitetinin təşəkkülünün əsas mərhələlərini aşağıdakı kimi müəyyənləşdirmişdir :

1. Qədim türk mentalitetinin türk etnomədəni ümumiliyinin formalaşması ilə paralel baş verən təşəkkülü prosesi rəsmi türkologiyada qəbul olunduğu nisbətən, heç olmazsa, iki-üç min il əvvəl başlanmışdır. Onun başlanğıc mərhələlərini, təqribən, tunc və erkən daş dövrünə aid etmək lazımdır. Məhz bu dövrdə Avrasiyanın çöllərində köçəri həyat tərzinin gur təşəkkülü baş vemişdir. Qədim türk mentalitetinin təşəkkülünün ana bazasını tanrıçılıq dini-fəlsəfi doktrinası təşkil etmişdir. Tanrıçılıq əsasında heç olmazsa, min il ərzində türk köçərilərinin sonrakı epoxalarda psixi simasını müəyyənləşdirən norma, adət və ənənələrin təşəkkülünün fəal prosesi getmişdir. (27, 124-125)

2. Qədim türklərin mentalitetinin formalaşmasında ən əhəmiyyətli mərhələ bizim eranın V-VI əsrlərindəki kağanat dövrü olmuşdur. Bu dövrdə qədim türk etnomədəni birliyi özünün ən yüksək zirvəsinə çataraq dünya səviyyəsinə qalxdı. Bu çağda türklər Avrasiyanın siyasi durumunu fəal şəkildə müəyyənləşdirir, onların təsirini Çin (Tan sülaləsi epoxası), Orta Asiyanın dövlətləri, Şərqi və Mərkəzi Avropa,Yaxın Şərq öz üzərində hiss edir. (27,125)

3.Türk mentalitetinin inkişafının üçüncü dövrünü VIII-XI əsrlər kimi müəyyənləşdirmək olar. Bu dövrdə türk dünyasına təsir edən ümumi böhranla bağlı olaraq sivilizasiya yönləri əhəmiyyətli dərəcədə dəyişir. O, əlverişsiz iqlim

dəyişmələri ilə daha da dərinləşir: Mərkəzi və Orta Asiyanın çölləri sərt quraqlığa məruz qalır. Bu, bir çox hallarda "klassik" dövrün əzəmətli imperiyalarının çökməsini müəyyənləşdirir. Tanrıçılıq keçmişdə qaldı. Uyğur xaqanlığı xanın hakimiyyətinin nominal olduğu, manixey icması tərəfindən idarə olunan teokratik ölkəyə çevrildi. Xəzərlər əvvəlcə iudaizmi, sonra islamı qəbul etdi. Oğuzlar, yağmalar, çigillər və başqa tayfalar da islamı qəbul etdi. Müsəlman dininin forpostu bütpərəst Rusiyaya və provaslav Bizansa qarşı olaraq Volqa Bulqariyası oldu. Qədim türk dünyasının qürubu epoxası bütün bunlarla yanaşı, incəsənət və mədəniyyət şedevrlərinin doğulduğu dövr oldu. (27,127-128)

Milli mentalitet və folklorun münasibətləri həm də onların bir-birinə qarşılıqlı təsir imkanları ilə şərtlənir. F.e.d. M.Cəfərli yazır ki, bəşəriyyət yaranandan bəri insanların həyati və dünyanı dərk etmək arzuları müxtəlif mərhələlərdən keçərək hər mərhələdə bir cür reallaşmışdır. Bu mənada Azərbaycan folklor nümunələri milli şüurun formalaşması prosesinə kifayət qədər təsir edəcək imkanlara malikdir (1, 264).

Folklor və milli mentalitet qırılmaz şəkildə bağlıdır.Mentalitet bundan başqa, folklorun dili ilə qırılmaz şəkildə bağlı olur. Etnik mentalitet və folklor dili problemini araşdırmış tədqiqatçı O.A.Petrenko göstərir ki, dil və mentalitet planı dil və mədəniyyət planı ilə birgə "dil və etnos" probleminin tərkibinə daxildir. (25,5)

Doğrudan da, Azərbaycan folklorunun dilində onun milli ruhu,milli özünəməxsusluğu yaşayır. Dildə elə sözlər var ki, birbaşa milli varlığımızın, etnik ruhumuzun ifadəsinə xidmət edir. Azərbaycanlı mentalitetində sözə münasibətə həssaslıq var. Bu, təsadüfi olmayıb, milli şüurumuzun mifoloji-kosmoqonik çağları ilə bağlıdır. Azərbaycan xalqı üçün tarixi dəyəri olan söz müqəddəs dəyər kəsb edir. Məsələn, ulularımızın, böyüklərimizin sözü olan atalar sözləri xalqımız tərəfindən müqəddəs hikmətlər məqamındadır. Atalar

sözlərindən ibarət "Oğuznamə"də deyilir: "Ataların sözü Qurana girməz, amma Quran yanınca yalın-yalın yalışur". (8,18)

Görkəmli Azərbaycan alimi H.İsmayılov özünün aşıq sənətinin mənşəyinə həsr olunmuş konsepsiyasında təkcə bir sözün - "ata" sözünün hikmətinə, daşıdığı milli-mənəvi yükə istinad edərək etnik-mədəni tariximizin çox böyük bir mərhələsinin üzərindən sirr pərdəsini götürmüşdür. O, sübut etmişdir ki, folklorumuzun ən geniş yayılmış janrı olan atalar sözlərindəki "ata" kəlməsi, sadəcə olaraq, ulularımızı, böyüklərimizi işarələndirmir. Bu söz milli-mənəvi düşüncə tariximizin ilkin dövrləri ilə bağlıdır və milli mentalitetimizdə böyüklərə, ulular sayğının əsas yer tutması "ata" və "atalar sözləri" vahidlərinin arxaik hikmətindən qaynaqlanır. (7,16)

Ata arxaik oğuz cəmiyyətində icmanın başçısıdır.Bu halda o,siyasi və sakral güclərin təmərküzləşdiyi mərkəzi işarələndirir. O, sakral aləmlə bağlılığına görə əcdad kultunun daşıyıcısıdır. N.N.Kradinin oğuzların babaları hunlara aid tədqiqatında yazdığı kimi, "müqəddəs çar tanrılarla təbəələr arasında "əlaqələndirici" idi: öz sakral qabiliyyətlərinin vasitəsilə cəmiyyət üçün sabitliyi və çiçəklənməni təmin edirdi". (18,328)

Ümumiyyətlə, hər bir xalqın mentalitet xüsusiyyətləri folklor deyimlərində bariz şəkildə ifadə olunur. Bu ,Azərbaycan folkloruna da eyni dərəcədə aiddir. Azərbaycan xalqının adət-ənənələrində, xasiyyət və vərdişlərində ifadə olunan bütün milli özünəməxsusluğu – etnik mentaliteti deyim folklorunda sözlü təsvir vahidlərinə çevrilmişdir. Deyimlərin bu siyahısı milli mentalitetin foklorla nə qədər bağlı olduğunu əyani şəkildə göstərir. Doğrudan da, hər bir xalqın söyüş folkloru, alqış və qarğışları, andları və s. yalnız onun özünün milli-mənəvi düşüncə dünyası ilə bağlı olub, məhz həmin xalqa məxsus mentalitet keyfiyyətlərini özündə ehtiva edir.

Hər bir milli mentalitet və folklorun əlaqələri onu daşıyan xalqla bağlı olur. Milli mentalitet və folklor ilk növbədə ənənəyə söykənir. Ənənəni isə qərb alimi A.Dandis xalq anlayışının əsas ünsürlərindən biri hesab edir: "Xalq

termini ortaq bir faktoru paylaşan hər hansı bir insan qurumunu ifadə edir. Bu qurumu bir-birinə bağlayan faktorun ortaq bir əqidə, dil və ya din olması önəmli deyil. Daha önəmli olan hansısa bir amilə bağlı olaraq formalaşmış qrupun özünə aid hesab etdiyi ənənələrə sahib olmasıdır". (12 ,10)

Xalqın folkloru öz strukturunu bütün qatları ilə onu yaradan və yaşadan xalqın milli mentalitetinə bağlı olur.Qərb alimi D.B.Amos folklorun strukturunda üç əsas səviyyəni müəyyənləşdirmişdir:"... folklor bir bilik məcmusudur; folklor bir düşüncə tərzidir; folklor bir sənət növüdür.Bu kateqoriyalar bir-birindən tam ayrı deyildir. Bir-biri ilə qarşılıqlı əlaqədədir". (11, 35)

Bu səviyyələri nəzərə aldığımızda görürük ki, folkloristlər xalq biliklərinin məcmusu, istər milli düşüncənin tərzi, istərsə də sənət və yaradıcıllıq kimi bütün hallarda milli mentalitetlə – onu yaradan xalqın milli siması ilə bağlıdır. Azərbaycanlı mentaliteti də Azərbaycan-türk xalqının milli obrazını səciyyələndirən keyfiyyətlərin məcmusu kimi folklorda həm "bilik" (mənəvi-fiziki təcrübə - İ.A.), həm milli "düşüncə tərzi" ,həm də "sənətin növü" kimi bədiiləşmişdir. Bu da öz növbəsində milli mentalitetin folklor əsasında öyrənilməsi probleminin zərurətini reallığa çevirən başlıca nəzəri-metodoji amil rolunu oynayır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Cəfərli M. Folklorun milli düşüncənin inkişafına təsir imkanları // "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" II Uluslararası Folklor Konfransının materialları. B.: Səda, 2004
2. Cəfərov N. Azərbaycanşünaslığa giriş. B.: Az.Ata M, 2002, 600 s.
3. Əliyev E. Azərbaycan mentaliteti haqqında // "Xalq qəzeti", 20 dekabr 1998.
4. Əliyev Q. Mentalitet: milli ləyaqət ölçüsündə // "Azərbaycan" qəzeti, 6 aprel, 2001.

5. Fəlsəfə. Ensiklopedik lüğət. B.: “Azərbaycan ensiklopediyası” Nəşriyyat Poliqrafiya Birliyi, 1997, 471 s.

6. Xəlilov S. Lider, Dövlət, Cəmiyyət. B.: Azərbaycan Universiteti, 2001, 341 c. 83.

7. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. B.: Elm, 2002, 311 s.

8. Oğuznamə / Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə. B.: Yazıçı, 1987, 223 s.

9. Şükürov A. Fəlsəfə. B.: Adiloğlu, 2002, 490 s.

10. Şükürov A. Qloballaşma və fəlsəfə. B.: Adiloğlu, 2002, 391 s.

11. Amos D.B. Şartlar və Çevre İçində Folklorun Bir Anlamına Doğru // halk bilimində kuramalar və yaklaşmalar. Milli Folklor Yayınları. Yenişehir, Ankara, 2003, 27 s.

12. Dundes A. Halk kimdir? // Halkbilimində kuramalar və yaklaşmalar. Milli Folklor Yayınları. Yenişehir, Ankara, 2003, 19 s.

13. Yıldırım D. Sözlü Kültür ve Folklor Anlayışları Açısından Düşüncelerim // Türk bitiyi, Ankara, 1988? s/ 31-52

14. Болотоков В.Х., Кумыков А.М. Национально-психологические проблемы русского зарубежья. М.: 1997, 339 с.

15. Гумилев Л.Н. Этногенез и биосфера человека. Л.: ЛГУ, 1989, 496 с.

16. Гуревич П.С., Шульман О/И/ Очерк “Ментальность, менталитет” / Энциклопедия

17. Кассирер Э/ Мифологические мышление/ Философия символических форм.Ф 2-томах. Т.2/ М.: СПб.: Университет/ Книга, 2001, 280 с.

18. Крадин Н.Н. Империя Хунну. М.: Наука, 2002, 311 с.

19. Кулиев Г. Архетипичные азери: лики менталитета. Б.: Эни Несил, 2002, 246

20. Леви-Брюль Л. Сверхъецтстественное в первобытном мышлении. М.: Педагогика - Пресс, 1994, 604 с.

21. Леви-Стросс К. Структурная антропология. М.: Наука, 1985, 536 с.

22. Леви-Стросс К. Первобытное мышление. М.: Республика, 1994, 384 с.

23. Парсинев Б.Ф. Социальная психология и общестенная практика. М.: 1966, 291 с.

24. Поздяев С.М. Россиыское обшество в условиях модернизации (социанльно-философский анализ). Уфа: Издательстово Башкирского Университета, 1998, 210 с.

25. Петренко О.А. Этнический менталитет и язык фольклора. Курск: Издательство Курского Государственного Педагогического Университета, 1996, 118 с.

26. Теория личности в западноевропейской и американской психологии: Хрестоматия / ред. Д.Я.Райгородский. Самара: Бахрах-М. 1996, 480 с.

27. Шарипов Р.Г. Менталитет древних тюрков. Философско-мировоззренческий анализ / Диссертация на соискание ученой степени кандидата философских наук. Уфа, 1999, 142 с.